AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
TARİX FAKÜLTƏSİ



# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASININ 105-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ "MÜSƏLMAN ŞƏRQİNİN İLK CÜMHURİYYƏTİ" MÖVZUSUNDA

25-26 may 2023-cü il

RESPUBLİKA ELMİ KONFRANSININ

# MATERİALLARI

BAKI - 2023

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**TARİX FAKÜLTƏSİ**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASININ 105-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ

# "MÜSƏLMAN ŞƏRQİNİN İLK CÜMHURİYYƏTİ" MÖVZUSUNDA

**25-26 may 2023-cü il**

# RESPUBLİKA ELMİ KONFRANSININ

# MATERİALLARI

***Konfrans materialları BDU-nun Tarix fakültəsi Elmi Şurasının 14 noyabr 2023-cü il tarixli qərarı ilə çap edilir.***

**BAKI-2023**

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

**Sədr:**
İbrahim Zeynalov

**Sədr müavini:**
Kəmalə Nəcəfova

**Üzvlər:**
Elşən Aslanov
Elnur Əbilov
Azad Rzayev
Mehman Abdullayev
Hicran Mahmudova

## KONFRANSIN PROQRAM KOMİTƏSİ

**Sədr:**
Anar İsgəndərov

**Üzvlər:**
Yaqub Mahmudov
Elmira Hüseynova
Əsməd Muxtarova
İradə Hüseynova
Abutalıb Cəlilov
İqbal Ağayev
Kərəm Məmmədov
Cəmilə Rüstəmova
Arifə Adıgözəlova
Vəkil Həsənov
Şirxan Səlimov
Sevinc Əliyeva
Sevinc Qasımova
Sevinc Ruintən

**MÜNDƏRİCAT**

***Cəfər Cəfərov, Naibə Əhmədova.*** Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti tarixi ........ 6

***Fərhad Cabbarov.*** Azərbaycan cümhuriyyətinin RSFSR ilə münasibətlərində neft amili ........ 11

***Kəmalə Nəcəfova.*** Azərbaycan Xalq Cümhuriyyətinin daşnak quldur dəstələrinin Zəngəzur və Qarabağda qanlı cinayətlərinə qarşı mübarizəsi ........ 23

***Абуталыб Джалилов, Азад Рзаев.*** Создание Бакинского Государственного университета ........ 33

***Boran Əziz.*** Dövlətçilik tariximizdə Azərbaycan Xalq Cümhuriyyətinin yeri ........ 36

***Arifə Adıgözəlova.*** Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ........ 39

***Vaqif Nəbiyev.*** Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında fəaliyyəti ........ 42

***Ələmdar Şahverdiyev.*** Azərbaycan Cümhuriyyəti hökumətinin yeritdiyi neft siyasətinin xüsusiyyətləri ........ 45

***Kəmalə Qurbanova.*** Qərbi Azərbaycan toponimlərinin dəyişdirilməsi erməni barbarlığının təzahürü kimi ........ 48

***İsa Quliyev.*** Ermənilərin ərazi iddiaları (1917-1918-ci illər) ........ 50

***Rövşən Hətəmov.*** XX əsrin əvvəllərində M.Ə.Rəsulzadənin məqalələri Azərbaycan milli hərəkatının tədqiqində əsas mənbələrdən biri kimi ........ 55

***Sevda Süleymanova.*** İlk Azərbaycan Cümhuriyyətinin qadın siyasəti ........ 59

***Rabil Süleymanlı.*** Azərbaycan Xalq Cümhuriyyətinin erməni təcavüzünə qarşi mübarizəsi ........ 62

***Səidə Əli qızı.*** Əli bəy Hüseynzadənin türkçülük baxışlarına dair (Azərbaycan Xalq Cümhuriyyətinin yaranması kontekstində) ........ 66

***Sevinc Qasımova.*** Maarifçilik hərəkatı Azərbaycan milli ideologiyasının formalaşmasının başlanğıcı kimi ........ 69

***Aydın Məmmədov.*** Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin tarixi demoqrafik baxışları XX əsrin II yarısı - XXI əsrin əvvəlləri Azərbaycan tarixşünaslığında ........ 71

***Elşən Aslanov.*** AXC dövründə Qarabağ bölgəsinin tarixi coğrafiya məsələləri ........ 74

***Kəmalə Məmmədova.*** Milli legionun mətbu orqanı "Azərbaycan" qəzeti Azərbaycan Xalq Cümhuriyyətı haqqında ........ 78

***Samir İsmayılov.*** Azərbaycan Xalq Cümhuriyyətinin erməni təcavüzünə qarşı mübarizəsi ........ 83

***Nurlan Abbasov.*** Müsavat partiyasının tarixşünaslığı ........ 86

***Mətanət Məmmədova.*** AXC dövründə təhsil sahəsində görülən tədbirlər və Bakı Dövlət Universitetinin yaradılması ........ 89

***Hicran Mahmudova.*** Azərbaycan Xalq Cümhuriyyətinin siyasi xadimləri və "Nemezis" terroru ........ 92

***Əmanət Əsədova.*** M.Ə.Rəsulzadənin mühacir mətbu fəaliyyəti ........ 95

***Qənirə Pirquliyeva, Fəxriyyə Həvilova.*** Qərbi Azərbaycanın yerli əhalisinin tərkibi (etnoqrafik materiallara əsasən) ........ 99

***İradə Avşarova.*** Azərbaycanın tarixi ərazilərində kurqan tipli qəbir abidələri və onlarda analoji xüsusiyyətlər ........ 103

***Yasəmən Qasımlı.*** Cümhuriyyət dövründə muzey quruculuğu ........ 107

***Əfşan Şəfiyeva.*** Azərbaycan Xalq Cümhuriyyəti və Məhəmməd Əmin Rəsulzadənin modernləşmə ideyaları ........ 109

***Ulduz Paşayeva.*** Azərbaycan Xalq Cümhuriyyəti dövründə ərazi və əhali problemlərinə dair ........ 112

***Asəf Hacıyev.*** Azərbaycan Xalq Cümhuriyyətinin ərazi tələbində Dərbənd məsələsi ........ 116

***Bircə Bayramova.*** Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzurda siyasi proseslər ........ 120

***Salman İbişov.*** Cümhuriyyət qurucularının əsərlərində xanlıqlar və Rusiya imperiyasının müstəmləkə siyasətinə dair mülahizələr ........ 124

***Reyhan Abbasova.*** Azərbaycan Xalq Cümhuriyyətinin mədəni quruculuq sahəsində tədbirlər ........ 127

***Sevinc Muxtarova.*** Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Əlimərdan bəy Topçubaşov fenomeni ........ 130

***Mina Qarayeva.*** Bayrağımızın 9 noyabrdan başlayan bir əsrlik yolu ........ 133

***Aytən Əliyeva.*** Müsəlman Şərqində ilk parlamentli respublikanın qurulmasına dair ........ 136

***Əzət Dadaşova.*** Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasəti ........ 139

***Mirvari Qurbanova.*** Qərbi Azərbaycan: əhalisi, toponimlər və maddi-mədəniyyət abidələri ........ 142

***Aygün Həsənova.*** Azərbaycan Xalq Cümhuriyyəti dövründə neft sənayesi.. 145

***Rauf Qurbanov.*** Azərbaycan Xalq Cümhuriyyəti – Osmanlı müttəfiqliyi və müasir Azərbaycan – Türkiyə münasibətlərində yeri ........ 147

***Səidə Mehrəliyeva.*** Mirzə Bala Məmmədzadənin əsərləri Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsində əsas mənbələrdən biri kimi .....150

***Sürəyya Allahverdiyeva.*** Azərbaycan Xalq Cümhuriyyəti irsinin öyrənilməsində Məhəmməd Əmin Rəsulzadənin əsərlərinin rolu.................152

***Səbinə Alıyeva.*** Ceyhun Hacıbəylinin tariximizdə yeri və rolu......................155

***Qənirə Mirzəxanlı.*** Müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisidir (Heydər Əliyev Fondunun sənədləri əsasında)..........................................................................................158

***Pərviz Məhərrəmov.*** 44 günlük Vətən müharibəsində əldə olunan qələbənin Azərbaycanda nəqliyyat və kommunikasiyanın inkişafına təsiri...163

***Aytac Nəcəfli.*** Azərbaycan Respublikasında məcburi köçkünlərin rastlaşdığı problemlər və onların həlli istiqamətində görülən işlərin təhlili ...166

***Səma Camalova.*** Azərbaycan Xalq Cümhuriyyəti dövründə tolerantlıq .......169

***Fuad Xəlilov.*** Rusiya imperiyasının süqutu və "Qafqaz birliyi" məsələsi .....173

***Cavidan Cəfərli.*** Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin fəaliyyət istiqamətləri...................................................................177

***Fərid Əsədov.*** Azərbaycan Xalq Cümhuriyyətinin qonşu ölkələr ilə sərhədlərini qoruma cəhdi və Qafqaz konfransları .........................................179

***Murad Böyükxanov.*** Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti.............182

***Tural Qaffarov.*** Polşa tatarlarının Azərbaycan Cümhuriyyətinin tarixində oynadığı rol – Olqred Kriçinski ...................................................................185

***Mərziyə Xudiyeva.*** Əhməd bəy Ağaoğlunun ictimai-siyasi fəaliyyəti (1894-1921-ci illər)..........................................................................................188

***Rəmzi Səfərli.*** Xosrov bəy Sultanov Azərbaycanın ərazi bütövlüyünün keşiyində ..........................................................................................................192

***Eynulla Eynullayev.*** Xudadat bəy Məlikaslanovun Azərbaycan Xalq Cümhuriyyəti dövrü fəaliyyəti...................................................................195

***İsmayıl Səmədli.*** Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti............198

***Kamal Allahverdiyev.*** Azərbaycan Xalq Cümhuriyyətinin Qarabağ general-qubernatorluğu ...........................................................................201

***Nigar Əliyeva.*** Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu............204

***Ayişə Aslanova.*** Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi inkişaf yolu ....206

***Nurəli Məmmədov.*** Əsrin qələbəsi – "Qarabağ zəfəri"nə hazırlıq................209

***Çimnaz Abdullayeva.*** Qarabağın maddi irsinin bərpası ................................212

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİ

**Cəfər Cəfərov**
*ADPU-nun rektoru, t.e.d., professor*
*office@adpu.edu.az*
**Naibə Əhmədova**
*ADPU-nun Azərbaycan tarixi kafedrasının müdiri, t.ü.f.d., dosent*
*naiba.ahmedova@mail.ru*

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan Xalq Cümhuriyyəti, dövlətçilik, azərbaycançılıq, milli hökumət*

Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı dövr bizim ölkəmiz və o zaman bölgədəki vəziyyət üçün çox mürəkkəb olmuşdur. 1917-ci il Fevral inqilabı və Oktyabr çevrilişindən sonra çar Rusiyası hakimiyyətinin dağılması və onun ərazisindəki bölgələrdə gedən vuruşmalar, Cənubi Qafqaz bölgələri üçün də xarakterik olmuşdur. Azərbaycanda müstəqillik, milli azadlıq uğrunda gedən mübarizə nəhayət 1918-ci il mayın 28-də xalqımızın qabaqcıl insanları, Azərbaycanın gələcəyini düşünənlər Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında Tiflisdə qərar qəbul etmiş və bunu bəyan etmişlər. Sonra Cümhuriyyətin fəaliyyəti Gəncədə olmuşdur. Çünki Bakıda yaranmış çox gərgin vəziyyət, müxtəlif qüvvələrin buradakı fəaliyyəti hökumətin Bakıda fəaliyyət göstərməsinə imkan verməmişdir. Nəhayət 1918-ci ilin 17 sentyabrında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya gəlmiş və öz fəaliyyətini burada davam etdirmişdir. Lakin Azərbaycanın daxilində və onun ətrafında gedən proseslər Cümhuriyyət hökumətinin öz fəaliyyətini davam etdirməyə imkan vermədi.

Azərbaycan Xalq Cümhuriyyəti dövrü Heydər Əliyevin sözləri ilə desək, "tariximizin böyük və parlaq bir mərhələsi"ni təşkil edir. Cümhuriyyətin yaranması Azərbaycan millətinin özünütəsdiq aktı idi. Çünki, xalqın millət kimi formalaşmasının ən mühüm göstəricisi müstəqil milli dövlətin yaranmasıdır ki, 1918-ci ildə Azərbaycan xalqı buna nail ola bilmişdi. Cümhuriyyət qurucusu Məhəmməd Əmin Rəsulzadənin azərbaycançılıq ideyaları həmin vaxt Azərbaycanın gələcəyini düşünən insanların birgə fəaliyyəti və xalqın dəstəyi ilə demokratik əsaslı milli dövlətin yaranmasına gətirib çıxarmışdı. Bu günki dünyada hələ də öz dövlətini qura bilməyən minlərlə xalqlar vardır. Bu səbəbdən də milli dövlətin qurulması sosial-siyasi və mədəni hadisə kimi xalqın həyatının ən mühüm hadisəsi hesab olunmalıdır.

Heydər Əliyevin Azərbaycan dövlətçiliyi tarixində mühüm rol oynadığı heç kəsə sirr deyil. Bu, həm praktiki olaraq dövlətin idarə olunmasında, həm də dövlətçilik ideologiyasının formalaşdırılmasında özünü göstərmişdi. Onun Azərbaycanda yenidən hakimiyyətə gəlməsi çox mürəkkəb, eyni zamanda tari-

xi baxımdan mühüm bir dövrə düşmüşdü. 1990-cı ilin iyulunda yanvar hadisələrindən sonra Azərbaycana qayıdan Heydər Əliyev burada dərhal siyasi fəaliyyətə başlamışdı. Fəaliyyətinin ilk günlərindən də o, artıq açıq şəkildə öz məqsəd və hədəflərini elan etdi. 1991-1993-cü illərdə Naxçıvan Ali Sovetinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olması və Respublika Ali Sovetinin sessiyalarında iştirak etməsi ona hətta dövlət başçısı olmasa da, siyasi hadisələrin gedişinə təsir etmək imkanı verirdi. Heydər Əliyevin məqsədi müstəqil milli dövlətin yaradılması idi. Milli dövlətçilik məsələsi millətin tarixi ilə sıx bağlı olan məsələ olduğundan təcrübəli siyasi xadim kimi Heydər Əliyevin də diqqəti bu məsələyə yönəldi. Müasir Azərbaycan dövlətinin qurulması üçün demokratik dövlətçilik tarixinin nümunəvi funksiyasını gözəl başa düşən Heydər Əliyev dərhal bu məsələyə öz münasibətini açıq bildirdi. Bu münasibətlə Ümummilli lider həm də 80-ci illərin sonlarından başlayan milli azadlıq hərəkatından sonra xalqın kollektiv şüuruna hakim olan cümhuriyyətçilik ideyasını dəstəkləmiş oldu. Heydər Əliyev Cümhuriyyətin Azərbaycan tarixindəki rolunu nəzərə alaraq öz siyasi kursunun həyata keçirilməsində, demokratik milli dövlətçiliyin möhkəmləndirilməsi siyasətində Azərbaycan Cümhuriyyətinin mövcudluğu faktorundan istifadə etmiş, onun tarixinin öyrənilməsi və təbliğinə diqqət yetirmişdi.

Heydər Əliyevin mövqeyi ilk dəfə xalqın arzusuna uyğun olaraq Cümhuriyyətin üçrəngli bayrağının yenidən Dövlət Bayrağı kimi qəbulunda göründü. Belə ki, 1990-cı ilin noyabr ayının 17-də Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR-nin 12-ci çağırış Ali Məclisin ilk sessiyası Azərbaycan Respublikasının milli istiqlal rəmzi olan üçrəngli Dövlət Bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərarlar qəbul etmişdi [4, səh.281]. Ən əsası isə Muxtar Respublikanın Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında həmin bayrağın bütünlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdı.

Heydər Əliyev eyni zamanda hakimiyyətin Cümhuriyyətin süqutu ilə nəticələnən aprel işğalına da rəsmi olaraq siyasi qiymət verilməsini tələb edirdi. O, tələb edirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması böyük bir inqilabi hadisə kimi qəbul edilməli, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi pislənməlidir.

Eynilə 1991-ci ilin avqustunda Azərbaycanın Dövlət Müstəqilliyi barədə Bəyannamənin qəbulu ilə bağlı iclasda Heydər Əliyevin mövqeyi diqqəti cəlb edir. O deyirdi: “Bu bəyanatın mətninə mütləq əlavə olunmalıdır ki, 1920-ci il aprelin 28-də Azərbaycan işğal olunub. Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm, 28 aprel inqilabını ömrüm boyu tərənnüm etmişəm və mən tam qətiyyətlə deyirəm, 28 apreldə Azərbaycan işğal olunub. Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub. Əgər biz bunu qeyd etməsək, yenə də xalqın qarşısında ikiüzlü olarıq” [6].

1980-ci illərin sonunda SSRİ-də başlanan proseslər məhz tarixin yenidən təftişinin nəticəsi idi. Bütün postsovet məkanında olduğu kimi, Azərbaycanda

da bir qütbdən digər qütbə doğru fikir dəyişikliyi baş vermişdi. Beləliklə, baş verən prosesləri düzgün təhlil edən Heydər Əliyev ziyalılarla görüşə gəlmişdi. Öz çıxışında Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətini Azərbaycan tarixində böyük siyasi-ictimai hadisə kimi qiymətləndirmişdi. O bildirirdi ki, Məhəmməd Əmin Rəsulzadə və onunla bərabər Azərbaycan Respublikasının böyük şəxsiyyətləri XX əsrin əvvəlində və xüsusən 1918-ci ildə, Azərbaycan Demokratik Respublikası qurarkən böyük şücaət göstərmişlər, böyük iş görmüşlər. Tariximizdə olan şəxsiyyətlərin hamısı bizim üçün qiymətlidir. "Onların heç birinə toxunmaq olmaz", - deyən Heydər Əliyev eyni zamanda da Azərbaycan tarixinin obyektiv yazılması üçün çağırış etmişdi. Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti tarixindən Azərbaycan Respublikası tarixinə bir körpü yaradırdı. O öz çıxışında Cümhuriyyətdən başlayaraq bugünkü Azərbaycana qədər tarixi varisliyi əsaslandırır və xalqın bütövlüyü, millətin bütövlüyü, milli mənafe, xalqın mənafeyinin bütövlüyünü təbliğ edirdi [5].

Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti tarixi ilə bağlı özünün daha aydın münasibətini 1993-cü il sentyabrın 21-də Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşündə ifadə etmişdi [7, səh.148-163]. Ümummilli liderin bu çıxışı həm də siyasi əhəmiyyət daşıyan mühüm addım idi. Qeyd etmək lazımdır ki, həmin dövrdə məhz ziyalılar qarşısında və məhz bu məzmunda nitqi şərtləndirən bir sıra səbəblər var idi. Məlum olduğu kimi, 1993-cü ildə Qarabağda müharibə, ölkə daxilində böhranın güclənməsi və mövcud hakimiyyətin böhranı aradan qaldırmağa müvəffəq olmaması respublikada ciddi qarşıdurmaya gətirib çıxarmaq üzrə idi. 1993-cü ilin yayında Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə vətəndaş müharibəsi təhlükəsinin qarşısı alınsa da, erməni təcavüzü, iqtisadi böhran aradan qalxmayınca yenə təhlükə qalırdı.

1994-cü il may ayının 17-də İstiqlal bayramı ərəfəsindəki çıxışında Heydər Əliyev mövqeyini daha da konkretləşdirir: "Azərbaycan xalqı kommunist rejimində ümumittifaq sosialist dövləti tərkibində olduğundan, şübhəsiz ki, müstəqilliyi itmiş, ancaq dövlətçiliyini tam itirməmişdi". Göründüyü kimi, Heydər Əliyev azərbaycançılıq ideyasının təbliği və milli birliyə nail olmanın standartını müəyyən edirdi. Tarixşünaslıqda mövcud tendensiyanı düzgün müəyyən etmişdi.

1994-ci ilin əvvəlində Heydər Əliyev Yeni Azərbaycan Partiyası İdarə Heyətinin iclasında tarixçilərin iştirakı ilə Dövlət bayramı günü ilə əlaqədar məsələni müzakirə edərkən də, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin önəmini vurğulamış və birmənalı olaraq dövlət bayramı kimi mayın 28-nin Respublika Günü kimi qeyd olunmasını təklif etmişdi.

Bundan başqa Heydər Əliyev varislik prinsipini rəhbər tutaraq ordu və dövlətin müxtəlif strukturlarının yaranması tarixinin də məhz sovet dövründəki deyil, Cümhuriyyət dövründəki tarixdən götürməyi təklif etmişdi. Nəticədə həm təhlükəsizlik, həm daxili işlər, həm gömrük orqanlarının hər birinin tarixi Cümhuriyyət dövrünün tarixi ilə götürülməklə qeyd olunmağa başlamışdı.

Heydər Əliyevin 22 may 1998-ci il Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün – 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi Dövlət bayramı kimi qeyd edilməyə başlamışdı [3, səh.351].

O bildirirdi ki, "Azərbaycan dövləti - Müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir", "1918-1920-ci illərdə Azərbaycanda hakimiyyətdə olmuş Xalq Cümhuriyyətinin bugünkü nəsillərə qoyub getdiyi ən dəyərli miraslardan biri Azərbaycanın bu gün biz qəbul etdiyimiz qanunla istifadə etdiyimiz Dövlət Himnidir və bir də Azərbaycanın Dövlət Bayrağıdır" və yanaşmanı öz siyasətində demək olar ki, həmişə nümayiş etdirmişdi [8, səh.244]. "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" 1998-ci il 30 yanvar tarixli Sərəncamında da varislik prinsipi bir daha qeyd edilmişdir. Bugünkü Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 15 oktyabr 2021-ci il tarixli qərarı ilə Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü kimi qeyd edilir.

Təbii ki, 1993-2003-cü illərdə Dövlət başçısının Azərbaycan Xalq Cümhuriyyətinə bu cür münasibəti Cümhuriyyət tarixinin öyrənilməsi və tədqiqi prosesinə ciddi təsir etmişdi. Təsadüfi deyil ki, bu illər ərzində Azərbaycan tarixinin ən çox tədqiq olunan istiqamətlərindən bəlkə də birincisi, Azərbaycan Xalq Cümhuriyyəti tarixi idi. Buraya həm Cümhuriyyətin yaranması ərəfəsində baş verən hadisələrin, həm də bilavasitə Cümhuriyyətin tarixi daxildir. Azərbaycan xalqına qarşı soyqırımların tarixinə diqqət artırılmışdı. Xüsusən qeyd etmək lazımdır ki, 1998-ci ildə "Azərbaycan Demokratik Respublikası 1918-1920" və "Azərbaycan Demokratik Respublikası. Ədəbiyyat, dil, mədəniyyət" adlı kollektiv monoqrafiyalar çapdan çıxmışdı. Azərbaycan Xalq Cümhuriyyəti tarixinə dair parlament, ordu, hökumət, xarici siyasət məsələlərinə aid sənədlərdən ibarət 5 sənəd toplusu nəşr olunmuşdu. Cümhuriyyət xadimlərindən Məhəmməd Əmin Rəsulzadənin, Yusif Vəzir Çəmənzəminlinin, Mirzəbala Məmmədzadənin, Adil xan Ziyadxanovun, Əlimərdan bəy Topçubaşovun və digərlərinin məqalə və əsərləri, Cümhuriyyət tarixinin müxtəlif məsələləri ordu, hüquq sistemi, sərhəd mühafizəsi, milli siyasət, xarici və daxili siyasət, Cümhuriyyət mühacirlərinin fəaliyyəti ilə bağlı əsərlər işıq üzü görmüşdü. Azərbaycan xalqına qarşı soyqırımların tarixi ilə bağlı ilk toplu 2001-ci ildə çap olunmuşdu. Ən əsası ondan ibarətdir ki, tarixşünaslıqda Azərbaycan Xalq Cümhuriyyəti tarixinə maraq getdikcə artmaqdadır. Heydər Əliyevin Azərbaycan Cümhuriyyəti tarixinə münasibətini həm də azərbaycançılıq ideyasına münasibət də ifadə edir. Belə ki, Məhəmməd Əmin Rəsulzadə tərəfindən irəli sürülən azərbaycançılıq ideyasının Heydər Əliyevin siyasəti nəticəsində yenidən həyat qazanaraq bu gün dünya azərbaycanlılarını birləşdirən bir ideologiyaya çevrilməsi də, müdrik siyasətin nəticəsi idi. Ümummilli Lider deyirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan Dövlət Müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi

həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq - öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Sonda fikrimizi Ümummilli liderin Azərbaycan Xalq Cümhuriyyətinə dair söylədiyi dəyərli kəlamları ilə bitirmək istərdik: "Azərbaycan xalqının çoxəsrlik tarixində nailiyyətlər də olubdur, ağır dövrlər də olubdur, qələbələr də olubdur, məğlubiyyətlər də olubdur. Ancaq bizim xalqımızın tarixində müstəqilliyi əldə etmək qədər böyük xoşbəxtlik – Dövlət Müstəqilliyi kimi xoşbəxtlik olmayıbdır".

### *Ədəbiyyat siyahısı:*


1. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild. - Bakı: Lider nəşriyyatı, 2004, 440 s.*
2. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, II cild. – Bakı: Lider nəşriyyatı, 2005, 472 s.*
3. *Azərbaycan tarixi 7 cilddə, V cild. –Bakı: Elm nəşriyyatı, 2008, 696 s.*
4. *Azərbaycan tarixi 7 cilddə, VII cild. –Bakı: Elm nəşriyyatı, 2008, 608 s.*
5. *Əhmədova Naibə. Azərbaycan Xalq Cümhuriyyəti tarixinin tədqiqi və təbliğində Heydər Əliyevin rolu. Azərtac, 18.03.2020*
6. *Əliyev Heydər "Azərbaycanın Müstəqillik Bəyannaməsi" ilə bağlı Azərbaycan Ali Sovetinin Sessiyasında çıxışı. 30 avqust 1991-ci il*
7. *Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. I kitab. - Bakı: Azərnəşr, 1997, 612 s.*
8. *Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. XXI kitab. – Bakı: Azərnəşr, 2007,480 s.*
9. *Hüseynova İradə. Heydər Əliyev və Qafqazda sülh prosesi. –Bakı: Çaşıoğlu, 2008, 672 s.*

# AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN RSFSR İLƏ MÜNASİBƏTLƏRİNDƏ NEFT AMİLİ

**Fərhad Cabbarov**
*Milli Azərbaycan Tarixi Muzeyinin*
*elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru*
*farhadcabbarov@mail.ru*

***Acar sözlər:*** *Cümhuriyyət, RSFSR, neft amili*

Azərbaycan Cümhuriyyəti hökuməti ölkənin müstəqilliyi elan olunduğu andan öz xarici siyasətində bütün dövlətlərlə sülh və dostluq münasibətlərinin qurulmasına çalışırdı. Bu siyasi xətt gənc dövlətin əsas hüquqi sənədi – "İstiqlal Bəyannaməsi"ndə elan olunmuş, eləcə də Cümhuriyyət rəhbərlərinin bəyanat və məktublarında dəfələrlə bildirilmişdir. RSFSR Azərbaycanın müstəqilliyini tanımasa və ona qarşı düşmən münasibət bəsləsə də, milli hökumət Moskva ilə normal əlaqələrin qurulmasının tərəfdarı idi. Hələ "Gəncə dövrü"ndə Fətəli xan Xoyski hökuməti özünün Tiflisdəki nümayəndəsi vasitəsilə Sovet Rusiyası ilə diplomatik münasibətlər yaratmaq, hər iki tərəf üçün əlverişli olan əlaqələri inkişaf etdirmək niyyətində olduğunu bildirmişdir [1, s.34]. 1918-ci ilin sentyabrında İstanbulda olan M. Rəsulzadə də xarici işlər naziri M. Hacınskiyə yazdığı məktubda bolşevik hökuməti ilə birbaşa əlaqələrin qurulmasının əhəmiyyətini qeyd etmişdir [2, s.81]. Azərbaycan Cümhuriyyətinin Gürcüstanda diplomatik nümayəndəsi Məmməd Yusif Cəfərov RSFSR XXİK-na 1918-ci il 6 oktyabr tarixli məktubunda Moskva quberniyası ərzaq komitəsinin nümayəndəsi İ.P.Orlovun Azərbaycanla rəsmi iqtisadi əlaqələr yaratmaq sahəsində gördüyü işləri qeyd edərək, Bakıda və Moskvada rəsmi nümayəndənin təyin olunmasını, ticarət mübadiləsinin ümumi istiqamətlərinin müəyyənləşdirilməsini təklif edirdi [3, s.232].

Azərbaycan Cümhuriyyəti hökumətinin Rusiya ilə sıx münasibətlər yaratmağa çalışması ilk növbədə iqtisadi səbəblərlə izah olunur, çünki Rusiya bazarı Bakı neftinin əsas istehlakçısı idi. 1913-1918-ci illər ərzində şimal istiqamətində neftin daşınması Bakıdan ümumi ixracın 73-86 %-ni təşkil edirdi.

Lakin məlum siyasi səbəblərə görə və sovet hökumətinin Azərbaycan Cümhuriyyətinə qarşı açıq düşmənçilik münasibəti üzündən Rusiya bazarı bağlanmışdı. Doğrudur, milli hökumət neftin başqa istiqamətlərdə daşınması üçün tədbirlər görürdü. Ancaq bunun üçün vaxt və vəsait tələb olunurdu, iqtisadiyyatı isə təcili böhrandan çıxarmaq lazım idi. 1919-cu il ərzində Bakıdan cəmi 663390 ton neft daşınmışdır, bu da həmin ilin neft hasilatının 18 %-ni, müharibədən əvvəlki daşımaların isə 12 %-ni təşkil edirdi [4, s.81].

Beləliklə, şimalla iqtisadi əlaqələrin pozulması, anbarlarda külli miqdarda neft məhsullarının (müxtəlif hesablamalara görə, 2,5 - 4 milyon ton) yığılıb qalması Azərbaycanın iqtisadi durumunu çətinləşdirirdi. Lakin Rusiyanın özü

də Bakı neftinə kəskin ehtiyac duyurdu. Həmin dövrdə orada nefti ağ neft, spirt və skipidar qarışığı ilə əvəz edir, sürtkü yağları yerinə kastor və pambıq yağı istifadə edirdilər. Qatar sobalarında yanacaq əvəzinə qurudulmuş balıq yandırırdılar [5].

Beləliklə, neftin ixracı həm Azərbaycana, həm də Rusiyaya lazım idi. Bəs onda Cümhuriyyət dövründə iki dövlət arasında iqtisadi əlaqələri qurmaq niyə mümkün olmamışdır və Azərbaycan hökumətini Rusiya ilə ticarətdən imtina etməkdə günahlandırmaq nə dərəcədə doğrudur? Qeyd etmək lazımdır ki, əslində iki ölkə arasında iqtisadi münasibətlərin qurulmamasının kökündə tamam başqa problem dayanırdı. Məsələ bundadır ki, 1918-ci ilin noyabrından 1919-cu ilin avqustunadək Bakıda Böyük Britaniya qoşunları yerləşirdi və bu ölkənin hərbi komandanlığının Cümhuriyyət hökumətinə böyük təsir gücü var idi. Həmin dövrdə Böyük Britaniya Sovet Rusiyasına qarşı blokadada və hərbi müdaxilədə iştirak edir, bolşeviklərlə mübarizə aparan ağqvardiyaçıları dəstəkləyirdi. Bu səbəbdən də milli hökumətə təzyiq göstərən ingilislər hər vəchlə Azərbaycanla Rusiya arasında münasibətlərin qurulmasına mane olurdular. Məsələn, Britaniya qoşunlarının komandanı general G.N. Kori Baş nazir N. Yusifbəyliyə yazırdı: "Qafqaz dövlətləri bolşevik qüvvələrini təchiz etməkdən çəkinməlidir. Bu şərtlərə riayət olunmaması onları Böyük Britaniyanın xoş münasibətindən məhrum edəcək və general Denikinin hərbi qüvvələrinin [Şimali Qafqazda bolşeviklərlə vuruşan keçmiş çar generalı A. Denikinin qoşunları nəzərdə tutulur – F.C.] şimalda qalmasını [yəni Azərbaycan sərhədlərinə yaxınlaşmamasını – F.C.] təkid etməyi Əlahəzrət hökuməti üçün mümkünsüz edəcək..." [6, s.220]. Bir faktı da nəzərə almaq lazımdır ki, 1918-ci il noyabrın 29-dan Xəzər donanmasının bütün ticarət gəmiləri Britaniya komandanlığının ixtiyarına keçmişdir. Beləliklə, dəniz yolu ilə şimala hər hansı neft daşımaları haqqında danışmaq sadəcə olaraq mümkün deyildi.

Maraqlıdır, bəs Bakı neftinə kəskin ehtiyac duyan Sovet Rusiyasının mövqeyi necə idi? Rusiyanın özü Azərbaycanla iqtisadi və siyasi münasibətlərin qurulmasına meyl göstərirdimi? Birmənalı cavab vermək olar ki, yox. Hələ 1918-ci il mayın 29-da Bakı XKS-in sədri S.Şaumyanın çağırdığı Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin və Bakı qəzası müsəlman kəndli deputatlarının birgə iclasında hər iki bolşevik mərkəzinin (Moskvanın və Bakının) Azərbaycan Cümhuriyyətinin yaranmasına münasibətini əks etdirən qətnamə qəbul olunmuşdur: "Həm Bakı demokratiyası, həm də bütün Zaqafqaziyanın fəhlə və kəndliləri Zaqafqaziyanın inqilabi Rusiyadan ayrılması ilə barışmayacaq, əllərində silah türk-alman quldur dəstələri və onların müttəfiqlərinə qarşı mübarizə aparacaqdır." [1, s.35]. Qətnamədə Azərbaycan, gürcü və erməni milli şuralarının Tiflisdə imzaladığı razılaşmaların qəbul edilmədiyi və Cənubi Qafqazın "böyük Rusiya Federativ Respublikasının" tərkib hissəsi kimi tanındığı vurğulanırdı.

Bolşeviklər Bakıya özlərinin keçmiş mülkü kimi baxır və onu gec-tez qaytarmağa ümid edirdilər. RSFSR-in xarici siyasətinin işğalçı xarakteri ona Azər-

baycanla normal iqtisadi əlaqələr yaratmağa imkan vermirdi. Bunun əvəzində Rusiya başqa yolu seçdi: neft sərvətlərinin gizli yolla talan olunması, yerli bolşeviklərin köməyi ilə Bakıda sabitliyin pozulması və nəhayət, 1920-ci ildə Azərbaycanın işğal edilməsi yolu ilə neftin ələ keçirilməsi.

Azərbaycanda hökm sürən iqtisadi böhran, Bakıda ingilislərin işğal rejiminin davam etməsi tədricən yerli əhali arasında narazılığın artmasına səbəb olurdu. Birbaşa Moskvadan idarə olunan yerli bolşeviklər bundan istifadə etməyə çalışırdılar. Onların dövlətçiliyə zidd təbliğatı get-gedə daha kəskin formalar alırdı. Hərbi nazir Səməd bəy Mehmandarovun Baş nazir N. Yusifbəyliyə 1919-cu il aprelin 21-də göndərdiyi raportda deyilirdi: "Bakıda işini başa çatdıran həmkarlar ittifaqlarının qurultayı aşağıdakı məzmunlu qətnamə qəbul edib: "İttifaqların məqsədi siyasi məqsəd olmalıdır – Zaqafqaziyada sovet hakimiyyətinin qurulmasına cidd-cəhdlə nail olmaq. Bu qərar yerli bolşeviklərin Azərbaycanın müstəqilliyini məhv etmək və Sovet Rusiyası ilə birləşmək niyyətinin olmasına heç bir şübhə yeri qoymur." [7, s.220]. Göründüyü kimi, bolşeviklər iqtisadi çətinliklərdən siyasi məqsədlər üçün istifadə edirdilər. Bakıda fəaliyyət göstərən Mərkəzi Tətil Komitəsi 1919-cu il mayın 6-da ümumi iqtisadi tətilin başlanması haqqında bəyanat vermişdir. Komitənin tələbləri diqqəti cəlb edir: "1. Müştərək müqavilənin Fəhlə Konfransının redaktəsində qəbul olunması. 2. Həştərxanla ticarət mübadiləsinin yaradılması və yerinə yetirilməyən bəzi digər iqtisadi tələblər." [8, s.308]. Sonuncu bənd tələblərin daha çox siyasi xarakter daşıdığını sübut edir, çünki şimalla ticarət mübadiləsinin açılması Rusiyanın Azərbaycanın müstəqilliyini tanımasından asılı idi.

N. Yusifbəyli hökuməti tətili siyasi xarakterli hesab edərək, onun qarşısını almaq üçün bir sıra tədbirlər gördü. Nazirlər Şurasının qəbul etdiyi qərarda deyilirdi: "1. Fəhlə Konfransının elan etdiyi ümumi tətil siyasi tətil hesab olunsun. 2. Baş nazirə tətilin yatırılması, o cümlədən, fəaliyyətləri Azərbaycan dövlətçiliyinin əsaslarına qarşı yönəlmiş şəxslərin həbsi və ölkədən çıxarılması hüququ verilsin.". Bununla belə, hökumət iqtisadi tələblərin ədalətli hissəsinin sahibkarlarla və fəhlələrlə müzakirə etməyə hazır idi və bu barədə əmək nazirinə göstəriş vermişdi [8, s.308].

Fəhlə Konfransının elan etdiyi tətil mayın 13-də məğlubiyyətlə başa çatdı. Hökumətin qətiyyətli addımları, tətilçilərin Bakı fəhlələrinin geniş dəstəyini ala bilməməsi, həmçinin konfrans rəhbərləri arasında ziddiyyətlər nəticəsində tətil iflasa uğradı. Eyni zamanda, N. Yusifbəyli hökuməti parlament fraksiyalarının əksəriyyətinin və tətilin siyasi məqsəd daşıdığını anlayan, müstəqillik ideallarına sadiqlik nümayiş etdirən fəhlələrin əsas hissəsinin dəstəyini qazana bildi. Bu, həmçinin Sovet Rusiyası ilə münasibətlərin yalnız Azərbaycanın müstəqilliyinin tanınması və ona hörmət olunması təqdirdə mümkün olacağına istiqamətlənmiş N. Yusifbəyli kursunun dəstəklənməsi demək idi. Maraqlıdır ki, bu cəhət Böyük Britaniya komandanlığının da nəzərindən yayınmamışdır. Böyük Britaniyanın İstanbuldakı ali komissarı admiral C. De Robek xarici işlər naziri lord C. Kerzona göndərdiyi raportda yazırdı ki, Azərbaycanda "müstəqillik ide-

yası dərin kök salıb. Azərbaycanlıların rus adamlarına dostcasına yanaşmasına və iqtisadi səbəblərdən [neftin – *F.C.*] ənənəvi alıcısı olan Rusiya ilə yaxşı münasibətlər saxlamağa çalışmalarına baxmayaraq, onlar köhnə rejimə qayıtmaqdan və yaxud mərkəzləşmiş Rusiya ilə birləşməkdən daha çox vuruşmağa hazırdırlar." [9, s.263].

1919-cu ilin yayında bolşeviklər öz təbliğatlarını gücləndirmiş və onların çağırışları daha da radikal xarakter almışdır. Rusiya Kommunist (bolşeviklər) Partiyasının (RK(b)P) Qafqaz Diyar və Bakı Komitələri Azərbaycan əhalisinə müraciət edərək, onu sovet hakimiyyətinin qurulması uğrunda mübarizəyə çağırmışlar. Müraciətdə hökumət əleyhinə şüarlarla yanaşı sovet hakimiyyətinin qurulmasının vacibliyi vurğulanırdı. Bolşeviklərin fikrincə, məhz sovet hakimiyyəti Azərbaycanın "əsl" müstəqilliyini təmin edəcəkdir [10, s.202-205].

Təxribatçı fəaliyyətlə yanaşı, bolşeviklər nefti əldə etmək üçün əməli addımlar da atırdılar. Artıq qeyd olunduğu kimi, Bakı və bütün Azərbaycan Sovet Rusiyası üçün tamamilə əlçatmaz idi. Bolşeviklərlə müharibə aparan general A. Denikinin qoşunları Şimali Qafqazı ələ keçirmiş, Bakı-Rostov dəmir yolunu bağlamışlar. Xəzər dənizində sovetlərin əlində bircə Həştərxan limanı qalmışdır. Lakin Həştərxana aparan yollara Denikinin və Britaniyanın gəmiləri nəzarət edirdi. Vəziyyəti qiymətləndirən V. Lenin Moskva Sovetinin fövqəladə plenumunun 3 aprel 1919-cu il tarixli iclasında demişdir: "...Siz bilirsiniz ki, Bakıda nefti ingilislər əlimizdən almışlar. Onlar Xəzər dənizindəki gəmilərin bir hissəsini ələ keçirmək və Qroznını tutmaqla bizim neftdən istifadə etməyimizə mane olurlar. Yanacaqsız isə nə sənaye, nə də dəmir yolları işləyə bilmir. Var qüvvəni toplamaq lazım gəlir." [11, s.156].

Azərbaycan Cümhuriyyəti hökumətinin Rusiya ilə sivil, normal münasibətlərin qurulmasına ümidləri də get-gedə özünü doğrultmurdu. 1919-cu il dekabrın 22-də parlamentdə çıxış edən N. Yusifbəyli demişdir: "Təəssüf ki, Rusiyada mübarizə aparan qüvvələrin heç biri Rusiyanın keçmiş sərhədlərini bərpa edə bilməyəcəyinə inanmır və ya inanmaq istəmir, öz müqəddəratını təyin etmiş xalqlar üzərində yenidən hökmranlığın bərqərar edilməsi xülyadır. Bizimlə Rusiya arasında fikir ayrılığının səbəbi bundadır." [12, s.812].

Sovet hökuməti Azərbaycan Cümhuriyyətini tanımaq və qarşılıqlı əlaqələr qurmaq əvəzinə Bakı neftini oğurluq yolu ilə əldə etməyə üstünlük verirdi. Bu isə Azərbaycanın daxili işlərinə müdaxilə demək idi. Bu oğurluq uzun müddət sovet tarixşünaslığında Xüsusi dəniz ekspedisiyası adlandırılmış və Azərbaycan neftçilərinin Rusiyaya qardaşlıq, beynəmiləl köməyi kimi qələmə verilmişdir. Həqiqət isə tamam başqa idi – Rusiya faktiki olaraq, müstəqil dövlətin ərazisindən qanunsuz neft daşıyırdı. Xüsusi dəniz ekspedisiyasının fəaliyyəti ərzində Bakıdan Həştərxana qanunsuz olaraq 327,6 ton neft, 57,33 ton sürtkü yağı daşınmışdır [13, s.129; s.209]. Bakıya gətirilən pul, ədəbiyyat, silah isə Azərbaycanın növbəti işğalının hazırlanmasına sərf olunurdu.

RSFSR Azərbaycanı və onun neftini ələ keçirmək planlarından imtina etməmişdir və buna görə müstəqil Cümhuriyyəti tanımaq, onunla diplomatik mü-

nasibətlər qurmaq istəmirdi. Rusiyadan gələn təhlükəyə toxunan baş nazir N. Yusifbəyli hələ 1919-cu il mayın 6-da parlamentdə demişdir: "Bizim müstəqilliyimizə rus böyükdövlətçi şovinistlər tərəfindən – həm sağdan, həm soldan təhlükə var. Sağdan gələn təhlükə ilə hökumət mübarizəni başlayıb və davam etdirir, lakin indi soldan gələn təhlükə daha açıq-aydın görünür." [12, s.381]. Sovet Rusiyasından gələn təhlükə həqiqətən də artır və get-gedə daha geniş miqyas alırdı. Bununla əlaqədar Cümhuriyyətin xarici işlər naziri F. Xoyski müttəfiq dövlətlərin Paris sülh konfransındakı nümayəndələrinə nota göndərərək, bir-biri ilə mübarizə aparan və müstəqil dövlətə təhlükə törədən Denikin ordusundan və bolşeviklərdən qorunmaq üçün Azərbaycana mənəvi, siyasi, maliyyə-iqtisadi və hərbi yardım göstərməyi xahiş etmişdir [2, s.598-603].

1920-ci ilin əvvəlində Qırmızı ordu Denikini məğlub etmiş və Cənubi Qafqazın sərhədlərinə yaxınlaşmışdır. Beynəlxalq vəziyyət də bolşeviklərin xeyrinə dəyişmişdi. Qərb dövlətləri get-gedə hərbi müdaxilənin uğursuzluğa düçar olduğunu anlayır və Rusiya ilə sülh münasibətlərinin qurulmasına çalışırdılar. Belə bir şəraitdə RSFSR tərəfindən Azərbaycana rəsmi təzyiq başladı. Məqsəd əvvəlki kimi eyni idi: Azərbaycanı işğal etmək və nefti ələ keçirmək. 1920-ci il yanvarın 2-də RSFSR xalq xarici işlər komissarı G. Çiçerin Denikinə qarşı mübarizə aparmaq üçün hərbi ittifaq bağlamaq təklifi ilə Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri F. Xoyskiyə teleqram göndərdi. Bu teleqramın Azərbaycanın müstəqilliyi elan olunduğu vaxtdan Sovet Rusiyası hökumətinin ilk rəsmi müraciəti olduğunu nəzərə alsaq, sənədin məzmununa xüsusi diqqət yetirmək vacibdir. Sənəddə RSFSR hökumətinin suveren dövlətə münasibəti haqqında heç bir şey deyilmirdi. Müraciət diplomatik sənədə deyil, daha çox döyüş-təbliğat çağırışına bənzəyirdi: "Rusiyanın fəhlə və kəndlilərinin qəhrəman səyləri ilə yaranan Qırmızı Ordu Yudeniçi və Kolçakı [keçmiş çar generalları – F.C.] darmadağın etmiş və pərakəndə şəkildə Rostov-Dona doğru geri çəkilən çar generalı Denikinin ağqvardiyaçı dəstələrinə sarsıdıcı zərbə endirmişdir. Monarxist əks-inqilabına son zərbələri vuran RSFSR hökuməti Rusiyanın cənubundakı ağqvardiyaçı orduları tamamilə məğlub etmək məqsədilə hər iki komandanlıq arasında hərbi sazişin imzalanması üçün Azərbaycana sovet hökuməti ilə *təcili* [kursiv mənimdir – F.C.] danışıqlara başlamağı təklif edir." [7, s.420]. Azərbaycanı Rusiyada gedən vətəndaş müharibəsinə cəlb etməyə və bununla da onu zəiflətməyə çalışan bolşevik hökuməti Cümhuriyyət hökumətinə xəbərdarlıq etmək fürsətini də əldən buraxmadı: "*Nə qədər ki, gec deyil* [kursiv mənimdir – F.C.], biz Azərbaycana və Azərbaycan xalqına müraciət edərək, onu Denikinə qarşı mübarizəyə qalxmağa çağırırıq. Azərbaycan dövlətinin və onun zəhmətkeş siniflərinin düzgün başa düşülən sosial-siyasi maraqları Azərbaycanı bizim təklifimizə razılıq verməyə *məcbur etməlidir* [kursiv mənimdir – F.C.]." [7, s.421].

1920-ci ilin əvvəlində yaranmış vəziyyət müstəqil respublika üçün olduqca əlverişsiz idi. Bir tərəfdən, yanvarın 11-də Antanta Ali Şurası Azərbaycanın müstəqilliyini de-fakto tanıdı, digər tərəfdən isə yanvarın 16-da Sovet Rusiya-

sının üzərindən blokadanın götürülməsi bəyan edildi. 1920-ci il fevral ayının axırlarında işə başlamış müttəfiqlərin Ali Şurasının London sessiyasında müstəqilliyi Antanta tərəfindən tanınan yeni dövlətlərə (o cümlədən, Azərbaycana) tövsiyə edilirdi ki, Sovet Rusiyası ilə dinc münasibətlər yaratsınlar, Rusiya ilə müharibə aparan ölkələrə isə məsləhət görülürdü ki, müharibəni davam etdirməsinlər. Lakin müttəfiqlər bildirirdilər ki, əgər Sovet Rusiyası yeni yaranmış dövlətlərə hücum edərsə, onların qanuni sərhədlərini pozarsa, Antanta hücuma məruz qalmış dövlətlərə bütün vasitələrlə yardım göstərəcəkdir [14, s.464-465]. Professor C. Həsənli haqlı olaraq qeyd edir ki, Antanta dövlətlərinin bütün bu vədləri deklarativ xarakter daşıyırdı [14, s.465].

Beləliklə, 1920-ci ilin əvvəllərindən etibarən Qərblə RSFSR arasında münasibətlərdə faktiki olaraq müharibədən sülhə keçid başladı. Bu dəyişikliyi Paris sülh konfransına göndərilən Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin üzvləri də hiss etmişdilər. Heyətin üzvü Miryaqub Mehdizadə hələ fevralın 5-də Londondan Parisə – heyətin sədri Əlimərdan bəy Topçubaşova zəng vuraraq bildirmişdir ki, Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin yüksək rütbəli məmuru M. Mehdizadə ilə söhbətində Antantanın Cənubi Qafqaz respublikalarına canlı qüvvə və hərbi materiallarla kömək etməyəcəyini, dəstəyin yalnız diplomatik yolla göstərilə biləcəyini demişdir. Buna görə Azərbaycan özü bolşeviklərlə əlaqələr yaratmalı və onlarla saziş bağlamağa çalışmalıdır [15, s.355]. Eyni fikri 1920-ci il martın 1-də Böyük Britaniyanın xarici işlər nazirinin birinci müavini Ç. Hardinq Londona gələn Ə. Topçubaşovun özünə də bildirmişdir. Ə. Topçubaşovun "Hal-hazırda Müttəfiqlər və ingilis hökumətinin özü Sovet Rusiyası ilə iqtisadi xarakterli danışıqlara başlayır. Bizim həmin Rusiya ilə iqtisadi əlaqələrimiz həddindən artıq çoxdur. Bizim Sovet Rusiyası ilə bu cür danışıqlara girməyimizin vaxtıdırmı və bu lazımdırmı?" sualına cavab olaraq Ç.Hardinq demişdir: "...hər bir ölkə öz maraqlarına uyğun şəkildə və əlbəttə, öz məsuliyyəti çərçivəsində bolşeviklərlə bu və ya digər sazişlər bağlamaqda sərbəstdir... Əgər hesab edirsinizsə ki, Azərbaycana bolşeviklərlə hansısa münasibətlər yaratmaq lazımdır, siz bunu özünüz və öz məsuliyyətiniz çərçivəsində edə bilərsiniz." [15, s.372-373]. Antantanın siyasətində baş verən bu dəyişikliklərdən istifadə edən və müttəfiqlərin yeni yaranan müstəqil dövlətləri zəif müdafiə etdiyini görən Sovetlər yeni ad altında vahid Rusiyanın bərpası siyasətini fəallaşdırdılar.

Moskvanın Azərbaycan Cümhuriyyətinə münasibətdə yürütdüyü siyasətin əsl mahiyyətini 1920-ci il yanvarın 18-də V. Leninin təklifi ilə RK(b)P Mərkəzi Komitəsinin (MK) qəbul etdiyi qərardan görmək olar. Qərarda RSFSR Xalq Xarici İşlər Komissarlığına "Azərbaycan hökuməti barəsində çox böyük təmkinlik və etimadsızlıq siyasəti" yürütmək tapşırılırdı [11, s.160].

Lakin Moskvada Azərbaycanı müstəqil dövlət kimi tanımaq ideyası da mövcud idi. Xalq Xarici İşlər Komissarlığı bu məsələ ilə bağlı RK(b)P-nin Qafqaz Diyar Komitəsinə və Bakı Komitəsinə sorğu göndərmişdir. Qafqaz Diyar Komitəsi diplomatik tanımanı məqsədəuyğun hesab etmişdir. 1920-ci il

yanvarın 30-da Bakı bolşeviklərinin nümayəndəsi V. Naneyşvili radioteleqramla S. Kirova bunları bildirmişdir: "İngiltərə Azərbaycanda və Gürcüstanda intriqalarla məşğuldur. Sovet Rusiyası ilə müharibəyə sövq etmək istəyir. Sovet Rusiyasını neftlə təchiz etməmək müqabilində pul, silah, sualtı qayıqlar təklif edir. Azərbaycan Sovet Rusiyası ilə hərbi ittifaqdan qorxur. İngiltərədən təhdid var. Hərbi ittifaq şərtini irəli sürmədən Azərbaycanın tanınmasını zəruri hesab edirik." [16, iş 219]. V.Naneyşvilinin fikri barədə Moskvaya məlumat verən S. Kirov yazırdı: "Yoldaş Çiçerinin Gürcüstana və Azərbaycana müraciəti müəyyən təəssürat yaradır, lakin Diyar Komitəsi Xalq Xarici İşlər Komissarlığının siyasəti ilə razı deyil. Komitə hesab edir ki, biz qeyd-şərtsiz, yəni Azərbaycana bizimlə Denikinə qarşı hərbi ittifaq yaratmaq şərtini qoymadan Azərbaycan Respublikasını tanımalıyıq. Görünür, Diyar Komitəsinin fikrincə, bizim maraqlarımız tələb edir ki, biz hal-hazırda Azərbaycan demokratiyası qarşısında özümüzü göstərməliyik və şovinistlərə, xüsusən də müsavatçılara nümayiş etdirməliyik ki, öz müqəddəratını təyinetmə prinsipini onların başa düşdüyü tərzdə izah edirik." [17, s.698].

Lakin Azərbaycanın dərhal işğal edilməsinə tərəfdar olan başqa qüvvələr hesab edirdilər ki, diplomatik tanınmaya vaxt sərf etməyə ehtiyac yoxdur. Bu mövqe Qafqaz bolşevikləri G. Orconikidze ilə Y. Kvantaliani arasında baş tutmuş telefon danışığında ifadə olunmuşdu. Y. Kvantaliani məlumat verirdi: "Bakıda vəziyyət həddindən artıq ciddidir: fəhlələrin daxildən çıxışı olarsa və ya qırmızılar xaricdən hücum edərsə, hökumət neft ehtiyatlarını və mədənləri yandırmağa hazırdır. Bizim Bakıya hücumumuzu elə təşkil etmək lazımdır ki, bu faciə baş verməsin, əks halda Sovet Rusiyasını məhv edərik..." [16, iş 323]. Əslində Cümhuriyyət hökumətinin neft mədənlərini yandırmaq planı olmasa da, təqdim olunan söhbət Rusiyanın Bakını işğalı zamanı əsl məqsədini bir daha nümayiş etdirir.

Məsələ ilə bağlı bolşevik hökumətində milli siyasətə rəhbərlik edən İ. Stalin də barışmaz mövqedən çıxış edirdi. Fevralın 20-də o, G. Çiçerinə yazırdı: "Azərbaycanın müstəqilliyinin qeyd-şərtsiz və qəti şəkildə tanınmasını yolverilməz hesab edirəm." [18, s.28].

Diplomatik tanınma ətrafında gedən bütün söhbətlərə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası (AK(b)P) son qoydu. Partiya tanınmanın əleyhinə çıxış etdi. Bu qərar onunla izah olundu ki, "Azərbaycanın fəhlə-kəndli kütlələri tanınmanın əleyhinədir." [3, s.244]. Partiyanın I qurultayı (1920-ci il, fevral) aşağıdakı məzmunda qətnamə qəbul etdi: "Azərbaycan və Rusiya sovet dövlətlərinin qardaşlıq ittifaqı, onlar arasında normal və düzgün əmtəə mübadiləsi Bakı sənayesini tezliklə canlandıracaq və bununla fəhlə-kəndli kütlələrini məhv olmaqdan xilas edəcək." [19, s.13]. AK(b)P MK Bürosunun da cavabı qəti idi. 1920-ci il 17 fevral tarixli iclasında büro aşağıdakı məzmunda qərar qəbul etmişdir: "Moskvaya xəbər verilsin ki, AKP MK Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin bəyan edilməsini artıq və lazımsız hesab edir." [10, s.418].

Neftə kəskin tələbat hiss edən Rusiya Bakının işğalına hazırlaşmağa başladı. Maraqlıdır ki, hələ 1920-ci ilin fevralında V. Lenin ABŞ-ın “The World” qəzetinə müsahibəsində müxbirin Rusiyanın daxili vəziyyəti ilə bağlı sualına belə cavab vermişdir: “Vəziyyət kritikdir, lakin yaxşı perspektivlər var. *Yaza doğru* [kursiv mənimdir – F.C.] ərzaq çatışmazlığı aradan qaldırılacaq, ən azından şəhər əhalisi aclıqdan xilas olacaq. *Onda yanacaq da kifayət qədər olacaq* [kursiv mənimdir – F.C.]” [20, s.383]. V.Leninin bu sözləri söyləməyə əsas verir ki, Bakı neftinin ələ keçirilməsi planı artıq hazır idi. 1920-ci il martın 17-də Sovet Rusiyasının rəhbəri İ. Smilqaya və G. Orconikidzeyə məşhur teleqram göndərmişdir: “Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır...” [11, s.164]. Volqa-Xəzər hərbi donanmasının komandanı F. Raskolnikova tapşırılmışdı ki, XI Ordu Abşeron yarımadasına yaxınlaşan zaman Bakının neft daşıyan donanmasını ələ keçirsin və mədənlərin dağıdılmasına imkan verməmək üçün Ələt stansiyası yaxınlığında desant çıxarsın [21, s.213].

Cümhuriyyət hökumətinin neft mədənlərini məhv edəcəyini düşünən rus işğalçıları buna imkan verməmək üçün bolşeviklərin tərəfində olan türk zabitlərindən istifadə etmək istəyirdilər. Belə ki, 1920-ci il aprelin 14-də XI ordunun komandanı M. Levandovski ilə G. Orconikidzenin teleqrafla söhbətində belə bir təklif irəli sürülmüşdür ki, Bakıya həmlə vaxtı türk zabiti Xəlil paşanı müsəlmanlardan ibarət hissələrin başında qoymaq və həmin hissələri hücum edən rus qüvvələrindən irəlidə buraxmaq lazımdır. Belə hesab edilirdi ki, Xəlil paşanın Azərbaycan hökumətində populyarlığı və nüfuzu mədənləri və neft ehtiyatlarını məhv olmaqdan xilas edə bilər [22, s.22].

Azərbaycanı işğal etməzdən əvvəl RSFSR hökuməti artıq Bakıda neft sənayesi ilə məşğul olacaq qurum da yaratmışdır. 1920-ci il aprelin 16-da V. Leninin təklifi ilə Aleksandr Serebrovski “Azneft”in rəisi təyin olundu [11, s.167]. Müstəqil dövlətin daxili işlərinə kobud müdaxilənin növbəti nümunəsi olan bu addım bir daha sübut edir ki, Rusiya Bakıya və onun təbii sərvətinə öz əmlakı kimi baxmaqda davam edirdi.

Sovet Rusiyası ilə diplomatik gərginliyin artdığı bir şəraitdə Cümhuriyyət Parlamentində Moskva ilə münasibətlər məsələsi yenidən gündəmə gəldi. Aprelin 15-də keçirilən iclasda xarici ölkələrdə təsis ediləcək diplomatik nümayəndəliklər haqqında məsələnin müzakirəsi zamanı bolşevik Əliheydər Qarayev hökuməti Rusiya ilə əlaqələr yaratmamaqda günahlandıraraq demişdir: “Mən istəyirəm biləm ki, nə üçün bizim hökumətin dostluq münasibətləri yaratmaq istədiyi ölkələr arasında Sovet Rusiyasının adı yoxdur. Nə üçün bütün imperialist dövlətlərə nümayəndə heyəti göndərərkən siz həqiqi dostunuzu yaddan çıxarırsınız... Bu sizin taktikanızdır. Göstərirsiniz ki, Sovet Rusiyası ilə dostluq əlaqələri yaratmaq istəmirsiniz.” [23, s.940-941]. Ə. Qarayevin bu təxribatçı çıxışına cavab verən xarici işlər naziri F. Xoyski bildirmişdir: “Mən bilmirəm, çıxış edən natiq demaqoqiya ilə məşğuldur, yoxsa məsələyə həqiqətən

aydınlıq gətirmək istəyir. Bizə deyirlər ki, niyə siz istəmirsiniz sovet Rusiyası ilə dostluq əlaqələri yaradasınız. Biz həmişə böyük rus xalqı ilə xalqımızın ən sıx surətdə yaxınlaşması fikrində olmuşuq və yenə də bu fikirdəyik. Əgər bu dostluq yoxdursa, bu bizim günahımız deyil. Biz üç dəfə sovet Rusiyasına müraciət edərək dostluq əlaqələri yaratmaq üçün danışığa hazır olduğumuzu elan etmişik. Lakin bu günə qədər bizim təkliflərimiz cavabsız qalıb. Çıxış edən natiq nahaq bizi günahlandırır. Əgər o istəyir ki, bizimlə Rusiya arasında dostluq əlaqələri yaransın, onda qoy öz məsləkdaşlarını danışıqlara getməyə məcbur etsin. Biz danışıqlar üçün həmişə hazırıq. Bizə göstəriş vermək lazım deyildir. O şəxslərə göstəriş vermək lazımdır ki, bu günə qədər həmin məsələnin həllini yubadır.” [23, s.941].

Qeyd etmək lazımdır ki, Parlament 19 aprel tarixli iclasında digər ölkələrə olduğu kimi, Rusiyaya da diplomatik nümayəndəlik göndərilməsi barədə qərar qəbul etmişdir, [12, s.964] aprelin 22-də isə müvafiq qanun imzalanmışdır [8, s.180].

Azərbaycanın işğalına hazırlıq məsələsinə toxunarkən Rusiyanın siyasətində neft amili ilə bağlı olan daha bir vacib məqam üzərində dayanmaq gərəkdir. Aprel işğalı ərəfəsində RSFSR Azərbaycan Cümhuriyyəti ilə iqtisadi münasibətlərin qurulması üçün milli hökumətlə rəsmi danışıqlara başlamışdır. Ümumrusiya İstehlakçılar Cəmiyyətlərinin Mərkəzi İttifaqı (ÜİCMİ) 1920-ci il martın sonunda Rusiya ilə ticarət əlaqələrinin bərpası və ÜİCMİ-yə 81903 ton neft və neft məhsullarının satılması haqqında Azərbaycan hökuməti ilə saziş bağlamışdır. Azərbaycan tərəfi sovet hökumətinin gəmilərin sərbəst şəkildə geri dönməsinə zəmanət verəcəyi təqdirdə göstərilən həcmdə neftin dərhal gəmilərə doldurulmasına razılıq vermişdir [24, s.572-573]. Bakıda səfərdə olan ÜİCMİ-nin rəsmisi S.İ. Selavri (o, ÜİCMİ-nin Xəzəryanı bölgələrdə və İranda ticarət əməliyyatlarına rəhbərlik edirdi) martın 26-da Moskvaya teleqram göndərərək, Azərbaycan hökuməti ilə ticarət sazişi imzaladığını bildirmiş və lazımi təlimatların verilməsini xahiş etmişdir [25, s.573; iş 224, v.5]. İmzalanan sazişə toxunan bolşeviklərin “İskra” qəzeti yazırdı: “Şübhəsizdir ki, bu saziş böyük siyasi əhəmiyyətə malikdir. Azərbaycan hökuməti Rusiyaya qarşı heç bir təcavüzkarlıq niyyətinin olmamasını sübut etdi. İnanırıq ki, Moskvanın gözlənilən cavabı Rusiya hökumətinin Azərbaycana qarşı təcavüzkarlıq niyyətlərinin olmaması haqqında şübhələri – Çiçerinin notalarının təsiri altında yaranan bu şübhələri alt-üst edəcək.” [25, s.573].

ÜİCMİ-nin bağladığı saziş Moskvanın Azərbaycana münasibətdə yürütdüyü ikiüzlü siyasəti nümayiş etdirdi. Cəmi bir neçə gün fərqi ilə V. Lenin Bakının alınması haqqında tapşırıq verir və, eyni zamanda, sovetlər Cümhuriyyət hökuməti ilə danışıqlar aparır. 1920-ci il aprelin 17-də Azərbaycan Cümhuriyyətinin Xarici İşlər Nazirliyinə RSFSR xalq xarici işlər komissarının müavini L. Karaxandan aşağıdakı məzmunda teleqram daxil oldu: “Bununla sovet hökuməti gəmilərin sərbəst girişinə və maneəsiz geri dönüşünə, həmçinin malların, o cümlədən, neft məhsullarının satışı və daşınması ilə əlaqədar Həştərxana

gələnlərin şəxsi və əmlak toxunulmazlığına zəmanət verir." [26]. L.Karaxanın teleqramı faktiki olaraq Sovet Rusiyasının Azərbaycanla ticari-iqtisadi əlaqələrin qurulmasına prinsipial razılıq verdiyini göstərdi [27, v.4]. Həmin gün RSFSR xalq xarici ticarət komissarının müavini A. Şeynmandan alınan teleqramda bildirilirdi ki, Rusiya Azərbaycandan 49142 ton xam neft və 32761 ton mazut almaq niyyətindədir [26].

Rusiya ilə ilkin danışıqlar aparmaq üçün Azərbaycan nümayəndə heyətinin tərkibi də müəyyən edildi. Bura Ağa Əminov (sədr), Bağır Rzayev, R. Vəkilov, M. Məlikov və b. daxil idi [25].

Arxiv sənədlərindən məlum olur ki, 1920-ci ilin yazında Bakıda səfərdə olan ÜİCMİ-nin rəsmisi N. Solovyovun ticarət missiyası satış və ya əmtəə mübadiləsi yolu ilə neft məhsullarının Həştərxan və Krasnovodsk vasitəsilə daşınmasının bərpası haqqında danışıqlar aparırdı. N. Solovyov Azərbaycan xəzinəsinə 15 mln. qızıl rublun köçürülməsini təklif edirdi. Həmin məbləğ Volqaya neft məhsullarının daşınmasına razılıq verildikdən dərhal sonra Moskvadan Bakıya köçürülməli idi [27, vv.43-44]. Cümhuriyyətin Ticarət və Sənaye Nazirliyi ilə aparılan bu danışıqlar aprel işğalına qədər davam etdi. Tərəflər arasında həll olunmayan əsas məsələ neftin qiyməti ilə bağlı idi və buna görə rəsmi saziş imzalanmadı [25, vv.5-7]. Lakin buna baxmayaraq, şimal istiqamətində yanacağın göndərilməsi haqqında danışıqlar davam etdiyi dönəmdə Azərbaycan Krasnovodska artıq 491 ton ağ neft göndərmişdir. Bu, Rusiya işğalına bir neçə gün qalmış baş verdi [9, s.666].

Sonrakı hadisələr göstərdi ki, bütün bu danışıqlar, missiyalar Azərbaycan hökumətinin sayıqlığını azaltmağa yönəlmiş Rusiyanın taktiki gedişi idi və Azərbaycana qarşı təcavüzkarlıq niyyətlərinin olmaması haqqında təsəvvür yaratmaq niyyətini güdürdü. Xüsusi vurğulanmalıdır ki, Cümhuriyyət hökuməti Rusiya ilə diplomatik münasibətlər yaratmadan iqtisadi əlaqələrin qurulmasına razılıq verməklə özünün səmimi niyyətlərini nümayiş etdirdi. Bolşeviklərin müstəqil Azərbaycan dövlətinə əsl münasibətini bilə-bilə milli hökumət neftin satışına və mübadiləsinə razı oldu. Şübhəsiz, onu bu addımı atmağa vadar edən başlıca səbəb anbarlarda külli miqdarda neftin yığılıb qalması və həmin amilin Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərməsi idi. Maraqlıdır ki, Sovet Rusiyasının Azərbaycanı işğal etməsindən bir neçə gün əvvəl baş nazir N. Yusifbəyli ilə görüşən Böyük Britaniyanın Cənubi Qafqazda Ali komissar əvəzi Q. Lyuk yaranmış təhlükəli vəziyyətdə hökumətin nə edəcəyi ilə maraqlanmışdı. Baş nazir cavabında demişdir ki, Azərbaycanın iki çıxış yolu var: Antantanın dəstəyi ilə güclü Cənubi Qafqaz federasiyasının yaradılması və ya bolşeviklərlə danışıqlar. Birinci yol Ermənistanla Azərbaycan arasında ziddiyyətlər və lazımi hazırlığın olmaması səbəbindən mümkün olmadığından yeganə alternativ kimi ikinci yol qalır. Bununla belə, bolşeviklərlə danışıqları N. Yusifbəyli "müvəqqəti tədbir kimi uğurlu olacağını" və hər iki tərəfin qarşılıqlı ticari əlaqələrə ehtiyac duyduğunu söyləmişdir [15, s.129-190].

27 aprel 1920-ci ildə müstəqil dövlətə qarşı təcavüz nəticəsində Rusiya Azərbaycanı işğal etdi. Bolşeviklərin illər boyu uğrunda mübarizə apardıqları Bakı nefti yenidən onların əlinə keçdi. Bakının alınmasının əhəmiyyətinə toxunan V. Lenin aprelin 29-də şüşə-farfor istehsalı fəhlələrinin ümumrusiya qurultayındakı çıxışında demişdir: "...Yenə dünən Bakıdan aldığımız bir xəbər göstərir ki, Sovet Rusiyasının vəziyyəti yaxşılaşmaqdadır; sənayemizin yanacaqsız qaldığı bizə məlumdur, indi isə xəbər almışıq ki, Bakı proletariatı hakimiyyəti öz əlinə almış və Azərbaycan hökumətini yıxmışdır. Bu o deməkdir ki, indi bizim bütün sənayemizi canlandıra biləcək bir iqtisadi bazamız vardır. Bakıda milyon pudlarla neft vardır, bu neft son zamanlara qədər satıla bilmirdi, bu səbəbdən də hətta neft sənayeçisi Nobel həmin nefti Sovet Rusiyasına göndərmək haqqında bizimlə danışıqlara başlamağa çalışırdı. Beləliklə, nəqliyyatımız və sənayemiz Bakı neft mədənlərindən çox böyük yardım alacaqdır." [11, s.168].

Əlbəttə, 1920-ci ilin aprelində Azərbaycanın Rusiya tərəfindən tutulması təkcə neft amili ilə bağlı deyildi. Burada həmçinin ölkənin geostrateji vəziyyəti, Azərbaycanın Cənubi Qafqazda sovet hakimiyyətinin bərqərar edilməsində, Rusiyanın şərq siyasətində əhəmiyyəti nəzərə alınmalıdır. Lakin bütün bunlarla yanaşı, Rusiyanın Azərbaycana münasibətini müəyyənləşdirən əsas amillərdən biri neft idi – iqtisadi böhrandan çıxmaq üçün zəruri olan Bakı nefti. Həqiqətən də 1920-ci ilin aprel işğalı Bakı neftinə tələbatdan doğmuşdur.

### *Ədəbiyyat siyahısı:*

*1.Мустафазаде Р.С. Две Республики: Азербайджано-российские отношения в 1918-1922 гг. – Москва: 2006, 360 с.*

*2.Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 81.*

*3.Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). – Bakı: 1996, 304 səh.*

*4.Раевский А. Английская интервенция и мусаватское правительство. – Баку: 1927, 194 с.*

*5.Султанов Ч.А. Нефть / www.sultanov.azeriland.com.*

*6.Юсифзаде С.З. Первая Азербайджанская Республика: история, события, факты англо-азербайджанских отношений. Баку, 1998, с. 220.*

*7.Азербайджанская Республика. Документы и материалы, с.220.*

*8.Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты, с. 308.*

*9.Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании, с. 263.*

*10. Борьба за победу Советской власти..., с.202-205.*

*11.V.İ. Lenin Azərbaycan haqqında, s. 156.*

*12.Азербайджанская Демократическая Республика. Парламент. Стенографические отчеты. – Баку: 1998, с. 812.*

*13.Азизбекова П.А., Мнацаканян А.Н., Трускунов М.Б. Göst. əsəri, s. 129; Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. – Баку: 1957, с.209.*
*14.Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). – Bakı: "Garisma" MMC, 2009, 576 səh.*
*15.Топчибаши А.М. Парижский архив 1919-1940. В четырех книгах. Книга первая 1919-1921. Составители Г.Мамулиа и Р.Абуталыбов. Москва, 2016, с. 355.*
*16.ARPİİSSA: surət fondu, iş 219.*
*17.Azərbaycan tarixi arxiv sənədlərində: I cild, s. 698.*
*18.Василенко А.Б. Göst. əsəri, s. 28.*
*19.Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: Т.1. – Баку: 1986, с. 13.*
*20.Документы внешней политики СССР: Т.2. – Москва: 1958, с.383.*
*21.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: I cild, s. 213.*
*22.Azərbaycan tarixi arxiv sənədlərində. Aprel-dekabr 1920-ci il: II cild. Tərtibçi İ.Niftəliyev. – Bakı: 2012, s. 22.*
*23.Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II cild. – Bakı: 1998, s. 940-941.*
*24.Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 572-573; Нефтяное дело. 1920, №4, стлб. 23, 31.*
*25.Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 573; ARDA: f. 970, siy. 1, iş 224, v. 5.*
*26.Нефтяное дело. 1920, № 4, стлб.32*
*27. ARDA: f. 1610, siy. 13, iş 213, v. 43-44.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DAŞNAK QULDUR DƏSTƏLƏRİNİN ZƏNGƏZUR VƏ QARABAĞDA QANLI CİNAYƏTLƏRİNƏ QARŞI MÜBARİZƏSİ

**Kəmalə Nəcəfova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*kamalanacafova@bsu.edu.az*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Qarabağ, Zəngəzur, erməni-daşnak təcavüzü, türk-müsəlman soyqırımı*

Olduqca çətin bir hərbi-siyasi şəraitdə öz müstəqilliyini elan etmiş Azərbaycan xalqının ilk milli dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünün təmin edilməsi işində ən çətin məsələ Qarabağ ətrafında yarandı. Çünki, Osmanlı imperiyasında türklərə qarşı kütləvi qırğın törətməklə məkrli niyyətlərinə nail ola bilməyən "Daşnaksütyun" partiyası tarixi Azərbaycan torpaqlarında erməni milli hökumətini qurduqdan sonra, bu dəfə də, Qarabağda məskunlaşan erməniləri silahlandırmağa, onları dağlıq ərazilərə çəkərək bu yerlərin əsl sahibi azərbaycanlılara qarşı mübarizəyə hazırlamağa başladılar. Cəmi 10 min kv. km. əraziyə malik olub tarixi Azərbaycan torpaqlarında qurulan bu kiçik dövlət rus və avropalı havadarlarının dəstəyi ilə bölgədəki bütün türk torpaqlarına göz dikmiş, "Böyük Ermənistan" qurmaq xəyalını gerçəkləşdirmək üçün müxtəlif məkrli planlar qururdu.

İlk vaxtlar Azərbaycana münasibətdə guya müəyyən diplomatik fakt gözləyən, məkrli niyyətini tam açmaqdan çəkinən Ermənistan hökumətinin bu istiqamətdə gizli fəaliyyətləri Azərbaycan hökumətinə məlum idi. Məsələn, 1918-ci ilin avqust ayında Ermənistanın Tiflisdəki diplomatik nümayəndəsi Azərbaycanın oradakı diplomatik nümayəndəsindən Şuşaya Ermənistanın "xüsusi nümayəndə heyəti" göndərməsinə razılıq verməyi xahiş etmiş, bu rəsmi müraciətə Azərbaycan hökuməti aşağıdakı cavabı vermişdir: "Əgər Azərbaycan hökuməti əmin olsa ki, nümayəndə heyəti Azərbaycan mənafeləri, onun sərhədləri hüdudlarında mövcud olan qanunların və qaydaların əksinə işləməyəcək və Azərbaycan hökumətinin müşahidəsi altında fəaliyyət göstərəcək, bu zaman Ermənistan xüsusi nümayəndə heyətinin Şuşaya getməsinə icazə veriləcəkdir" [11, s.112].

Azərbaycan hökumətindən Şuşaya "xüsusi nümayəndə heyəti" göndərməyə icazə istəməklə, faktiki olaraq Qarabağın Azərbaycana mənsubiyyətini etiraf edən Ermənistan hökuməti bu kimi addımlarla onun dağlıq hissəsinə "mübahisəli ərazi" statusu verilməsinə nail olmaq və bundan Azərbaycanla münasibətlərində məkrli planların həyata keçirilməsində istifadə etmək istəyirdi [11, s.113]. Azərbaycan parlamentinin sədri Ə.M.Topçubaşov İstanbulda ingilis polkovnik Tampla söhbətində (19 noyabr 1918-ci il) bu barədə bildirmişdir:

"Ermənistan hökumətinin nümayəndələri dəfələrlə bizə bildiriblər ki, əgər onlara Qara dənizin sahilində liman verilsə, özlərinin Qarabağa olan iddialarından könüllü imtina edərlər. Onlar əhali mübadiləsi ilə kifayətlənərlər. Lakin nəzərə almaq lazımdır ki, İrəvan quberniyasında 200 mindən çox azərbaycanlı yaşayır" [16, s.67].

Tezliklə, Ermənistan hökumətinin işğalçılıq siyasəti mərhələli şəkildə işə salınmağa başladı. İlk olaraq, 1918-ci il iyulunda İrəvanın təbliği və təzyiqi ilə Şuşada (bir əsrlik əsarət dövründə ardı-arası kəsilməyən köçürmələrə baxmayaraq, şəhər əhalisinin 46%-ni azərbaycanlılar təşkil edirdi) Erməni milli şurası Qarabağ ermənilərinin birinci qurultayı adı altında əslində erməni millətçiləri və silahlı quldur dəstələrinin başçılarının birgə toplantısını keçirərək Azərbaycan hökumətini tanımadıqdan imtina etmişdilər [10, s.39]. Daha sonra Andranik Ozanyanın quldur dəstələri Dağlıq Qarabağa yeridildi və türk-müsəlman əhaliyə qarşı dəhşətli qırğınlar başladı.

Yüksək dağlıq ərazidə yerləşdiyi üçün Şuşa və Cəbrayıl qəzalarından ayrı düşmüş Zəngəzur qəzası onun ilk hədəfi oldu. Zəngəzurda törədilən soyqırımı haqqında qəza rəisi N.Namazəliyevin Daxili İşlər Nazirliyinə 1918-ci ilin 11-12 sentyabrın tarixli sənədlərdə deyilirdi: "Ermənilər fasiləsiz olaraq müsəlman kəndlərinə basqın edərək cinsə, yaşa fərq qoymadan Qızılcıq, Məlikli, Arıqlı, Şükürlü və digər kəndləri vəhşiliklə yandırmış, 500-dən çox qadın, uşaq, qoca qətlə yetirilmişdir" [5, s.88-89]. 1918-ci ilin sonlarından Zəngəzur qəzası ilə bərabər Şuşa və Cəbrayıl qəzasının kəndlərində qırğın və talanlar başladı. İş o yerə çatmışdı ki, bu qırğınların miqyasımdan dəhşətə gələn ingilis qoşunlarının komandanı general Tomson Andranikə aşağıdakı məzmunda teleqram göndərmişdi: "Andranikə və ya Şuşa rayonundakı erməni komandanına. Aldığım məlumata görə ermənilər azğınlıq və talanlar törədirlər. Müttəfiqlərin nümayəndəsi kimi mən sizə əmr edirəm ki, bu qanunsuzluqlara birdəfəlik son qoymaq üçün tədbirlər görün və bütün ermənilərə xəbər verin ki, sakit və öz evlərində qalsınlar. Əgər siz bu əmrləri yerinə yetirməsəniz baş verə biləcək qan tökülməsinə görə şəxsən məsuliyyətə cəlb ediləcəksiniz. Xahiş edirəm ki, bu teleqramı ciddi nəzərə alasınız" [6, s. 28].

1918-ci ilin payızından Zəngəzurda möhkəmlənən və burada bir növ erməni "qubernatorluğu" təşkil edən, Gorusu onun "mərkəzinə" çevirən Andranikin növbəti hədəfi Şuşa idi. O "paytaxtı Şuşa olacaq Kiçik Ermənistan" dövlətini yaratmağa çalışırdı. Onun qatil dəstələri Qarabağın Cavanşir, Şuşa, Cəbrayıl qəzalarında vəhşiliklərini davam etdirirdi. Cavanşir qəzasının Dəmirlər, Umudlu, Qaralar, Sırxavənd, Çıraxlı və başqa kəndləri erməni canilərinin hücumlarına məruz qalmış, Umudlu, İmarət – Qərvəndin əhalisinin xeyli hissəsi Murov Dağının qarlı-boranlı zirvələrini keçərək, soyqırımdan qurtulmuş və Zəyəm yolu ilə Gəncə quberniyasına sığınmışdılar. Bütün bu vəhşi əməllərinə baxmayaraq, Andronik öz məkrli məqsədinə nail ola bilməmiş, 3 dəfə Şuşaya soxulmağa cəhd etsə də, hər dəfə Zabux dərəsində ağır zərbə alaraq Gorusa geri çəkilməli olmuşdu [9, s.63].

1918-ci ilin dekabrından başlanan erməni basqınları nəticəsində təkcə Cəbrayıl qəzasının Sirik kəndində 11 kişi, 10 qadın və 14 uşaq məhv edilmiş, evlər dağıdılıb yandırılmış, əmlak, mal-qara talan edilmişdi. Cəbrayıl qəzası əhalisinə 10 milyon manatlarla ziyan vurulmuşdu. Yaranmış vəziyyətlə əlaqədar olaraq Qarabağdan (Şuşadan) parlamentin üzvü Allahverdiyev 1918-ci il dekabrın 19-da Azərbaycan milli parlamentinə göndərdiyi teleqramda bildirirdi: "Mən Qarabağın nümayəndəsi, Qarabağdakı vəziyyət haqqında məlumat verirəm. Andranik Zəngəzuru top atəşinə tutdu və bu bütün Qarabağda qorxu yaratdı. O, hesaba gəlməyən miqdarda müsəlman kəndlərini dağıtmış və talan etmiş, köməksiz əhalini qırmış, onları doğma yerlərindən qovmuşdur" [17, s.489].

Erməni quldur dəstələrinin Cəbrayılda, Zəngəzurda və Şuşada törətdikləri vəhşiliklər haqqında məsələ Azərbaycan parlamentinin 1918-ci il 20 dekabr tarixli iclasında müzakirə edildi. Fətəli Xan Xoyskinin çıxışı və onun müzakirəsindən sonra parlament Azərbaycanın ərazi bütövlüyünü qorunması və təcavüzə məruz qalmış əhaliyə mənəvi və maddi yardım göstərməsi istiqamətində aparılan işlərin gücləndirilməsi barədə qərar qəbul etdi. Andranikin başçılığı altında erməni cəlladlarının törətdiyi dəhşətli və geniş miqyaslı vəhşiliklər haqqında Gəncə general-qubernatorluğuna daxil olan 28 yanvar 1919-cu il tarixli sənəddə deyilirdi: "Bütün qəza boyu hücuma keçən ermənilər Qarabaş, Kiş, Baharlı, Daşbaşlı kəndlərini, eləcə də Kiçik dərəli vadisində yerləşən 5 polis məntəqəsi Andranikin dəstəsi tərəfindən mühasirəyə alınmışdır" [5, s. 90]. Bu o demək idi ki, quldurbaşı tam nəzarətdən çıxmış, vəziyyət elə bir hal almışdı ki, daşnak hökuməti kağız üzərində də olsa, onun cinayətlərinə görə məsuliyyət daşımaq istəmirdi.

Məsələn, Andranikin silahlı dəstələrinin Zəngəzur və Qarabağda təcavüzkar fəaliyyəti ilə əlaqədar avqustun 15-də Ermənistan hökumətinə qəti etiraz bildirən Azərbaycan hökumətinə cavab verməkdə ləngiməyən Ermənistan hökuməti iki gün sonra avqustun 17-də Tiflisdəki diplomatik nümayəndəsi vasitəsilə rəsmi bəyan etdi ki, "həm general Andranik, həm də onun bütün dəstəsi xüsusi erməni korpusunun əmri ilə artıq çoxdan erməni qoşunlarının tərkibindən və siyahısından çıxarılmışdır, bundan sonra onlar Ermənistan hökumətini, onun vəzifəli şəxslərini tanımaqdan və onlara tabe olmaqdan imtina ediblər. Beləliklə, general Andranikin və onun dəstəsinin erməni milli qoşunlarına və orqanlarına heç bir aidiyyatı yoxdur və Ermənistan hökuməti məsuliyyətsiz fəaliyyətə cavab verə bilməz [12, s. 222].

Lakin tezliklə, Ermənistan hökumətinin bu riyakarlığı da üzə çıxdı. İrəvanda çıxan qəzetlərdən biri 1919-cu il aprelin 27-də yazırdı: "Srağagün Andranik min nəfərdən ibarət sıravi dəstəsi ilə Zəngəzurdan İrəvana qayıtmışdır. Hökumət Andranikə ləyaqətli əsgəri ehtiram göstərmək Dronu qarşılamağa göndərmişdir" [5, s.88]. Bu fakt Andranik və onun quldur dəstələrinin Ermənistan hökuməti ilə bağlı olduğunu bir daha təsdiq edirdi.

Rəsmi hökumət qəzeti "Azərbaycan" qeyd edirdi ki, Qarabağın köməksiz müsəlmanlarının Andranikin quldur dəstəsi tərəfindən əzilməsi baş verən bədbəxt hadisə deyil, Ermənistan tərəfindən əvvəlcədən hazırlanmış planın həyata keçirilməsidir... Ümid etmək olar ki, qanuni hökumət tərəfindən deyil, üzdəniraq "generalların" özlərinin və başqalarının adından "əmrlər" tərtib etməsi kimi hadisələrə son qoyulacaq [8, s. 75].

Andraniki şirnikləşdirən, ona hərbi – siyasi dəstək verən və maliyyələşdirən qüvvələr təkcə Ermənistan hökuməti və erməni millətçiləri deyildi. Məsələn, Tiflisdə çıxan "Qruziya" qəzeti (29 yanvar 1919-cu il) Andronikin aşağıdakı məzmunda məktubu çap edilmişdi: "Zati – ailələri general Biçeraxova: Zəngəzur erməni milli Şurasının üzvləri Arşaq Şiranyan və Nikolay Osipov Bakıdan gələrək mənə milyon manat verdilər. Bu haqda onlar sizə iltizamnamə veriblər. Adı çəkilən Şura üzvləri mənə dedilər ki, bu pulu siz general Baqratuninin xahişi ilə vermisiniz. Mənim dəstəmin bədbəxt qaçqınlarını unutmadığınız üçün sizə dərin və səmimi təşəkkürümü bildirirəm. General – mayor Andranik" [4, s. 297].

Gorusda möhkəmlənən Andranik guya Zəngəzur kəndli qurultayının və Zəngəzur erməni milli şurasının təklifi ilə "silahlı qüvvələrin baş komandanı" elan edildikdən və müsəlman kəndlərini qılıncdan keçirməkdə göstərdiyi vəhşiliklərə görə "xalq qəhrəmanı" elan olunduqdan sonra onu təbrik edənlərdən biri də S.Şaumyan olmuşdu. O, 1918-ci il iyul ayında göndərdiyi teleqramda yazırdı: "Xalq qəhrəmanı Andranikə: Sizin 577№-li teleqramınızı aldım. Tam mətnini Moskvaya Mərkəzi hökumətə göndərdim. Öz tərəfimizdən sizin şəxsinizdə həqiqi xalq qəhrəmanını təbrik edirəm" [9, s. 42]. Göstərilən faktlar Andranikin və onun quldur dəstəsinin Qarabağ və Zəngəzurdakı təcavüzkar fəaliyyətinə dəstək verənlərin Ermənistan rəsmi dairələri ilə bir mərkəzdən idarə olunan müxtəlif hərbi-siyasi qüvvələr olduğunu təsdiq edir.

Andranikin quldur dəstələrinin 1919-cu ilin əvvəllərinə qədər davam edən qanlı cinayətləri General Tomsonun qəti tələbi ilə müvəqqəti olaraq dayandırdı, lakin, onun Azərbaycan əleyhinə hərbi cinayətlərinə son qoya bilmədi. Nəticədə Andranikin quldur dəstələri tərəfindən Zəngəzurun 115 kəndi dağıdıldı, 115 kənddə 3 mindən artıq qadın və 2 mindən artıq uşaq öldürüldü, mindən çox kişi, 794 qadın və 485 uşaq şikəst edildi [15, s. 218].

Bu özbaşınalıqlara qarşı qətiyyətli mübarizənin aparılması və dinc əhalinin talanlardan qurtarılması üçün Azərbaycan hökuməti 15 yanvar 1919-cu il tarixli iclasında Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzaları üzrə müvəqqəti Qarabağ general – qubernatorluğunun yaradılması haqqında qərar qəbul etdi. Müvəqqəti general-qubernatorluğa fövqəladə səlahiyyətlər verilməsi nəzərdə tutulmuşdur. Nazirlər Şurasının 15 yanvar 1919-cu il tarixli iclasında həmçinin Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə təsdiq edildi və həmin il aprelin 3-də onun səlahiyyətləri rəsmi olaraq müttəfiq komandanlığı tərəfindən tanındı. General-qubernatorluğun nəzdində 600 nəfərlik süvari dəstənin yaradılması nəzərdə tutulurdu. Fevralın 10-da X.Sultanov Şuşaya gəldi.

Səhərisi gün o, şəhər qlavası Şahnəzərovu və yepiskop Vaqanı yanına çağırtdırıb vəziyyətin sabitləşdirilməsi üçün onlarla danışıqlar apardı [17, s. 496]. Fevralın 15-də qəza rəisləri ilə görüşən X.Sultanov bölgədən erməni quldur dəstələrinin çıxarılması və mülki erməni əhalinin daşnakların təsirindən azad edilməsi istiqamətində onlara lazımi tapşırıqlar verdi [17, s.504].

Qarabağ general-qubernatorluğunun yaradılması və X.Sultanov kimi qətiyyətli bir şəxsin general-qubernator təyin edilməsi Ermənistan hökumətinin ciddi narahatlığına səbəb olsa da, general Tomson və baş komissar Hisgel Azərbaycan hökumətinin bu istiqamətdə gördüyü tədbirləri müdafiə etdilər.

Qarabağ general-qubernatorluğunun yaradılması haqqında Azərbaycan hökümətinin qərarına cavab olaraq Andranik və onun quldur dəstəsi Zəngəzur istiqamətindən Qarabağın içərilərinə doğru irəliləyərək qarşısına çıxan bütün kəndləri talan edərək Şuşanın 35 kilometrliyinə qədər irəlilədi. 1919-cu il fevralın ikinci yarısında 200 nəfərlik ingilis qoşun bölməsinin Şuşaya gəlməsi silahlı quldur dəstəsinin irəliləməsinin qarşısını aldı [3, s. 412].

Şuşadakı Britaniya missiyası adından mayor Monk-Mezon Qarabağdakı erməni milli şurasına müraciət edərək bütün erməniləri yeni hökumət orqanlarına tabe olmağa çağırdı. O bildirdi ki, Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının müvəqqəti general-qubernatorluğu nəzdində 3 erməni və 3 azərbaycanlıdan ibarət Şuranın tərkibində ingilis missiyasının bir nümayəndəsi var və qubernatorluqda qoşun hissələrinin bütün fəaliyyəti ingilislərin nəzarəti altında həyata keçiriləcək. Odur ki, Qarabağ general-qubernatorluğunun bütün göstəriş və sərəncamları hamı üçün məcburidir və hər hansı itaətsizlik göstərilməsinə qarşı qətiyyətli tədbirlər həyata keçiriləcəkdir [17, s. 506].

Şuşadakı Britaniya missiyasının bu bəyənatını müzakirə edən Qarabağın erməni milli şurasının qeyri-qanuni erməni hərbi dəstələrin komandirləri ilə keçirdiyi 19 fevral 1919-cu il tarixli iclasda Azərbaycan hökumətinə tabe olmağa, habelə Qarabağ general-qubernatorluğunun yaradılmasına qəti etirazını bildirdi. Nəticədə bu məsələdə ermənilərin əsassız iddiası elə bir səviyyəyə çatdı ki, əzəli Azərbaycan torpaqlarına şəksiz sahib durmaq üçün nəinki Zəngəzur və Qarabağda, az qala Azərbaycanın bütün ərazilərində hərbi hazırlığın gücləndirilməsinə başlandı. Bakıda erməni hərbi dəstələrinin formalaşdırılmasını təsdiq edən general Tomson, Nazirlər Şurasının sədri F.X.Xoyskiyə göndərdiyi məktubunda bildirirdi ki, Bakıda həqiqətən Ermənistana yola salınması üçün keçmiş erməni əsgərlərinin və zabitlərinin siyahıyaalınması aparılır, lakin bu dəstənin silahlandırılmasına onun tərəfindən icazə verilməmişdir. Kəskinləşməkdə olan erməni təcavüzünün qarşısını almaq üçün Azərbaycan hökuməti bir sıra tədbirlərə əl atdı. Qarabağın mühüm strateji nöqtələrində, Xankəndində, Şuşada, Ağdamda Azərbaycanın qoşun hissələrini yerləşdirdi, Əsgəranda mühafizə postları qoyuldu [17, s. 507]. Buna cavab olaraq, 1919-cu il aprelində Şuşadakı erməni milli şurasının qeyri-qanuni erməni hərbi dəstələrin komandirləri ilə keçirildiyi iclas onların Azərbaycan hökumətinə tabe olmayacaqlarını, yəni daşnak Ermənistanın təcavüzkar xəttini təsdiqlədi. 1919-cu il mayın sonlarında

Qarabağ general-qubernatoru X.Sultanovun əmri ilə xəzinədarlıq və poçt Şuşa şəhərinin azərbaycanlılar yaşayan hissəsinə köçürüldü. Bundan ciddi narahat olan erməni millətçiləri iyunun 3-də Şuşanın 2 azərbaycanlı əsgərin üzərinə hücum edərək silah-sursatlarını qəsb etdilər. İyulun 4-də X.Sultanov Şuşa-Yevlax yolunun təhlükəsizliyini təmin edilməsi üçün Şuşa ətrafında və yol boyunca hərbi postlar yaradılması haqqında əmr verdi. Buna cavab olaraq, Azərbaycan hərbiçilərinin postları üzərinə silahlı basqın edildi və nəticədə 4 azərbaycanlı əsgər şəhid oldu. Azərbaycan əsgərlərinə qarşı belə təxribatın həyata keçirilməsi kütləvi təcavüzün başlamasına bir işarə idi. İyunun 4-də Şuşa şəhəri və onun ətrafındakı kəndlər silahlı qarşıdurma mərkəzinə çevrildi. Vəziyyətin daha da kəskinləşməsinə yol verilməməsi üçün X.Sultanov erməni millətçilərinin dərhal həbsini və şəhərdən çıxarılmasını tələb etdi. İyunun 5-də səhər ingilis komandanlığı tərəfindən erməni milli şurasının üzvləri İşxanyan, Avetisyan və Tumanyans həbs edilib, azərbaycanlı məmurların müşayəti ilə Azərbaycan sərhədlərindən Ermənistana ötürüldü. İyun ayının 6-da qoşun bölmələrinin şəhərin erməni hissəsinə daxil olması ilə vəziyyət təmamilə sabitləşdirildi [17, s. 509].

Məhz Qarabağ general-qubernatorunun qətiyyətli addımları ermənilərin Qarabağda azərbaycanlılara qarşı geniş qırğınlar törətməsinin qarşısını aldı. Vaxtında həyata keçirilmiş səmərəli tədbirlər nəticəsində erməni millətçilərinin ehtirasları səngidi, bölgədə dinc yaşayış üçün yolların aranmasına başlanıldı. Belə bir şəraitdə 1919-cu ilin iyunun 28-də Qarabağ ermənilərinin VI qurultayı adı altında növbəti toplantı keçirildi. Burada məqsəd Azərbaycan hökumətinə tabe olmaq və ya olmamaq məsələsini aydınlaşdırmaq idi. 15 avqust tarixli növbəti toplantıda (VII qurultay) Qarabağın erməni əhalisinin nümayəndələri Azərbaycanla tam birliyə səs verdilər [3, s. 414]. Avqustun 22-də Qarabağ general-qubernatoru X.Sultanov əldə olunan razılaşma ilə bağlı bəyanat verdi. Beləliklə, Qarabağda və onun dağlıq hissəsində Azərbaycan Cümhuriyyətinin suveren hüquqları tam təmin olundu. Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovun qətiyyətli addımları nəticəsində qatil quldurbaşı Andronik, nəinki Azərbaycan, hətta Cənubi Qafqazdan qaçmaq məcburiyyətində qaldı.

1919-cu ilin yayında Qarabağda vəziyyət bir qədər sabitləşsə də, Zəngəzurda erməni silahlıları azərbaycanlılara qarşı öz vəhşiliklərini davam etdirirdilər. Genişlənən erməni təcavüzünün qarşısını almağa gücü çatmayan Azərbaycan kəndlərinin sakinləri yurdlarını tərk etmək məcburiyyətində qaldılar. Nəticədə, Zəngəzurun 110 böyük kəndi məhv edildi, əhalisi ya qırıldı, ya da ev-eşiklərini tərk etmək məcburiyyətində qalaraq Qarabağa pənah gətirirdi [3, s. 416]. Təkcə Cavanşir, Cəbrayıl, Şuşa qəzalarına 40 minə qədər, Gəncə mahalına 21 mindən çox, Şamaxı mahalına 25,8 min, Nuxa mahalına 5,1 min qaçqın gəldi. Ümumiyyətlə, qaçqınların sayı 100 minə çatırdı [10, s. 45]. Qarabağ general-qubernatoru X.Sultanovun qardaşı Sultan bəyin dəstəsi Zəngəzurda düşmənlə ölüm – dirim savaşına girmişdi. Avqustun 29-da Gümrü yaxınlığındakı döyüşdə erməni ordusuna qarşı döyüşlərdə Azərbaycan ordusunun bölmələri də iştirak etmişdi [17, s. 545]. Oktyabrın 19-da yaradılan 1500 nəfərlik və 1-ci pi-

yada diviziyasının komandiri general – mayor Cavad bəy Şıxlinski rəhbərlik etdiyi Zəngəzur dəstəsinin əsas vəzifəsi dinc əhalini erməni ordusunun hücumundan müdafiə etmək idi [17, s. 551].

Zəngəzurda baş verən qırğın və talanların qarşısının dinc yolla alınması üçün Azərbaycan hökuməti tərəfindən Ermənistan hökuməti ilə aparılan danışıqlar, göndərilən teleqram və notalar heç bir nəticə vermədi. Zəngəzura Azərbaycanın qoşun bölmələrinin yeridilməsi ilə erməni təbliğatının yeni bir mərhələsi başladı. Azərbaycan hökumətinin Zəngəzurda vəziyyəti sabitləşdirmək üçün göstərdiyi cəhdlər Ermənistan hökuməti tərəfindən Ermənistanın daxili işlərinə qarışmaq cəhdləri kimi qiymətləndirilirdi. 1919-cu il noyabrın 23-də Azərbaycan hökumətinin gərgin səyi və ABŞ-ın vasitəçiliyi ilə Tiflisdə Azərbaycanla Ermənistan arasında müqavilə imzalandı. Müqaviləyə görə, toqquşmalar dayandırılmalı, mübahisəli, o cümlədən sərhəd məsələləri danışıqlar yolu ilə həll edilməli idi. Bu müqaviləyə sadiq qalmaq əlaməti olaraq Azərbaycan hökuməti öz hərbi hissələrini Zəngəzurdan geri çağırdı. Fürsətdən dərhal yararlanan Ermənistan müqaviləni kobud surətdə pozaraq dərhal bölgəyə 7 minlik nizami silahlı qüvvə yeritdi, nəticədə Zəngəzurun 40 kəndi talan edildi, əhalisi vəhşicəsinə qətlə yetirildi [5, s. 49].

1919-cu ilin dekabrın 14-ü ilə 21-i arasında Bakıda keçirilən Azərbaycan-Ermənistan konfransında F.X.Xoyskinin ilk növbədə ərazi problemlərini müzakirə etmək təklifi və M.H.Hacınskinin sərhəd mübahisələrini 23 noyabr sazişinə uyğun olaraq həll etmək təklifi Ermənistan tərəfindən ərazi mübahisələrinin qəti həlli üçün hələ lazımi şərait və vaxtın yetişməməsi mülahizəsi ilə qarşılaşdı [7, s.272]. Bu konfrans da 2 dövlət arasındakı gərgin münasibətlərə heç bir aydınlıq gətirmədi, mübahisəli sərhəd-ərazi məsələlərinin, o cümlədən də Zəngəzur probleminin həllində əməli işlərlə nəticələnmədi.

1920-ci il yanvarın ikinci yarısından etibarən Ermənistanın Azərbaycana qarşı təcavüzünün yeni və daha faciəli bir səhifəsi başlandı. Ermənistan 1920-ci il yanvarın 13-də Müttəfiq dövlətlər tərəfindən Gürcüstanla bərabər Azərbaycanın da müstəqilliyinin de-fakto tanınmasına qətiyyən razı deyildilər. Azərbaycana torpaq iddialarının onların xeyrinə həll ediləcəyinə əmin olan ermənilər, gah müttəfiq dövlətlərin, gah da sovet Rusiyasının siyasi dəstəyilə öz məkrli niyyətlərinə nail olmağa çalışırdılar. Təsadüfi deyil ki, Qızıl Ordu hissələrinin Azərbaycanın şimal sərhədlərinə doğru irəliləməsi erməni millətçilərin fəallaşmasına səbəb oldu. Müxtəlif adlar, siyasi cərəyanlar altında gizlənsələr də millətçi daşnak xislətindən əl çəkməyən ermənilər Azərbaycanın işğalı üçün bütün məkrli planların həyata keçirilməsində iştirak edirdilər. A.Mikoyanın işarəsi ilə Qarabağda başlayan daşnak üsyanı Azərbaycanın qoşun hissələrinin böyük bir hissəsinin bölgəyə cəlb edilməsi və şimal sərhədlərinin zəiflədilməsi ilə nəticələndi [2, s. 228]. Bu üsyanı Sovet komandanlığı rəsmi İrəvanla birgə hazırlamış və Azərbaycana hücum edən XI Qızıl Ordunun əməliyyatlarını asanlaşdırmaq məqsədi güdürdü. Bu faktı Ermənistan hökumətinin 1920-ci ilin iyu-

nunda Moskvaya Millətlərin işi üzrə Komissarlığa və RK(b)P MK-yə təqdim etdiyi məktubu təsdiq edir [14, s.9].

1920-ci il fevralın sonu, martın əvvəllərində Qarabağ general-qubernatoru X.Sultanovun erməni agentlərindən topladığı məlumatlarda bildirilirdi ki, ermənilər Dağda 3 minədək silahlı erməni toplamış, 7-10 gündən sonra Mamzak istiqamətindən hücuma hazırlaşırlar. Hücumun başlamasında məqsəd Qarabağdakı silahlı dəstələrlə birləşmək və burada Azərbaycan hökumət orqanlarını devirmək idi. Hücumun başlaması ilə bütün Qarabağ erməniləri ayağa qalxmalı və Azərbaycan hökuməti əleyhinə üsyana qoşulmalı idilər. Zəngəzurda ermənilər hücuma başlayan kimi Gəncə qəzasının ermənilərdən təşkil olunmuş silahlı dəstələr Əsgəran üzərinə hərəkət edib oranı işğal etməli idilər. Martın 19-da erməni silahlıları hücum edərək 2 nəfər azərbaycanlı əsgəri qətlə yetirdilər. Martın 20-də yerli hökumət orqanlarında işləyən 2 erməni çinovnikinin vasitəsilə 25 nəfər erməni silahlısı gizlincə Şuşaya gətirildi. Martın 22-də onların sayı Şuşada 200 nəfərə çatdırılmışdı. Hücumun bir neçə məntəqədə aparılması üçün qüvvələr vaxtında qruplaşdırmış və silah - sursatla təmin edilmişdilər. Hücum ərəfəsində ermənilər Azərbaycan hərbi hissələri və müdafiə postları arasında bütün teleqraf və telefon xətlərini kəsdilər [17, s. 597-598].

Erməni qüvvələrinin hücumu Novruz bayramı günü - martın 22-də gecə saat 3-də eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə basqınla başladı. Əvvəlcədən görülmüş tədbirlər nəticəsində Şuşada, Xankəndində və Tərtərdə Azərbaycan qoşun bölmələrinin qışlalarını, silah və sursat anbarını tutmaq üçün erməni silahlı dəstələrinin göstərdiyi ilk cəhd uğursuzluğa düçar oldu. Lakin o da aydın idi ki, mövcud qüvvələrlə güclənməkdə olan erməni dəstələrinin növbəti basqınlarının qarşısını almaq heç də asan olmayacaqdır. Ona görə həm Qarabağın general-qubernatoru, həm də DİN-nin bölgəyə gəlmiş olan rəhbərliyi respublika hökumətindən Qarabağa əlavə qüvvələrin göndərilməsini xahiş edirdi. Qarabağdakı qoşun hissələrinin möhkəmləndirilməsi üçün şimal sərhədlərdə olan qüvvələrin bir hissəsinin ora göndərilməsi qərara alındı.

Erməni silahlı qüvvələrinin təcavüzünə qarşı aparılan mübarizəyə rəhbərlik etmək üçün Baş Qərargahın rəisi general-mayor H.Səlimovun rəhbərliyi altında başqa bir xüsusi qərargah da yaradıldı və o, martın 26-da Ağdamda yerləşdirildi [17, s. 605].

Martın 26-da general H.Səlimov Ağdama çatan kimi Əsgəran yolunun kəşfiyyatını apardı. Əsgəran ətrafındakı bütün yüksəkliklər erməni silahlılarının əlində idi. Martın 29-da Azərbaycan qoşun hissələrinin Əsgəran istiqamətində hucumu başladı. Azərbaycan ordusu bütün qabiliyyət səriştəsini “Əsgəran müharibəsi” adı ilə məşhur olan müharibədə göstərdi. Azərbaycan ordusu Şuşa qalasına daxil ola bildi və Şuşanı, Xankəndini qoruyan əsgərlərə qarışdı. Ermənilərin məhv edilməsi ilə nəticələnən bu müharibədən sonra cəbhəyə gələn Azərbaycan hərbi naziri Səməd bəy Mehmandarov şəxsən xain düşmənə qarşı göstərdiyi igidliyə görə zabitlərə və orduya təşəkkür edərək demişdi: “Mən Alma-

niya cəbhəsində, bir çox savaşlarda olmuşam, lakin sizin kini qəhrəman əsgərlərə nadir hallarda təsadüf etmişəm...Siz qanınızla gənc Azərbaycan Ordusunun namusunu qorudunuz" [1, s. 123].

Uğurlu yürüşə başlayan Azərbaycan qüvvələri aprelin 5-də Şuşaya daxil oldular aprelin 9-dan 12-dək Şuşa yaxınlığındakı Keşişkənd ətrafında da gərgin döyüşlər baş verdi. Bu döyüşlərdə Qarabağın erməni qüvvələrinin ən mühüm və ən çox ciddi möhkəmləndirilmiş bazası məhv edildi. Beləliklə də, Qarabağdakı erməni silahlı dəstələrinin hazırladıqları irimiqyaslı üsyanının Azərbaycan hökümətinin və ordusunun qətiyyətli səyi nəticəsində qarşısı alındı [3, s.422].

Beləliklə, Azərbaycan hökuməti ölkənin ərazi bütövlüyünün qorunması və əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün mümkün olan addımları ataraq, daşnakların Qarabağ və Zəngəzur ətrafında qurduqları bütün məkrli planların pozulmasını təmin etdilər. Lakin 1920-ci il aprelin 28-də Azərbaycanın XI Qızıl Ordu tərəfindən işğalı və kommunistlərin hakimiyyəti ələ keçirməsi ölkənin ərazi bütövlüyünün tam təmin edilməsini başa çatdırmağa imkan vermədi. Bu faciəli tarixdən düz 100 il sonra Azərbaycanın Müzəffər Ordusu Qarabağ və Şərqi Zəngəzuru 30 illik işğaldan azad edərək, Azərbaycan Respublikasının bütün ərazisində suveren hüquqlarının tam bərpasına nail oldu, müqəddəs bayrağımız Şuşada və Xankəndində, eləcə işğaldan azad olan Vətən torpağının hər qarışında dalğalandı.

### *Ədəbiyyat siyahısı:*

*1.Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. - Bakı: Nicat, 1992, 246 s.*

*2.Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX века II. - Баку: Элм, 1994, 382 s.*

*3.Azərbaycan tarixi (1900- 27 aprel 1920). V cild. - Bakı: Elm, 2001, 672 s.*

*4.Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. - Bakı: Elm, 1990, 378 s.*

*5.Abdullayev Ə. Azərbaycana qarşı erməni təcavüzü və xarici havadarlıq. - Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2004, 214 s.*

*6.Əhmədov T. Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920). - Bakı: Şirvannəşr, 2001, 32 s.*

*7.Həsənli C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. - Bakı: Azərnəşr, 1993, 363 s.*

*8.Həsənov C. Ağ ləkələrin qara kölgəsi. - Bakı: Gənclik, 1991, 200 s.*

*9.Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). - Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.*

*10.Nəcəfov B. Azərbaycan Demokratik Respublikası. Daxili və xarici siyasət. - Bakı: Bilik, 1992, 77 s.*

*11.Köçərli T. Qarabağ: Yalan və həqiqət. - Bakı: Əbilov, Zeynalov və oğulları, 1998, 242 səh. 112-113*

*12.Köçərli T. Yaddan çıxmaz Qarabağ. Nəqşicahan – Naxçıvan. - Bakı: Elm, 1998, 460 s.*
*13.Rəsulzadə M.Ə. Azərbaycan cümhuriyyəti. - Bakı: Elm, 1990, 116 s.*
*14.Рустамбейли Ш. Из печального прошлого //Кавказ, № 12 (24) за 1935 год, с. 28-30*
*15.Салех Бей. Армянство. - Баку: Элм, 1994, 439 s.*
*16.Топчибашев А.А. Дипломатические беседы А. А. Топчибашева в Стамбуле. Записи чрезвычайного посланника и полномочного министра Азербайджанской Республики (1918-1919 гг.). - Баку: Эргюн, 1994, 160 с.*
*17.Süleymanov M. Azərbaycan Ordusunun tarixi. II cild. noyabr 1918- aprel 1920. - Bakı: "Maarif" nəşriyyatı, 2018, 728 s.*

# СОЗДАНИЕ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА

**Абуталыб Джалилов**
*Бакинский Государственный Университет*
*доктор философии по истории, доцент*
*jalilova1951@gmail.com*

**Азад Рзаев**
*Бакинский Государственный Университет*
*доктор философии по истории, доцент*
*azad_rzayev@mail.ru*

***Ключевые слова***: *В.И.Разумовский, М.Э.Расулзаде, Ф.Х.Хойский, парламент АДР, закон об университете, открытие университета*

Одним из важнейших культурных мероприятий Азербайджанской Демократической республики была организация Бакинского государственного университета. Правительство прилагало большие усилия по материально-техническому обеспечению университета, привлечению педагогических кадров, выделению соответствующих зданий. Приходилось преодолевать сопротивление консервативных сил, выступающих как против открытия университета, так и против его организации с русским языком обучения.

В мае 1919 г. по решению правительства АДР была создана специальная комиссия во главе с профессором В. И. Разумовским, которая должна была разработать положение об университете. К августу 1919 года комиссия проект закона об учреждении университета и его штатное расписание. 21 августа 1919 года в парламенте АДР состоялось обсуждение проекта закона об учреждении в Баку университета. В ходе дебатов выяснилось, что подавляющее число депутатов и членов правительства выступают за создание в Баку университета. За открытие университета. За открытие университета решительно выступали лидер партии Мусават М.Э.Расулзаде, премьер-министр Ф.Х.Хойский, его преемник Н.Б.Усуббеков, министр просвещения Р.Б.Капланов и др. Председатель университетской комиссии В.И.Разумовский впоследствии ставший первым ректором Бакинского университета писал по отмеченному обстоятельству следующее; «имевшиеся среди мусаватистов открытые и тайные противники открытия университета вынуждены были подчиняться решениям партии лишь благодаря авторитету Расулзаде…в парламенте большинство составляли мусаватисты и социалисты, которые являлись сторонниками открытия Университета. Противниками открытия были партии Эхрар, Иттихад, Беспартийная мусульманская группа и Союз му-

сульманской трудовой интеллигенции. Члены этих партий в лице К. Карабекова, Ю.Ахмедова, М.Эфендизаде и др. свой протест мотивировали тем, что в нём лекции будут читаться на русском языке и университет сделается русификаторским центром, поддерживающим идею великодержавной «Единой России». Вместо открытия университета они предлагали отправлять молодежь за счет государства в заграничные высшие учебные заведения.

Выступая на заседании парламента министр просвещения Р.Х.Капланов заявил, что правительство исходит исключительно из точки зрения интересов азербайджанской государственности и тюркской национальной культуры. В заключение он высказал пожелание: «мы, мусульмане, из уважения к святости места оставляем при входе в мечеть свою обувь. Я очень хотел бы, чтобы и к университету у нас было бы такое же отношение, чтобы мы относились к нему, как к храму, и думая о нём, отбросили совершенно в сторону всякие другие соображения кроме тех, которые клонятся к созданию настоящего научного учреждения, ибо только при этом условии мы можем рассчитывать на осуществление всех тех надежд, которые возлагали на университет.

Лидер партии М.Э.Расулзаде в своём выступлении в парламенте подчеркнул, «что не надо бояться, что открываемый университет будет русским. В тюркской стране он будет носить свою окраску. Университет не может преследовать ассимиляторские цели. Даже в прежней России борцы с ассимиляторским течением выходили из университетов. Да и зачаток национализации в университете кладется с его открытием: будет преподаваться тюркский язык. Кроме того, студенты будут в родной атмосфере, в своей среде… Науку можно изучать во всех странах и на всех языках; вот почему и наша фракция высказывается за немедленное открытие».

1 сентября 1919 года парламент принял закон об организации Бакинского Государственного Университета. В законе предусматривалось создание факультетов: историко-филологического, юридического, физико-математического и медицинского. Занятие в университете начались 15 ноября. В первый год в Университет было принято 1094 студента.

В первый учебный год национальный состав студентов был следующим: а) на историко-филологическом факультета: мусульман – 156 (в том числе 31 вольнослушатель); евреев – 208 (30); русских – 140 (19), армян – 81 (14), грузин – 6 (1), поляков и немцев – 13, итого 604 человека; б) медицинском факультета: мусульман – 141 (24); армян –100 (22), русских – 69 (18), евреев – 158 (49), грузин – 7 (1), поляков и немцев – 14 (8) и греков – I, итого – 490 (122) человека. Таким образом, всего на обоих факультетах: мусульман – 297 (55), евреев – 366 (109), русских – 209 (56), армян – 181 (50), поляков и немцев – 27 (8), грузин – 13 (2), греков – 1; всего 1094 человека, из них 217 слушателей.

Создание Бакинского университета по праву можно считать важнейшим событием в истории Азербайджана. Его создание было с пониманием встречено как у нас в стране, так и за рубежом. В подтверждение приведём текст письма главы британской дипломатической миссии в Закавказье О.Уордропа министру иностранных дел Азербайджанской республики Ф.Х.Хойскому с поздравлением министра иностранных дел Англии лорда Керзона с открытием Бакинского университета 2 марта 1920 г.: «Ваше Превосходительство, Лорд Керзон из Кедельстона просил меня передать Вам следующее телеграфное сообщение для Бакинского университета. Я с большой радостью исполняю это поручение через Ваше Превосходительство: "Как министр иностранных дел и как канцлер одного из старейших и крупнейших университетов на свете, шлю Вам свои искренние поздравления по случаю открытия новых универ ситетов в Закавказье, которые по дошедшим до меня сведениям, уже начали свою деятельность в Баку, Александрополе и Тифлисе, а также мои пожелания таковым успехов. Оксфордский университет предвидит такое же блестящее будущее для закавказских университетов, какое Великобритания предвидит для стран, являющихся родиной этих университетов". Пользуюсь случаем, чтобы выразить Вашему Превосходительству уверение в моем высоком уважении. О.Уордроп».

## *Использованная литература:*

*1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920): Təhsil siyasəti (sənədlər toplusu). – Bakı: Elm və təhsil, 2018, 468 s.*

*2. Mehdiyeva, G.Y. Bakı Dövlət Universitetinin yaranmasına fərqli yanaşmalar Daşnaksütyun, İttihad və Əhrar partiyaları) / G.Y.Mehdiyeva //Azərbaycan Xalq Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik" mövzusunda elmi konfransın materialları, 20 fevral 2018-ci il. – Bakı: Elm və Təhsil, 2018, s.63-78.*

*3. Muxtaroglu, V. Cümhuriyyət parlamentində universitet müzakirələri. /V. Muxtaroglu //Mədəniyyət. az, 2018, №2, s.64-67.*

*4. Адрес-Календарь Азербайджанской Республики на 1920 год. Под ред. А.И.Ставровского. - Баку, изд. Мин. Пр. 1920, 57 с.*

*5. Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Законодательные акты (Сборник документов). – Баку: изд-во Азербайджан, – 1998, 560 с.*

*6. Азербайджанская Демократическая Республика (1918-1920). Парламент. Стенографические отчеты. – Баку, изд-во Азербайджан, 1998, 992 с.*

*7. ГААР, ф. 970, оп.3, д.3, л.14. Копия. Перевод с английского яз., современный подлиннику.*

*8. Разумовский В.И. Основание университета в Баку /В. И Разумовский //Известия Бакинского Государственного Университета, 1922.*

# DÖVLƏTÇİLİK TARİXİMİZDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YERİ

**Boran Əziz**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası, t.ü.f.d., dosent*
*boranaziz@bsu.edu.az*

***Açar sözlər:*** *M.Ə.Rəsulzadə, N.Yusifbəyli, dövlətçilik tarixi, Cümhuriyyət, Millətləşmə - Dövlətləşmə, Azərbaycan, Bakı, Qurucu babalarımız, Beynəlxalq hüquq*

Məlumdur ki, dövlətçilik tariximiz e.ə. III-II minillikdən başlayır. Bu müddətdən Cümhuriyyətə qədər olan dövlətlərin adları və paytaxtları müxtəlif olmuşdur. Adı, Azərbaycan, paytaxtı Bakı olan dövləti tarixdə ilk dəfə torpağı nurla dolmuş M.Ə.Rəsulzadə və onun silahdaşları yaradıb [3,12-13].

Cümhuriyyət təsadüfən, kiminsə çar Rusiyasından bilik, bacarıq və təhsilinə uyğun vəzifə ala bilməməsindən deyil, çarizmin torpaqlarımızda həyata keçirdiyi müstəmləkə siyasətindən, həmçinin dünyada, Avropada, Rusiyada, bölgədə və Vətənimizdə gedən proseslərdən, aparılan ağır, məşəqqətli, ancaq məqsədli və şərəfli bir mübarizədən – Milli azadlıq mübarizəsindən sonra yaranmışdı [3,13].

Cümhuriyyətə qədər Vətənimizin ərazisində qurulan dövlətləri ayrı-ayrı ailələr, sülalələr yaratmışlar. İlk dəfə olaraq əhalinin müxtəlif təbəqələri içərisindən çıxmış ziyalılar, müxtəlif bölgələrdən olan insanlar bir inam, ideologiya əsasında birləşib milli təəssübkeşliyi yüksək olan sahibkarların da yaxından köməyi ilə Milli dövlət - Cümhuriyyət qurmuşdular.

Qurucu babalarımız min bir əziyyətlə yaratdıqları dövlətin zənginliklərindən şəxsi məqsədləri üçün istifadə etməmiş, var - dövlət yığmamış, xarici ölkələrin banklarına pul köçürməmiş, çoxlu sayda imarət, villa ucaltmamış, gəlirli obyektlər ələ keçirməmişdilər. Əksinə, onlar özləri ilə bərabər ata və babalarının var - dövlətini, mal - mülkünü yaratdıqları dövlətin möhkəmlənməsi və tanınması yolunda böyük ürək açıqlığı ilə sərf etmişdilər. Torpağı nurla dolmuş bu dahi insanlar acgözlükdən, görməmişlikdən, qohumbazlıq düşüncəsindən uzaq, gözü-könlü tox şəxsiyyətlər olmuşlar [3,13]. Buna aid çoxsaylı misallardan cəmisi ikisi bu şəxslərin hansı əxlaqa, dünyagörüşünə sahibi olduqlarını tam sübut edir. Bunlardan biri Cümhuriyyətin Baş naziri olarkən Nəsib bəyin atasına məktub yazaraq borc pul istəməsi və atasının ona cavabı [3,13-14; 6,112-113], digəri isə Cümhuriyyət parlamentinin üzvü F.Xoyski və N.Yusifbəylinin təşkil etdiyi hökumətdə Yollar, Poçt və Teleqraf naziri olmuş Xudadat bəy Məlikaslanovun parlamentin 1919-cu il noyabrın 6-da keçirilən 93-cü iclasındakı çıxışıdır "Möhtərəm məbuslar! Siz bilirsiniz ki, hökumət üzvlərinin və nümayəndələrinin o qədər iqtidarları yoxdur ki, öz evləri üçün lazım olam əş-

yaları alsınlar ki, xaricdən gələn qonaqları da qəbul etsinlər. Qeyri yerdən gələn çox olur. Məsələn, İngiltərədən, İtaliyadan, Fransadan, Amerikadan çox nümayəndələr gəlirlər. Onları qəbul etmək üçün küçəbəküçə gəzib yer axtarırıq. Ya gəlməmişdən fikir edirik ki, nə yerdə və kimin evində onları qəbul edəcəyik. Hökumət qərara qoymuşdur ki, o cür nümayəndələri qəbul üçün bir ev tədarükündə olsunlar. Onun üçün də bir şey alınsın. Sizin özünüzə də məlumdur ki, sədrimizin (N.Yusifbəyli nəzərdə tutulur- B.Ə) evi burada deyil və o şeylər də alınacaqdır, sədrin olmayıb, hökumətin olacaqdır. Hərgah sədr hökumət başından çıxandan sonra yenə hökumətə qalacaqdır. ...Sədrimiz Nəsib bəy başqa hökumət nümayəndələrini qəbul etmək üçün əşya alınması üçün heyəti vükaləyə müraciət eylədi. Hökumət sədri üçün əşya alınması qərarına gəldi. Ucuz olmaq üçün və bir nəfər buranı tərk edib şeylərini satmalı olduğu üçün bu iş də əmələ gətirildi. ...Bu işlər hökumət sədrinə və xariciyyə nazirinə şəxsi deyil, hökumət malı hesabı ilə verilmişdir. Siz özünüz bilirsiniz ki, bu son zamanlarda, ... gələn-gedən çoxdur. Biz quru yerdə oturub çörək yeyə bilərik. Amma qonaqlara belə müamilə etmək olmaz. ... Onların adəti ilə rəftar etmək lazımdır. Məsələn, mən Tiflisdə bir əcnəbi nümayəndəsinin yanına getmək üçün sürtük (pencək- Red.) tapmağa məcbur oldum. Nə isə bu halları nəzərə alaraq, bu şeylərin alınması lazım görüldü ki, nümayəndələr gəldikdə avaraçılıq olmasın" [3,14-15; 2, 427-428; 7, 264-265]. Məsələ burasındadır ki, çar Rusiyası "XIX əsrin başında Azərbaycanı istilaya girişdiyi zaman qarşısında sözün müasir mənasında milli birliyini anlamış bir Azərbaycan deyil, bir-birinin müqəddəratına laqeyd xanlıqlardan ibarət zəif bir məmləkət görmüşdü" [4,18].

Qurucu babalarımız çar Rusiyasının məqsədyönlü şəkildə param-parça edib müxtəlif quberniya və qəzalara böldüyü torpaqlarımızda yoxdan bir dövlət, Şimaldakı torpaqlarımızın əksər hissəsini əhatə edən, müsəlman türk dünyasında ilk demokratik, dünyəvi dövləti – Azərbaycan Cümhuriyyətini yarada bildilər. Bu müsəlman şərqində ilk belə cürətli addım idi. Çünki həmin dövrdə Osmanlıda sultanlıq, İranda şahlıq, ərəb dünyasının xeyli qismində müstəmləkə, digər hissəsində kiçik şeyxliklər mövcud idi. Nəticədə buna qədər yalnız coğrafi məfhum olan Azərbaycan ilk dəfə beynəlxalq hüququn subyektinə çevrildi. M.Ə.Rəsulzadə və silahdaşlarının yaratdıqları milli hakimiyyət məfkurəsi idarəçiliyin ən effektli, amma ən çətin formasında gerçəkləşdi. "Azərbaycan Cümhuriyyəti aləmi-islamda təşəkkül edən ilk Cümhuriyyətdir. Bu Cümhuriyyət eyni zamanda bir türk hökumətidir" [5,10].

Beləliklə, H.Zərdabidən başlayan milli identikliyin ilk cücərtiləri, qurucu babalarımızın fədakar əməyi nəticəsində milli hərəkatın ikinci və üçüncü dövründə millətləşmə - dövlətləşmə prosesinə çevrildi. Millət olmaq əzmini ortaya qoyan Azərbaycan türkləri müstəqil, modern bir dövlət qura bildilər.

Cümhuriyyətin gördüyü işlərdən bəhs edərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 16 may 2017-ci ildə Cümhuriyyətin 100 illiyinin keçirilməsi ilə bağlı verdiyi Sərəncamda göstərmişdir: "Yeni qurulan AXC öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq

şərəflə yerinə yetirdi" [1]. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş əlli milyonluq bir xalqa belə möhtəşəm bir əsər, yadigar qoyub getmiş qurucu babalarımızı ehtiramla yad etmək, xatirələrini uca tutmaq çiyinlərimizin borcudur. Bu səbəbdən belə dəyərləri yaşadan, bölüşən insanların qəlbində onlar özlərinə əzəmətli heykəl qoymuşlar.

***Ədəbiyyat siyahısı:***

1. *Əliyev İ. Azərbaycan Xalq Çümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 16 may 2017. President.az/az/ articles/view/23701*
*2. AXC (1918-1920) Parlament (Stenoqrafik hesabatlar). – Bakı: II c, Azərnəşr, 1998, 992 s.*
*3. Əziz B. Cümhuriyyətə gedə yol. Çapar yayınları. – Bakı: 2020, 360 s.*
*4. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. – Bakı: Nicat, 1992, 246 s.*
*5. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. – Bakı: Elm,1990, 116 s.*
*6. Şeyxzamanlı N. Azərbaycan İstiqlal mücadiləsi xatirələri. – Bakı: Azərbaycan,1997, 176 s.*
*7. Yaqublu N. Cümhuriyyət qurucuları. – Bakı: Nurlan, 2018, 503 s.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN PARLAMENTİ

**Arifə Adıgözəlova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası, t.ü.f.d., dosent*
*adigezelova @bk.ru*

***Açar sözlər:*** *Azərbaycan, Cümhuriyyət, Parlament, təşkili, səlahiyyətləri.*

1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizdə ilk dəfə olaraq respublika üsul-idarəsinin və parlamentarizmin əsasını qoydu. Dövlətin ilk konstitusiya aktı hesab edilən İstiqlal bəyannaməsi demokratik azadlıqlar və millətlərin hüquq bərabərliyini elan etməklə bərabər, dövlət idarəçiliyinin də demokratik və hüquqi prinsiplər əsasında təşkilini nəzərdə tuturdu. Belə ki, ümumi, bərabər və gizli səsvermə əsasında seçilməli olan Müəssislər Məclisi dövlətin ali qanunverici orqanı olmalı idi [1, səh.9-10].

Lakin gənc respublikanın daxilində və xaricində cərəyan edən siyasi proseslər dövlət quruculuğunun ardıcıl demokratik xətt üzrə aparılmasına mane olurdu. Azərbaycanın bütün ərazisində dövlət hakimiyyətinin bərqərar edilmədiyi və bir sıra regionların hələ düşmən qüvvələrin əlində olduğu şəraitdə ümumxalq səsverməsi keçirmək qeyri-real səslənirdi. Gəncədə mühafizəkar qüvvələrin təzyiqi altında demokratik qurum kimi fəaliyyətini dondurmağa məcbur olan Milli Şura öz qanunvericilik səlahiyyətini müvəqqəti olaraq hökumətə verməklə, onu 6 ay ərzində Müəsislər Məclisinə seçkilər keçirməyə məsul etdi [2, 1919, №1, səh.9].

Birinci Dünya müharibəsinin başa çatması və Müttəfiq dövlətlərin hərbi hissələrinin Qafqaza gəlişi ilə Azərbaycanda siyasi vəziyyət və Müəssislər Məclisinin çağırılması məsələsinə baxış dəyişdi: təcili olaraq müvəqqəti qanunverici orqan təşkil etmək qərara alındı.

1918-ci il noyabrın 20-də Milli Şura Azərbaycan parlamentinin təşkili haqqında qanun qəbul etdi [6, f.894, s.10, iş187, v.1]. Qanunun giriş hissəsində Azərbaycanda yalnız türklərin məskunlaşmadığı vurğulanaraq qeyd edilirdi ki, ”qanunverici orqan ölkə əhalisinin bütün nümayəndələrindən təşkil olunmalı və bütün xalqın iradəsini ifadə etməlidir.” [6, f.895, s.3, iş 187, vər. 1-2]. Parlamentin təşkili haqqında Əsasnamədə onun 120 deputat üzvdən ibarət olması nəzərdə tutulurdu və Parlamentdə yerlər millətlər arasında proporsional olaraq bölünürdü: müsəlmanlar-80, ermənilər-21, ruslar-10, almanlar-1, yəhudilər-1, polyaklar-1, gürcülər-1 deputat seçə bilərdi. Müsəlmanlara ayrılan 80 deputatın 44-ü keçmiş Milli Şuranın üzvləri olmalı idi, 36-sı isə yenidən seçilməli idi [6, f. 895, s.1, iş 36, v.2].

1918-ci il dekabrın 7də Azərbaycan Parlamenti işə başladı. Parlamenti açıq elan edən M.Ə.Rəsulzadə müstəqilliyə gətirib çıxaran tarixi şəraitin qısa təsvi-

rini verərək bildirdi ki, " bu Məclis Azərbaycan Məclisi-Müəssisanı toplanıncaya qədər məmləkətimizin sahibi olacaq. Burada Azərbaycanda bulunan bütün millətlərin, təbəqələrin və müxtəlif cərəyanların nümayəndələri olduğundan bu Məclis vətənimizi tamamilə təmsil edə bilər" [3, I c., səh.25].

Azərbaycan Parlamenti ali qanunverici orqan olub, birpalatalı struktura malik idi. Deputatlar 11 fraksiya və qrupda birləşirdi. Yerlər fraksiyalar arasında bu cür bölüşdürülmüşdü: "Musavat" - 28, "İttihad"-13, "Əhrar"- 6, "Sosialist bloku"-8, "Hümmət"-5, Bitərəflər-18, "Slavyan-rus cəmiyyəti"-3, milli azlıqlar-4, "Erməni fraksiyası"- 5, "Daşnaksütyun"- 6 [4, I c,164-165].

Parlamentin 1919-cu il yanvarın 25-də qəbul etdiyi qanun layihəsi dövlət hakimiyyətində qanunverici və icraedici funksiyaların ayrılmasını nəzərdə tuturdu. [3, I c., səh.139]. Parlamentin fəaliyyətini tənzimləmək, onun iş rejimini dəqiqləşdirmək üçün ən mühüm sənəd 1919-cu il martın 17-də qəbul edilmiş təlimat oldu. Bu sənəd keçmiş Zaqafqaziya Seyminin əsasında tərtib edilmiş, 8 bölmə, 200 maddədən ibarət idi. Parlamentin ümumi yığıncağında sədr, onun 2 müavini və katib secilirdi. Onların səlahiyyət müddətləri 1 il müəyyən edilirdi. Onlar Parlamentin fəaliyyəti ilə bağlı ümumi məsələləri həll etmək üçün təşkil edilmiş Rəyasət heyətinə daxil idilər. Rəyasət heyəti sərəncamverici hüquqa malik idi. Rəyasət heyəti Parlamentin işinin gedişinə nəzarət edir, daxili nizam-intizamı tənzimləyirdi [3, I c., səh.267-269].

"Qafqaz Azərbaycanı Respublikasının Paris sülh konfransına nümayəndə heyətinin memarandumu" adlı sənəddə Azərbaycan Parlamentinin səlahiyyətləri belə xarakterizə edilirdi: "Parlamentin qanunvericilik sahəsində, habelə idarəçilik fəaliyyətində çox geniş hüquqları vardı. Parlament sədrinin Müəssislər Məclisinə seçkilər keçirilənə qədər Baş nazir seçmək və ona Hökumətin təşkilini tapşırmaq səlahiyyəti vardı. Bu hüquqlar sırasına Hökumətə sorğular vermək və nazirlərdən izahat tələb etmək də daxil idi.

Xarici İşlər Nazirliyi də daxil olmaqla bütün nazirliklərin, habelə inzibati, hüquqi, maliyyə, maarif, rabitə və s. sahələrindəki bütün dövlət institutlarının fəaliyyəti Parlamentin nəzarəti altında həyata keçirilməli idi, hərbi nazirlik də Parlamentin nəzarətinə verilmişdi." [5, səh.42].

Azərbaycan parlamenti həm mühüm siyasi məsələləri həll etməli idi, həm də təcili islahatlar hazırlayıb həyata keçirməsinə nəzarət etməli idi. Bir tərəfdən çar Rusiyasından miras qalmış inzibati quruluşu əsaslı surətdə dəyişmək lazım idi, digər tərəfdən ölkənin iqtisadi həyatını bərpa etmək, maliyyə və sənayedə dağıntılarla mübarizə aparmaq, maarif və səhiyyəni ayağa qaldırmaq, nəhayət əhalinin əksəriyyətinin mənafeyini təmin edən aqrar islahat həyata keçirmək zərurət kəsb edirdi. Parlamentin səlahiyyətinə qanunvericilik funksiyasından əlavə, hökumətin və mərkəzi dövlət orqanlarının təşkili, onların səlahiyyət dairəsinin müəyyən edilməsi, ali dövlət nəzarətinin həyata keçirilməsi, dövlət büdcəsinin təsdiqi və xərclənməsi, xarici dövlətlərlə bağlanan müqavilələrin təsdiqi də aid idi [7, s. 64].

Parlament divarlarında gedən partiyalararası mübarizə v, ə şəxsi çəkişmələr Parlamentə və Hökumətə sakit normal dövlət işi ilə məşğul olmağa imkan vermirdi. Belə ki, müxalif partiyaların müxtəlif məsələlərlə bağlı hökumətə sorğularla müraciət etməsi gündəlikdə duran məsələlərin müzakirəsini təxirə salırdı. Bunun davamı olaraq, müxalif partiyalar hökumətə etimad göstərmir və tez-tez hökumət böhranları yaradırdılar. Hökumət böhranları Parlament fraksiyalarını belə bir qənaətə gətirdi ki, Parlamentdə koalision demokratik əksəriyyət təşkil etmədən və koalision hökumət olmadan ölkə hakimiyyət böhranından xilas ola bilməyəcək və güclü, qətiyyətli hökumətdən məhrum olacaq. Bütün partiyalar tərəfindən sosialist blokunun geniş iştirakı ilə demokratik mərkəz yaratmaq qərara alınmışdı.

Parlamentin fəaliyyət göstərdiyi 17 ay ərzində 270-dən çox qanun layihəsi müzakirə olunmuş, onlardan 230-a yaxını qəbul olunmuşdu. Qanunlar qızğın və işgüzar fikir mübadiləsi şəraitində müzakirə edilir, özü də yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu.

Azərbaycan Xalq Cümhuriyyəti zamanının hüquqi-demokratik və dünyəvi dövlət nümunəsi idi. Belə ki, Azərbaycan siyasi sistemində bütün partiya, cəmiyyət və təşkilatların fəaliyyət sərbəstliyi təmin edilir və hər bir siyasi cərəyan tutduğu mövqedən asılı olmayaraq öz fikirlərini açıq-aşkar ifadə etdikləri mətbuat orqanlarına malik idilər. Azərbaycan Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərməsinə rəğmən həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə görə Avropanın demokratik respublikalarından heç də geridə qalmırdı və hətta qadınlara seçki hüququ verməklə onları qabaqlayırdı.

Lakin 1920-ci il aprelin 27-də Sovet Rusiyası tərəfindən hərbi müdaxilə nəticəsində Azərbaycanda parlamentli respublika üsul idarəsinə son qoyuldu.

***Ədəbiyyat siyahısı:***

*1.Азербайджанская Демократическая Республика. (1918-1920). Законодательные акты. - Баку: «Азербайджан»,1998, 560 с.*

*2. "Azərbaycan" qəz,1918-1919-cu illər.*

*3.Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I cild. –Bakı: 1998, 976 s.*

*4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. - Bakı: Lider nəşriyyatı, 2004, 440 s.*

*5. Azərbaycan Paris Sülh Konfransında. (1919-1920). -Bakı: Ozan, 2008, 244 s.*

*6. ARDA: f.894, siy.10, iş. 187, vər. 1-2; iş 192, vər.1.; f. 895, siy. 3, iş 7, vər.1-2; f. 895, siy. 1, iş. 1, vər. 12-21*

*7.Дамиров М. Организация государственной власти в Азербайджане (1918-1920). –Одесса: 1998, 159 s.*

# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN PARİS SÜLH KONFRANSINDA FƏALİYYƏTİ

**Vaqif Nəbiyev**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası, baş müəllim*
*vaqifnabiyev@bsu.edu.az*

***Açar sözlər:*** *Azərbaycan, müstəqillik, Versal, parlament, siyasət.*

Azərbaycan tarixinin ən maraqlı dövrlərindən birini də 1918-1920-ci illər təşkil edir. Xüsusilə 1918-ci il may ayının 28-də Tiflisdə Azərbaycanın istiqlaliyyətinin elan edilməsi Azərbaycan xalqının tarixində və taleyində mühüm hadisə idi. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və onun 23 aylıq fəaliyyəti dövrü bir sıra səciyyəvi cəhətlərinə görə milli tariximiz üçün çox əhəmiyyətlidir.

1918-ci ilin dekabrın 7-də Azərbaycan parlamentinin işə başlaması respublikanın beynəlxalq aləmə çıxması üçün əlverişli şərait yaratdı. Azərbaycan parlamenti Paris sülh konfransında iştirak etmək üçün tam səlahiyyətli və geniş hüquqlara malik nümayəndə heyəti göndərmək haqqında qərar qəbul etdi. Nümayəndə heyətinə rəhbərlik parlamentin sədri Ə.M.Topçubaşova tapşırıldı. Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında iştirak etməkdə əsas məqsədi dünya dövlətləri tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasına nail olmaq idi.

Dekabr ayının 28-də F.X.Xoyskinin rəhbərlik etdiyi üçüncü hökumət kabinəsinin fəaliyyəti başa çatan kimi elə həmin gün onun ilk addımı parlamentin ağsaqqallar şurası ilə birlikdə Avropaya gedəcək nümayəndə heyətini seçmək oldu. Nümayəndə heyətinə parlamentin sədri Ə.M.Topçubaşov rəhbərlik etməli idi, onun müavini hökumət üzvü M.H.Hacınski təyin edildi. Nümayəndə heyətinə iki nəfər parlament üzvü Ə.Ağayev və Ə.Şeyxülislamov daxil edildilər. Üç nəfərdən - Miryaqub Mehdiyev, Ceyhun bəy Hacıbəyli və Məmməd Məhərrəmovdan ibarət məsləhətçilər müəyyən edildi. Texniki işçiləri nümayəndəlik özü seçməli idi. Ə.M.Topçubaşov Bakıda olmadığı üçün M.H.Hacınski İstanbula çatana qədər hökumətin tapşırığı ilə müvəqqəti olaraq nümayəndə heyətinə başçılıq etməli idi. Nümayəndə heyətinə rəhbərlik edən və ona daxil edilən şəxslər qabaqcıl təhsil görmüş, geniş siyasi düşüncəyə, demokratik ruha, Azərbaycan istiqlaliyyəti uğrunda mübarizə təcrübəsinə malik vətənpərvər ziyalılar idilər.

1919-cu il yanvar ayının 20-də Azərbaycan nümayəndə heyəti İstanbula gəldi. M.H.Hacınskinin müvəqqəti sədrliyi başa çatdı, o, Parisdə keçiriləcək Sülh konfransında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etmək haqqında Azərbaycan hökumətinin qərarını və bu məsələ ilə bağlı digər mühüm sənədləri Ə.M.Topçubaşova təqdim etdi. Yanvar ayının 22-də Ə.M.Topçubaşovun mən-

zilində Azərbaycan nümayəndə heyətinin ilk iclası keçirildi və bir sıra təşkilati məsələlərə baxıldı. İlk növbədə nümayəndə heyətinə bəzi əməkdaşlar əlavə edildi və texniki işçilərin tərkibi müəyyənləşdirildi. Nümayəndə heyətinin hər bir üzvünün dəqiq, aydın fəaliyyət dairəsi müəyyənləşdirildi. Ümumiyyətlə İstanbulda olduğu ilk günlərdən Azərbaycan nümayəndələri təşkilati məsələlərlə yanaşı bir sıra mühüm sənədlər hazırladılar, fəaliyyət proqramı tərtib etdilər və qarşıda duran əsas məsələləri müəyyən etməklə yanaşı qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün öz fəaliyyətlərini uğurla davam etdirdilər.

Konfransda iştirak etmək üçün 1919-cu ilin yanvarından icazə gözləyən Azərbaycan nümayəndə heyəti üç ay İstanbulda gözlədikdən sonra aprel ayının 22-də İtaliya gəmisində Parisə yola düşdülər. Nümayəndəlik mayın əvvəllərində Parisə gələ bildi. Mayın 2-də isə ABŞ prezidenti Vudro Vilsonun təşəbbüsü ilə ilk dəfə Azərbaycan məsələsi ABŞ, Böyük Britaniya, Fransa və İtaliya hökumət başçılarından ibarət olan Dördlər Şurasının iclasında müzakirə edildi. ABŞ prezidenrti V.Vilson bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri Versal sülh konfransına buraxılsınlar. Eyni zamanda o bildirdi ki, Ə.M.Topşubaşov Azərbaycan nümayəndə heyyətinin başçısı kimi tanınmalıdır.

1919-cu il may ayının 28-də Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilson tərəfindən qəbul edildi. Görüş zamanı Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topşubaşov ABŞ prezidenti V.Vilsona müraciət edərək bildirdi ki, sizdən xahiş edirik ki, bizim ölkəmiz, bizim xalqımız və bizim özümüz haqqında məlumatları bizim özümüzdən eşidəsiniz. Çünki biz, Amerika və Avropa mətbuatında tez-tez Azərbaycan haqqında səhv, saxtalaşdırılmış və həqiqətə uyğun olmayan məlumatların verilməsini eşitməli oluruq. Bundan sonra Ə.M.Topçubaşov altı maddədən ibarət olan memorandumu V.Vilsona təqdim etdi. Orada Azərbaycanın müstəqilliyinin tanınması, onun Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilməsi, ABŞ-la diplomatik münasibətlərin yaradılması, ABŞ-ın Azərbaycana hərbi yardım göstərməsi və s. tələb olunurdu. Ancaq V.Vilson Azərbaycanın müstəqilliyinin tanınması məsələsini açıq saxladı. Lakin prezident V.Vilsonun qeyri-müəyyən cavabları heç də Azərbaycan nümayəndələrini ümidsizləşdirmədi. 1919-cu ilin payızından başlayaraq beynəlxalq iqlimin yeni yaranmış respublikaların xeyrinə dəyişdiyi dövrdən Azərbaycan nümayəndələri təkcə siyasi və iqtisadi məsələlərlə deyil, eyni zamanda geniş təbliğat işləri ilə də məşğul olurdular. Versalda olan Azərbaycan nümayəndələri kiçik qüvvə ilə böyük işlər görməyə nail ola bilmişdilər. Onların fədakarlığı sayəsində Azərbaycanın tarixi, əhalisi, iqtisadiyyatı, təbii sərvətləri və siyasi vəziyyəti haqqında ingilis və fransız dillərində kitabçalar seriyası hazırlanıb çap edilmiş, Avropa mətbuatına çıxmaq mümkün olmuşdu. Nəhayət, Azərbaycan diplomatiyasının çox gərgin və çətin fəaliyyəti nəticəsində 1920-ci il yanvarın 11-də Parisdə Müttəfiq Dövlətlərin Ali Şurası Azərbaycan istiqlaliyyətinin de-fakto tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Yanvarın 14-də bu xəbər Azərbaycana çatdırıldı və parlament onun təntənəli şəkildə qeyd etdi.

Yanvar ayının 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Faransa xarici işlər nazirliyinə dəvət edildilər. Azərbaycan nümayəndələrindən Ə.M.Topçubaşovu və M.Məhərrəmovu, Gürcüstan nümayəndələrindən İ.Sereteli və L.Avalovu nazirliyin baş katibi Jül Kambon, ingilis nümayəndəsi Filipp Kerr və İtaliya hümayəndəsi Markiz de-la Toppeta qarşıladılar. Jül Kambon Ali Şuranın üzvləri və birlik ölkələri tərəfindən Azərbaycanın de-fakto tanınması barədə Paris Sülh konfransının rəsmi qərarını Ə.M.Topçubaşova təqdim etdi. O, nümayəndələri təbrik edib bildirdi ki, bundan sonra Azərbaycan və Gürcüstan müstəqilliyi tanınmış dövlətlər kimi Sülh konfransına zəruri məsələlərlə bağlı rəsmən müraciət edə bilərlər. Beləliklə, Azərbaycan və Gürcüstan Respublikaları rəsmi olaraq beynəlxalq hüquq normalarına uyğun olaraq müstəqil dövlətlər kimi tanınmışdı. Bu məqamdan başlayaraq bu iki ölkə rəsmi olaraq Ali Şura ilə əlaqəyə girə bilər, öz ehtiyaclarını, qeydiyyata alınmalarını, konfransın iclaslarında qanuni hüquqlarını tələb edə bilərlər.

### *Ədəbiyyat siyahısı:*

*1. Nəsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920-ci illər. - Bakı: "Azərbaycan Dövlət Nəşriyyatı", 1993, 364 s.*
*2. Musayev İ.M. Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət 1917-1920-ci illər. – Bak: Bakı Universiteti nəşriyyatı, 1992, 48 s.*
*3. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. – Bakı: "Elm" nəşriyyatı, 1990, 94 s.*
*4. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti. – Bakı: "Elm" nəşriyyatı, 1998, 328 s.*
*5. Əliyev M. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti 1918-1920. -Bakı: "Gənclik" nəşriyyatı, 1990, 95 s.*
*6. Paşayeva A. Cümhuriyyət Parlamentinə gedən yol. - Bakı: "Adiloğlu", 2005, 88 s.*
*7. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. - Bakı: "Mücrü" nəşriyyatı, 1990, 183 s.*
*8. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. - Bakı: "Mücrü" nəşriyyatı, 1991, 80 s.*
*9. İsgəndərov A. Azərbaycan Xalq Cümhuriyyəti. 1918-1920. - Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2003,65 s.*
*10. İsgəndərov A. Azərbaycan həqiqətləri-1917-1920. – Bakı: "Elm" nəşriyyatı, 2012, 226 s.*

# AZƏRBAYCAN CÜMHURİYYƏTİ HÖKUMƏTİNİN YERİTDİYİ NEFT SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİ

**Ələmdar Şahverdiyev**
Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası, t.ü.f.d., dosent
alamdarshahverdiyev@bsu.edu.az

***Açar sözlər:*** *Neft, embarqo, Osmanlı, İngilis, Rusiya*

Türkmənçay müqaviləsi ilə Azərbaycanın tarixdə üçüncü bölüşdürülməsi baş verdi. Şimali Azərbaycan çar Rusiyasının işğalı altına düşdü. Bununla Azərbaycanın insan resursları və iqtisadiyyatı çar hökumətinin müstəmləkə siyasətinin obyektinə çevrildi. Bu hal 1917-ci il fevral ayına qədər davam etdi. Çar hökumətinin Azərbaycanda həyata keçirdiyi iqtisadi mənimsəmə siyasətinin əsas hədəfi neftli torpaqlar idi. Bu gəlirli sahəni hökumət işğalın ilk illərindən başlayaraq, mərhələlər ilə (1808-1824, 1826-1834 və 1850-1872-ci illərdə) Rusiyanın dövlət xəzinəsinin mülkiyyətinə keçirdi [4].

İltizam sistemi çar hökumətinə külli miqdarda gəlir gətirsə də, bu sistem hökuməti qane etmirdi. Rusiyada neft işi, Avropa ölkələri ilə müqayisədə çox geri qalırdı. Ona görə də hökumət, bu geriliyi aradan qaldırmaq üçün neft işində əsaslı dönüş yaratmaq istəyirdi. Bu məqsədlə çar hökumətinə yüksək məbləğdə kapital və elmi-texniki proqram lazım idi [2].

1872-ci il fevral ayında çar hökuməti iltizam sistemini ləğv edərək, neft sənayesində kapitalizmin inkişafına yol açdı [4].

Bununla da, neft sənayesi Azərbaycan türk xalqının əlindən çıxarıldı. Azərbaycanın görkəmli ictimai xadimlərindən birinin dediyi kimi, Bakı nefti dünya iqtisadiyyatının inkişafında mühüm rol oynamasına baxmayaraq, bu təbii sərvət Azərbaycan xalqının mənafeyi baxımından "qara qızıl deyil, Azərbaycan xalqının damarından axan qara qan idi" [1].

Ona görə də çar hökuməti dönəmində Azərbaycanda kapitalist münasibətlərinin inkişafını "Müstəmləkə Kapitalizmi" kimi xarakterizə etmək olar.

Rusiyada 1917-ci il oktyabr çevrilişinin baş verməsi nəticəsində həm birinci dünya müharibəsinin gedişində, həm də beynəlxalq münasibətlər sistemində köklü dəyişikliklər baş verdi. Bolşevik hökuməti Antanta blokundan çıxaraq bir tərəfli qaydada hərbi əməliyyatlarda iştirakını dayandırdı. Bununla da, beynəlxalq münasibətlərdə standartlar dəyişdi. Çar Rusiyasının müttəfiqi olan İngiltərə, Fransa və sonralar Antanta blokuna daxil olan ABŞ, bolşevik Rusiyasının düşməninə çevrildi [5].

Digər tərəfdən, birinci dünya müharibəsinin ilk üç ilində Çar Rusiyasının əsas rəqibi olan və Mərkəz dövlətlərinə başçılıq edən Kayzer Almaniyası bolşevik Rusiyası ilə yaxınlaşdı. Beləliklə birinci dünya müharibəsinin 1917-ci il

oktyabr ayından başlanan yeni mərhələsində, müharibədə iştirak edən dövlətlərin, o cümlədən bolşevik Rusiyasının əsas hədəfi Bakı nefti oldu.

Belə mürəkkəb şəraitdə 1918-ci ilin may ayının 28-də Azərbaycan Cümhuriyyətinin yaradılması Azərbaycan xalqı üçün olduqca taleyüklü məsələ idi.

Cümhuriyyət dönəmində Azərbaycan ərazisində iki dəfə ikihakimiyyətliliyin olması heç də təsadüfü hadisə deyildi. BXKS, yəni Şaumyanın rəhbərlik etdiyi birinci ikihakimiyyətlilik dövründə (1918 25 aprel - 1918 31 iyul) bolşevik Rusiyasının hərbi-maliyyə və siyasi yardımı ilə Bakı və onun ətrafı erməni-bolşevik ordusu tərəfindən Azərbaycan hökumətinin tabeliyindən çıxarılmışdı.

İkinci ikihakimiyyətlilik dönəmində daha dəqiq desək "Mərkəzi Xəzər" diktaturasının hakimiyyəti zamanı ingilis generalı Denstervilin himayəsi altında Bakı nefti Rusiyanın "ağ qvardiyaçı" hökumətinin yanacaq ehtiyacları üçün istifadə olunurdu. Bu hökumətin də məqsədi Bakı şəhərini Azərbaycandan qoparmaq idi.

1918-ci il 15 sentyabr Bakı şəhərinin erməni- sovet işğalından azad olunması ilə Naxçıvan istisna olmaqla Azərbaycanın bütün ərazisində Cümhuriyyətin hakimiyyəti bərqərar oldu. 1918-ci il oktyabr ayının 5-də Azərbaycan hökumətinin qərarı ilə Bakı neftinin özəlləşdirilməsi həyata keçirildi.

Lakin Azərbaycan hökumətinin neft sənayesindən bəhrələnməsi uzun sürmədi. 1918-ci il 17 noyabr General Tomsonun başçılığı ilə ingilis ordusunun Azərbaycana daxil olması ilə neft sənayesində yeni dövr başladı. Neftin çıxarılması, satılması, daşınması tamamilə ingilislərin nəzarəti altına keçdi.

1919-cu ilin mayında ingilislər Azərbaycanı tərk etdikdən sonrakı mərhələdə, neft sənayesi Azərbaycan iqtisadiyyatının əsas hissəsi oldu.

Lakin bolşevik Rusiyasının Azərbaycana tətbiq etdiyi iqtisadi sanksiya ucbatından, neftin əsas istehlakçısı olan Rusiya onu almaqdan imtina etdi. Beləliklə Azərbaycan neftinin dünya bazarına çıxarılması məsələsində ciddi problemlər yarandı.

Gürcüstan hökuməti Almaniyanın təzyiqi nəticəsində, Azərbaycan neftinin Qara dəniz limanları vasitəsilə dünya bazarına çıxarılmasına maneçilik törətdi. Bu vəziyyət Azərbaycanda iqtisadi böhranın dərinləşməsinə səbəb oldu. Digər tərəfdən Cümhuriyyət dönəmində neft sənayesi ilə bağlı məsələdə Azərbaycan hökuməti ilə milli sahibkarlar arasında fikir ayrılığı var idi. Bunu H.Z.Tağıyevin baş nazir N.Yusifbəyliyə yazılı müraciəti təstiq edir. Bütövlükdə Azərbaycan dövlətinin süqutunun başlıca səbəblərindən biri Azərbaycan nefti uğrunda gedən mübarizə oldu.

## *Ədəbiyyat siyahısı:*

*1. Bəhrəmov C. Xəzər, neft və onların Azərbaycanın siyasi tarixində rolu. Azərbaycan neft sənayesi tarixinə dair Birinci Bakı Beynəlxalq konfransı. Hyuston,1997.*

*2. Həsənov C. Birinci dünya müharibəsinin sonunda Bakı nefti uğrunda mübarizənin kəskinləşməsi. Azərbaycan neft sənayesi tarixinə dair Birinci Beynəlxalq konfrans. Hyuston,1997.*
*3. Maksvell N. Azərbaycan Demokratik hökumətinin siyasətində neft məsələsi (1918-1920-ci illər). Azərbaycan neft sənayesi tarixinə dair Birinci Bakı beynəlxalq konfrans. Hyuston 1997.*
*4. Mehdiyeva N. Azərbaycan neft sənayesi 20-30-cu illərdə. Qafqaz sovet totalitarizmi (20-30-cu illər). Elmi konfrans. – Bakı: 1998.*
*5. Muradəliyeva E. Azərbaycan nefti beynəlxalq münasibətlərdə. – Bakı: Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2005.*
*6. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı,1990.*
*7. Səlimov Ş.D. Beynəlxalq münasibətlərdə Azərbaycan neft məsələsi. Avtorefarat. – Bakı: 2007.*

# QƏRBİ AZƏRBAYCAN TOPONİMLƏRİNİN DƏYİŞDİRİLMƏSİ ERMƏNİ BARBARLIĞININ TƏZAHÜRÜ KİMİ

**Kəmalə Qurbanova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası, t.ü.f.d., müəllim*
*kamala-qurbanova@mail.ru*

**Acar sözlər**: *toponimlər, Qərbi Azərbaycan, etnos, türk mənşəli*

***"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb".***

***İlham Əliyev***

Xüsusən son dövrlər Qərbi Azərbaycanda dəyişdirilən türkmənşəli toponimlərin tədqiqi daha çox aktuallıq kəsb edir. Toponimlər tarix ilə bağlı qiymətli mənbədir. Onlar vasitəsilə xalqların qədim yaşayış məskənləri haqda məlumat almaq, həmin vaxtda baş vermiş siyasi prosesləri qiymətləndirmək, hadisələr barədə dərin bilgilər almaq, tarixi faktları üzə çıxarmaq mümkündür. Bu məqam Qərbi Azərbaycan toponimləri üçün də keçərlidir. Bədnam qonşumuz orjinal toponimlərimizə qarşı həmişə qərəzli münasibət göstərib. Türk-mənşəli adlar dəyişdirilmiş, erməniləşdirilərək onların əks etdirdiyi tarix saxtalaşdırılmağa çalışılmışdır. Çünki, bu toponimlər onların həmin bölgəyə sonradangəlmə xalq olduğunu sübut edir. 200 ildən çox müddətdə erməni millətçiliyindən qidalanan vandal, barbar, şovinist siyasətin tərkib hissəsi olaraq tariximizi təhrif edib. Türkmənçay müqaviləsinin imzalanmasından sonra İrəvan və Qarabağ xanlıqlarının mövcud sərhədləri daxilinə köçürülən ermənilər həmin siyasətin əsasını qoydular. 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış

azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanları imzalandı. Bu fərmanlardan irəli gələn müddəalar bu istiqamətdə geniş tədqiqat işlərinin aparılmasını labüd edir.

İndi Ermənistan adlandırılan Qərbi Azərbaycan coğrafiyasında oğuz türklərinin etnogenezi müxtəlif qədim türk tayfalarından ibarət olmuşdur. Tarixi Bütöv Azərbaycanın tərkib hissələrindən olan hazırkı ölkəmizin, o cümlədən də Qərbi Azərbaycan ərazisinin müasir toponimiyasında 4600-dən çox olan coğrafi adın təxminən 70 faizi tayfa və ya tayfa başçılarının adları ilə bağlı olaraq yaranmışdır. Tədqiqatlar göstərir ki, Quzey və Güney Azərbaycan coğrafiyasındakı etnotoponimlərin sayı da az deyildir. Bu tarixi gerçəklikləri tədqiq etməklə müxtəlif türk etnoslarının, xüsusilə oğuzların bu ərazilərin aborigen sakinləri olduğuna dair tutarlı sübutlara və dəlillərə söykənən qənaətə gəlmək olar. Azərbaycan toponimiyasında etno - toponimlərin də xüsusi öyrənilməsinə ehtiyac var.

## ***Ədəbiyyat siyahısı:***

*1. Azərbaycan tarixi. 7 cilddə. 6-cı cild. - Bakı: Elm, 2008, 568 s.*

*2. Azərbaycan Sovet Ensiklopediyası, 10 cilddə, IV c., - Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyası, 1980, 610 s.*

*3. Bayramov İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. - Bakı: Çıraq, 2012, 288 s.*

*4. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. -Bakı: Elm, 1998, 452 s.*

*5. Ələkbərli Ə. Qərbi Azərbaycanlıların 1988-ci il soyqırımı (sənədlərin dili ilə). -Bakı: Nurlan, 2008, 558 s.*

# ERMƏNİLƏRİN ƏRAZİ İDDİALARI (1917-1918-Cİ İLLƏR)

**İsa Quliyev**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası, baş müəllim*
*isaquliyev@bsu.edu.az*

***Açar sözlər:*** *Fevral inqilabı, Müvəqqəti Hökumət, Qafqaz məsələləri üzrə Komissarlıq, Daşnaksutyun, S.Şaumyan, Zaqafqaziya Seymi, İrəvan.*

XIX əsrin əvvəllərində Rusiya Qacar və Osmanlı dövlətlərinin ərazilərindən xeyli sayda erməni əhalisinin köçürülməsi üçün tədbirlər həyata keçirdi. Köçürülən erməni əhalisi ilk növbədə keçmiş Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarının ərazilərində yerləşdirilirdilər. Qriboyedovun təbirincə desək ermənilər, "ilk dəfə köçürüldükləri torpaqlara əbədi sahib duracaqlarını" [2, 673] tədricən həyata keçirmək üçün fəaliyyətlərini genişləndirməyə başladılar. XIX əsrin sonları-XX əsrin əvvəllərində bu istiqamətdə ermənilərin fəallığı diqqət çəkirdi. Bu məsələdə erməniləri dəstəkləyən ilk növbədə Rusiya dövləti idi. Rusiya  Cənubi Qafqazda baş verən hadisələri nəzarət altında saxlamaq üçün məhz ermənilərdən bir alət kimi istifadə edirdilər. Cənubi Qafqaza köçürülən erməni əhalisi bu vəziyyətdən istifadə edərək, bölgənin inzibati sərhədlərinin dəyişdirilməsi barədə təkliflər hazırlayaraq Rusiya hökumətinə təqdim etməyə başlamışdılar. Bu məsələ, xüsusilə Fevral burju-demokratik inqilabından sonra yeni bir mərhələyə qədəm qoydu.

Fevral inqilabından sonra ermənilər dəqiq bir planla hərəkət edirdilər. Çarizmin devrilməsindən sonra yaranmış yeni ictimai-siyasi vəziyyətdən ermənilər öz məqsədlərinə çatmaq üçün bütün erməni milli qüvvələri, siyasi partiyaları, ictmai təşkilatları və eyni zamanda erməni kapitalını səfərbər etmişdilər. Belə ki, Fevral inqilabından sonra Rusiyada fəaliyyət göstərən bütün siyasi qüvvələrin sırasında erməni əsilli şəxsləri görmək mümkün idi. Cənubi Qafqazda fəaliyyət göstərən kadet, eser, menşevik və bolşevik partiyalarının yerli komitələrində də kifayət qədər ermənilər təmsil olunmuşdular.

Cənubi Qafqazın quberniya və qəzalarının inzibati sərhədlərinin yenidən dəyişdirilməsi üçün ermənilər ümumrusiya siyasi partiyalarını və dövlət strukturlarını da bu məsələnin həllinə cəlb etmişdilər. 1917-ci ilin martında Petroqradda Müvəqqəti Hökumət tərəfindən xüsusi bir orqan yaradılmışdı. Bu orqan ara-sıra iclaslar keçirir və Cənubi Qafqazda torpaqların yenidən bölüşdürülməsi, yeni inzibati sərhədlərin müəyyənləşdirilməsi məsələlərini müzakirə edirdilər. Digər bir tərəfdən Qafqaz məsələləri üzrə xüsusi Komissarlıq təşkil edilmişdi ki, bu Komissarlığa Nabokov və erməni əsilli Yeqanqulov rəhbərlik edirdilər [10, 71].

1917-ci ilin iyunun 30-da Müvəqqəti Hökumət Qafqazın yeni inzibati bölgüsünün layihələndirilməsi üçün xüsusi yardımçı komissiyanın yaradılması

haqqında qərar qəbul etdi. Bu yardımçı komissiyaya Z.Avalov, S.Avaliani, V.Cabaqiyev, A.Komitokov, M.Rustamyan, Q.Xatisov, F.Xoyski və Ə.Şeyxülislamov daxil idilər. Digər tərəfdən ermənilər özlərinin ərazi məsələlərini həll etmək üçün Rusiya Daxili İşlər Nazirliyini, hətta Rusiya Xalq Partiyasını və Rusiyanın bütün kütləvi informasiya vasitələrini cəlb etmişdilər.

1917-ci ilin iyulunda Komissiyanın növbəti iclaslarından birinə Fətəli xan Xoyski dəvət alır. Bu iclasda ona bir sənədin layihəsini təqdim edirlər. Bu layihəyə görə Yelizavetpol quberniyasının 6 qəzası, daha dəqiq Zəngəzur və Qarabağın dağlıq hissəsinin alınması qanunda öz əksini tapmışdı. F.Xoyski bu layihəyə kəskin etiraz etdi və bildirdi ki, bütün bunlar əhalinin narazılığına gətirib çıxaracaqdır [10,72]. O, bütün bu məlumatları yenilənmiş Müsəlman Milli Şurasına bildirdi.

1917-ci il iyulun 12-də Komitənin sədri seçilən Ə.M.Topçubaşov [4,112-113] mövcud vəziyyətin müzakirə edilməsi üçün iclas iştirakçılarını məlumatlandırdı. Müzakirələrdən sonra Bakı Müsəlman Milli Şurasının İcraiyyə Komitəsi Petroqradda Qafqaz məsələləri üzrə Komissarlığın yaradılmasına kəskin şəkildə etirazını bildirdi. Qəbul edilmiş etiraz sənədinin surəti Müvəqqəti Hökumətin rəhbərlərinə və bir sıra digər təşkilatlara göndərildi. Etiraz sənədində Müsəlman Milli Şurasının üzvləri Cənubi Qafqazda mövcud olan inzibati ərazi bölgülərinin dəyişdirilməsinin yolverilməz olduğunu qeyd etmişdilər. Bütün bunlara baxmayaraq Qafqazın yenidən bölünməsi prinsipləri müzakirə olunurdu. 1917-ci ilin sentyabrında Xüsusi Cənubi Qafqaz Komitəsi Rusiya Daxili İşlər Nazirliyi tərəfindən qəbul edilən Qafqaz quberniyalarının yenidən bölünməsinə dair layihə aldı. Bu layihə "Daşnaksutyun" partiyası tərəfindən hazırlanmışdı. Layihəyə görə Cənubi Qafqaz "üç milli ərazi vahidinə bölünməli idi: gürcü, erməni və müsəlman". Erməni əhalisi üçün xüsusi yeni quberniyalar yaradılmalı idi: Aleksandropol (Gümrü) və Yelizavetpol (Gəncə). Bu layihə ilk növbədə ermənilərin maraqlarını ifadə edirdi. Layihədə azərbaycanlı və gürcü əhalisinin maraqları nəzərə alınmamışdı. "Daşnaksütyun" partiyasının bölgüsünə əsasən gələcək federativ Rusiya dövlətinin tərkibində Cənubi Qafqaz ərazisi aşağıdakı şəkildə bölünməli idi: "Gürcüstan, Erməni yaylası və Tatar vilayəti" [10,74]. Halbuki, kütləvi şəkildə Rusiya tərəfindən Cənubi Qafqaza köçürülən ermənilər, burada yaşayan əhalinin 25%-nə yaxın olan hissəsini təşkil edirdilər. Eyni zamanda Cənubi Qafqazda olan 54 qəzadan yalnız 5-də üstünlük təşkil edirdilər [13, 214]. Təbii ki, ermənilər bu addımları atarkən ilk növbədə Rusiya hökumətinə arxalanır və özlərini Cənubi Qafqazda hegemon xalq kimi aparmağa çalışırdılar. Ermənilər çox gözəl anlayırdılar ki, "Böyük Ermənistan" arzusu Rusiyanın dəstəyi olmadan mümkün deyildir [13, 241]. Cənubi Qafqazda inzibati sərhədlərin dəyişdirilməsi məsələsi ilə yanaşı, ermənilər eyni zamanda özləri tərəfindən uydurulan üç Ermənistanın birləşdirilməsi məsələsini müzakirəyə çıxarmışdılar. Bunlar "Rusiya Ermənistanı, Türkiyə Ermənistanı və Persiya Ermənistanı" idi [13, 214].

Belə bir mövqedən təkcə “Daşnaksütyun” partiyası deyil, ermənilərin fəaliyyət göstərdiyi digər partiyaların nümayəndələri də çıxış edirdilər. Bunlardan biri də Bakı Sovetinin başçısı, bolşevik cildinə girmiş Stepan Şaumyan idi. Onun bu məsələdəki mövqeyi heç də “Daşnaksütyun” partiyasının mövqeyindən fərqli deyildi. 1917-ci ilin oktyabr ayının 5-də S. Şaumyan RSDFP (b)-nin Qafqaz Diyar Komitəsinin I qurultayında iştirak etmək üçün Tiflisə getmişdi [8,198]. Milli məsələ haqqında məruzə edən S.Şaumyan Cənubi Qafqazda mövcud olan inzibati ərazilərin sərhədlərinin dəyişdirilməsinin vacibliyini qeyd edərək, “Cənubi Qafqazın üç vilayətə bölünməsini təklif etmişdir: 1. Qərbi Zaqafqaziya: Kutaisi, Batum və Tiflis quberniyasının bir hissəsi. 2. Şərqi Zaqafqaziya: İrəvan, Tiflis quberniyasının bir hissəsi, Qars və Yelizavetpol quberniyası. 3. Bakı, Yelizavetpol quberniyasının bir hissəsi və Dağıstan vilayəti” [14,139]. Göründüyü kimi, S.Şaumyanın bu bölgüsü heç də “Daşnaksütyun” partiyasının bölgüsündən o qədər də fərqlənmirdi. Lakin Müvəqqəti Hökumətin 1917-ci ilin oktyabrın 26-da Petroqradda baş verən üsyan nəticəsində devrilməsi ilə [7, 222] ermənilərin istəkləri yerinə yetirilmədi. Çevriliş nəticəsində V.İ. Lenin başda olmaqla Rusiyada Sovet hakimiyyəti quruldu.

Xüsusi Zaqafqaziya Komitəsinin (OZAKDM) ləğvindən sonra Cənubi Qafqazda yaranan Zaqafqaziya Komissarlığı və Zaqafqaziya Seymi Osmanlı dövləti ilə ərazi məsələlərini həll etmək üçün danışıqlar aparmaq qərarına gəldilər. Lakin gözlənilmədən Sovet Rusiyası Almaniya ilə Brest-Litovski müqaviləsini imzaladı. Müqavilə 3 mart 1918-ci ildə imzalandı [9, 60-61]. Müqavilədə göstərilirdi ki, Rusiya Şərqi Anadolunun tezliklə təmizlənməsi və onun Türkiyəyə qaytarılması üçün hər şeyi edəcəkdir. Ərdahan, Qars və Batum vilayətləri rus ordularından təmizlənəcəkdir. Rusiya bu vilayətlərdə yeni dövlət – hüquqi münasibətlərin yaradılmasına müdaxilə etməyəcəkdir. Qars, Ərdahan və Batum sancaqlarına münasibətdə 1877-1878-ci il rus-türk müharibəsinə qədərki sərhəd xətti bərpa ediləcəkdir [6, 50]. Lakin Zaqafqaziya Seymi Brest-Litovski müqaviləsinin şərtlərini qəbul etmədi və Petroqrada XKS adına teleqram göndərərək bildirdi ki, “Brest sülhünü tanımır, çünki Zaqafqaziya heç vaxt bolşeviklərin və Xalq Komissarları Sovetinin hakimiyyətini qəbul etməmişdir” [1, 62]. Qeyd etmək lazımdır ki, Zaqafqaziya Seymində təmsil olunan fraksiyalar arasında yekdil mövqe yox idi. Bu ilk növbədə milli fraksiyaların həm özəl maraqları, həm də müxtəlif xarici güclərə meyillənmələri ilə də izah olunmalıdır. Buna görə də gürcü və erməni milli fraksiyaları Osmanlı dövləti ilə yaxınlaşmaq istəmirdilər.

Ermənilər isə öz xətlərinə sadiq qalaraq “türklərdənsə bolşeviklər yaxşıdır, onlar hər halda rusdurlar” prinsipini rəhbər tuturdular. Müsəlman fraksiyası sülh danışıqlarına başlanmasını əngəlləyən çeşidli bəhanələri qəbul etmirdi. O yubatmadan Cənubi Qafqazın müstəqilliyinin elan edilməsinin və Osmanlı ilə sülh danışıqlarına başlanmasının tərəfdarı idi [11, 23]. Ermənilərin Osmanlı dövləti ilə yaxınlaşmaq istəməmələrinin başlıca səbəbi Brest - Litovski müqaviləsinə uyğun olaraq Osmanlı dövlətinə geri qaytarılan Qars və Ərdahan ərazi-

lərinə olan iddiaları idi. Göründüyü kimi ermənilər, təkcə gürcü və Azərbaycan türklərinə qarşı ərazi iddiaları ilə çıxış etmir, eyni zamanda belə gərgin bir tarixi şəraitdə Osmanlı dövlətinə qarşı da ərazi iddiaları irəli sürürdülər. Zaqafqaziya Seymi Osmanlı dövləti ilə ərazi məsələlərini həll etmək üçün 43 nəfərdən ibarət nümayəndə heyətini Trabzona göndərdi. Trabzon konfransı (14.lll - 14.IV.1918) gərgin müzakirələr şəraitində keçdi. Tərəflərin qarşılıqlı irad və tələbləri sülh danışıqlarında diplomatik qarşıdurmaya səbəb oldu. Bu da onların uğursuzluğunu elə bəri başdan şərtləndirdi [11, 26].

Azərbaycan fraksiyasının qəti etirazlarına baxmayaraq, Zaqafqaziya Seyminin erməni - gürcü çoxluğu 1918-ci il aprelin 13-də Osmanlı dövləti ilə müharibəyə başlamaq haqqında qərar qəbul etdi. Müharibədə erməni - gürcü qüvvələri biabırçı şəkildə məğlubiyyətə uğradılar. Zaqafqaziya Seymi Türkiyənin tələblərini yerinə yetirməyə məcbur oldu. Seym 1918-ci il aprelin 22-də Zaqafqaziya Federativ Demokratik Respublikasının yarandığını elan etdi. Bu respublika ilə Osmanlı dövləti arasında mayın 11-də Batumda başlayan danışıqlar mayın 26-da Seymin buraxılması ilə yarımçıq qaldı [3, 253]. Nəticədə, Zaqafqaziya ərazisində üç yeni dövlət yarandı.

Yeni yaradılan respublikaların taleyinin müəyyən edilməsində Osmanlı Türkiyəsinin həlledici rol oynadığı, Ermənistan Respublikasının hansı ərazilərdə yaradılması məsələsini məhz bu dövlətin həll etdiyi də məlum həqiqət idi. Batum danışıqlarında Türkiyə nümayəndə heyətinin tarixən Azərbaycana məxsus bir sıra ərazilərin ermənilərə verilməsinə dair "tövsiyyəsi" və həmin dövr İrəvan quberniyasına daxil olan 7 qəzadan artıq 5-nin, o cümlədən, quberniyanın ikinci böyük şəhəri- Aleksandropolun (Gümrü) türk qoşunları tərəfindən tutulduğu faktı qarşısında "ermənilərə veriləcək siyasi mərkəzin" artıq ancaq İrəvan şəhəri ola biləcəyi həqiqətən qaçılmaz idi [12, 4].

Tarixçi alim, akademik Yaqub Mahmudovun bu məsələ ilə bağlı fikirləri böyük maraq doğurur. Belə ki, akademik vurğulamışdır ki, "1918-ci il mayın 29-da beynəlxalq təzyiq nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının İrəvanın ermənilərə verilməsi barədə qərarı yanlış qərar idi. Milli Şuranınn 28 üzvündən 16-sı bu qərara səs vermişdi. Yəni qərar 2/3 səs çoxluğu olmadan qəbul edilib. İyunun 1-də İrəvandan olan deputatlar – Mirhidayət Seyidov, Bağır Rzayev, Nəriman bəy Nərimanbəyov protest verdilər ki, bu, qeyri-qanuni qərardır". Onun sözlərinə görə, sənədlər sübut edir ki, erməni tərəfi Batum danışıqları və müqavilələrinə (11 may- 4 iyun 1918-ci il) əsasən İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının onlara verilməsi müqabilində üzərinə aşağıdakı öhdəlikləri öz üzərlərinə götürürdü:

1) Ermənistan Respublikası hökuməti erməni silahlı qüvvələrinin ən tez bir zamanda Bakıdan çıxarılması üçün bütün qüvvələri səfərbər edəcək;

2) Erməni tərəfi öhdəsinə götürdü ki, Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilən kütləvi qırğınları dayandıracaq;

3)Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində müsəlmanların sərbəst dini ibadət, mədəniyyət, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin edəcək;

4) Batum danışıqları zamanı əldə olunmuş razılığa əsasən ermənilər Azərbaycana qarşı ərazi iddialarından imtina edəcək [5].

Əfsuslar olsun ki, ermənilər bu öhdəliklərin heç birinə əməl etmədi. 1918-ci ilin yayından etibarən isə təcavüzkar əməllərini davam etdirən erməni hərbi birləşmələrinin hədəfində Azərbaycan torpaqları olan Naxçıvan, Zəngəzur və Qarabağ oldu. Bu isə ermənilərin ərazi iddialarının növbəti mərhələsi idi.

### *Ədəbiyyat siyahısı:*


1. *Azərbaycan Xalq Cümhuriyyəti (1918 - 1920). –Bakı: "Gənclik", 1998, 72 s.*
2. *Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). –Bakı: 1996, 452 s.*
3. *Azərbaycan tarixi (ən qədim zamanlardan - XXI əsrin ilk onilliklərinədək). – Bakı: 2016,338 s.*
4. *Balayev Aydın. Azərbaycan Cümhuriyyətini doğuşu.: 1917-1918-ci illər milli mücadiləsi. – Bakı: 2022, 368 s.*
5. *Erməni dövləti necə yarandı? - İnstitut faktları açıqladı. - Moderator az. 12.02.2018 - ci il.*
6. *Həsənov Cəmil. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918 - 1920 - ci illər). – Bakı: 1993, Azərnəşr, 362 səh.*
7. *Иоффе Г. З. Великий Октябрь и эпилог царизма. – Москва: 1987, 373 с.*
8. *Эльдар И. Степан Шаумян- обреченный на забвение. Портрет «легендарного коммунара» без ретуши. – Баку: Şərq-Qərb, 2012, 446 с.*
9. *История внешней политики СССР. 1917-1985; в двух томах, том первый 1917-1945 гг., 397 с.*
10. *Гасанов Гасан. На пути к Первой Республике. – Баку: 2010, 576 с.*
11. *Musa İsmayıl. Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917-aprel 1920-ci illər). –Bakı: 2011, 312 səh.*
12. *Rüstəmova-Tohidi Solmaz. Bakının azad edilməsi - 100. 525-ci qəzet, №157, 13 sentyabr 2018-ci il.*
13. *Станкевичь В. Судьбы народовъ России. Берлинъ, 1921, 374 с.*
14. *Шаумян С. Г. Избранные произведения в двух томах. Том-2. 1915 - 1918 гг. – Москва: 1978, 976 с.*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ M.Ə.RƏSULZADƏNİN MƏQALƏLƏRİ AZƏRBAYCAN MİLLİ HƏRƏKATININ TƏDQİQİNDƏ ƏSAS MƏNBƏLƏRDƏN BİRİ KİMİ

**Rövşən Hətəmov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrası, t.ü.f.d., dosent*
*rovshanhatamov@bsu.edu.az*

***Açar sözlər:*** *Azərbaycan, M.Ə.Rəsulzadə, milli hərəkat, maarifçilik, mətbuat, Xalq Cümhuriyyəti*

Məhəmməd Əmin Rəsulzadənin çoxcəhətli fəaliyyətini, zəngin ədəbi-siyasi irsini, elmi-nəzəri görüşlərini dərindən, obyektiv və sistemli şəkildə öyrənmədən Azərbaycan tarixinin XX əsrin birinci yarısı, xüsusilə milli, müstəqil Azərbaycanın çağdaş dövlət quruluşunun yaradılması və fəaliyyəti dövrü tarixini müfəssəl tədqiq etmək mümkün deyildir. M.Ə.Rəsulzadə həm tarixi yaradan, həm də yaratdığı tarixi yazan dahi mütəfəkkirlərdəndir. M.Ə.Rəsulzadənin ictimai-siyasi fəaliyyətinin tədqiqi zamanı onun parlaq zəkasının ortaya qoyduğu ideyaların möhtəşəmliyi, milli təəssübkeşliyi daim nəzərə çarpmadadır.

M.Ə.Rəsulzadə dövrünün bir sıra tanınmış mətbuat orqanlarında müntəzəm çıxış edirdi. Bunların arasında romantiklər məktəbi sayılan "Füyuzat" jurnalı, özünün də bir müddət redaktoru olduğu "İrşad", "Tərəqqi" kimi mətbu orqanlar mühüm yer tutur. 1903-1920-ci illərdə M.Ə.Rəsulzadənin onlarla mətbuat orqanında müxtəlif mövzulara, xüsusilə milli hərəkatın ideoloji əsaslarına, xalqın çoxsaylı qayğılarına həsr olunmuş 727 məqaləsi dərc olunmuşdu. M.Ə.Rəsulzadə mətbuatı millətin çırağı hesab edir və bu çırağı daim şöləndirməyə, sönməsinə imkan verməməyə çağırırdı. O, millətin sosial-siyasi və mədəni inkişafında böyük əhəmiyyət daşıyan mətbuatın azad olmasını, təqib və təzyiqlərə məruz qalmamasını vacib sayırdı.

M.Ə.Rəsulzadə ictimai fikir tariximizdə elmin, maarifin, mədəniyyətin qızğın təbliğatçısı kimi tanınır. O, xalqımızın siyasi şüur, maarif və mədəniyyət cəhətdən geriliyinin, avamlığının səbəbini elmsizlikdə, bu sahəyə biganəlikdə, laqeydlikdə və bütün bunların da səbəbini həm çarizmin siyasətində, həm də elmin əleyhinə çıxan, xurafat və cəhalət təbliğ edən ruhanilərdə görürdü. Milləti qəflət yuxusundan oyada biləcək, onun milli şüuruna təsir göstərə biləcək, bütün yaxşı və pis əməllərinə güzgü tuta biləcək hər bir hadisəni M.Ə.Rəsulzadə böyük razılıq hissi ilə qarşılayırdı.

Çarizmin hökmranlıq siyasəti, zorla ruslaşdırma və milli azlıqların hüquqlarının hər cür pozulması milli məsələni cəmiyyətin siyasi həyatının başlıca məsələlərindən birinə çevirdi. Azərbaycan ziyalılarının bir qismi, xüsusilə Rusiya və Qərbi Avropada təhsil alanlar azadlıq hərəkatının liberal qanadına meyl göstərirdilər. Ziyalıların daha gənc və daha romantik nəsli isə hakimiyyətə in-

qilabi yolla gəlmək istəyən partiyalarla – sosial-demokratlar və eserlər ilə ittifaqa girmişdi. Məhz bu gənclər M.Ə.Rəsulzadə ilə birlikdə Azərbaycanda ilk siyasi partiya - "Hümmət" sosial-demokrat təşkilatını yaratdılar. Sosial-demokrat yolunu seçmələrini M.Ə.Rəsulzadə belə izah edirdi: "...bu gənc nəsil birinci rus inqilabı dövründə rus cəmiyyətindən müxalifətə rəğbət bəsləyirdi. Müxalif sosializmdə onlar çarizmə qarşı mübarizədə ən etibarlı da olmasa, hər halda ən əlverişli müttəfiqi görürdülər".

Birinci rus inqilabı illərində M.Ə.Rəsulzadə "Hümmət" təşkilatının orqanları "Hümmət", "Təkamül", "Yoldaş", eləcə də Əhməd bəy Ağayevin nəşr etdirdiyi "İrşad" və "Tərəqqi" qəzetlərinin səhifələrində ən aktual problemleri işıqlandıran çoxsaylı məqalələrlə çıxış etmişdir. “Yatmışları” silkələyib oyatmaq, onların gözlərini açmaq, onları birləşdirib qabaqlarına düşmək, elmə, maarifə, mədəniyyətə doğru aparmaq lazım idi. Belə bir vaxtda millətin xilaskarı M.Ə.Rəsulzadə öz səsini ucaltdı, meydana atılaraq, müasirlərini birliyə, hümmətə çağırdı. Onun “Hümmət və qeyrət vaxtıdır” başlıqlı məqaləsi belə bir zərurətin məhsulu idi.

1907-ci ildə Bakıda Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabinin dəfn mərasimindəki nitqində çıxışı zamanı M.Ə.Rəsulzadə xalqın öz hüquqlarını və azadlıqlarını əldə etmələri üçün hakimiyyət dairələrinə xahişlər ilə müraciət etmələrini təklif edənlərə qarşı sərt cavab verərək qeyd edirdi ki, xalq öz azadlığını qətiyyətli mübarizəsi ilə əldə etməlidir. M.Ə.Rəsulzadə qeyd edirdi ki, “Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz.” M.Ə.Rəsulzadə qeyd edirdi ki, “bizim amalımız başqalarına hakim olmaq, başqalarını əzmək deyil, özümüzün rifah və səadətlə yaşamamız və sair millətlərlə bərabər bəşəriyyətə bir üzv, hamı ilə bərabər mədəni və mütərəqqi bir millət olmaqdır”. M.Ə.Rəsulzadə qəti əmin idi ki, milli ideal, milli istiqlal fikri daim yaşadığı üçün millət ölmür.

M.Ə.Rəsulzadə Azərbaycanın istiqlal mübarizəsinin aparılmasını ayrı-ayrı şəxslərin xidmətləri kimi təqdim olunmasının qətiyyətlə əleyhinə çıxış edərək xalqın bacarıqsız göstərilməsi səylərini pisləyirdi. M.Ə.Rəsulzadə qeyd edirdi ki, görməmək, eşitməmək mümkündür, lakin hiss etməmək, anlamamaq insanın öz ixtiyarında deyildir. Bu insanın öz ixtiyarında olmayan xasiyyət onu azadlığa, özünə ixtiyar sahibi olmağa vadar etmişdir.

M.Ə.Rəsulzadənin dünyagörüşünə məşhur islam maarifpərvəri və filosofu Şeyx Camaləddin Əfqaninin böyük təsiri olmuşdur. Əfqaninin milli inkişaf konsepsiyasının əsas müddəası milli birliyin zəruriliyindən ibarət idi. M.Ə.Rəsulzadə onun "Milli vəhdətin fəlsəfəsi" əsərini fars dilindən tərcümə edərək "Türk yurdu" jurnalında çap etdirdi və onun sonralar yazdığı əsərlərində "milli vəhdət" ideyalarının güclü təsiri duyulur. Bu ideyalar M.Ə.Rəsulzadəni milli özünüdərketmə və milli dövlətin formalaşması problemlərinə yeni prizmadan yanaşmağa vadar edirdi.

M.Ə.Rəsulzadə milli özünüdərkin inkişafında millətin öz tarixini bilməsini vacib şərtlərdən biri hesab edirdi. O, yazırdı ki, bir millətin öz tarixini bilməsi

qədər qüvvətli bir ittifaqın və inkişafın amili təsəvvür oluna bilməz. “Mədəni millətlərdə tarix, həm də vətən və milliyyət tarixi ən mühüm dərslərdən birini təşkil edər.”

Azərbaycanın dağılmış Rusiya imperiyasının tərkibindən çıxmasını xalqlar arasında düşmənçiliyə səbəb olmamasına inanan Rəsulzadə hesab edirdi ki, azərbaycanlıların nifrət etdikləri rus xalqı deyil, çar Rusiyası, müstəbid hökuməti və onun müstəmləkə əsarətidir. Xalqları əsarət altında saxlayan Rusiya hakimiyyətinin tez bir zamanda rus demokratiyasının əlinə keçməsini arzulayan Rəsulzadə bu halda xalqların azadlıq əldə edəcəklərinə inanırdı.

M.Ə.Rəsulzadə Azərbaycanın siyasi idarəçiliyinin parlamentarizm əsasında təşkil edilməsini qətiyyətlə müdafiə edirdi. Bu sahədə o, İngiltərənin müvafiq qanunlarına istinad edilməsini məqbul hesab edirdi. Parlamentin üzvü bütün milləti təmsil etməli, fəaliyyətində tam azad olmalı, hökumət məmuru vəzifəsini tutmamalıdır.

M.Ə.Rəsulzadə “Bizə necə Cümhuriyyət lazımdır?” məqaləsində qeyd edirdi ki, cümhuriyyətlərin bir neçə forması vardır. Onlardan ən yaxşısı insanların hüquqlarını təmin edən Xalq Cümhuriyyətidir. Amma elə cümhuriyyət də var ki, orada millətin imtiyazlı qisminin mənafeyinə xidmət edir. Bir qədər sonra isə bu fikrini genişləndirən M.Ə.Rəsulzadə yazırdı ki, “Cəmaət idarəsinin binası seçki üzərinə qurulmuşdur. Bir adamın keyfi, xahişi və buyruğu ilə olunan idarəyə istibdad (zülm, mütləqiyyət) deyilər”.

M.Ə.Rəsulzadə siyasət meydanında cəmiyyətin bütün təbəqələrinin iştirakına münasibətdə də fərqli yanaşmadan çıxış edirdi. O, siyasətdə gənc nəslin fəal iştirakına tərəfdar idi. Lakin onların ilk növbədə namuslu və əzmkar olmalarını istəyirdi. Siyasətçilərdə şərəfli və namuslu keyfiyyətlərin olmasını vacib hesab edən Rəsulzadə tələb edirdi ki, “Azərbaycan parlamentində oturan məbuslar bu xüsusda açıq alınla oturmalıdırlar, alınları açıq olmayanlar burada oturmasınlar…”

Onun 1910-cu ilin mayında İran inqilabçılarına xitabən yazdığı “Vəsiyyətnamə”si əslində Azərbaycan siyasəti və siyasətçiləri, dövlət adamları üçün arzuladığı meyarlar idi. “1. Yüksək vəzifəyə layiq görmədiyiniz şəxsi həm özünüzü, həm də başqalarını aldadıb böyük tarixi şəxsiyyət fərz etməyin. Çünki, bu cür etsəniz öz təcrübəm əsasında deyirəm – öz başınıza bəla gətirərsiniz. 2. Əgər təzə təşkil edəcəyiniz məmləkətin əsasları köhnədirsə, labüd olaraq inqilabdan keçərək bir milli hökumət təşkil edin. 4. Siyasət meydanında nə qədər mühafizəkar olsanız da, orta yol seçin və ya həddə artıq qızğın olmayın, bir-birinizi ittiham etməyin!.. 5. Əgər nazir olsanız və ya İranda təzə yüksək vəzifəyə çatsanız, öz hərəkətlərinizdə mülahizəli olun. Elə etməyin ki, sizin məlumat və üzrxahlığınız məmləkətə və onun azadlığına xələl gətirsin. 6. Əgər millət vəkili olsanız, öz vəzifənizi bilin və heç vaxt ondan kənara çıxmayın... 8. İdarəyə və ya Milli Məclisə vəkillər seçilən zaman elə adamı seçin ki, onun özünün müstəqil fikri olsun, vicdanla rəy versin. Gözləməsin ki, görək filankəs nə rəy verəcək, mən də onun əksinə rəy verim. 9. Əgər bir hadisə zamanı siz öz millətinizə

layiqli xidmət etsəniz və məşhur qəhrəman olsanız çalışın ki, hərəkətləriniz adsanınıza uyğun olsun. Belə olmazsa, sabah xidmətiniz bir qara qəpiyə dəyməz. 10. Öz çalışqanlığınıza görə bir yerə hakim təyin olunsanız, elə etməyin ki, sizə baxıb zalımlara rəhmət oxusunlar..."

M.Ə.Rəsulzadə ruhanilərin siyasətə müdaxiləsinin qəti əleyhinə çıxış edirdi. Hakimiyyətin bütün xalqa məxsus olduğu cümhuriyyətdə köhnə dövrün qaydalarının bərqərar edilməsini yolverilməz hesab edirdi. O, çağdaş dünyanın siyasi mübarizəsinə istinad edərək deyirdi ki, ruhanilər yalnız dini vəzifələrini icra etməli və heç bir halda hər-hansı siyasi qüvvənin tərəfini saxlamamalıdırlar.

Siyasi müxalifətin hökumətin fəaliyyətinə qarşı münasibətdə qərəzli yanaşmasını yolverilməz hesab edən Rəsulzadə konstruktiv tənqidin tərəfdarı idi. O, qeyd edirdi ki, tənqid dövlət nöqteyi-nəzərindən olmalıdır. "Yoxsa əlinə bir nizə alıb, bir arıq ata minib hər qaraltıya hücum etmək ciddi bir məbus işi deyildir".

M.Ə.Rəsulzadə irsinin öyrənilməsi sahəsində tədqiqatçıların qarşısında mühüm vəzifələr hələ də qalmaqdadır. O, sadəcə, bir siyasətçi və dövlət qurucusu yox, həm də Azərbaycan milli hərəkatının böyük ideoloqu, Azərbaycançılıq ideologiyasının banisi idi.

Azərbaycan Respublikasının prezidentinin 2014-cü il noyabrın 22-də imzalanmış "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında" sərəncamda M. Ə. Rəsulzadə xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmiş və siyasi publisistikası ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadim kimi dəyərləndirilir.

### *Ədəbiyyat siyahısı:*

*1.Rəsulzadə M.Ə. Əsərləri. I cild, Bakı, Təhsil, 2014; II cild. –Bakı: Şirvannəşr, 2001; III cild Bakı, Elm, 2012; IV cild, Bakı, Qanun. 2013; V cild. – Bakı: Qanun. 2014*

*2. Nəsiman, Yaqublu. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. - Bakı: Kitab Klubu, 2013, 504 səh.*

# İLK AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN QADIN SİYASƏTİ

**Sevda Süleymanova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası, t.e.d., professor*
*sevdasuleymanova@bsu.edu.az*

***Açar sözlər:*** *Azərbaycan Cümhuriyyəti, maarifçilik, ictimai-siyasi hərəkat, qadın siyasəti*

Bütün dünyada ictimai hərəkat maarifçilikdən başlayır. XIX əsrin sonu - XX əsrin əvvəllərində azərbaycanlı qadınların böyük əksəriyyətinin savadsızlığı, onların ictimai-siyasi hərəkatdan kənarda qalmalarına səbəb olmuşdu. Avropa, rus və yerli ziyalılar, eləcə də mətbuat bunun səbəbini, guya İslam dininə görə müsəlman qadının heç bir hüququnun olmamasında görürdülər. Halbuki Cənubi Qafqazın Şeyxülislamı Axund Əbdüssəlam Axundzadə yeni nəslin tərbiyəsində ən mühüm rolun anaya məxsus olduğunu vurğulayırdı: "Uşaqlar ananın bütün keyfiyyətlərini özlərində əxz etdirirlər. İslam dini kişi və qadınlara təlim-tərbiyə məsələsində heç bir fərq qoymur. Məhəmməd Peyğəmbər demişdir ki, "Elmlərə yiyələnmək bütün müsəlman kişi və qadınlar üçün vacibdir" [6]. Bu mənada, böyük mesenat, milli burıuaziyanın ən görkəmli nümayəndəsi H.Z.Tağıyevin 1901-ci ilin oktyabr ayındaaçdığı qızlar məktəbinin Azərbaycan qadınlarının ziyalı təbəqəsinin meydana gəlməsində xüsusi rolu olmuşdur. Məhz həmin məktəbin müəllimləri və məzunları azərbaycanlı qadınların sosial həyatda, xüsusilə ictimai-siyasi hərəkatda fəal iştirakına vəsilə oldular. Onlar ilk növbədə Müsəlman qadın xeyriyyə cəmiyyətləri yaradaraq onların savadlanması və cəmiyyət üçün yararlı olmaları uğrunda mübarizə aparırdılar.

1918-ci ilin 28 may günü Müsəlman Şərqində ilk Xalq Cümhuriyyətini elan etmiş Azərbaycan xalqının, o cümlədən qadınının həyatına bir günəş doğdu. Azərbaycan Cümhuriyyətinin həmin gün qəbul etdiyi ilk proqram sənədi olan "İstiqlal bəyannaməsi"nin 4-cü bəndində milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən və cinsindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşlarına vətəndaşlıq və siyasi hüquqlarına zəmanət verilirdi [3, v.3; 4]. Bu isə, demokratik ABŞ və Avropadan xeyli əvvəl məhz Azərbaycanda ilk dəfə qadınların kişilərlə hüquq bərabərliyinin rəsmən elan olunması demək idi. Müstəqillik aktında bəyan edilən prinsiplər ilk mərhələdə deklarativ xarakter daşıdığından qarşıda hələ bu sahədə çox görülməli iş var idi. Fədakar vətənpərvər Cümhuriyyət qurucuları bu prinsipləri həyata keçirərkən ağır çətinliklərlə qarşılaşdılar. Milli Şuranın və Fətəli xan Xoyskinin başçılıq etdiyi müvəqqəti hökumətin demokratik dəyişikliklər etmək cəhdi, xüsusilə qadınlara kişilərlə bərabər hüquq verməsi cəmiyyətin bəzi dairələri tərəfindən onların imtiyazlarına təhlükə kimi qiymətləndirilirdi. 23 avqust 1918-ci il tarixli "Azərbaycan vətəndaşlığı haqqında" Əsasnamə və 11 avqust 1919-cu ildə Parlamentin qəbul

etdiyi "Azərbaycan vətəndaşlığı haqqında" Qanunda da milli, siyasi, dini, sosial və cinsi mənsubiyyətindən asılı olmayaraq, vətəndaşların hüquq bərabərliyi təsbit olundu. Azərbaycan Cümhuriyyətinin seçki qanununa görə, ilk dəfə qadınlara seçib – seçilmək hüququ verildi. Azərbaycan qadını özü də bu hüquqların həyata keçirilməsi uğrunda mübarizə aparırdı.

Geniş publisistik fəaliyyətinə görə Şərqdə ilk qadın-jurnalist hesab edilən Şəfiqə xanım Əfəndizadə Azərbaycan qadınlarını təhsilli, savadlı, dünyagörüşlü görmək istəyərək, onlara: "Analar! Qızlarınızı oxudun! - deyə çağırış edirdi. O, "Azərbaycan" qəzetində dərc olunmuş "Milli bayram və qadınlarımız" adlı məqaləsində yazırdı: "Mayın 28-də Azərbaycan istiqlalı sənayi-dövriyyəsi münasibətilə milli bayram təşkil olundu. O günün şərəfindən, təsirindən hər kəs, hər kəs məğrur idi" [2].

Cümhuriyyətin qurucularından olmuş görkəmli ictimai-siyasi xadim Adil xan Ziyadxanlı 1919-cu ildə müstəqilliyin ildönümü ilə əlaqədar Azərbaycanın tarixi, ədəbiyyatı və siyasəti barədə dərc etdirdiyi silsilə məqalələrindən birində xalqın milli və demokratik hərəkatında Azərbaycan qadınlarının rolunu yüksək qiymətləndir-mişdi [9].

Azərbaycan milli – azadlıq hərəkatının lideri və Cümhuriyyətin banisi M.Ə.Rəsulzadə, sonralar istiqlal dövründə qadınların vəziyyəti haqqında yazırdı ki: "kişi vəqadınlar... hər hansı imtiyazsız ölkənin idarə edilməsində iştirak etmək və qanunvericilik orqanlarına daxil olmaq hüququna malik idilər" [8, səh.53]. Həqiqətən də Parlament və Hökumət aparatında qadınlar inzibati vəzifələrdə çalışırdılar. Parlamentin dəftərxana rəisinin köməkçisi vzifəsini Şəfiqə xanım Əfəndizadə tuturdu [1, səh.101; 5, səh. 543-551]. Leyla Sulkeviç, Gülsüm Sübhanqulova, Fatma Dagirova Hökumətin İşlər İdarəsinin dəftərxanasında kargüzar, Nazirlər Sovetinin katibliyində Səyyarə Atamalıbəyova dəftərxana əməkdaşı, Lətifə Davudova xüsusi şöbədə korrektor vəzifələrində çalışırdılar [1, h.3, səh.4]. Kargüzar və qeydiyyatda çalışan qadınlar arasında Humay Atakişiyeva, Ceyran Şirinzadə - Bayramova, Rübabə Yaqubzadə, Zeynəb Rizvanova və b. da var idi [1, səh.33]. Xarici işlər nazirliyinin diplomatiya şöbəsində Fatma Qiyasbəyova və Tamara Əliyeva, Xalq maarifi nazirliyində Eynül-Həyat Usubbəyova, Daxili işlər nazirliyinin dəftərxanasında Mədinə Sultan Pisseyeva, Yollar nazirliyində Firəngiz Rizayeva, Zəhra Kazımbəyova, Əmək və əkinçilik nazirliyində Xədicə Abdullayeva, Humay Atakişiyeva çalışırdılar [7, səh.20, 33-34]. Ümumilikdə idarəetmə orqanlarında 26-dan çox müsəlman qadını işləyirdi. Bu isə, təbii ki, Azərbaycan hökumətinin qadın siyasətinin uğuru idi.

### *Ədəbiyyat siyahısı:*

*1. Адрес-Календарь Азербайджанской Демократической Республики на 1920 г. (на тюркском и русском языках). - Баку: Правительственное издательство «Азербайджан», 1920, ч. 4, с.101*

*2. Azərbaycan, 1919, 5 iyun*
*3. Azərbaycan Respublikası Dövlət Arxivi, f.894, siy.10, iş 50, v.3*
*4. Азербайджанская Демократическая Республика (1918-1920). Законадательные акты. (сборник документов). - Баку: Издательство Азербайджан, 1998, 580 с.*
*5. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. – Баку: 1998, 862 с.*
*6. Каспий, 1901, 7 октября*
*7. Назарли А.Э. Деятельность правительства АДР в области среднего образования//Труды научной конференции, Баку, 127 с.*
*8. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 110 s.*
*9. Ziyadxan A. Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat //"Azərbaycan" qəzeti 1919, 14 aprel*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ERMƏNİ TƏCAVÜZÜNƏ QARŞI MÜBARİZƏSİ

**Rabil Süleymanlı**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası, t.ü.f.d, baş müəllim*
*rabilsuleymanli@ bsu.edu.az*

***Acar sözlər*****:** *Cümhuriyyət, təcavüz, sülh konfransı.*

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunan vaxtdan süqutuna kimi qarşısında duran ən böyük problemlərdən biri Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü idi. Ermənistan Respublikasının elan edildiyi ilk günlərdən daşnak rəhbərliyi azərbaycanlı əhaliyə qarşı kütləvi soyqırım siyasətini genişləndirməyə başladı. Çox təəssüf ki, gələcəkdə dövlətdə yüksək post tutacaq Cəfərov, Seyxulislamov, Xoyski və başqalarının da səs verdiyi İrəvan şəhərinin güzəştindən sonra erməni millətçiləri artıq 1918-ci il iyunun ilk günlərində keçmiş İrəvan quberniyasında 206 azərbaycanlı kəndini darmadağın etdilər. Daşnak Respublikasının yollarında soyuq və aclıqdan 150 mindən çox müsəlman qaçqın məhv oldu [2, 2]. Bu hərəkəti ilə Ermənistan başçıları faktiki olaraq qonşu Azərbaycana qarşı ilk təcavüzə başladı. Tarixən bu ərazidə məskunlaşıb öz doğma torpaqlarında yaşayan əhalini qovmaqla onlar bu təcavüzü Azərbaycan hökumətinin ölkə ərazisi hesab etdiyi başqa yerlərə də yaydılar. Daşnak ordusu və çoxsaylı erməni quldur dəstələri Ermənistan Respublikası ərazisində azərbaycanlılar yaşayan kəndləri dağıdaraq Azərbaycan sərhədlərinə yaxınlaşdıqca ölkə çətin vəziyyətə düşürdü. Azərbaycan hökuməti müharibənin qarşısını almaq üçün böyük çeviklik və qətiyyət göstərirdi. Amma Azərbaycan hökuməti təkcə erməni dövləti ilə deyil, həm də öz siyasətini yalan və şər üzərində quran daşnak partiyasına tabe strukturlar ilə qarşılaşmalı, iş aparmalı idilər. Yarandığı ilk aylarda Azərbaycan hökuməti daşnakların Avropadakı təbliğatlarına qarşı faktiki olaraq gərəkli addımlar atmaqla bu təbliğatın qarşısını almağa, Azərbaycanın haqq səsini dünyaya çatdırmağa çalışırdı. Bu yöndə ilk cəhdləri Azərbaycan dövlətinin fövqəladə və səlahiyyətli naziri Əlimərdan bəy Topçubaşov etmişdi.

O, 1918-ci il avqustun 20-də "Azərbaycan Respublikasının mənafeyinə aid bütün məsələləri üzrə fövqəladə səlahiyyətlə Osmanlı dövlətinə göndərilmişdi" [1].

1919-cu ilin yanvarına qədər İstanbulda qalan Topçubaşov Türkiyənin ali dövlət xadimləri, o sıradan ABŞ, Böyük Britaniya, İtaliya, Hollandiya və başqa dövlətlərin diplomatik nümayəndələri ilə görüş və söhbətləri haqqında arayış hazırlayaraq Xarici İşlər Nazirliyinə göndərir. Türkiyənin Xarici İşlər Naziri Nəbi bəy ilə görüşündə Topçubaşov ermənilərin Qarabağın bir sıra bölgələrinə (Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur və s.) ərazi iddialarına Türkiyənin diplo-

matik münasibət göstərməsini xahiş edir [3].

O bildirdi ki, "Bizim hökumətin Andronik kimi avantüristlərin bandasının pozduğu sabitliyi qorumaq üçün bölgəyə ordu göndərmək hüququ var [3]. Xarici diplomatlarla görüşlərində Ə.Topçubaşov erməni təcavüzkarlarının ikiüzlü siyasətini məharətlə ifşa edirdi. "Bütün bunlar Avropanın diqqətini cəlb etmək üçün quraşdırılır və uydurulur, indi ermənilər tez-tez belə fəndlərə əl atırlar [4]. Məsələni sülh yolu ilə həll etmək istəyən Azərbaycanın bütün təşəbbüslərini Ermənistan qulaqardına vurur, Qarabağ, Zəngəzur və b. bölgələrdə isə quldurluq hərəkətləri davam edirdi. Bu məsələ Paris sülh konfransında da özünü göstərdi. Azərbaycandan fərqli olaraq ermənilər nəinki, münasibətləri yaxşılaşdırmaq üçün addımlar atır, hətta Aralıq dənizindən Xəzər dənizinə qədər ərazisi olan "Böyük Ermənistan" ideyasını qanuniləşdirməyə çalışırdılar. Konfrans başa çatdıqdan dərhal sonra 1919-cu ilin iyunundan Qarabağda erməni silahlı dəstələri Azərbaycanın qanuni hakimiyyət orqanlarına və dinc əhaliyə qarşı qırğını daha da gücləndirdilər. Erməni təcavüzünə qarşı mübarizədə Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov böyük rol oynamışdı.

X.Sultanov diplomatik ustalıqla Qarabağ konfliktinin nisbətən zəifləməsinə, qayda-qanun yaradılmasına imkan yarada bilmişdi. AXC hökuməti hər iki erməni nümayəndəliyinin Paris Sülh Konfransının başçısına təqdim etdiyi xususi məktub və memoruradakı yalan və böhtanlara operativ reaksiya verdi. Bu sənədlər irəvanda qəbul edilən və heç bir beynəlxalq hüquqa uyğun olmayan "vahid Ermənistan" aktı ilə üst-üstə düşürdü. Sənədlərdə ermənilərin qanunsuz iddiaları təkrar olunur, yeni ideya irəli sürülürdü. Bu ideyaya görə Antanta tərəfdaşı hüququnda bir daşnak dövləti yaranır və guya müharibədə vuruşan tərəf kimi öz haqqını tələb edirdi. Xarici İşlər Nazirliyinin katibi Sübhanverdixanov bu arada bir məruzə ilə çıxış edir. Məruzədə Qərbi Avropada təbliğatın genişləndirilməsinin vacibliyi vurğulanırdı: Qərbi Avropada təbliğat mərkəzi yaradılmalıdır. Burada qarşıya iki məqsəd qoyulmalıdır – bizim haqqımızda olan yalan və tendensiyalı məlumatlara qarşı çıxmaq və Azərbaycan haqqında həqiqətləri daha geniş yaymaq Sübhanverdixanov dərhal təbliğat kampaniyasına başlamaq üçün Xarici İşlər Nazirliyinin bütün qüvvələrini səfərbəyliyə almağa çağırırdı. Hökumətin, ilk sırada da N. Yusifbəylinin göstərişlərini nəzərə alaraq Xarici İşlər Nazirliyi tərəfdaş hərbi komandanlığının Bakı qərargahına, Gürcüstan və Ermənistandakı diplomatik nümayəndələrinə, Ermənistanın, AXC-dəki təmsilçisinə sorğu göndərdi. Xarici İşlər Nazirliyinin təqdimatı ilə Avropada Qafqaz müsəlmanlarının gerçək vəziyyətini geniş işıqlandırmaq üçün Azərbaycan Parlamenti 10 milyon manat pul ayırdı. Azərbaycan Nazirlər kabinetinin qərarı ilə Avropa ictimaiyyətini Ermənistanda yaşayan müsəlmanların durumu ilə tanış etmək üçün Azərbaycan, Ermənistan, Avropa nümayəndələrinin birləşdiyi komissiya yaratmaq qərara alındı.

Bu məqsədlə iyunun 4-də Azərbaycan Xalq Cumhuriyyətinin Ermənistandakı diplomatik nümayəndəsi Təkinkiyə şifrəli teleqram göndərdi. Onun yaxından köməkliyi ilə İrəvan müsəlmanlarının milli şurası təcili olaraq İrəvan qu-

berniyasında yaşayan müsəlmanların dözülməz vəziyyəti ilə bağlı materiallar toplayaraq iri dövlətlərə çatdırılması üçün Xarici İşlər Nazirliyinə verdi. XİN bu məlumatları Paris Sülh konfransındakı nümayəndələri vasitəsi ilə yığıncaq iştirakçıları arasında yaydı. Materialda Ermənistan əhalisinin yarısını təşkil edən azərbaycanlıların ən adi hüquqlardan məhrum edilərək sıxışdırıldığı, erməni quldurlarının dinc əhalini məhv etdiyi bildirildi. Xarici İşlər Nazirliyi xüsusi olaraq vurğuluyurdiki, bütün Avropa və Amerika heç zaman baş verməyən erməni soyqırımı haqqında “xəbərlər” açsa da, təkcə İrəvan quberniyasının cənubunda yüzlərlə müsəlman kəndinin dağıdılmasından, 150 min müsəlman qaçqınının acınacaqlı vəziyyətindən xəbərsiz idi. Sənədə ermənilərin boşaltdığı Azərbaycan kəndlərinin siyahısı da əlavə edilmişdi [5].

1919-cu il iyunun 25-də Azərbaycan hökuməti Ermənistan hökumətinə nota göndərərək, iki dövlət arasındakı münasibətləri sülh yolu ilə həll etməyi təklif etdi [6]. Azərbaycan təklif edirdi ki, ölkə arasında münaqişəni həll etmək üçün hər iki ölkənin nümayəndələrinin təmsil olunduğu komissiya yaradılsın. Iyunun 25-də Ermənistan bu təklifə razılıq verdi. Ancaq əməli işdə Ermənistan qanlı olayların obyektiv öyrənilməsi üçün hər cür maneə yaradırdı. Buna görə Azərbaycan hökuməti ermənilərin törətdikləri təcavüzkar hərəkətlər haqqında Naxçıvan, Qarabağ, Zəngəzur və Qazaxdan gələn informasiyaları toplayır, sistemləşdirir, analiz edir, hesabat hazırlayırdı. Belə hesabatlardan biri Zəngəzur haqqında hazırlanmışdı.

Hesabatda ermənilərin 1920-ci ilin əvvələrində Zəngəzurda müsəlman əhaliyə qarşı törətdiyi vəhşiliklər faktlarla əks olunurdu. Bəzi faktlara nəzər salaq. Qarabağ general-qubernatorunun 10 yanvar 253№-li teleqramında göstərilirdi ki, ermənilər Azərbaycan kəndi olan Saldaşa hücum etmiş və kənd sakini Ağamalı Əhməd oğlunu öldürmüşdür. Komissiya sədri Əlibəyov yanvarın 21-də Parlament sədrinə göndərdiyi 137 №-li teleqramda məlumat verirdi ki, yanvarın 20-də erməni nizami ordusu Xojagen və Qalaqdərəsi arasında olan kəndlərə qəfildən hücum edərək arteleriya və pulemyotlarla kədləri dağıtmış, qarət etmiş və yandırmışdılar. Onlar görünməmiş vəhşiliklər törətmişdilər. Çoxlu qaçqın var.

X.Sultanovun Qarabağda gördüyü işlərə etiraz edən Ermənistan hökumətinə AXC XİN-yi nota ilə cavab verdi [7]. Sənəddə general - qubernatiorun fəaliyyət dairəsindəki Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının Azərbaycanın ayrılmaz hissələri olduğu bildirilirdi. Buna görə də Ermənistan hökumətinin Sultanovun işinə və Azərbaycan Ordusunun Qarabağda yerləşdirilməsinə etirazı Azərbaycan Xalq Cümhuriyyətinin daxili işinə qarışmaq deməkdir.

Daşnakların növbəti təcavüzkar hərəkətləri Xarici İşlər Nazirliyini yeni diplomatik bəyanat və etiraz sənədləri verməyə məcbur edirdi. 1919-cu il noyabrın 23-də hər iki ölkə hərbi əməliyyatları dayandırmaq, bütün mübahisəli məsələləri sülh yolu ilə nizamlamaq üzrə saziş imzaladılar.

Müqavilədə göstərilirdi ki, hər iki tərəf toqquşmalara son qoymağa və yenidən silaha əl atmamağı, Zəngəzurda sülh yaratmaq üçün lazım olan bütün

tədbirləri görməyi, bütün məsələləri, o cümlədən sərhəd məsələlərini sülh yolu ilə həll etməyi və konfrans keçirməyi qərara alırlar.

Lakin sonrakı hadisələr göstərdi ki, ermənilər öz xislətlərindən əl çəkmək fikrində deyillər. Onların məqsədi Azərbaycanı arxayın salıb öz cirkin niyyətlərini həyata keçirməkdir.

Qarabağdakı hərbi əməliyyatlarla kifayətlənməyən daşnaklar öz təcavüzlərini daha da genişləndirərək Qazax qəzasına daxil oldular. 1920-ci il aprelin 8-də Azərbaycan Xarici İşlər Naziri Fətəli xan Xoyski ermənilərin Qazax qəzasının Yardulla, Axucu, Tovuz, Qala, Kibaxululaq kəndlərinə hücumları ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyinə nota göndərdi. Sənəddə hücumlarda general Baqdasarovun başçılıq etdiyi nizami ordunun da iştirak etdiyi bildirilirdi. Xoyski tələb edirdi ki, Azərbaycan ərazisinə hücumlar dərhal dayandırılsın, erməni silahlı dəstələri geri çağrılsın. Bəhs etdiyimiz dövrdə erməni təcavüzünə qarşı mübarizədə AXC Xarici İşlər Nazirliyi mühüm rol oynamışdı. AXC XİN-yi erməni təcavüzünə qarşı önəmli diplomatik iş aparmış, Ermənistanın və başqa ölkələrin xarici siyasət idarələrinə diplomatik sənədlər göndərmiş, xaricdəki diplomatik nümayəndələrini xəbər və təlimatlarla təmin etmiş, beynəlxalq konfrans və sülh danışıqları keçirmişdi. Daşnakların vəhşiliyi haqqında geniş və obyektiv informasiya almaq üçün yerlərdən gələn bütün xəbərlər toplanır, analiz edilir, sistemləşdirilir, ardıcıl olaraq erməni hökumətinə tərəfdaş dövlətlərin komandanlığına göndərildi. Nota, bəyanat və teleqramların mətnləri yeri gəldikcə dəyişdirilir, daha sərt və konkret olurdu. AXC XİN-yi açıq və prinsipial şəkildə Ermənistan qarşısında soyqırım siyasətinə son qoymağı tələb edir, baş verən qanlı olaylar üçün bütün məsuliyyəti daşnak hökumətinin üzərinə qoyurdular.

Mövcud olduğu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti erməni işğalçılarına qarşı istər döyüş bölgəsində, istərsə də diplomatik mübarizədə qətiyyətlə mubarizə aparmış və Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlamışdı. 1920-ci il aprelin 28-də Azərbaycan sovet Rusiyası tərəfindən işğal ediləndə ərazisi 114 min kv.kilometr idi. İşğaldan cəmi 10 il sonra Rusiyanın köməyi ilə xeyli Azərbaycan torpaqları Ermənistana verildi. Nəticədə sovet dövründə Azərbaycan ərazisi 86,6 min kv. kilometr oldu.

### *Ədəbiyyat siyahısı:*

*1. ARDA. F.970, siy.1, is 1, səh.2*
*2. ARDA.is.5, səh.l.*
*3. ARDA.f.894. siy.10 is 150, səh. 1-3*
*4. ARDA.f.894. siy.10 is 150, səh. 24*
*5. ARDA.f.970, siy.1.iş.216, səh.1.*
*6. ARDA.f.2767, siy.1.iş.470, səh.16.*
*7. Xəbərlər. Azərbaycan qəzeti, 1919, 26 iyun №131*

# ƏLİ BƏY HÜSEYNZADƏNİN TÜRKÇÜLÜK BAXIŞLARINA DAİR (AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASI KONTEKSTİNDƏ)

**Səidə Əli qızı**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, t.ü.f.d, dosent*
*saidaalikizi@mail.ru*

***Açar sözlər:*** *milli – azadlıq, hərəkat, türkçülük, mübarizə*

2023-cü ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 105-ci ildönümü qeyd olunur. Xalqımızın dövlətçilik tarixinin ən şanlı səhifələrindən biri olan, qısa bir müddər ərzində olsa da, milli müstəqilliyimizi, bizə bəxş edən, milli qürur və iftixar hissimizin əbədi olaraq yaşamasını gələcək tariximiz boyu təmin edən AXC-nin yaranmasına aparan yolda, onun qurulmasında və fəaliyyətində Azərbaycanın bütöv bir nəsil ziyalılarının, ictimai-siyasi və sonrakı dövrdə dövlət xadimlərinin misilsiz rolu olmuşdur. Bunların sırasında xalqımızın milli-azadlıq hərəkatının parlaq simalarından biri, həm AXC-nin, həm də onun varisi olan müasir Azərbaycan Respublikasının Üçrəngli bayrağının müəllifi hesab edilən Əli bəy Hüseynzadə (Turan) (1864-1940) müstəsna yer tutur.

Əli bəy Hüseynzadə bütövlükdə Türk dünyasının tarixində böyük Türkçü və Turançı adı ilə məşhurdur. Onun türkçülük və Turançılıq baxışlarının formalaşması hələ uşaq yaşlarından başlamışdır. Ruhani ailəsində dünyaya göz açan Əli bəy 32 il Qafqazın Şeyxülislamı olmuş Axund Əhməd Hüseynzadənin nəvəsi idi. O ilk təhsilini Tiflisdə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdində fəaliyyət göstərən altısinifli məktəbdə, daha sonra birinci şəhər gimnaziyasında almışdı. Gimnaziyada oxuduğu 10 il (1875-1885) müddətində o rus, latın, yunan, ərəb və fars dillərini öyrənir, rus və qərb ədəbiyyatı ilə tanış olur, yunan dili müəllimlərinin təkidi ilə yunan, alman və ingilis filosoflarının əsərlərini mütaliə edir. Sonralar Əli bəy Tiflisdəki təhsili barədə yazırdı: "Bu təhsili ibtidaim qurani-kərimin qiraəti ilə farsi-əlifbaya, tarixi Nadirin və Gülüstani-Sədinin mütaliəsinə münhəsir qaldı. Bir uşağın bu surətlə öz ana dili ta ibtidaidən ehmal olunub ona zorla əçnəbi dilləri təhsil etdirilirsə nə nəticə hasil olur? Məncə buradakı çalışmamızın qismi havaya getdi, çünki türk olduğum halda türkcə bilmədim, müsəlman olduğum halda quranı anlamadım" [1].

O 1885-ci ildə Peterburq universitetinin fizika-riyazyyat fakültəsinə daxil olur və 1889-cu ildə burada təhsilini başa vurduqdan sonra Türkiyəyə gedir. 1890-1895-ci illərdə İstanbul universitetinin hərbi tibb fakültəsində təhsil alır. Əli bəy haqqında bir çox yazıların müəllifi olan Yusif Akura yazırdı: "Əli bəyin tibb məktəbinə gəlişi təzə və xoş bir Avropa havasının əsməsi kimi oldu. Anadolu və Rumelinin ucqar və geri qalmış yerlərindən gələn tələbələrin topla-

nıldığı bu məktəbdə Əli bəy bir şimal günəşi kimi parlayır... Əli bəy İstanbul məktəbi-tibbiyəsinə qərb əfkarını, qərb ədəbiyyatını, qərb kültür və mədəniyyətini, bir sözlə qərbi tanıtmaqda professorlardan çox xidmət etdi" [2].

Əli bəy Hüseynzadə Rusiyada olduğu kimi Türkiyədə də despotizmlə və irticanın tüğyan etməsi ilə qarşılaşır. Çünki bu illər Türkiyədə gənc türklər hərəkatının meydana çıxdığı, türkcülük görüşlərinin yayıldığı, gizli ittihadçılar cəmiyyətinin yarandığı illər idi. Həmin cəmiyyət "İttihadi-osmani" adı altında hərbi tibb məktəbinin bir qrup kursantı tərəfindən 1889-cu il mayın 21-də yaradılmışdı və 1894-cü ildən "Gənc türklər" adlanırdı [3, s.24].

Bu cəmiyyət, bir tərəfdən yeni osmanlıların sultan II Əbdülhəmid (1876-1909-cu illərdə hakimiyyətdə olmuşdur – S.Ə.) istibdadına qarşı konstitusiyalı quruluş uğrunda mübarizə ideyalarını davam etdirir, digər tərəfdən yeni osmanlılardan fərqli olaraq milli tərəqqi amalı ətrafında bütün türk xalqlarını hərəkətə gətirmək, onları bu ideal ətrafında birləşdirmək məqsədini güdürdü [3, s.24-25].

Məlumdur ki, Türkiyədə türkçülük məfkurəsini gündəmə gətirən, özü ən böyük türkçü olub, "Türkçülüyün əsasları" kitabını yazan Ziya Göyalp olmuşdur. Mustafa Kamal Ziya Göyalpı "fikrimin atası" adlandırmış, Əhməd bəy Ağaoğlu onun haqqında: "Türkün ölməyəcəyinə onun qədər inanmış bir adama hələ ki, təsadüf etmədim" demişdir [4, s.6].

Ziya Göyalp həmin kitabında yazır ki, "türkçülüyün ilk ataları Əhməd Vefiq paşa (1823-1891 – Türkiyədə tanınmış siyasi xadim, yazıçı, dilçi, tarixçi – S.Ə.) və Süleyman paşadır (1838-1892 – görkəmli sərkərdə və yazıçı – S.Ə.). "Türkiyədə II Əbdülhəmid bu axımı dayandırmağa çalışarkən Rusiyada iki böyük türkçü yetişirdi. Bunlardan birincisi Mirzə Fətəli Axundzadədir ki, azəri türkcəsində yazdığı orijinal güldürülər – komediyalar bütün Avropa dillərinə çevrilmişdir. İkincisi isə Krımda "Tərcüman" qəzetini çıxaran Qaspıralı İsmaildir. Onun türkçülükdəki şüarı "dildə, fikirdə və işdə birlik" idi [4, s.27]. Daha sonra müəllif yazır: "Rusiyadan İstanbula gələn Hüseynzadə Əli bəy Tibbiyədə (Tibb məktəbində) türkçülüyün əsaslarını başa salırdı. "Turan" adlı şeri "Turançılıq ülgüsünün – ideyasının ilk ortaya qoyuluşu idi... Hüseynzadə Əli bəy Rusiyadakı millətçilik axımlarının – cərəyanlarının təsiri ilə türkçü olmuşdu. Xüsusilə kollecdə ikən gürcü gənclərindən son dərəcə millətsevər olan bir dostu ona millət sevgisini aşılamışdı" [4, s.28].

II Əbdülhəmid rejiminə qarşı məşhur "İttihad və tərəqqi" partiyasının əsasını qoyanlardan biri olan Əli bəy sultan xəfiyyələri tərəfindən təqib olunduğu üçün 1903-cü ildə Bakıya köçməyə məcbur olur və 1910-cu ilə qədər burada jurnalistlik fəaliyyəti ilə yanaşı geniş ictimai-siyasi fəaliyyətlə də məşğul olur, "Kaspi" və "Həyat" qəzetlərində və 1906- 1907-ci illərdə isə "Füyuzat" jurnalında çalışır. Onun çoxşaxəli fəaliyyətinin təməlində türkçülük və turançılıq məfkurəsi əsas yer tuturdu. O ilk dəfə olaraq türk xalqlarının milli birliyi, müstəqil dövlətçiliyi ideyasını irəli sürmüş, onun elmi-nəzəri əsaslarını işləyib hazırlayaraq, qüvvətli ideoloji hərəkata çevrilməsinə nail olmuşdu. Əli bəy Hü-

seynzadəyə görə gələcəkdə yaradılması nəzərdə tutulan dövlət quruculuğunda müasir türk insanı "Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafəli fədai" olmalıdır. Onun türkçülük və turançılıq baxışları xalqımızın milli-azadlıq hərəkatının ideologiyasına çevrilmiş və bu ideologiya Azərbaycan Xalq Cümhuryyətinin yaradılmasında misilsiz rol oynamışdır [5, s.437-439].

### *Ədəbiyyat siyahısı:*

*1.Hüseynzadə Ə.B. "Nümunə məktəbi". "Həyat", 1906, № 185*
*2. Akçura Yusif. Hüseynzadə Əli bəy. "Türk yurdu", 1331, c. 8, № 5*
*3. Hüseynzadə Əli bəy. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Seçilmiş məqalələr. Tərtibçi Ofelya Bayramova. – Bakı: Azərnəşr, 1996, 253 səh.*
*4. Göyalp Ziya. Türkçülüyün əsasları. – Bakı: "Maarif", 1991, 175 səh.*
*5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. – Bakı: "Lider nəşriyyatı", 2004, 440 səh.*

# MAARİFÇİLİK HƏRƏKATI AZƏRBAYCAN MİLLİ İDEOLOGİYASININ FORMALAŞMASININ BAŞLANĞICI KİMİ

**Sevinc Qasımova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, t.ü.f.d., dosent*
*qasimovasevinc@mail.ru*
*ORCID ID: 0000-0002-5416-5025*

***Açar sözlər:*** *Cənubi Qafqaz, müstəmləkəçilik siyasəti, özünüdərk prosesi, maarifçi ideologiya*

Vətən tarixşünaslığımızda öyrənilməsi hər zaman aktual mövzulardan biri olan maarifçi-demokratik hərəkat həm sovet, həm də çağdaş dövrdə müxtəlif tədqiqatçıların diqqətini çəkmişdir. Hər iki dövrdə yazılmış əsərlərdə maarifçilik hərəkatının mənşəyi, onun inkişafı və gələcək milli ideologiyamıza necə təsir göstərməsi fərqli baxışlar istiqamətində araşdırılmışdır. Məqalədə maarifçiliyin meydana çıxdığı tarixi şərait, onun əsas mərhələləri, ona təkan verən amillər, maarifçiliyin ideyadan maarifçi-demokratik hərəkata çevrilməsi, müxtəlif ölkələrdə bu hərəkatın meydana gəlməsi və onların qarşılıqlı əlaqələri təhlil olunacaq. Eyni zamanda maarifçi-demokratların ideya və düşüncələrini formalaşdıran mühit, onların mövcud quruluşa olan münasibəti bu problemlə məşğul olan müəlliflərin əsərlərinin təhlili ilə müqayisə ediləcək.

Azərbaycan tarixinin inkişaf mərhələlərini nəzərdən keçirdikdə maarifçilik hərəkatının qədim köklərə malik olduğunun bir daha şahidi oluruq. Azərbaycanda maarifçilik hərəkatının inkişafına həm qərbdə baş verən proseslərin, həm də Qərb düşüncə və ədəbiyyatının mühüm təsiri olmuşdur. Eyni zamanda bu hərəkat cəmiyyətin siyasi, sosial, mədəni həyatına yeni forma və konsepsiya gətirmişdi.

Məlumdur ki, XVIII yüzilliyin sonu və XIX yüzilliyin əvvəlləri Azərbaycanın siyasi vəziyyəti son dərəcə ağırlaşmış, Rusiya imperiyası və Qacarlar dövlətinin işğalçılıq siyasəti nəticəsində vahid Azərbaycan torpaqları iki hissəyə parçalanmışdı. Bu zaman Cənubi Qafqazda baş verən proseslər bütövlükdə bölgəyə öz təsirini göstərirdi. Belə ki, bir tərəfdən feodal münaibətləri dağılır, digər tərəfdən yeni- kapitalist münasibətləri bərqərar olurdu. Çarizm işğaldan sonra diyarın idarə edilməsi üçün məktəblər açmaq məcburiyyətində qalmışdı. Ona görə də bütün ziddiyyətlərinə baxmayaraq çarizmin müstəmləkəçilik siyasəti Azərbaycanda baş verən milli oyanışın, milli özünüdərk prossesinin nəinki qarşısını ala bilmədi, hətta onun inkişafına zəmin hazırladı. Məhz Azərbaycan torpaqlarının parçalanması vahid milli dövlətin yaranmasına imkan vermir bu da milli ideologiyanın təşəkkülünü ləngidirdi. Eyni zamanda işğaldan sonra bu ideologiyanın yaranmasında Şərq və Qərb dəyərlərinin sintezi baş verdi ki, bunu da Azərbaycan tədqiqatçılarının əksəriyyəti maarifçi ideologiya adlandırır-

dılar. Əvvəlki ideoloji sistemlərdən fərqli olaraq maarifçilər insan amilinə daha çox diqqət çəkirdilər. Belə tarixi şəraitdə ilk maarifçilərin fəaliyyəti xalqın milli özünüdərk prossesinin inkişafına mühüm təsir göstərməklə yanaşı, eyni zamanda milli məktəblərin, milli mətbuatın yaradılmasında önəmli rola malik oldu. Həm dünyəvi təhsil ocaqlarının yaranması, həm də Avropa tipində maarifin meydana çıxması Azərbaycan reallığı üçün olduqca mütərəqqi bir hadisə idi. Bəhs etdiyimiz dövrün ilk maarifçiləri xalqın maariflənməsi yolundakı maneələri görür və bu sədlərin aradan qaldırılması üçün fərqli çıxış yolları irəli sürürdülər. Onlar Qərbin mütərəqqi texniki, fəlsəfi düşüncələrini əxz etməklə yanaşı öz milli dəyərlərini qorumaqla xalqın geriliyini əsas səbəblərini axtarmağa çalışır və dini xurafat, zamanın eybəcərliklərinə qarşı çıxırdılar. XVIII-XIX yüzilliyin Avropa maarifçilərindən Ş.L.Monteskye, F.M.Volter, D.Didro, J.J.Russonun ideyalarını əxz edən Azərbaycan maarifçiləri milli və dünya maarifçiliyi üçün mühüm əhəmiyyət kəsb edən əsərlər yaradırdılar. Bu zaman yeni düşüncə tərzli nəsil yetişməkdə idi ki, onlar yeni məfkurənin formalaşmasında mühüm rol oynadılar. Bu milli təfəkkürün formalaşmasında A.Bakıxanov, M.Ş.Vazeh, M.Kazımbəy, M.F.Axundov, H.Zərdabi və s. kimi maarifçilər ictimai fikir tariximizdə yeni böyük bir epoxanın əsasını qoymaqla yanaşı, milli ideologiyamızın formalaşmasının başlanğıcını da qoydular. Onlar eyni zamanda gələcək milli demokratik dövlətçilik məfkurəsinin təmsilçiləri və təməl daşını qoyanlar hesab edilir. Məqalədə maarifçiilik hərəkatının təsnifatını müəyyənləşdirməklə həm paqonlu maarifçilərin, həm klassik maarifçilərin, həm də milli ideologiyanın yaranması mərhələsində maarifçilərin bu sahədəki xidmətlərini müqayisəli təhlil edəcəyik.

### *Ədəbiyyat siyahısı:*

1. *Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. – Bakı: 2017, "Elm və təhsil", 552 səh.*
2. *Əhmədli R. Azərbaycan dövlətçilik fəlsəfəsi.- Bakı: 2008, "Nurlan", 358 səh.*
3. *Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. – Bakı: 1994, "İrşad", 349 səh.*
4. *Rüstəmov Y. Türk fikir tarixi haqqında mülahizələr. – Bakı: 2005, "Çaşıoğlu", 140 səh.*
5. *Baykara H. Azərbaycanda Yeniləşmə Hərəkatı XIX əsr. – Bakı: 2018, "Kitab klubu", 242 səh.*
6. *Əliyeva Z. Azərbaycan və Fransız Maarifçiliyi : Qarşılıqlı Əlaqələr. –Bakı: 2010, "Səda", 224 səh.*
7. *Ələkbərov F. Azərbaycan Türk Fəlsəfəsi İctimai Fikir Tarixi" (XIX-XX əsrlər) I hissə. –Bakı: Elm və Təhsil, 2018, 504 səh.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ XADİMLƏRİNİN TARİXİ DEMOQRAFİK BAXIŞLARI XX ƏSRİN II YARISI- XXI ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA

**Aydın Məmmədov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, t.ü.f.d., dosent*
*aydin.mmmdov.67@mail.ru*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, əhali məskunlaşması, əhali artımı, soyqırımlar, qadın azadlığı, ictimai inkişaf*

Mühüm ictimai-siyasi hadisələrlə zəngin olan XX əsrin ilk onillikləri Azərbaycan xalqının da taleyindən də yan keçmədi. Belə ki, başlayan Fevral inqilabından sonra Azərbaycan xalqının müxtəlif təbəqələrini və siyasi qüvvələrini birləşdirən Azərbaycan milli hərəkatı geniş vüsət alaraq ümummilli hərəkata çevrilərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələndi.

Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin Cenevrə Sülh konfransı iştirakçılarına, o cümlədən Millətlər Təşkilatı üzvü ölkələrinin nümayəndələrinə paylamaq niyyətilə Parisdə 1919-cu ildə fransızca nəşr etdirdikləri, özündə Azərbaycan əhalisi ilə bağlı qiymətli məlumatları əks etdirən və bir növ təqdim xarakteri daşıyan adres kalendarı həm də Azərbaycan demoqrafiyasına dair bilgi və məlumatları beynəlxalq aləmə təqdim edən ilk kitab kimi də dəyərləndirmək olar.

Hələ ötən əsrin II yarısında Azərbaycan sovet tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin Azərbaycan qəzalarında həyata keçirilən soyqırımlarının qarşısını almaq, adres kalendarla bağlı tarixi həqiqətləri saxtalaşdirmaq, necə deyərlər izi itirmək üçün ciddi cəhdlər edilirdi. Üç cildlik "Azərbaycan tarixi"nin III cildində [3], Z.İbrahimovun [4, 5, 6], M.İsgəndərovun [13], M.Qazıyevin [9, 10] və digər müəlliflərin tədqiqat əsərlərində belə bir fikir formalaşdırılırdı kı, guya həmin dövrdə Bakı Zaqafqaziyada bolşevik inqilabının qalası, Azərbaycan əhalisi isə Sovet hakimiyyətini dəstəkləyən siyasi qüvvə olduğuna görə AXC liderləri xalqı qırğına verməkdə ittiham olunur, bolşevik-daşnak silahlı dəstələrinin dinc soydaşlarımıza qarşı yeritdikləriqırğınlara isə sinfi mübarizə xarakteri verilərək, soyqırımlarına bəraət qazqandırılırdı. Bununla da hadisələr tam fərqli istiqamətdə təqqiq və təqdim edilirdi.

Yalnız 1991-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra elmi-obyektiv müstəvidə öyrənilməyə başlanıldı. Məhz müstəqillik illərində çağdaş Azərbaycan tarixşünaslığında A.İsgəndərovun [7, 8], A.Paşayevin [12], Solmaz Rüstəmova-Tohidinin [14, 15, 16], A.Xəlilovun [18], V.Abışovun [1, 2], S.Qəniyevin [11] və digər müəlliflərin tədqiqat əsərləri 1918-ci ilin yazında ermənilər tərəfindən Bakıda və digər bölgələrdə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımlarının xalqımızın demoqrafik fonuna

göstərdiyi mənfi təsir geniş şəkildə tədqiq olunmuşdur. FTK sənədlərindən istifadə etməklə yazılan bu tədqiqat əsərlərindən məlum oldu ki, 1918-ci ilin martından başlayaraq Bakıda, Şamaxıda, Qubada, Salyanda, Lənkəranda və Azərbaycanın digər qəzalarında Sovet hakimiyyəti qurmaq adıyla çıxış edən bolşevik və erməni hərbi hissələri "öldür, qarət et, qarət et, öldür" prinsipi ilə dinc türk-müsəlman əhalisini görünməmiş vəhşiliklə qətlə yetirmiş, qətliamdan qaçaraq sağ qalan azərbaycanlıların nəsil artımının qarşısını almaq, o cümlədən üçün acından, soyuqdan və xəstəliklərdən tələf olması məqsədilə vacib təsərrüfat obyektlərini planlı surətdə məhv etmiş, əmlaklarını isə talan etmişlər. Məsələn, 1918-ci ilin mart-iyul aylarında təkcə Şamaxı qəzasının 100 artıq kəndi yandırılmış və dağıdılmış, 10341 adam qətlə yetirilmişdir ki, onlardan da 4359 nəfərini qadınlar və uşaqlar təşkil etmişdir. Şamaxı qəzasının müsəlman kəndlərinə dəyən maddi ziyanın ümumi məbləği 607.167.402 rubl təşkil etmişdir.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin əsərlərində Azərbaycanda əhali probleminə dair tarixi demoqrafik məsələlərə son dərəcə diqqətlə, məsuliyyətli və həssas yanaşılması aşkar sezilir.

### *Ədəbiyyat siyahısı:*

*1. Abışov V. Azərbaycanlıların soyqırımı: 1917-1918-ci illər. –Bakı: Nurlan, 2007, 176 s.*

*2. Abışov V. Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. –Bakı: Elm, 2017, 120 s.*

*3. Azərbaycan tarixi. Üç cilddə. III c. I hissə. –Bakı: Elm, 1973, 545 s.*

*4. İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). –Bakı: Azərnəşr, 1957, 585 s.*

*5. İbrahimov Z. V.İ. Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. – Bakı: Azərnəşr, 1970, 525 s.*

*6. İbrahimov Z. V.İ. Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. – Bakı: Azərnəşr, 1970, 525 s.*

*7. İsgəndərli A. Azərbaycan həqiqətləri 1917-1920. –Bakı: Elm və təhsil, 2012, 228 s.*

*8. İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920). –Bakı: Adiloğlu, 2006, 396 s.*

*9. Qazıyev M. Lenin və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi. -Bakı: "Azərbaycan", 1960, №4, s.81-91.*

*10. Qazıyev M. Məşədi Əzizbəyov. –Bakı: Gənclik, 1976, 127 s.*

*11. Qəniyev S. 1918-ci il Şamaxı soyqırımı. – Bakı: Nurlan,2003, 152 s.*

*12. Paşayev A. Açılmamış səhifələrin izi ilə. – Bakı: Azərbaycan, 2001, 536 s.*

*13. Искендеров М. Из истории борьбы Коммунистической партии Азербайджана за победу Советской власти. – Баку: Азернешр, 1958, 538 с.*

*14. Рустамова-Тогиди С. Азербайджанские погромы в Шемахе. 1918 год. – Москва: АП «Столица», 2016, 486 с.*

*15. Рустамова-Тогиди С. Куба. Апрель-май 1918 г. Мусульманские погромы в документах. – Баку: 2010, 554 с.*
*16. Рустамова-Тогиди С. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. – Баку: Индиго-пресс, 2009, 864 с.*
*17. Сумбатзаде А. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. – Баку: Наука, 1972, 254 с.*
*18. Халилов А. Геноцид против мусульманского населения Закавказья в исторических источниках. – Баку: Азернешр, 2000, 168 с.*

# AXC DÖVRÜNDƏ QARABAĞ BÖLGƏSİNİN TARİXİ COĞRAFİYA MƏSƏLƏLƏRİ

**Elşən Aslanov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, t.ü.f.d., müəllim*
*elshanaslanov@gmail.com*

***Acar sözlər***: *AXC, Qarabağ, bölgələr, demoqrafiya.*

I Dünya müharibəsində almanlar tərəfindən rusların darmadağın edilməsi 1918-ci il mart ayının 3-də rusların Brest-Litovsk separat sülhünü imzalayaraq müharibədən çəkilməyə məcbur olması ilə nəticələndi. İmperiyada vəziyyət olduqca acınacaqlı idi. Belə bir dövrdə bolşeviklərin də hər gün artan fəallığı vəziyyəti daha da mürəkkəbləşdirirdi.

Brest sülhünün şərtlərinə görə ruslar Qafqaz cəbhəsində işğal etdikləri Qars, Ərdəhan və Batum Osmanlıya geri qaytarılmalı idi. Əslində Rusiya bu müqaviləni imzalamaqla vaxtilə Osmanlı ərazisində "Türkiyə Ermənistanı" yaratmaq haqqında Leninin S.Şaumyana vermiş olduğu 11 yanvar 1918-ci il 13 saylı dekretdən imtina etməyə məcbur oldu [1, 52]. Ancaq bu dövrdə bölgənin faktiki idarəsi azərbaycanlı, gürcü və ermənilərdən formalaşdırılmış Zaqafqaziya Seyminə aid idi. Zaqafqaziya Seymi Brest-Litovsk sülhünün şərtlərini qəbul etməkdən imtina etdi və müqavilənin bağlanmasına etiraz olaraq bütün dövlətlərə teleqram göndərdi. Teleqramda qeyd olunurdu: "Zaqafqaziya və onun sərhədlərinə aid olan, müstəqil Zaqafqaziya hökumətinin razılığı və təqdiri olmadan bağlanan hər bir müqavilə beynəlxalq əhəmiyyətdən və mütləq qüvvədən məhrum hesab edilir, çünki Zaqafqaziya heç zaman bolşevik hakimiyyətini və Xalq Komissarları Sovetini tanımamışdır" [2, 87-88].

1918-ci il martında Trabzonda Osmanlı və Zaqafqaziya Seyminin nümayəndə heyətləri arasında keçirilən danışıqlarda Osmanlı nümayəndəliyi mövqeyini açıqlayaraq bildirdi ki, əgər Zaqafqaziya beynəlxalq hüququn subyekti olmaq istəyirsə, tezliklə Rusiyadan ayrılmalı və öz müstəqilliyini elan etməlidir. Zaqafqaziya Respublikasının daxilində vəziyyət qənaətbəxş deyildi. Sabitliyin olmamasının əsas səbəbi də ermənilərin bölgədəki separatçılıq fəaliyyəti ilə əlaqədar idi. Ermənilərin və bolşeviklərin əsas məqsədi Müsavat partiyasının sosial bazasını zəiflətmək idi. Bunun digər bir səbəbi də ermənilərin Böyük Ermənistan xülyası ilə əlaqədar idi. Belə ki, onlar etnik təmizləmə işləri aparıb, demoqrafik vəziyyəti öz xeyirlərinə dəyişmək, bununla da regionda dənizdən dənizə Böyük Ermənistan yaratmaq fikrində idilər. N.İ.Şavrov 1911-ci ildə yazırdı: " Farsdan 40000, Osmanlıdan 80000 erməni Yelzavetpol və İrəvan quberniyasının ərazilərinə köçürdük. Rəsmi 120 min olsada, qeyri-rəsmi 200000-dən çox ermənini bu ərazilərə köçürmüşdük. Hazırda Zaqafqaziyada yaşayan 1

milyon 300 min ermənninin 1 milyondan çoxu diyarın yerli əhalisinə məxsus deyil və bizim tərəfimizdən köçürülmüşdür" [3, s.63].

Buna baxmayaraq demoqrafiq vəziyyət yenədə türk-müsəlman əhalinin xeyrinə idi. Buna görədə demoqrafik vəziyyəti ertməilərin xeyrinə dəyişmək üçün kütləvi qırğınları başlatmaq lazım idi. Bunun üçündə bəhanə lazım idi. Lənkərana getməyə hazırlaşan Evelina gəmisində əsgərlərin tərk-silah edilməsi oldu. Bu hadisə vəziyyəti daha da gərginləşdirdi. S.Şaumyanın əvvəlcədən hazırladığı planı baş tutdu. Bakının müxtəlif yerlərində başlayan qırğınlar getdikcə geniş xarakter almağa başladı. Bir tərəfdən Qafqazın fövqəladə komissarı erməni S.Şaumyanın, digər tərəfdən Daşnaksütyun partiyasının üzvü olan Andranik Ozanyanın başçılıq etdiyi erməni hərbi birləşmələri Bakı, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Qarabağ, Naxçıvan və digər ərazilərdə kütləvi qırğınlar törətdilər. Hətta ermənilər bununla da kifayətlənmədilər. Onlar Xəzər dənizindəki rus hərbi donanmasının matroslarına bildirdilər ki, guya azərbaycanlılar Bakıda ermənilərlə bərabər rusları da qətlə yetirir. Nəticədə, rus hərbi donanması da dənizdən Bakını top atəşinə tutdu. Ermənilər qadın, uşaq, qoca demədən, hər kəsi qətl edirdilər. Rəsmi mənbələrdə 12 minə qədər günahsız azərbaycanlının öldürüldüyü bilinir.

Zaqafqaziya Respublikasının daxilində ziyyətin gərgin olduğu bir vaxtda Osmanlı ilə də münasibətlər birmənalı deyildi. Seym daxilində Osmanlıya münasibət fərqli idi. Belə ki, erməni və gürcü tərəfi radikal mövqe tutaraq Qars, Ərdəhan və Batumun Osmanlıya verilməsinin tərəfdarı deyildilər. Azərbaycan tərəfi isə Seymə bu bölgələrin Türkiyəyə güzəştə gedilməsini və vəziyyəti mürəkkəbləşdirən addımlardan çəkinməyi təklif edirdi. Bəzi azərbaycanlı deputatlar isə Batum istisna olmaqla, Qars və Ərdəhanın güzəştə gedilməsinin tərəfdarı idilər. Çünki Batum gələcəkdə Azərbaycan neftinin dünya okeanına yeganə çıxışı olacaq mühüm liman şəhəri idi. Lakin Cümhuriyyət dövründə bu planı həyata keçirmək alınmadı. Ümumilikdə Azərbaycan tərəfi Türkiyəni müdafiə edir və bildirirdi ki, əgər iki tərəf arasında müharibə olarsa, Azərbaycan öz qardaşlarına əsla silah doğrultmayacaq. Erməni və gürcü tərəfi isə buna məhəl qoymadı.

Nəticədə, 1918-ci il aprel ayının 13-də Osmanlıya müharibə elan edildi. Erməni və gürcü hərbi hissələri bölgəyə yeridildi. Ancaq bunun bir nəticəsi olmadı. Türk ordusu qısa müddət ərzində erməni və gürcü ordusunu darmadağın etdi. Osmanlı tarixi torpaqlarını geri qaytarmaqla yanaşı, Zaqafqaziyanın özünü Rusiyadan ayırıb, müstəqil elan etməsində də böyük rol oynadı. Belə ki, 1918-ci il aprel ayının 22-də Zaqafqaziya Demokratik Federativ Respublikası elan edildi. Bununla da, bölgədə üç müstəqil qurum fəaliyyətə başladı: Zaqafqaziya Demokratik Federativ Respublikası, Dağlılar Respublikası və Bakını idarə edən Bakı Xalq Komissarları Soveti. Ancaq Zaqafqaziya Respublikası daxilindəki fikir ayrılıqları və Almaniyanın dəstəyini alan gürcülər 1918-ci il mayın 26-da ölkələrini müstəqil elan etdilər, nəticədə. Cənubi Qafqaz Seymi özünü buraxdı. Həmin gün Seymin erməni fraksiyası İrəvan şəhərinin ermənilərə pay-

taxt kimi verilməsi üçün Müsəlman fraksiyasına müraciət etmişdi. Çünki müstəqillik aktının elan olunması üçün Ermənistanın paytaxtı yox idi. Mayın 27-də keçirilən Müsəlman Milli Şurasının iclasında Nəsib bəy Yusifbəyov bildirir ki, Batum konfransında təmsil olunan Türkiyə nümayəndə heyətinin qənaəti belədir ki, Cənubi Qafqaz müstəqilliyini qorumalıdır, onun birliyinin və həmrəyliyinin qorunması üçün ermənilərə bir qədər torpaq güzəşt olunmalıdır. Mayın 28-də Azərbaycanın və Ermənistanın müstəqilliyi elan edilir.

Mayın 29-da Müsəlman Milli Şurasının iclasında İrəvanın siyasi mərkəz kimi Ermənistana güzəşt edilməsi haqqında qərar qəbul edilir. İrəvan Müsəlman Milli Şurası bu güzəştə dərhal öz etirazlarını bildirsələr də nəticəsi olmur.

Azərbaycan Xalq Cümhuriyyəti Tiflisdə elan edilsədə Bakı şəhərinə gələ bilmədi. Çünki burada BXSK fəaliyyət göstərirdi.

İyunun 4-də İmzalanmış müqaviləni əsəs götürən M.Ə.Rəsulzadə Qafqazda müsəlmanlara qarşı törədilən qətliamın qarşısını almaq üçün osmanlılardan hərbi yardım tələb etdi. Baş komandan vəkili Ənvər paşa isə gələn raportlara istinadən durumun ciddiliyini anladı və Şərq orduları komandanlığı tərkibində olan Beşinci Qafqaz Piyada diviziyasının Gəncəyə getməsi haqqında əmr verdi. Bunun səbəbi may ayının 25-i Gəncəyə gələn Nuru paşanın qüvvələrinin yetərsiz olması ilə əlaqədar idi. Qısa müddətdə Qafqaz İslam ordusu adı aldında Azərbaycan və Türkiyənin birləşmiş ordusu təşkil olundu. Və bu ordu Bakının azad edilməsi üçün hərəkətə keçdi. sentyabrın 15-də azad edildi. Azərbaycan Xalq Cümhuriyyəti Gəncədən Bakıya köçdü.

Ermənilərin Bakının itirilməsini qəbul edə bilmirdilər. Bakının qisasını almaq məqsədilə Andranik Ozanyan Naxçıvan üzərinə hərəkətə keçdi. Ermənilər burada kütləvi qırğınlar törədərək Naxçıvanı ələ keçirdilər. Ancaq yenə də türklərin müdaxiləsindən sonra onlar geri çəkilməli oldular.

Müstəqilliyin ilk illərində Azərbaycan Gürcüstan hökuməti ilə olan sərhəd problemi müharibə həddinə qədər gəldi. Belə ki, Gürcüstan nümayəndə heyəti M.Ə.Rəsulzadə ilə görüşərək Göyçə mahalı, Zaqatala, Qazax və indiki Balakən rayonu ərazilərinin Gürcüstana verilməsini tələb etdilər. Bunu onunla əsaslandırdılar ki, guya bu ərazilər tarixən gürcü torpağı olub. Həm də Gürcüstanın paytaxtına çox yaxındır. Gürcü nümayəndə heyəti bu ərazilərin verilmədiyi təqdirdə qan töküləcəyini bildirdilər. M.Ə.Rəsulzadə bu ərazidə yaşayan əhalinin 95%-dən çoxunun azərbaycanlı olduğunu nəzərə alıb cavab verdi: "Bu bölgələrin Gürcüstana verilməsi əsla qəbul edilməzdir. Əgər Gürcüstan tərəfi israr edərsə, nə etməli, lazım gələrsə, qan da tökərik".

Gürcülər M.Ə.Rəsulzadənin qətiyyəti qarşısında geri çəkilməli oldular. Onlar başa düşürdülər ki, Azərbaycanla toqquşmaq bölgədə gərginliyi artırmaqdan başqa bir şey deyil. Həm də Azərbaycanda ordu quruculuğu kifayət qədər sürətlə davam edirdi. 1920-ci ilə qədər ordu sayının 40 minə çatacağı planlaşdırılmışdı. Azərbaycan ordusu bu gün olduğu kimi o dövrdə də Qafqazın ən güclü ordusu idi. Ancaq ermənilər gürcülərdən fərqli olaraq, öz fikirlərindən dönmürdülər.

Türk ordusunun gedişindən sonra Naxçıvanda uğur qazanmayan ermənilər bu dəfə də Qarabağa göz dikdilər. M.Ə.Rəsulzadə bölgəni ermənilərdən müdafiə etmək üçün Qarabağ General Qubernatorluğunun yaradılmasının vacibliyini bildirdi. Bu məqsədlə, 1919-cu il yanvar ayının 15-də Qarabağ General Qubernatorluğu yaradıldı. Azərbaycanın ilk hərbi naziri Xosrov paşa bəy Sultanov Qarabağ qubernatoru təyin edildi. Ermənilər buna etiraz edib Azərbaycan Xalq Cümhuriyyətinə nota verdilər. Ancaq bunun bir nəticəsi olmadı. Erməni silahlı qüvvələrinə başçılıq edən, Azərbaycan xalqına daima işgəncə və zülm edən AndranikOzanyan Qarabağa yeni hücum planı hazırladı. O, ilk növbədə, əslən Laçından olan vətən övladı Xosrov paşa bəy Sultanovun qardaşı Sultan bəy Sultanbəyova külli miqdarda rüşvət təklif edib Qarabağı müqavimətsiz ələ keçirmək istəyirdi. Bu işin nəticəsiz qaldığını görən Andranik 30 minlik qoşunla Qarabağın mərkəzi olan Şuşaya hücum etdi. Sayı qat-qat az olan və yenicə təşkil edilmiş Azərbaycan ordusu kifayət qədər təcrübəli, çar dönəmində hərbi təlim görmüş erməni ordusunu darmadağın edir. 600 nəfərə qədər əsir götürülür. Bəzi mənbələrə görə Andranik Ozanyanın qulağını da məhz Sultan bəy Sultanbəyov kəsmişdir. Ancaq bir məsələni tam əminliklə deyə bilərik ki, çar ordusunun general-mayoru, ermənilərin dırnaqarası milli qəhrəmanı və onun ordusu əzəli Azərbaycan torpağı olan Qarabağın mərkəzi Şuşada darmadağın edilir.

Bu xəbər Bakıda sevinclə qarşılandığı halda, İrəvanda ermənilər yeni təxribat planı həyata keçirirdilər. Bu dəfə hədəf yenə də Naxçıvan idi. Ermənillər ingilislərin köməyilə Araz-Türk Cümhuriyyətini, yəni Naxçıvanı ələ keçirmək istəyirdilər. Onların planları uğurlu alındı. İngilislərin ermənilərin tərəfində olması Araz-Türk Respublikasının süqutu ilə nəticələndi. Bunun ardınca erməni silahlı qüvvələri bölgəyə yeridildi. M.Ə.Rəsulzadə onların planlarından xəbərdar idi. Bunun qarşısını almaq üçün qəti tədbirlər görməyə başladı. Naxçıvanın yerli əhalisinin də qətiyyəti və Məşədi Ələsgərin başçılıq etdiyi qüvvələrin erməniləri darmadağın etməsilə onlar yenidən geri çəkilməyə məcbur oldular.

1919-cu il fevral ayının 28-də Naxçıvan General Qubernatorluğunun yaradılması ilə Naxçıvan da Azərbaycan torpaqlarına birləşmiş oldu. Qarabağın general qubernatoru Xosrov paşa bəy Sultanov olduğu halda, Naxçıvan qubernatorluğu vəzifəsinə də Bəhram bəy Naxçıvanski təyin edildi. Beləliklə Azərbaycan torpaqları Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin səyi nəticəsində tam birləşmiş oldu.

### *Ədəbiyyat siyahısı:*

*1. İsgəndərov A. Azərbaycan həqiqətləri. - Bakı: 2012, 278 s.*

*2. Документы и материалы по внешней политике Закавказья и Грузии. – Тифлис:1919, 514 с.*

*3. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., 1911, 84 с.*

# MİLLİ LEGİONUN MƏTBU ORQANI "AZƏRBAYCAN" QƏZETİ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HAQQINDA

**Kəmalə Məmmədova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, müəllim*
*kamalamammadova@bsu.edu.az*

***Açar sözlər:*** *II dünya müharibəsi, Azərbaycan legionunun həftəlik qəzeti, Azərbaycan Xalq Cümhuriyyəti,"Qızıl alma" türklüyün istiqlal məfkurəsi kimi, məqalələr*

Dünyanın iki hərbi-siyasi koalisiyasının bəşəriyyət tarixində ən böyük silahlı qarşıdurmasına çevrilən və bütün dünya xalqlarına ölçüyəgəlməz ağrı və iztirablar gətirən ikinci dünya müharibəsi milyonlarla insanların taleyinə ağır zərbə vurdu. Həmin illərdə nasist Almaniyası və Sovet Rusiyası arasında gedən bu müharibə cəbhəyə sovet əsgəri kimi səfərbər edilən, lakin əsir düşərgələrindən almanların təşkil etdikləri hərbi birliklərdəcəbhə dəyişdirərək legioner kimi vuruşmaq məcburiyyətində qalan insanların da taleyini dəyişdi. Əslində bu insanlar zorla cəlb edildikləri müharibədə "bolşevizm və faşizm taunu", "faşizmlə bolşevizmin əzən, məhv edən qatarlarının tırtılları" arasında qalan qurbanlar idilər. Vətənləri vaxt ilə bolşevik Rusiyası tərəfindən işğal olunmuş və əsarət altına alınmış müxtəlif millətlərin nümayəndələri olan bu insanların bir qismi legionlara bolşevik Rusiyasına, totalitar sovet rejiminə qarşı mübarizə aparmaq üçün daxil olmuşdular.

İdeoloji-siyasi mücadilənin mərkəzində legion həyatı yaşamağa məhkum olunan belə milli birliklərdən biri də azərbaycanlı döyüşçülərdən təşkil edilən "Azərbaycan legionu" idi. Azərbaycanın yenidən müstəqilliyinə nail olmaq üçün üçrəngli bayrağını endirən bolşevizmə qarşı mübarizədə tarixi fürsətdən faydalanmaq istəyən bu legionerlərin bir qismi əldə silahla cəbhələrdə milli istiqlal mücadiləsi aparırdı, bir qismi də əldə qələmlə mətbu orqanlarında milli ruhu, xalqın azadlıq duyğularını ifadə edirdi.

Müharibə illərində Almaniyada təsis edilən nəşrlərdən biri də əvvəlcə Şərq əraziləri üzrə reyx komissarlığının, daha sonra Vermaxt Baş Təbliğat idarəsinin hamiliyiilə Azərbaycan dilində ən çox tirajla dərc olunan və hamının rəğbətini qazanan Azərbaycan legionunun həftəlik "Azərbaycan" qəzeti idi. 1942-ci ilin iyunundan 1945-ci ilin martınadək əsasən 6-8 səhifədən ibarət dərc olunan, problematikasında Ana, Vətən, Millət üçlüyündən ibarət milli məfkurə, milli müstəqillik və azadlıq uğrunda mübarizə məsələlərinin təbliği önəmli yer tutan qəzetin səhifələrində cəbhə xəbərləri ilə yanaşı, Azərbaycan tarixi, ədəbiyyatı və mədəniyyəti ilə bağlı müxtəlif mövzular işıqlandırılırdı. Bu baxımdan Azərbaycan legionunun məhdud dairədə yaranan və yayılan həftəlik "Azərbaycan" qəzetində çap olunan legion yaradıcılığı Vətənimizin tarixinin, mədəniyyətinin,

ədəbiyyatının, bütövlükdə milli-mənəvi sərvətimizin tərkib hissəsidir. “Azərbaycan” qəzetinin ədəbi-bədii nümunələrində adət-ənələrimiz, ədəbiyyatımız, folklorumuzla yanaşı həmçinin qürbətçilik, həsrət kimi duyğulara köklənən mövzular da yer alırdı. II dünya müharibəsinə sovet tərbiyə sisteminin ideoloji düşüncəsindən çıxıb, sovet Azərbaycanından getsələr də legionerlərin yaradıcı düşüncəsində Azərbaycan siyasi mühacirət dünyagörüşünün bədii ifadəsi də öz əksini tapmışdı.

Legion ədəbiyyatında irəli sürülən milli-mənəvi ideyalarla və müstəqilliyin yenidən bərpa edilməsi uğrunda aparılan mücadilə ilə bağlı yazılar içərisində Azərbaycan xalqının öz ruhundan doğan, milli azadlıq hərəkatının yekunu kimi yaranan Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunan materiallarda mühüm yer tutur. “Azərbaycan” qəzetinin II dünya müharibəsi zamanı fəaliyyət göstərdiyi dövrdə müxtəlif illərdə çıxan saylarında və səhifələrində vaxtaşarı Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı yazılar, məqalələr da dərc edilirdi.

Bu məqaləmizdə biz müharibə zamanı yad ellərdə, alman ordusu sıralarında bolşevizmə, ruslaşmaya qarşı mücadilə aparan legionerlərın həftəlik “Azərbaycan” qəzetinin səhifələrində məhz Azərbaycan Xalq Cümhuriyyəti dövrü ilə bağlı çap olunan yazıların bir qismini tədqiqata cəlb etmişik. Məqalədə istinad olunan iqtibaslar mövcud olan nüsxələr əsasında işlənilib. Tədqiqatımız üçün bu yazıların dəyəri ondan ibarətdir ki, burada Azərbaycanın Rusiya tərəfindən işğalından milli müstəqilliyin əldə olunmasına qədər keçən dövr ərzində apardığı mübarizədə xalqın qarşılaşdığı maneələr, Cümhuriyyət dövrü, Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın həyatında yeri və rolu, milli dövlət idarəçiliyinin xüsusiyyətləri ilə yanaşı, dövrün ziddiyyət və çatışmamazlıqları kimi məsələlərə də diqqət yetirilir, onların təhlilinə cəhd göstərilir.

Qəzetin 22 yanvar 1944-cü il tarixli sayında “Bizim Qızıl alma” başlıqlı məqalədə “azəri türklərinə bir əsrdən artıq davam edən dövrdən sonra azad, müstəqil və xoşbəxt bir həyat bəxşedən 28 may” uğrunda aparılan mübarizədə ‘’Qızıl alma“ türklüyün istiqlal məfkurəsikimi səciyyələndirilir və onun yenidən parlaması ideyasına inam ifadə olunur. Bununla bağlı məqalədə yazılırdı:“Türklüyün istiqlal məfkurəsi olan ‘’Qızıl alma“ ya konkret bir şəkil vermək istəyən tarixçilərin fikirlərinə görə, Orta Asiyada türk xaqanlarının saraylarının üzərindəki qızıl otağın dirəyində bir alma parlarmış: Qızıl alma!

Bu almanının parlaması - türk taleyinin parlaması, qeyb olması isə taleyimizin sönməsi demək imiş.

Qızıl almanın parlaması türk yurdunun bütövlüyünə, türk millətinin səadət və xoşbəxtliyinin davamına, yox olması isə Turanın və türk hakimiyyətinin təhlükə qarşısında olduğuna işarə etmişdir. Beləliklə, Qızıl alma türk hakimiyyəti və türk vətəninin xilası deməkdir. "Qızıl alma" demək -istiqlal məfkurəsi deməkdir.

Bugünkü qanlı və şərəfli mübarizələrimiz də, həmin öz Qızıl almamızı - 28 Mayımızı yenidən parlatmaq üçündür. Biz ona həsrət qalmaq üçün deyil, qovuşmaq üçün çarpışdıq, çarpışacağıq” [1, s.3].

Qəzetin 10 yanvar 1943-cü il sayında “Bir kərə yüksələn bayraq, bir daha enməz!” məqaləsində M.Ə.Rəsulzadənin parlamentin açılışı zamanı üzünü milli bayrağa çevirərək, söylədiyi bu şüarla bağlı “qəzet legionerlərə xitabla bunları əlavə edir: “Əziz arkadaşlar! Baxınız, 23 il sonra, eyni bayraq, türklüyümüzün, müsəlmanlığımızın, əsri (müasir) adamlar olduğumuzun əlaməti olan bu müqəddəs bayrağı biz legionerlər, biz millət və vətən yolunun canfədaları indi başlarımızın üstündə və qollarımızda daşıyırıq!” [5, s.188]

Qəzetin istiqlalın 25-ci ildönümünə təsis etdiyi 30 may 1943-cü il tarixli nüsxəsinin “səhifəsini başdan-başa böyük manşetlərlə - nasist Almaniyanın təhəmmül edəməyəcəyi, fəqət müstəqil Azərbaycan dövründə mövcud olan - “insanlara azadlıq, millətlərə istiqlal!” şüarı bəzəyir” [5, s.189]. Bu nüsxə tamamilə Azərbaycan istiqlalını canlandıran xatirələr, eyni zamanda milliyyət, türklük və s. bəhs edən, “Azərbaycan istiqlalı uğrunda mübarizə”, “28 Mayıs Azərbaycan tarıxinin əhəmiyyəti” başlıqlı məqalələrdən ibarətdir. Burada həmçinin redaksiya adından bugün münasibəti ilə redaksiya adından M.Ə.Rəsulzadə göndərilən məktub və bu məktuba M.Ə.Rəsulzadənin cavabı da öz əksini tapmışdır.

Qəzetin 20 mart 1944-cü il tarixli sayında “Novruz bayramı haqqında” yazıda Azərbaycan Xalq Cümhuriyyəti dövründə adət-ənənələrimiz əsasında bu bayrama xüsusi önəm verildiyi vurğulanır: “1918-ci ilin 28 mayında uzun illər rus əsarətinə qarşı qəhrəman mübarizədən doğan Milli Azərbaycan Cümhuriyyəti millətimizin bu əski bayramını, türklüyünü ən çox mühafizə edən azəri türklərinin içərisində təntənəli keçirilməsini qərara aldı.

**28 May ölməzdir**. İkinci dünya müharibəsində qoşulduğumuz azadlıq döyüşləri buğunu bir daha bizə qaytaracağına və istiqlalımızın amansız düşməni olan bolşevikliyi yox edərək, milli tariximizin, qulturamızın, ədəbiyyatımızın dinimizin və milli bayramlarımızın sahibi olacağımıza əminik” [2, s.2].

Qəzetin 1 may 1944-cü il tarixli sayında *“*Azəri türklərinin ən faciəli günü” başlıqlı yazıda Cümhuriyyət dövrü belə xatırlanırdı: “Biz azəri türklərinin yəqin keçmişdəki tarixinə nəzər salan hər kəs, vətənimizin 1918-ci il may ayının 28-dən 1920-ci ilin 28 aprelinə qədər müstəqil, azad və xoşbəxt bir dövr yaşadığını yaxşıca bilir.

28 May bizə milli siyasi varlıq, daha aydın desək, azadlıq və istiqlal verdi. 28 Maya qədər həm iqtisadi, həm də siyasi cəhətdən Rusiyanın ağır boyunduruğu altında ikən, 28 mayda öz ana yurdumuza, ana torpağımıza özümüz hakim olmuşduq. Vətənimizdə istər iqtisadi, əsgəri sahələrdə və istərsə dil, ədəbiyyat, qultur (mədəniyyət) işlərində türklük ruhu üstün oldu” [3, s.1].

Qəzetin 29 may 1944-cü il tarixli sayında dərc olunan *“*28 Mayıs unudulmazdır” başlıqlı yazıda iki ilə yaxın fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın həyatında yeri və rolu, milli dövlət idarəçiliyinin xüsusiyyətləri yığcam və lakonik şəkildə belə qələmə alınmışdır: “100 ilə yaxın rus çarlığının Paskeviçləri, Sisianovları atlarının ayağları altında əzilən, müxtəlif adlarla qan qardaşlarından ayrı salınan Azərbycan, ilk dəfə təşəbbüsü öz əlinə alaraq, ilk müstəqil türk Cümhuriyyətini yaratdı. O öz irqinə mənsub olanları

əsarətdən qurtarmaq üçün ələmdarlıq kibi şərəfli bir işi öhdəsinə götürdü və bu müəzzəm vəzifənin öhdəsindən gəldi. Türklük öz istedad və gücünü dünyaya gostərdi.

28 May günəşinin hərarətli şüaları ölkənin buzlaşmış qaynaqlarını qızdırdı. Əriməkdə olan balta kəsməz buzların altından yeni həyat, yeni məişət qaynaqları fəvvarə verməyə başladı. 28 May azəri türklərinə bir əsrdən artıq davam edən dövrdən sonra azad, müstəqil və xoşbəxt bir həyat bəxş etdi.

Milli istiqlal dövründə Azərbaycan türkləri milli qurtuluş hərəkatının inkişaf etdirmək üçün tam sərbəstlik içərisində çalışmaq imkanlarını əldə etdi. Şeir və ədəbiyyatımız div addımlarıyla inkişaf etməyə, teatrlarımız zənginləşməyə başladı. Vətənimizin milli ordusu təşkil olunmuş, hərbi məktəbləri açılmış, zabit və xidmətçilər yetişdirmişdi. O, öz milli Universitetini təsis etmiş, milliyyətçi, istiqlalçı gənc ziyalı kadrlar hazırlamış olan müstəqil bir dövlətə çevrildi.

Milli hakimiyyəti dövründə Rusiya senzorundan və hər cür təzyiqdən əsər belə qalmadı. Başımız üzərində qürurla dalğalanan öz üçrəngli aylı-ulduzlu bayrağımızdı. Ölkədə hakim dil azəri türkcəsi oldu. Yurdumuzun bütün sərvətləri xalqımızın rifahı və səadəti uğrunda sərf olunmağa başlandı. Mətbuat, din və vicdan azadlığı hökm sürməkdə, terror və təzyiqin nə olduğu görünməməkdə idi.

Vətənimizə sülh, əsayiş, bolluq və səadət gətirən 28 May dost, düşmənlərimizə azad və müstəqil yaşaya biləcəyimizi, dövlətçilik bacarığımızı isbat etdi. Buna görədir ki, bir çox şərq və qərb dövlətləri istiqlalımızı rəsmən tanımalı oldular.

Çox böyük təəssüflə qeyd edək ki, Azərbaycan istiqlal dövrü çox qısa oldu" [4, s.2].

Qəzetdə çap olunan məqalələrdə 28 mayın Azərbaycan xalqı tarixinə şanlı istiqlal günü kimi daxil olması ilə yanaşı, Cümhuriyyət dövründə həyata keçirilə bilməyən problemlərdə diqqətdən kənarda qalmır və yazılan məqalələrdə onlardan da bəhs edilirdi. Məsələn, qəzetin 29 may 1944-cü il tarixli sayındakı "Yeni istiqlal gününə doğru" başlıqlı növbəti bir yazıda qeyd edilirdi: "Çox qısa olan milli hakimiyyət dövründə xalqımızın bir çox azarları, xüsusən torpaq məsələsi həll edilməmiş qaldı. Və hər şeydən fənası, milli partilərimizin arasında tam milli bir birlik yaranmadı. Doğrudur, onların bəziləri sonradan birləşdilər. Lakin, bu yenə kifayət olmadı" [4, s.1]. Azərbaycan Xalq Cümhuriyyətinin başa çatdıra bilmədiyi bu problemləri xalqın gələcəkdə aradan qaldıracağına inamın ifadə olunduğu məqalə nikbin fikirlərlə yekunlaşır: "Yeni Azərbaycanımızda ilk modern milli hakimiyyətimizin həll etməyə vaqt tapmadıqı bütün məsələlər həll ediləcəkdir.

Doğrudan da böylə olacaq, bizim yeni Mayısımız yaranacaqdır. Keçmiş 28 mayıs bizi müçün bir xatirə, gələcək 28 Mayıs isə bir idealdır.

Yeni istiqlal gününə doğru!

Keçmiş 28 Mayısımıza əbədi xatirələr!

Yaşasın və yaransın yeni 28 Mayımız!" [4, s.1].

Nəticə olaraq qeyd edək ki, ümumiyyətlə, milli legionumuzun həftəlik "Azərbaycan" qəzetinin fəaliyyət göstərdiyi müddətdə milli istiqlal mücadiləsindən bəhs olunan materiallarında hər zaman Azərbaycan Xalq Cümhuriyyəti dövrü qürur və iftixarla yad edilir.

***Ədəbiyyat siyahısı:***


1. *Bizim Qızıl alma. "Azərbaycan" qəzeti, 22 yanvar 1944-cü il, № 3 (82)*
2. *Novruz bayramı haqqında. "Azərbaycan" qəzeti, 20 mart 1944-cü il, № 11 (90)*
3. *Azəri türklərinin ən faciəli günü. "Azərbaycan" qəzeti, 1 may 1944-cü il, № 17 (96)*
4. *Yeni istiqlal gününə doğru. "Azərbaycan" qəzeti, 29 may 1944-cü il, № 21 (100)*
5. *Yaqublu N. Azərbaycan legionerləri. – Bakı: 2002, 341 s.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ERMƏNİ TƏCAVÜZÜNƏ QARŞI MÜBARİZƏSİ

**Samir İsmayılov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, t.ü.f.d., dosent*
*samir.ismayilov@mail.ru*

***Açar sözlər***: *Azərbaycan Cümhuriyyəti, hökumət, parlament, erməni təcavüzü, Qarabağ, Naxçıvan, İrəvan*

Tezisdə 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin erməni təcavüzünə qarşı apardığı mübarizəsi araşdırılır. Aparılan araşdırmalar göstərir ki, 1828-ci ildən Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ bölgələrinə kütləvi şəkildə xaricdən köçürülən ermənilər sonradan Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməyə başladılar. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları çar Rusiyası dövründə başlasa da, 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin qurulmasından sonra yeni mərhələyə qədəm qoydu. Əvvəlcə, İrəvan quberniyasının qəzalarına, xüsusilə İrəvan şəhərinə iddialar irəli sürən erməni-daşnak qüvvələri, sonradan Zəngəzur və Qarabağ bölgələrində də separatçı çıxışlara başladılar. Ermənilərin İrəvan şəhəri ilə bağlı iddiaları gerçəkləşsə də, Cümhuriyyət hökuməti Zəngəzur və Qarabağda ermənilərin təcavüzkar planlarının qarşısını ala bildi. Bununla bağlı olaraq Cümhuriyyət hökuməti və Parlamenti bir sıra tədbirlər gördü. yarandığı ilk gündən etibarən daim Ermənistana münasibətdə konstruktiv mövqe tutmuş, bu respublika ilə normal əlaqələrin bərqərar olmasına çalışmışdır. Baş nazir F.X.Xoyski parlamentin açılışı zamanı etdiyi çıxışında Ermənistanla elə ciddi bir ixtilafın olmadığını göstərərək təəssüflə demişdi: "Doğrudur, məzkur iki dövlətlər elə olduğu kimi (Gürcüstan və Dağlılar Respublikası nəzərdə tutulur) Ermənistan ilə dostluq hasil olmamışdır. Bunun da səbəbi şahid olduğumuz hadisələrdir" [1, v. 8]. Baş nazir iki respublikanın arasında dostluğa mane olası səbəb kimi erməni-azərbaycanlı münaqişəsini görürdü. Parlamentdə "Müsavat" fraksiyası adından çıxış edən M.Ə.Rəsulzadə gələcək hökumətin erməni siyasətini belə xarakterizə edirdi: "Keçmişin məşum tərkəsi olan erməni-müsəlman hadisati-ələmiyyəsinə bir daha meydan verməmək üçün hökumət hər növ fədakarlığa təhəmmül etməli, burada dağıdıcı ədavətin izaləsinə səy etməlidir" [2, v. 13]. Sosialist fraksiyası adından çıxış edən Ə.C.Pepinov da hökumətin qarşısında qoyduğu tələbdə Ermənistanla münasibətlərin normallaşdırılmasını əks etdirirdi: "Yaxın qonşumuz olan Ermənistan Cümhuriyyətilə şimdiyə qədər heç bir münasibata girilməmiş və mövcud olan münasibəti səpək gərgin, heç dostanə deyil, halbuki, hal və vəziyyət bizimilə Ermənistan arasında həqiqi dostluğun bərpa edilməsini tələb edir" [3, v. 50].

Göründüyü kimi, Azərbaycan tərəfi daim Ermənistanla sülh yaratmaq, münaqişəli məsələlərin sülh və danışıqlar yolu ilə həll olunmasına tərəfdarıdı. Lakin Ermənistan tərəfinə inkibu təklifləri dəstəkləmir, əksinə hər vəchlə Azərbaycan topaqlarında etnik təmizləmə apararaq bu torpaqları Ararat Respublikasına birləşdirmək siyasəti aparırdı. Bu məqsədlə erməni hökuməti hətta cinayətkar Andronikin "xidmətlərindən" istifadə etməkdən çəkinmirdi. Yeni yaranmış AXC-nin başının Bakının azad edilməsi və mərkəzi dövlət orqanlarının yaradılması məsələsinə qarışmasından istifadə edən Andronik Naxçıvana hücum edərək Culfada onlarla müsəlman kəndini dağıtmışdı. Azərbaycanın yerli idarə orqanlarının sərəncamında kıfayət qədər qüvvənin olmaması Andronikə qarşı mübarizə aparılmasını çətinləşdirirdi. Andronikin yerli türk-müsəlman əhalisini məhv edə-edə Qarabağ hüdudlarını keçməsi erməniləri ruhlandırdı, onlar Azərbaycan hökumətinin 3 dəfə xəbərdarlığına baxmayaraq qurultay keçirərək Qarabağın Ararat Respublikasına birləşdiyini elan etdilər. Azərbaycan hökuməti Andronikin törətdiyi qətl-qarət haqqında Ermənistan hökumətinə nota göndərərək bu hərəkətlərin qarşısının alınmasını tələb etsədə, Ermənistan hökuməti Andronikin hərəkətlərinin ona dəxli olmadığını bildirdi [7, s.112]. Parlamentin 20 dekabr 1918-ci il tarixli Qarabağ məsələsinə həsr olunmuş fövqəladə iclasında çıxış edən F.X.Xoyski bununla əlaqədar deyirdi: "Erməni hökuməti cavab verdi ki, Andronikin erməni hökuməti ilə heç bir əlaqəsi yoxdur, özü də birasidir. Erməni hökuməti özüdə onun rədd edilməsinin və üsyanının yatırılmasını istəyir. Fəqət, gücü yoxdur, iş görə bilmir" [1, v.13]. Məsələ ilə əlaqədar çıxış edən sosialist Ə.C.Pepinov məsələni daha kəskinliyi ilə qoyaraq göstərdi ki, Andronik hərəkatının gizli səbəbi Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirməkdir. Natiq düzgün olaraq göstərdi ki, bu ideya ermənilərin aparıcı partiyası olan daşnakstyunun başlıca məramıdır və daşnaklar hələ Petroqradda Zəngəzurun Ermənistana birləşdirilməsi ilə bağlı layihə təqdim etmişdilər. Hələ bu zaman məsələnin ümumi xarakter daşıdığını bildirən müəllif indi məsələnin xarakter və səviyyəsinin dəyişdiyini göstərirdi: "İndi isə bu hökumət məsələsi olmuşdur. Hərçənd iki, Ermənistan hökuməti rəsmən bizə "Qarabağda işimiz yoxdur, Qarabağı istəmirik və Andronik ilə əlaqəmiz yoxdur deyir, lakin işlərin mahiyyəti bundadır" [5, v.40].

Doğrudan da Qarabağ və Zəngəzurun ilhaq edilməsi daşnakların başlıca məramı idi, daşnak hökuməti gələcəkdə bu torpaqları ilhaq etmək üçün vacib şərt olan etnik təmizləmə siyasəti həyata keçirən şəxsin timsalında “asi”, “üsyankar” görməsi o qədər də inandırıcı görünmür.

Beləliklə, aparılan araşdırmalardan aydın olur ki, Azərbaycan Cümhuriyyəti 1918-1920-ci illərdə ərazi bütövlüyünün təhlükəsizliyini təmin etmək üçün qəti addımlar ataraq erməni separatizmini zərəsizləşdirmiş, nəticədə ermənilərin Qarabağda, Zəngəzurdakı silahlı üsyanlarının qarşısı alınmışdır.

### *Ədəbiyyat siyahısı:*

1. *Fətəli xan Xoyskinin nitqi. Azərbaycan Parlamentinin açılışı. 07.12.1918 // ARDA, f. 895, siy.1, iş 1, v.7.*
2. *Məmməd Əmin Rəsulzadənin nitqi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 2-ci iclası. 10 dekabr, 1918-ci il // ARDA, f.895, siy.1, iş 1, v.13.*
3. *Məmməd Əmin Rəsulzadənin nitqi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 30-cu iclası. 17.04.1919 //ARDA, f.895, siy.1, iş 82, v.50.*
4. *Nəsib bəy Yusifbəylinin nitqi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 41-ci iclası. 26.05.1919 //ARDA, f.895, siy.1, iş 91, v.36.*
5. *Nəsib bəy Yusifbəylinin nitqi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 45-ci iclası. 05.06.1919 //ARDA, f.895, siy.1, iş 94, v.43.*
6. *Nəsib bəy Yusifbəylinin nitqi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 69-cu iclası. 28.08.1919 //ARDA, f.895, siy.1, iş 138, v.28.*
7. *Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). -Bakı:1996, 304 s.*

# MÜSAVAT PARTİYASININ TARİXŞÜNASLIĞI

**Nurlan Abbasov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, t.ü.f.d., dosent*
*nurlan-abbasov@mail.ru*

***Açar sözlər:*** *Azərbaycan Demokratik Respublikas, M.Ə.Rəsulzadə, Müsavat partiyası.*

Son zamanlar Şərqdə ilk Azərbaycan Demokratik Respublikasının yaranmasında mühüm və həlledici rola malik olan Müsavat Partiyasının tarixi diqqəti cəlb edir. Bu bir tərəfdən Azərbaycanda demokratik hərəkatın başlanması ilə bağlı tariximizə yeni baxışların meydana gəlməsi ilə əlaqədardısa, digər tərəfdən uzun mübarizə yolu keçmiş Musavat Partiyasının müxtəlif dövrlərdə fəaliyyətini öyrənmək zərurəti ilə əlaqədardır.

1920-ci ildə Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalından sonra Azərbaycanda müstəqillik və demokratiya ideyalarının əsas daşıyıcısı olan Müsavatın fəaliyyəti və tarixi saxtalaşdırılmış, Sovet hakimiyyətinin ilk günündən bu partiya «xain, cinayətkar, əks-inqilabi burjua-millətçi partiyası» elan edilmişdir. Sonralar mövcud tezis sovet tarixçiləri üçün əsas olmuş və Müsavatın Azərbaycanın siyasi həyatında oynadığı rol, onun mühacirətdəki fəaliyyəti təhrif olunmuşdur. Beləliklə, sovet tarixşünaslığında Müsavatın fəaliyyəti uzun müddət birtərəfli şəkildə təhrif edilmiş və əsasən Sovet hökumətinin siyasi maraqlarına uyğun olaraq işıqlandırılmışdır.

1988-ci ildən sonra Müsavatın fəaliyyəti ilə bağlı bir-birindən fərqlənən ayrı-ayrı məqalələr yazılmışdır. Lakin partiyanın tarixi sistemli olaraq tədqiq edilməmişdir.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan edilməsi və müstəqilliyin dönməzliyinin təmin edilməsi yolunda qarşıya çıxan problemlər 1918-1920-ci illərdə və sonrakı dövrdə Azərbaycanın müstəqilliyinin tərəfdarı və müdafiəçisi olmuş Müsavatın fəaliyyəti haqqında əsl həqiqətləri aşkara çıxarmağı günün vacib məsələsi etdi.

1918-1920-ci illərdə fəaliyyət göstərən Azərbaycan parlamentində Müsavat çoxsaylı fraksiya ilə təmsil olunmuşdur. Müsavat fraksiyasının parlamentdə yaradılmış komissiyalarda iştirakı, bütövlükdə partiyanın ali qanunverici orqandakı fəaliyyət təcrübəsinin öyrənilməsi həm tarixilik, həm də siyasi cəhətdən əhəmiyyətlidir. Bununla bərabər, həmin dövrdə dövlət idarəçiliyində obyektiv və subyektiv səbəblər üzündən buraxılan səhvlərin də təhlil edilərək öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Bu, 1918-1920-ci illərdəki problemlərin eyni ilə indiki Azərbaycanın dövlət maraqları nöqteyi-nəzərindən çox aktualdır.

Müasir dövrdə Azərbaycanda hüquqi dövlət quruculuğunun həyata keçirilməsinin, müasir demokratik dəyərlərə əsaslanan siyasi sistemin bərqərar olmasının vacibliyi Müsavatın siyasi mübarizə təcrübəsini öyrənməyi zəruri edir. Buna görə də Müsavatın tarixinin tədqiq edilib araşdırılması müasir dövr üçün aktual olaraq qalır.

M.Ə.Rəsulzadənin ömrünün sonlarında yazdığı «Çağdaş Azərbaycan tarixi» əsəri tarixşünaslıq baxımından qiymətli mənbədir. 1950-ci ildə yazdığı bu əsərində müəllif rus ordusuna arxalanan bolşeviklərin Bakını zəbt etməsi və Bakının azad edilməsində türk ordusunun yardımı haqqında məlumat verir. Müəllif yazır: «1932-ci ildə toplanan AKP qurultayının qərarına görə Müsavat ilə sadəcə daxildə deyil, xaricdə də mübarizə aparılmalıdır. Müəllif əsərdə ruslaşdırma siyasətinin əsas istiqamətləri haqqında və Müsavatın mühacirətdəki fəaliyyəti haqqında geniş məlumat verir.

Müsavatın fəaliyyəti ilə əlaqədar qiymətli mənbə rolunu oynayan əsərlər yazmış Mirzə Bala Məmmədzadə də tədqiq olunan mövzuya geniş şəkildə toxunmuşdur. Müəllif mühacirət həyatının ilk illərində yazdığı «Azərbaycan misaqi-millisi» əsərində Azərbaycanın İstiqlal Bəyannaməsinin elan edilməsində Müsavatın rolu və Aprel işğalı məsələlərini geniş araşdırmışdır. Xüsusilə müəllifin 1938-ci ildə Varşavada çap etdirdiyi «Milli Azərbaycan hərəkatı» adlı əsəri tədqiq olunan mövzu ilə bağlı ən mükəmməl əsərlərdən sayıla bilər. Əsərdə XX əsrin əvvəllərində Azərbaycanda milli, siyasi oyanışın geniş təhlili verilmiş, Müsavatın meydana gəlməsini zəruri edən amillər geniş araşdırılmış, Azərbaycanın İstiqlal Bəyannaməsinin elan edilməsində, dövlət quruculuğunda Partiyanın rolu geniş işıqlandırılmışdır. Müəllif Müsavatın Aprel işğalından sonrakı mübarizə dövrünə geniş yer vermiş, Partiyanın həm daxildə sovet hakimiyyətinə qarşı mübarizəsinə, həm də mühacirətdəki fəaliyyət dövrünə ayrıca fəsillər həsr etmişdir. O cümlədən Aprel işğalı ilə bağlı daxildə cərəyan edən siyasi proseslər təhlil edilmiş və Müsavatın işğalla bağlı mövqeyi açıqlanmışdır).

Mövzu ilə bağlı bəzi məqamlara Nəsiman Yaqublunun «M. Ə. Rəsulzadə» kitabında toxunulmuşdur. 1991-ci ildə nəşr olunmuş kitabda Müsavatın rəhbəri M. Ə. Rəsulzadənin həyat və fəaliyyətindən, Azərbaycanın müstəqilliyi uğrunda onun mübarizəsindən geniş bəhs edilir. Kitabda M.Ə.Rəsulzadənin mühacirət fəaliyyətinə geniş yer verilmiş, onun mühacirətdə legionların təşkilindəki rolu haqqında dəyərli məlumatlar qeyd edilmişdir. Daha sonra N.Yaqublunun yeni kitabı çapdan çıxmışdır. Kitab «Müsavatın tarixi» adlanır. Müəllif əsərdə Müsavatın yaranması, istiqlalın elanında, dövlət quruculuğunda onun rolu haqqında məlumat vermişdir. Eyni zamanda Müsavatın gizli və mühacirət dövründəki fəaliyyətinə toxunulmuş, Partiyanın III (Bərpa) qurultayı geniş şərh edilmişdir. Müəllif müxtəlif dövrlərdə Müsavatın tarixinin daha çox publisistik araşdırılmasına üstünlük vermişdir.

Xaləddin İbrahimli «Azərbaycan siyasi mühacirəti» əsərində Müsavatın 1920-ci il aprel istilasından sonra Azərbaycan daxilində milli müqavimət hərə-

katındakı tarixi rolu və xidmətləri, o cümlədən 1920-80-ci illərdəki mühacirət dövründəki fəaliyyəti haqqında sistemli araşdırma aparmışdır.

90-cı illərin ortalarında yaranmış nisbi liberallaşma prosesinin nəticəsi kimi meydana çıxan bir sıra əsərlərin nəşri ilə mövzu haqqında mövcud olan birtərəfli yanlış təsəvvürlər tədricən obyektiv mövqelərlə əvəz olunmağa başladı. Azərbaycan dövrü mətbuatında Azərbaycan Demokratik Respublikasının fəaliyyəti, onun qurulmasında mühüm rola malik Müsavat haqqında tamamilə yeni mövqeli məqalələr çap edilməyə başladı. Müstəqil tədqiqatçı mərhum Mövsüm Əliyevin ADR dövrünün siyasi xadimləri və Müsavatın fəaliyyəti haqqında silsilə məqalələri geniş oxucu kütlələrinə təqdim olundu.

R.Xudiyev «Türk Ədəmi-Mərkəziyyət firqəsi «Müsavat» məqaləsində mövzu ilə bağlı dəyərli araşdırma aparmışdır. Eyni zamanda N.Ağamalıyevanın və R.Xudiyevin 1994-cü ildə çap olunan «Azərbaycan Respublikası. 1918-20-ci illər siyasi tarixinin səhifələri» adlı kitabında tədqiq olunan mövzunun ayrı-ayrı məqamlarına toxunulmuşdur. Əsərdə Zaqafqaziya Seymində və Azərbaycan Demokratik Respublikası dövründə təşkil olunan hökumət kabinetlərində Müsavatın fəaliyyətinə geniş yer verilmişdir. Müəlliflər Azərbaycan parlamentinin fəaliyyəti və Aprel işğalı ilə bağlı geniş araşdırmalar aparmışlar.

### *Ədəbiyyat siyahısı:*

1. *Xudiyev R. Türk Ədəmi Mərkəziyyət Firqəsi. Müsavat // Elm və həyat jurnalı, 1990, N5.*
2. *İbrahimli X. Azərbaycan siyasi mühaciriəti. - Bakı: Elm, 1996, 308 s.*
3. *Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. - Bakı: Gənclik, 1991, 112 s.*
4. *Mehmetzade M.B. Milli Azərbaycan hareketı. - Ankara: Milli Eğitim, 1991, 365 s.*

# AXC DÖVRÜNDƏ TƏHSİL SAHƏSİNDƏ GÖRÜLƏN TƏDBİRLƏR VƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN YARADILMASI

**Mətanət Məmmədova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, t.ü.f.d., dosent*
*metanet.memmedova.61@mail.ru*

***Açar sözlər:*** *Cümhuriyyət, təhsil, universitet, demokratiya*

Ümummilli lider Heydər Əliyev Azərbaycanda ilk respublika qurucularına yüksək qiymət verirdi: "Ancaq biz deməliyik ki, demokratik respublika, onun liderləri Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Məmmədhəsən Hacınski və başqaları çox böyük işlər görüblər. Onlar Azərbaycanı müstəqil bir dövlət kimi dünyanın bir qisminə tanıtdılar, bir neçə tədbir gördülər".

Çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti elm, təhsil, ordu quruculuğu, səhiyyə və digər sahələrin inkişafında bir çox “ilk”lərə imza atdılar. Az bir vaxtda AXC parlamenti, hökuməti, ordusu, gömrük və hüquq mühafizə orqanları olan, dövlət rəmzlərinə malik, vətəndaş hüquqlarını hər şeydən uca tutan demokratik, dünyəvi dövlətə çevrildi. O dövrün ən mütərəqqi mətbu orqanlarından biri sayılan "İstiqlal" qəzetinin başlığında böyük türk şairi Tofiq Fikrətin epiqraf kimi verilmiş məşhur "Millət yoludur, haqq yoludur tutduğumuz yol. Ey haqq! Yaşa, ey sevgili millət, yaşa, var ol!" misraları AXC-nin məram və niyyətini çox gözəl əks etdirirdi. AXC yarandığı ilk gündən "türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarını rəhbər tutaraq, həyatın bütün sahələrində, xüsusən xalq maarifi və mədəniyyət sahələrində geniş islahatlara başladı. AXC hökumətinin 23 ay ərzində qəbul etdiyi qərarların böyük əksəriyyəti də elə demokratiyanın, elmin və mədəniyyətin inkişaf etdirilməsi ilə bağlı olmuşdur. AXC hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan-türk dilini dövlət dili elan etdi. AXC dövründə bir sıra maarifçilər kimi Rəsulzadənin də toxunduğu ən mühüm məsələlərdən biri əlifba məsələsi idi. M.Ə.Rəsulzadə dilin inkişafı və yaşaması üçün əlifbanın vacibliyini qeyd edirdi: "Bizim tam milli olaraq bir əlifbamız yoxdur" [1, s.261] Məsələyə həsr etdiyi "Əlifba bayramı" ("İqbal", № 486) məqaləsində mütəfəkkir milli əlifbamızın olmamasını onu ağrıdan məsələlərdən biri kimi göstərirdi. M.Ə.Rəsulzadənin yaradıcılığının həm Moskva dövrünü araşdırmaq, həm də "Əlifba məsələsi" ilə bağlı müzakirələri öyrənmək baxımından "Жизнь национальностей" qəzetində əks olunan polemikaların və "Stalinlə ixtilal xatirələri" əsərinin böyük əhəmiyyəti vardır. “Məqalənin Azərbaycandakı oxucuları, təbii ki, bu fikrin mənə aid olmadığını yaxşıca anlamışlarsa da, bu taktikanın nəyi gözə aldığını da şübhəsiz ki, sezmişdi-

lər. Bu münasibətlə qəzet idarəsi qarşısında verdiyim bütün protestlər nəticəsiz qalmış, göndərdiyim məktub da heç cür nəşr edilməmişdi" [2, s.67].

AXC-nin 1918-ci il 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər. AXC-nin xalq maarifi sahəsində həyata keçirdiyi mühüm tədbirlərdən biri də ibtidai təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi idi. Təkcə 1919-cu ildə Azərbaycanda dövlət hesabına 15 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Həmçinin, həyata keçirilən mühüm tədbirlərdən biri də yaşlıların savadlandırılması idi. Bu məqsədlə 1919-cu il sentyabrın 15-dən Bakı, Gəncə, Şuşa, Nuxa (Şəki), Zaqatala və Qazaxda yaşlılar üçün Azərbaycan dilini öyrədən xüsusi kurslar, 1919-cu ilin noyabrından isə Bakıda azərbaycanlı fəhlələr üçün texniki axşam kursları açıldı. Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitlərinə böyük ehtiyac var idi. XMN məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə xüsusi komissiya yaratmışdı. 1919-cu il sentyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə xalq məktəbləri üçün Türkiyədən dərs kitabları almaq məqsədilə Xalq Maarifi Nazirliyinə bir milyon manat vəsait ayrılmışdı.

Rəsulzadə Qafqazda da ictimai-siyasi və milli fikrin təşəkkül etməsini əsaslandıraraq, türkcə olan mətbuatın əks etdirdiyi məsələləri təhlil edərək, məktəb, təhsil, yeni üsul, müəllim hazırlığı haqda müddəalar irəli sürmüşdür: 1."Üsuli-cədid" məsələsi məktəblərdə sövti üsulu ilə türkcənin tədrisini tələb edir deyə, mədrəsə proqramlarını yeni üsulla tərtib etmək; 2. Milli məktəblərin təsisi və genişlənməsinə rəğmən əvvəllər mövcud olan məhəllə, kənd və məscid məktəblərindəki fars təhsili yerinə türkcə tədris etmək, yeni üsullarla yeni məktəblər açmaq; 3. Hökumət məktəblərində türk dilinin tədrisini tələb etmək; 4. Müsəlmanlar üçün də başqa millətlərdə olduğu kimi nəşri-maarif və xeyriyyə cəmiyyətləri təşkil etmək; 5. Bələdiyyə və Dumalarda müsəlmanlar haqqında verilən qanunlara qarşı mücadilə etmək; 6.Vətəndaşlıq və əhali haqqını hər cəhətlə müsəlmanlara şamil etmək, onları siyasi hüquq və mülkiyyət hüququnda başqa vətəndaşlarla bərabər tutmaq və s.

Müasir qloballaşan dünyada Avropaya inteqrasiya geniş vüsət alsa da, onun başlanğıcı, Parlamentin 1919-cu il sentyabrın 1-də 70-ci iclasında "Bakı Dövlət Universitetinin təsisi haqqında" qanun qəbul etməsindən başlayır. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin doğma xalq qarşısında çox mühüm tarixi xidməti idi. "1919-cu il 15 noyabr – M.Ə.Rəsulzadənin təşəbbüsü və Parlamentdə bir neçə dəfə çıxışındakı tələbi əsasında Bakı Dövlət Universiteti təsis edilir və o, burada tarix-filologiya fakültəsində Osmanlı ədəbiyyatı tarixindən mühazirələr oxuyur." [3, s.29]. Universitetin ilk rektoru olmuş professor V.İ.Razumovski 1922-ci ildə çap etdirdiyi "Bakı şəhərində universi-

tetin əsasının qoyulmasl" adlı xatirə oçerkində yazırdı: "M.Ə.Rəsulzadənin sayəsində, onun gücü, maarifçilik köməyi ilə "Müsavat" partiyasında universitetin açıq və gizli düşmənləri partiyanın qərarına tabe olmağa məcbur olmuşlar, biz öz tərəfimizdə artıq iki partiyaya malik idik, "Müsavat" və sosialistlər, bu da parlamentdə çoxluğu təmin edirdi" [4, s.472]. Sonralar Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, Cümhuriyyət ideyalarının yaşamasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı Dövlət Universiteti misilsiz rol oynadı. Parlamentin təklifinə əsasən M. Ə. Rəsulzadənin başçılığı ilə beş nəfərdən ibarət xüsusi müsabiqə komissiyası tərəfindən 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi bunun bariz nümunəsi idi.

AXC hökumətinin Azərbaycanda maarifin genişləndirilməsi üçün hazırladığı geniş tədbirlər planı, ictimai-siyasi, təhsil və maarif sahəsində irəli sürülən ideya və fikirlər, bu sahədə həllini gözləyən məsələlər Rusiya bolşevikləri tərəfindən gerçəkləşdirilən aprel işğalı nəticəsində yarımçıq qaldı. AXC-nin cəmi 23 aylıq fəaliyyəti dövründə ictimai-siyasi və təhsil sahəsində həyata keçirdiyi tədbirlər sonralar Azərbaycanda azərbaycançılıq ideyasının, ictimai-siyasi fikir tarixinin, xalq maarifinin inkişafında mühüm rol oynadı, Azərbaycan tarixində və təhsilində xüsusi bir mərhələ təşkil etdi.

### *Ədəbiyyat siyahısı:*


1. *Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II c., II clddə. - Bakı: "Şirvannəşr", 2001, 528 s.*
2. *Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. - Bakı: 1991*
3. *Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. - Bakı: 2013*
4. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Ic. - Bakı: "Lider", 2004, 440s.*
5. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, II c.,- Bakı: "Lider", 2005, s.472*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SİYASİ XADİMLƏRİ VƏ "NEMEZİS" TERRORU

**Hicran Mahmudova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Arxeologiya və etnoqrafiya kafedrası, t.ü.f.d., müəllim*
*hicranmahmudova@mail.ru*

***Açar sözlər:*** *AXC, qurucular, siyasi xadim, terror, ermənilər*

Azərbaycan Xalq Cümhuriyyəti qurucuları siyasi-ictimai cəhətdən mürəkkəb, çətin bir şəraitdə fəaliyyət göstərsələr də, dövlətin inkişafı, bütövlüyü üçün mümkün qədər çalışmış, son nəfəslərinə qədər Azərbaycan dövlətçiliyinə sadiq qalmışdılar. Cümhuriyyətimizin ərazi bütövlüyü üçün erməni təcavüzü daim maneələr yaratmağa çalışsa da, məhz bu qurucuların qətiyyətli addımları sayəsində onlar öz mənfur niyyətlərinə çata bilməmişdilər. Bunun əvəzində isə 28 aprel işğalından sonra AXC-nin siyasi xadimlərinə qarşı əvvəlcədən hazırlanan terror əməliyyatlarını həyata keçirməyə başladılar.

Daşnaksütun partiyasının 1919-cu ildə keçirilən IX qurultayında qondarma "soyqırım"ın keçirilməsində bu və ya digər dərəcədə iştirakçı olmuş 650 nəfərin siyahısı tutulur və xüsusi fond yaradılaraq, terrora başlanılır. Qurultayda "əsas günahkar" elan olunmuş 41 nəfərin içərisinə AXC qurucularından olan siyasi xadimlərin də adı salınır. Əməliyyata birbaşa rəhbərlik edən Armen Qaronla yanaşı, yaradılmış maliyyə fondunun təsisçisi Saan Satçaklyan, əsas təşkilatşılardan Saan Natali, Qriqor Merdjanov, Qraç Papazyan operativ iş görməyə başlamışdılar. Onların toplaşdığı əsas mərkəz isə İstanbulda yerləşən "Çakatamart" və Bostonda fəaliyyət göstərən "Droşak" qəzetlərinin redaksiyaları olmuşdu [1].

Ermənilər bu terror aktını ideoloji cəhətdən əsaslandırmaq, gənclərə özlərinə məxsus ideologiyanı aşılamaq məqsədilə "Nemezis əməliyyatı" adlandıırırlar. Məlumdur ki, qədim yunanlarda intiqam ilahəsi "Nemezida"nın adına müvafiq olaraq, qisasçılıq pərdəsi altında türk dünyasının siyasi-ictimai xadimlərinə qarşı terror hazırlamaqla, öz mənfur siyasətlərini genişləndirməyə çalışırdılar. 1919-cu ilin oktyabrından planlaşdıırılan terror AXC-nin fəaliyyəti dövründə reallaşmasa da, Cumhuriyyətin süqutundan sonra, təəssüf ki, bir sıra silsilə qətllər həyata keçirilmişdi.

"Nemezis"in rellaşdırılması istiqamətində ilk cəhd 1920-ci ilin mayında mümkün olmuşdur. Belə ki, mayın 31-də Kürdəmirdə Nəsib bəy Yusifbəyli, iyunun 19-da isə Aram Yerkaryan və Misak Kirakosyan tərəfindən Tiflis şəhərində AXC hökümətinin ən aktiv siyasi xadimi olmuş Fətəli xan Xoyski öldürülmüş, Xəlil bəy Xasməmmədov isə yaralanmışdı. Düz 1 ay sonra, iyulun 19-da Həsən bəy Ağayev "Nemezis" əməliyyatının qurbanı olmuşdur. Adı çəkilən üç siyasi xadimin Azərbaycan xalqının milli şüurunun oyanmasında, eyni za-

manda, AXC dövlərinin mövcudluğu, fəaliyyəti üçün hansı rol oynaması ermənilərə bəlli olduğundan, “qırmızı terror”u gözləmədən, həmin şəxslərin yenidən Azərbaycan dövlətçiliyini bərpa edə biləcəklərindən ehtiyat edərək, qətlləri xüsusi amansızlıqla həyata keçiriridilər.

Qısa olaraq qeyd etmək olar ki, Həsən bəy Ağayev 1914-cü ilin sonlarında Xudadat bəy Rəfibəyli ilə birlikdə Gəncədə ilk səhiyyə cəmiyyəti yaratmış, 1917-ci ilin aprelində Bakıda Qafqaz müsəlmanları qurultayında iştirak etmiş, həmin ilin sonunda Ümumrusiya Müəssislər Məclisinə nümayəndə seçilmişdir. və Rusiya daxilində Azərbaycana muxtariyyət verilməsinin tərəfdarlarından olmuşdur. 1918-ci ilin mayın 27-də Azərbaycan Milli Şurasının sədrinin müavini seçilmişdir. 1918-ci il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Tiflisdə Qafqaz Canişininin keçmiş sarayında keçirilmiş təntənəli iclasında Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq Həsən bəy Ağayev imzalamışdır [1]. Daha sonra Azərbaycan Dəmir Yolu İdarəsinin baş həkimi, 1919-cu ilin dekabrında Parlament sədrinin birinci müavini seçilmiş və 1920-ci il fevralın 2-nə qədər ona rəhbərlik etmişdir.

1916-cı ildə Behbud xan Cavanşir Bakı Müsəlman xeyriyyə cəmiyyətinin rəhbərliyinə seçilmiş, Rusiyada və Avropada ali təhsil alan bir neçə azərbaycanlı gəncə öz vəsaiti hesabına təqaüd vermiş, anadilli mətbuata müəyyən yardımlar göstərmişdir. Onun fəaliyyəti çar xəfiyyələri tərəfindən ciddi izlənmişdir. Behbud xan Cavanşir 1918-ci il iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Fətəli xan Xoyskinin Gəncədə təşkil etdiyi ikinci hökumət kabinəsində Daxili işlər naziri vəzifəsini tutmuşdur. Həmin ilin oktyabrın 6-dan ilin sonuna qədər Behbud xan Cavanşir eyni zamanda Ticarət və sənaye nazirliyini də idarə etmişdir. O, yerli sənayenin inkişaf etdirilməsinə və Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin yaradılmasına ciddi səy göstərmişdir.1919-cu ildə xarici ölkələrlə ticarət əlaqələri yaratmaq üçün Behbud xan Cavanşirin yaxından iştirakı ilə Bakıda "Dəyanət" şirkəti yaradılmışdır. 1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra Nəriman Nərimanovun tövsiyəsi ilə Behbud xan Cavanşir neft sənayesi sahəsində işləmişdir. Həmin ilin axırında müasir neft-mədən avadanlığı almaq üçün Almaniyaya ezam edilmişdir [1]. Behbud xan Cavanşir yolüstü İstanbulda dayanaraq, o vaxt Malta adasında sürgündə olan həmyerlisi Əhmədbəy Ağayevin evində yaşamışdır. Həsən bəyin qətlindən tam bir il sonra, İstanbulda 19 iyul 1921-ci ildə terrorçu Misak Torlakyan tərəfindən Behbud xan Cavanşir “Pera Palas” mehmanxanasının yaxınlığında öldürülmüşdür [4].

Əməliyyat gedşində türklərin ictimai-siyasi xadimləri daim hədəfdə olmuş, onlardan biri, AXC-nin yaradılması, mövcudluğu üçün xidmətləri əvəzsiz olan Nuru Paşanın Azərbaycana gəlməsinə şərait yaratmış Ənvər Paşa isə 1922-ci ilin avqustunda Əfqanıstan yaxınlığında öldürülmüşdür [3].

Bir əsr vaxt keçsə də, erməni xisləti dəyişməmişdir. Hətta bu qətllərin törədilməsini xüsusi fəxarətlə göstərərək, dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların qınaq obyektinə çevrilməkdən ehtiyat etməyərək, 2023-cü ilin aprelin

25-də "Nemezis" əməliyyatına aid xüsusi abidə kompleksi açılmışdır. Əslində ermənilər uzun müddət bu əməliyyatı gizli saxlasalar da, son illərdə xüsusi cəhdlə qondarma "soyqırım"ı dünyaya yaymaq və məzlum bir xalq simvolu yaratmağa çalışdıqlarından, ermənilərin həqiqətən terror törətdiklərini və bununla da fəxr etdiklərini gizlətmirlər [5]. Terror əməliyyatını erməni milli azadlıq hərəkatının ən parlaq səhifəsi və erməni tarixinin "qəhrəmanlıq" səhifəsi adlandırırlar. Azərbaycan xalqı isə cinayətkarları deyil, milli dövlət qurucularının adını əbədiləşdirir, bu yolda canından keçmiş babalarımızın xatirəsi daim ehtiramla yad edilir.

### *Ədəbiyyat siyahısı:*

*1.AXC qurucuları: Azərbaycan Xalq Cümhuriyyəti / axc.preslib.az › page*
*2. Ermənilərin vəhşi terror əməliyyatı – "Nemezis"- "İki sahil" ikisahil.az›post*
*3. Erməni terror təşkilatları və onların iç üzü. Xalq qəzeti, 2012, 9 sentyabr, s. 4.*
*4. Истоки терроризма в регионе и факторы, определяющие его активизацию // Wayback Machine*
*5. Операция «Немезис» / elar.urfu.ru › bitstream*

# M.Ə.RƏSULZADƏNİN MÜHACİR MƏTBU FƏALİYYƏTİ

**Əmanət Əsədova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Arxeologiya və etnoqrafiya kafedrası, t.ü.f.d., müəllim*
*amanatasadova@ bsu.edu.az*

***Açar sözlər***: *demokrat, qəzet, türk, təşkilat, məqalə*

1884-cü ildə Bakıda doğulmuş Məmməd Əmin Rəsulzadə hələ gənc ikən siyasi həyata atılmış, 1903 və 1904-cü ildən etibarən çar rejimi əleyhinə gizli hərəkatlarda iştirak etmişdir. 1908-1910-cu illərdə İrandakı məşrutə hərəkatına qoşulmuş Məmməd Əmin Avropa təhsili görmüş bir qrup İran ziyalısı (Seyid Həsən Tağızadə, Hüseynqulu xan Nəvvab, Süleyman Mirzə, Seyid Məhəmməd Rza və b.) ilə birlikdə 1910-cu ilin sentyabr ayında İran Демokrat Partiyasının əsasını qoyur. O, bu partiyanın əsas orqanı olan "İrane Nou" və "İrane Ahat" qəzetlərinin baş redaktoru olmuşdur. Həmin qəzetlərdə M.Ə.Rəsulzadənin çoxlu məqalələri, şer və publisistik yazıları çap olunmuşdur. Modern Avropa qəzet formasını ilk dəfə İrana gətirən M.Ə.Rəsulzadə olmuşdur [1, c.34]. 1911-ci ildə isə M.Ə.Rəsulzadə təqiblərdən yaxa qurtarmaq üçün İstambula getməli olmuşdu. İstanbulda 1911-ci ilin avqustunda yaradılmış “Türk Yurdu” cəmiyyətinin eyni adlı dərgisini çıxarmağa başladı. Bu jurnalın imtiyaz sahibliyi şair Məmməd Əmin bəyin adına alınmışdı. Onun “Türk Yurdu” və “Səbilürrəşad” (“Doğru yol”) məcmuələrində nəşr edilən bu yazılarla ilk dəfə idi ki, Türkiyədə İran türkləri haqqında ictimaiyyətə geniş məlumatlar verilirdi. Türkiyədə olarkən M.Ə.Rəsulzadə “Türk Ocaqları”ndakı dəyərli mütəfəkkirlərlə də yaxın təmaslar qurmuşdu. 1915-ci ilin oktyabrından isə redaktoru olduğu “***Açıq söz***” qəzetini məhz ədəbi Azərbaycan türkcəsi ilə nəşr etdi.

1920-ci ildə aprel hadisələrindən sonra İ.V.Stalin M.Ə.Rəsulzadəni özü ilə birlikdə Moskvaya aparmış və orada da RSFSR Millətlər Komissarlığında mətbuat müvəkkili vəzifəsinə təyin etdirmişdi.

M.Ə.Rəsulzadənin milli mücadilə tariximizdə ən böyük xidmətlərindən biri azərbaycanlı mühacirləri təşkilatlandırması olmuşdur. Parisdə, Tehranda, Almaniya, İtaliya, Fransa, Xorasan, Mazandaran, Qars, Ərzrum kimi şəhərlərdə nümayəndələrimizin, əski mühacirlərimizin olmasına baxmayaraq İstanbulda M.Ə.Rəsulzadə ilk dəfə “Milli Mərkəz” təşkil edib, müsavatçı olmayan siyasətçiləri də bir təşkilat halında birləşdirdi. Tezliklə bütün Sovetlər Birliyini həyəcana gətirən “Yeni Qafqasiya” jurnalını nəşr etdi. Əslində Azərbaycan mühacirət mətbuatının yaranma tarixi məhz 1923-cü il sentyabrın 26-dan – “Yeni Qafqasiya” jurnalının nəşrindən başlayır. Jurnal ərəb əlifbası ilə15 gündə bir dəfə-ayda iki dəfə olaraq 16 səhifə həcmində nəşr olunurdu. Azərbaycan tarixinin seçimli hadisələri ilə əlaqədar olduqda bəzən jurnal 32 səhifə həcmində buraxı-

lırdı. "Yeni Qafqaz" – Avropanın iri ölkələrindəki mühacirlər arasında, İranda, Misirdə və hətta ən gizli yollarla Bakıda belə yayımlanırdı.

Azərbaycan mühacirlərinin Avropada yaratdığı ilk siyasi təşkilat "Azərbaycan İstiqlal Komitəsi" idi. 1924-cü ildə Almaniyada təhsil alan azərbaycanlı tələbələrin bazası əsasında yaradılan bu təşkilatın ilk sədri Heydər adlı bir mühacir olmuşdu. "Yeni Qafqasiya" – dərgisi 1927-ci ildə "27 aprel"-Azərbaycanın işğal günü münasibətilə xüsusi buraxılış hazırlamışdı. Sovet hökuməti dərgini bağlatdırmaq üçün hər vasitəyə əl atırdı. Həmin günlərdə M.Ə.Rəsulzadəyə belə bir təklif olunmuşdu ki əgər o "Yeni Qafqaz"ın nəşrini və Sovetlər birliyi əleyhinə fəaliyyətini dayandırsa onun Bakıya gəlməsinə təminat verilə bilər. 1927-ci ildə Sovet dövlətinin təzyiqi ilə Türkiyə hökuməti "Yeni Qafqasiya"nın nəşrini qadağan etdi. Həmin il 1 sentyabr tarixdə jurnalın sonuncu 94-cü buraxılışı baş tutmuş oldu. "Yeni Qafqasiya"nın nəşri dayandırıldıqdan cəmi 5ay sonra M.Ə.Rəsulzadə böyük cəhdlərlə ***"Azəri Türk"*** jurnalının çapına nail oldu. Jurnal 1928-ci ildə İstanbulda nəşrə başladı. Jurnalın abunə şəraiti belə idi: illiyi 200 quruş, altı aylığı 110 quruş, bir nüsxəsi 10 quruş, xaricdə bir nüsxəsi 10 quruş, jurnal on beş gündən bir çap olunurdu. Ədəbi-ictimai, elmi və siyasi, milliyyətçi bir məcmuə idi. Jurnalın məsul müdiri Məmməd Sadiq idi. Jurnalın baş məqaləsi "Tutacağımız yol" adlanırdı. Məqalənin müəllifi M.Ə.Rəsulzadə idi.

1928-ci ilin noyabr nömrəsindən sonra M.Ə.Rəsulzadə qələm yoldaşı Mirzə ilə qəzetin imtiyazlı sahibi Məhəmməd Sadiq Axundzadə arasında anlaşılmazlıq üzündən hər ikisi nəşriyyatdan ayrılmalı olmuşlar. Həmin ilin 21-ci sayından etibarən qəzet Məhəmməd Sadiq yönümündə çıxırdı. Burada yenə Azərbaycanın istiqlalı uğrunda mübarizənin əhəmiyyətindən danışılsa da bunun yalnız bir yolla – Ümumqafqaz birliyinin yaradılması yolu ilə mümkün olduğu fikri hakim yerdə idi. Tədricən "Azəri Türk" öz qayəsindən uzaqlaşdı. Qəzetin səhifələri Məhəmməd Səid tərəfindən M.Ə.Rəsulzadə və Mirzəyə qarşə sataşmalar və ciddi təqsirləndirmələr, daha sonra Rəsulzadə ilə birlikdə dərgidən çıxmış Şəfi bəy Rüstəmbəyliyə qarşı ittihamlarla doldurulurdu. Sonda Şəfi bəy tərəfindən M.Səid məhkəməyə verilmişdi.

1929-cu il martın 1-də M.Ə.Rəsulzadə daha bir mətbu orqanın – ***"Odlu Yurd"***un nəşrinə başladı. Milli hərəkata güc verməyə, bolşevizmlə mücadiləni şiddətləndirməyə yönələn "Odlu Yurd" (1929-1931) oxucuların böyük marağına səbəb oldu. M.Ə. Rəsulzadə qəzetin baş redaktoru, A.Kazımzadə imtiyaz sahibi, Kamal bəy isə işlər müdiri idilər. Avropa, İran və Azərbaycana yayımlanan dərgi latın əlifbası ilə buraxılırdı. "Odlu yurd" ayda bir dəfə 16 səhifəlik həcmdə çıxırdı. Dərgidə torpaq, neft, təhsil və əlifba kimi məsələlərə dair məqalələr bir qayda olaraq bolşevizmin ifşa olunmasına xidmət edirdi [3, s.103].

Dərginin ilk sayında M.Ə.Rəsulzadənin "Çöhrəmiz" adlı məqaləsi çap olundu. Mövcud səbəblər üzündən Sovetlər Birliyinin təsiri altında Türkiyə dövlətinin bütün siyasi qafqazlılara münasibəti kəskinləşdi. 1931-ci ildə siyasi baxışlı mühacirlərin, o cümlədən M.Ə.Rəsulzadə və başqalarının, ölkəni məc-

burən tərk etməsindən sonra növbəti bir addım atıldı. 1938-ci ilin sentyabrın 6-da Türkiyə hökumətinin göstərişi ilə Qafqazdan və Türküstandan olan bəzi tanınmış siyasi mühacirlər də Türkiyə vətəndaşlığından məhrum edilərək ölkədən çıxarıldı.

SSRİ dövləti Türkiyə ilə münasibətini yaxşılaşdırdıqca mühacirlərin siyasi fəaliyyətini dayandırması tələbi daha ciddi qoyulurdu. Türkiyə dövləti isə yalnız 1931-ci ilə qədər azərbaycanlı mühacirlərin mətbuat orqanları nəşr etməsinə imkan yarada bildi. 1931-ci ildə SSRİ ilə Türkiyə arasında imzalanan müqavilədən sonra bu mümkün olmadı. Bu səbəbdən "Odlu Yerd"un sonuncu - 31-ci nömrəsi 1931-ci ildə çapdan çıxmışdı.

İlk sayı 7 avqust 1930-cu ildə yayımlanan "Bildiiriş" qəzeti də M.Ə.Rəsulzadənini istiqlal ideyalarının carçısı idi. Qəzet həftədə 1 dəfə 4 səhifədən ibarət olaraq nəşr edilirdi. Burada digər türk xalqlarınını tarixi taleyi və son durumu, Avropada baş verən ən yeni ictimai siyasi və iqtisadi proseslər işıqlandırılırdı. Belə ki qəzetin 36 və 37-ci nömrələri sırf Krım türklərinin tarixinə, digər 4 nömrəsi isə başqırdlara həsr olunmuşdu. 20-ci saya qədər dərginin bütün məqalələri imzasız, bu saydan etibarən isə Mirzə bala Məmmədzadə imzası ilə çap olunurdu.

1931-ci ildə türkiyəni tərk etmək məcburiyyəti qarşısında qaldıqda ona və dostlarına sığınacaq verən ilk ölkə Polşa və Almaniya oldu. Rəsulzadə inadla mühacirətdə mətbu fəaliyyətini davam etdiirirdi. Artıq 1932-ci il yanvarın 10-da Berlində "İstiqlal" qəzetinin nəşrinə başlamışdı. Qəzetdəki məqalələrində müəllif Türkiyədə fəaliyyətlərinə imkan verilmədiyinə təəssüflənir və rus-türk dostluğunun heç bir əsasa malik olmadığını sübut edirdi. O hətta 1934-cü ildə Berlində daha bir jurnalın–"Qurtuluş"un nəşrini ərsəyə gətirdi. Məcmuənin ilk nömrəsində Azərbaycanın görkəmli dövlət xadimi M.Topçubaşovun ölümü ilə bağlı matəm yazısı və bu münasibətlə Rəsulzadənin xüsusi məqaləsi dərc edilmişdi.

Müharibə dövründə mühacirlər mətbuat fəaliyyətini dayandırsalar da, Azərbaycan legionları "Azərbaycan", "Hücum" qəzetləri və "Milli Birlik" dərgisi ilə bu boşluğu qismən də olsa doldururdular. Müharibədən sonra eyni ildə (1952) iki "**Azərbaycan**" jurnalı dərc olunmağa başladı: bunlardan biri Ankarada Azərbaycan Kültür Dərnəyinin orqanı, digəri isə Münxendə Azərbaycan Milli Birlik Məclisinin orqanı idi. Redaktoru C. Hacıbəyli olan Münxendəki "Azərbaycan" 1954-cü ildən nəşrini dayandırsa da, Azərbaycan Kültür Dərnəyinin orqanı hələ də nəşr edilməkdədir.

«Məmməd Əmin Rəsulzadəyə 1947-ci ilin sonlarında Türkiyəyə-Ankaraya qayıtmaq icazəsi verildi. Atatürkün ölümündən sonra Türkiyə Respublikasının Prezidenti İsmət İnönü şəxsən özü icazə vermiş və Məmməd Əmin ömrünün sonuna qədər Ankarada yaşamışdı. 1947-ci ildə Avropada məskunlaşan Azərbaycan mühacirlərinin əksəriyyəti Türkiyəyə qayıtdı. 1949-cü il fevralın 1-də M. Ə. Rəsulzadə başda olmaqla siyasi mühacirlər Ankarada "**Azərbaycan Kültür Dərnəyi**"ni qurdular.

***“Azərbaycan*”** jurnalının nəşri də M.Ə.Rəsulzadənin İkinci Dünya müharibəsindən sonra Türkiyəyə qayıdıb reallaşdırdığı mühüm xidmətlərindən biri idi. 1952-ci il aprelin 1-də o, “Azərbaycan Kültür Dərnəyi”nin orqanı olan “Azərbaycan” jurnalının ilk sayını nəşr etdirdi. Dərginin ilk nüsxəsinin üz qabığında bu sözlər yazılmışdı: “Birlik dirilikdir”, “Türkləşmək, islamlaşmaq, müasirləşmək” [5, s.201]. Jurnalın üz səhifəsində Azərbaycanın xəritəsi verilmişdi. “Azərbaycan” məcmuəsi Anafartalar caddəsində - “Azərbaycan Kültür Dərnəyi”nin yerləşdiyi binada çıxarılırdı. Qiyməti 25 quruş idi. “Azərbaycan” jurnalı Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, adət və ənənələri ilə bağlı çoxlu sayda yazılar çap edirdi. “Azərbaycan” jurnalı bu günədək Ankarada nəşrini davam etdirməkdədir. İliyinə, qanına qədər milli olan, milli olduğu qədər də bəşəri olan Rəsulzadə bütün mənalı və bənzərsiz həyatını Azərbaycan davasına həsr etdi.

M.Ə.Rəsulzadə mətbu fəaliyyətində də sosial mövzuları real və modern zehniyyət ilə birləşdirməyi bacaran bir şəxsiyyət və lider idi. Bu, yalnız türk müsəlman aləmində deyil, dünya siyasətində nadir təsaduf olunan xususiyyət və hadisələrdən idi [4, s.221].

## *Ədəbiyyat siyahısı:*

*1. Azərbaycan mühacirət irsi. –Bakı: ”Elm və təhsil”, 2011, 232 s.*
*2. Azərbaycan mətbuat tarixi 1875-1920. –Bakı: “Elm və təhsil, 2009, 296 s.*
*3. Cabbarlı H.Azərbaycan mühacirət nəşri .- Bakı:”Elm və təhsil”, 2011, 140 s.*
*4. İbrahimli X. Azərbaycan mühacirət tarixi. - Bakı: ADPU nəşriyyatı, 2012, 358 s.*
*5. Azərbaycanlıların Türkiyədəki siyasi kültürəl fəaliyyətləri və düşüncələri (1920-1991). –Ankara: 2001, 256 s.*

# QƏRBİ AZƏRBAYCANIN YERLİ ƏHALİSİNİN TƏRKİBİ (ETNOQRAFİK MATERİALLARA ƏSASƏN)

**Qənirə Pirquliyeva**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Arxeologiya və etnoqrafiya kafedrası, t.ü.f.d., dosent*
*p_qanira@hotmail.com*

**Fəxriyyə Həvilova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Arxeologiya və etnoqrafiya kafedrası, t.ü.f.d., müəllim*
fexriyyehavilova@mail.ru

***Açar sözlər:*** *kameral təsvir və həqiqətlər, türk boyları, etnik xüsusiyyətlər*

Azərbaycan Cumhuriyyətinin idarəçiliyi zamanı indiki Qərbi Azərbaycanın bəzi ərazilərində – Zəngəzur, Dərələləyizvə Göyçə mahalında əhalinin etnik tərkibi barədə ümumiyyətlə heç bir sorğu aparılmasa da, sonrakı dövlərdə baş verən siyasi hadisələr zamanı kəskin fərqlər yaranmamışdı.

Belə ki, İndiki Ermənistan – tarixi Azərbaycanın qərb torpaqlarının yerli əhalisi 80-ci illərinə qədər, yəni xalqımıza qarşı həyata keçirilən son deportasiya və genosidə qədər, apardığımız etnoqrafik sorğulara əsasən uzun yüzilliklər eyni yerdə məskunlaşan ayrı-ayrı türk tayfalarından ibarət olmuşdu.Sorğuya cəlb etdiyimiz insanlar o zamankı Krasnoselki, tarixi Çəmbərəkənd və Göyçə mahalının bəzi kəndlərinin yaşlı sakinləri idi. Bu gün həmin insanlar dünyalarını dəyişsələr də, bizə təqdim etdikləri maraqlı məlumatları analiz etmək üçün çox yararlıdır.

Çəmbərəkənd bölgəsində o zamanlar mövcud olan 30-dan artıq irili-xırdalı kəndlərdən uzaqda, Dilicandan gələn magistral yola yaxın bir ərazidə yalnız bir kənddə haylar keçən yüzilliyin əvvəllərində məcburi məskunlaşdırılmışdılar. Göyçə-Basarkeçər-Vardenis bölgəsində 32 kənddən, çox kiçik əraziyə malik olan yalnız iki kənddə haylar yaşayırdılar. Qalan kəndlər və rayon mərkəzlərində XX əsrin 70-ci illərin sonu-80-ci illərin əvvəllərinə qədər əhalinin tərkibi ancaq Azərbaycan türklərindən ibarət olmuşdu. Bu faktı nə qədər də sovetlərin həyata keçirdikləri vaxtaşırı əhalinin siyahıya alınması zamanı gizlətməyə çalışsalar da, bu kimi faktları arxiv materialları sübut edə bilər. Başqa bir sübut yenə də rusların imperiya zamanı həyata keçirib çap etdirdikləri kameral təsvirlər tam təsdiq edir. Son illərdə Göyçə mahalının kameral təsvirləri tərcümə edilib çap edilsə də, kitablarda olan bir çox məlumatlar məhz Rusiya İmperiyasının Qafqaz siyasətinə əsasən yazılmış və olduğu kimi müəllif tərəfindən tərcümə olunmuşdur [1]. Halbuki oranın bəzi köklü nəsillərinin şəcərəsinin araşdırması bu faktların tamamilə səhv olduğunu və qərəzli şəkildə ruslar tərəfindən dəyişdirildiyini sübut edir [3, s.4].

Hər iki böyük ölçülərə malik olan mahalın kəndlərində dağlıq və dağətəyi yerlərdə, çay və göl sahillərində minillərlə insanlar yaşayırdılar. Hələ göstərdiyimiz zamanlarda onların nəslinin haradan gəldiklərini soruşanda əksəriyyəti yerli olduqlarını, az bir qismi osmanlılarla indiki Türkiyənin cənub, cənub –şərqindən, digər bir qismi İranın Xoy, Sulduz və digər yerlərindən köç etdiklərini qeyd edirdilər. Onların da etnik kökləri türklərin cürbəcür tayfalarına aid idi. Tayfa adlarını əksər hallarda yaşadıqları kəndlərin adlarında-toponimlərində qoruyub saxlayırdılar. Bu adlardan Qanlı-kanklı-gəngər, Kərkibaş, Bəryabad kimi yer adlarını göstərmək olar. Hər bir kənd öz-özlüyündə ayrı-ayrı nəsillərin kompakt yaşadığı hissələrə bölünürdü. Tayfa-nəsil adlarında həm etnik kök əlamətləri, həm də hansısa xüsusi əlamətlər, yaxud tarixi hadisələrlə bağlı adlara rast gəlmək mümkün idi. Misal kimi edillilər – İdil-Volqa çayı boyu ərazilərlə bağlılığı, poladlar, kumanlar, kotanlı; yaxud türk dünyasında geniş yayılmış insan adları ilə bağlı tayfa adı olaraq, hacınağılar, qaralar, kosalar və s. kimi bölgünü göstərmək olar. Bu bölgü bütün türk dünyasının ümumi qəbul edilmiş bölgü formasına uyğundur. Kəndlərin camaatının cürbəcür nəsil və tayfa adları ilə tanınmasına baxmayaraq, ümümi adət və ənənələri, yemək, toy və yas mərasimləri var idi. Maraqlı məsələlərdən biri yerli əhalinin öz övladlarına ad qoymaları ilə bağlı idi. Oğlan uşaqlarının adlarında islam dini ilə bağlı adlara üstünlük verilsə də, bəzən ölkə, şəhər adları ilə bağlı - Dağıstan, Təbriz; qız övladlarına sevə-sevə islamaqədərki dini inanclarına uyğun olaraq əksər hallarda astral inamlarla bağlı Günəş, Səhər, Ulduz, Ay adına əlavələrlə; totemlərlə əlaqəli –Sona, Kəklik, Turac, Bülbül kimi adlar qoyardılar. Hər bir insanın ən azı iki adı olardı-bir anadan olanda rəsmi sənəd adı, bir də əzizləmə anlamında hansısa heyvana, gülə, dağa, bulağa bənzər, ya da rəhmətə gedən böyüklərin adları ilə çağırardılar. Tək adı olan insana orada rast gəlmək mümkün deyildi. Bütün hallarda nəsil adı ilə birgə adlandırılma əsas tanıtma mənbəyi hesab olunurdu. Nəsil adlarına cəm şəkilçisi əlavə edilərək daha dəqiq xüsusiyyətləryada salınıb, hadisələri davam etdirmək maraqlı hekayələrin süjet xəttinə çevrilirdi. Bütün hallarda adların tanıdılmasında insan xüsusiyyətləri içərisində xarici görünüş, dil qabiliyyəti, sənət sahəsi, məşğuliyyət, yaşadıqları məkan və ən sonda hansı nəsillə hansı qohumluq əlaqəsində olması bildirilərək, beləcətanışlıq, ünsiyyətə keçid alınırdı. Bu insanların çox güclü yaddaşı var idi. Əgər hansısa bir tayfada neçə yüz il öncə nəsə görünməyən bir iş həyata keçiribsə, yaxud da kimsə hansısa bir hərəkətinə görə ad qazanıbsa, qohumlarının təqdimatında onuntarixi oradan başlayırdı. Bu tarixi bilməyənlərə ümumi inam olmazdı, yəni sanki eli tanımayana öz aralarında yad kimi baxardılar. “Xilas” yalnız yaşda, başqa yerdə yaşamaqda, ən azı ailədə bir tərəfin “yad eldən” olmasında ola bilərdi. Kəndlərdə nəsildaxili nigahlara - endoqamiyaya üstünlük verildiyindən ailədə bir tərəfin başqa bölgədən olması nadir hallarda ola bilərdi. Maraqlıdır ki, “yad elli” anlayışı bütövlükdə Qərbi Azərbaycan mahallarına aid edilmirdi. Bütün hallarda “elini hürküdüb axsağına yiyə dumaq”, ”öz daşım- öz divarım” kimi məsəl-

lərlə bütün insanlara hörmətlə yanaşaraq, uzaq yerdən gələn insanlara hörmətli qərib kimi sahib çıxmaq kimi müdrik xüsusiyyətlər bu ellərin əsas etnik əlamətlərindən idi [4; 5; 6].

Araşdırdığımız mahalların hər bir kəndinin öz yaylaq yeri minillərlə dəyişməz olaraq qorunub saxlanılırdı. Bu yaylaqların hər bulağının, daşının, ağaclı meşəsinin, yamacının, dağının çox maraqlı adları var idi. Həmin kəndlərin bu gün yaşayan əhalisi məclislərdə bir-biri ilə söhbət edəndə eyni qaydada yaddaşlarını təzələyirlər. Bu "yaddaş kodu" bir və ya üç yüz ilin təkamülündə insan beynində yaşaya bilməz. Nəsildən nəsilə keçən etnonimlər, hidronimlər, oykumenlər və s. elmi adlarla tanıdığımız biliklər bütün hallarda insanlar tərəfindən genetik olaraq qorunur.

Bütün türklərə aid olan etnik xüsusiyyətlər sırasında kəndlərin əsas məşğuliyyət sahələri önəmli yer tuturdı. Hansısa bir kənddə dənizdən (yerli əhali Göyçə gölünü sadəcə dəniz adlandırırdı) tutulan alabalığı, digərində qarabalığını daha yaxşı bişirməklə, yaxud yalnız xalça toxumaqla, ali təhsillilərin sayının çox olması ilə, qadınlarının xüsusi qəhrəmanlılqları ilə və s. əlamətlərlə seçilərdilər. Sovetlərin gəlişi ilə bu əlamətlərə bəzi əlavələr edilsə də, tarixi məşğuliyyət sahələri bütün hallarda qorunub saxlanılardı. Bu baxımdan maraqlı misal kimi Göyçənin Qanlı kəndinin kişi əhalisi ilə bağlı fikirləri göstərmək olar. Yerli əhali hesab edirdi ki, arabanı qanlılar (yəni gəngər tayfasının bir qolu) kəşf etdiynə görə, sürücülüyü də elə bunlar daha yaxşı bacarırlar; yaxud da aşıq sənətinin "vətəni" birmənalı və sorğusuz Göyçə mahalı hesab edilirdi. Çəmbərəkənddən tanınmış aşıq o zamanlar demək olar ki, yox idi. Aşıq sənəti həm də balaban ifaçılarını əhatə edirdi. Nəfəsi güclü olan balabançıların diyarı həmin illərdə yenə də Göyçə hesab olunurdu. Ehtimal etmək olar ki, buna bir səbəb bütün Qərbi Azərbaycanın əsas şirin su hövzəsi olan Göyçə gölü olmuşdu. Elmi mülahizələrə görə coğrafi mövqeyin insanların məşğuliyyətinə, fiziki quruluşuna hər zaman müəyyən təsiri olmuşdu.

Beləliklə, şərti olaraq, Qərbi Azərbaycan adlandırdığımız bu məkan çox qədimlərdən türklərə aid olmasını ora köçürülən haylar hər zaman bilirdilər və bu gün də bilirlər. "Kitabi Dədə Qorqud" dastanında olan yer, insan, dağ, çay, göl adlarının əksəriyyəti məhz bu müqəddəs yerlərdə yaşayırdı [2]. Bu faktlar bizlərə bir daha etnik torpaqlarımız haqqında xeyli məlumatlar verməkdədir.

### *Ədəbiyyat siyahısı:*

1. *Əhməd N. Göyçə mahalının kameral təsviri. – Bakı: "Elm və təhsil", 2017, 292 səh.*
2. *Həvilova F. Göyçə ətrafı toponim və antroponimlər ("Kitabi-Dədə Qorqud") dastanı əsasında. Türkay derg. 2020, səh-35-38*
3. *Pirquliyeva Q. Yaddaşlarda qalan ağrı. "Azərbaycan" qəzeti, 19 iyul 2000 ci il*

*4. Pirquliyeva Q. Qərbi azərbaycanlıların folklor nümunələri əsasında bəzi tarixi faktlar barəsində. VII Beynəlxalq Türk mədəniyyəti, incəsənəti və mədəni irsin mühafizəsi adlı Beynəlxalq simpoziumunun materialları. Bakı, 26-29.06. 2013, s.575-579*
*5. Pirquliyeva Q. Ermənilər və Azərbaycan türkləri: nifrətin, soyqırımların əsas səbəbləri (etnoqrafik məlumatlara əsasən). "İçərişəhər" DTMQ-nin elmi-mədəni mərkəzin "31 mart azərbaycanlıların soyqırımı günüdür" adlı elmi-praktik seminarın tezislər toplusu. –Bakı: "Elm və Təhsil", 2014, s.2023*
*6. Pirquliyeva Q. Cənubu Qafqazın qərb bölgələrinin əhalisinin Azərbaycan dilindəki bəzi özəllikləri. Dağıstan Dövlət Universitetinin 2017- cil aprelin 18-19 tarixlərində keçirdiyi "Qafqaz dillərinin öyrənilməsinin aktual problemləri" adlı Beynəlxalq elmi-praktik konfrans materialları. Mahaçqala, 2017, s.154-157*

# AZƏRBAYCANIN TARİXİ ƏRAZİLƏRİNDƏ KURQAN TİPLİ QƏBİR ABİDƏLƏRİ VƏ ONLARDA ANALOJI XÜSUSİYYƏTLƏR

**İradə Avşarova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Arxeologiya və etnoqrafiya kafedrası, t.ü.f.d., dosent*
*iradaavsharova@bsu.edu.az*

***Açar sözlər*: *Arxeologiya, kurqan, qəbir, araba, öküz***

Azərbaycan və onun tarixi əraziləri kurqan tipli qəbir abidələri ilə çox zəngindir. Kurqanlarda tək və kollektiv dəfn adətləri izlənilir.

Azərbaycan tayfalarının Tunc dövrü dəfn adətlərinə uyğun olaraq, kurqanlarda dünyasını dəyişmiş insanlarla yanaşı, onlara aid olan əşyalar, yemək dolu qablar qoyulurdu. Kurqanlar tayfa başçılarına aid olduqda isə dəfn adəti daha dəbdəbəli keçirilir və tayfa başçısı cənazə arabası və ya taxt çarpayı üzərində arxası üstə qoyulur, axirət dünyasında onu qorumaq, qulluq etmək üçün, mərhumla birgə onun qadınları, hərbçilər, nökərlər və qullar dəfn olunurdu. Bunlar, əsasən, yalnız kəllələri basdırılmışvə ya parçalanmış kişi bədəninin sümüklərinin qalıqlarından, bəzən isə arxası üstə uzadılmış mərhumdan fərqli olaraq, bükülü və otuzdurulmuş insanlardan ibarətdir. Qəbir abidələrində bəzən müxtəlif heyvanların parçalanaraq qəbirlərə qoyulması, qurban gətirilməsi adətinə də rast gəlinir [6, səh.96].

Tayfa başçılarının cənazə arabası və taxt çarpayı üzərində dəfninə Azərbaycanda Tovuz rayonunun Məntəş (e.ə. III minilliyin II yarısı), Ağdam rayonunun Sarıçoban, Ağstafa rayonunun Həsənsu, Tərtər rayonunun Bəyimsərov, Goranboy rayonunun Borsunlu, Qərbi Azərbaycanın Aşağı Adıyaman, Ördəkli 1, 2, və 17 saylı (e.ə. XII-XI əsrlər) və s. kurqanlarda rast gəlinmişdir [4, səh.362-364; 3, səh.107; 2, səh.109-114; 5; 11, səh. 66-70; 12, səh.146-148: 10, səh.157]. Anoloji dəfn adətinin Qərbi Azərbaycan kurqanlarında da müşahidə olunması, kurqanların eyni arealdan bəhrələndiyini bir daha sübut edir.

Ördəkli 1 saylı kurqanda qəbrin orta hissəsində, arabanın altında iki öküz və insan kəlləsinə rast gəlinmişdir. Ördəkli 2 saylı kurqanda da eyni səciyyəvi xüsusiyyətlər izlənilir. Bu kurqanda da dörd təkərli arabanın milinin altına iki öküz kəlləsi qeydə alınmışdır. 17 saylı Ördəkli kurqanında da arabanın yanında dörd öküz skeletinə təsadüf edilmişdir. Dörd öküz kəlləsi və araba qeydə alınmış kurqanlardan biri də Ağstafa rayonunda tədqiq olunmuş Həsənsu kurqanıdır. Göründüyü kimi, kurqanda tanrılara və dünyasını dəyişmiş tayfa başçısının ruhuna insanlar və heyvanlar qurban verilmişdir. Tədqiqatlardan məlum olur ki, kurqanlarda dəfn olunan tayfa başçıları dolixokefal insan tipinə aiddir.

Belə ki, Qarabağın Axmaxlı Son Tunc dövrünə aid 1 saylı kurqanıda dörd ölünün basdırıldığı müəyyən edilmişdir. Əsas ölü qəbrin şərq hissəsində arxası üstə başı qərbə doğru uzadılmış halda dəfn olunmuşdur. Ölünün kəllə quruluşu

dolixokefaldır [2, səh.75]. Qarabağın Axmaxlı Son Tunc dövrü 3 saylı kurqanı da 1 saylı kurqan tipindədir. E.Reslerin tədqiqinə görə, uzadılmış əsas ölü dolixokefaldır.

Qarabağın Dövşanlı kəndində tədqiq olunmuş Son Tunc dövrünə aid 2 saylı kurqandan isə süni düzəldilmiş platforma üzərində üç qəbir aşkar edilmişdir. E. Reslerə görə, şimal-qərb, cənub-şərq istiqamətli qəbirdə başı dolixokefal (uzunsov) tipli yeniyetmə dəfn olunmuşdur [9, səh.141-142,145].

Göyçə gölünün şərq tərəfində yerləşən Qışlaq kəndi ərazisində (Son Tunc dövrü) və Qacar (Bəyazit) rayonunun «Mlakanı dari qlux» adlanan yerində üç kurqan abidəsi tədqiq olunmuşdur. Bu kurqanların birinin qəbirindən kişi və qadına məxsus dolixokefal kəllə sümükləri aşkar edilmişdir [10, səh.154].

Y.İ. Hummel tərəfindən Göygöl rayonu ərazisində tədqiq olunan kurqan yalnız bir qəbir abidəsi ilə təmsil olunur. Qəbir tək kişiyə aid olmuşdur. Onun sümükləri üç hissəyə parçalanmışdır. Tədqiqatçı qeyd edir ki, qəbirdəki insan qalığı A.A. İvanovski tərəfindən Gəncə-çay və Şəmkir-çay hövzəsində tədqiq olunmuş qəbir abidələrindəki antropoloji tipə-dolixokefaltipli insanlara aid olunur [7, səh.60-61].

Paşakənddə (indiki Ermənistan ərazisində) tədqiq olunan kurqanın mərkəzində dolixokefal tipinə aid bir kişi, iki qadın və dörd uşaq skeletinə rast gəlinmişdir. Qəbrin cənub küncündə dolixokefal tipinə aid daha on iki insan dəfn olunmuşdur [10, səh.154]. Qərbi Azərbaycanın Göyçə mahalı (indiki Ermənistan) Bəyazit və Paşakənd arasında Son Tunc dövrünə aid daha dörd kurqan tədqiq edilmişdir. E. Lalayan qeyd edir: «Kəllə tipləri və əşyalar digər kurqanlarda olduğu kimi bir-birindən fərqlənmirlər» [10, səh.153-154].

Kurqantipli qəbir abidələrinə Qərbi Sibir və s. ərazilərdə şoxrast gəlinir. Qərbi Sibirdə qədim dövrlərin hamısına aid kurqanlar mövcuddur. E.M. Murzayev kurqanların türk xalqlarının yaşadıqları ərazidə yayıldığını qeyd edir. Onun apardığı tədqiqatlarda göstərilir ki, kurqanların başlayıb və qurtardığı ərazilərdən sonra başqa xalqlara aid ərazilər başlayır [13, səh.18-21].

E. Lalayan Qərbi Azərbaycan ərazilərində olan kurqanlarda apardığı arxeoloji tədqiqatlara əsaslanaraq izlədiyi anolojixüsusiyyətlər barədə yazırdı: «Ərazidə tədqiq olunan digər qəbirlər həqiqətən də, böyük maraq doğurmaya bilməz, onların əksəriyyəti Göyçə gölü ərazisində olan kurqanların dəfn tipi ilə eyni xüsusiyyətlərə malikdir» [1, səh.86; 10, səh.154].

Son Tunc dövrü kurqanların hamısında təbərzin baltalar, üç və iki dişli yabalar, tunc xəncər və qılınclar qeydə alınmışdır. Həmçinin kurqanlarda çox sayda qara və boz gilalı ağ inkrustasiyalı gil qablara və müxtəlif əşyalara rast gəlinmişdir. Qərbi Azərbaycan ərazilərindən əldə olunan maddi mədəniyyət nümunələrinə diqqətlə nəzər saldıqda buradakı artefaktlarınhamısının ulularımıza – Xocalı-Gədəbəy mədəniyyəti tayfalarına mənsubluğunun şahidi oluruq.

Beləliklə, aparılan tədqiqatlardan məlum olur ki, kurqanlar, əsasən, arxası üstə basdırılmış tayfa başçılarına və tayfada yüksək nüfuza sahib kişilərin şərəfinə ucaldılmışdır.

Belə ki, V.D. Derjavin qəbirlərdə arxası üstə basdırılmış, dizləri qatlanmış insanlar haqqında çox mühüm nəticəyə gəlmişdir. O yazır ki, kürəyi üzərində, dizləri qatlanmış dəfn adəti Şumer mədəniyyətinə aid olub, geniş əraziləri əhatə etmişdir [8, səh.118-124].

Göründüyü kimi, tədqiq olunan bir çox kurqanda arxası üstəbasdırılmış, dolixokefal kəllə quruluşuna malik insan qalıqları əsasən, tayfa başçılarına aiddir, onun ətrafında otuzdurulmuş, ona səcdə edən vəziyyətdə dəfn olunanlar isə, demək olar ki, braxikefal tipli insanlardır. Göy-Göl, Gəncə-çay, Gəncə, Qarabağ, Göyçə kurqanlarında tədqiq olunmuş qəbir tipləri və dəfn adətlərində oxşar səciyyəvi xüsusiyyətlər izlənilir. Ehtimal ki, həmin qəbirlərdə təsadüf olunan dəfn adətləri özündə eyni soy-kökə malik tayfaların dini dünyagörüşləri ilə bağlı dəfn adətlərini yaşadır.

Arxeoloji qazıntılar, uzunmüddətli müşahidələr ərazidə tədqiq olunan kurqan qəbir mədəniyyətinin daşıyıcılarınınoturaq əkinçi və köçəri maldar tayfalar olduğunu sübut edir.

Maraq doğuran cəhət ondadır ki, kurqan qəbirlərində təsadüf olunan dörd təkərli arabalar tayfa başçılarına aid olmaqla yanaşı, həm də tayfa başçılarını axirət dünyasına yola salan cənazə arabası rolunu oynamışdır.

Göründüyü kimi, tədqiq olunana qəbir abidələrinin dağlıq və ya düzən zonalarda yayılmasından aslı olmayaraq eyni ideoloji dünyagörüşlərdən bəhrələndiyinin şahidi oluruq.

### *Ədəbiyyat siyahısı:*

**_Azərbaycan dilində_**

*1. Avşarova, İ.N. Ölülər kultu və dolixokran tapıntılar (Azərbaycan və onun tarixi ərazilərində aparılmış arxeoloji qazıntılar əsasında) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Xəbərləri. İctimai elmlər seriyası, – Elm, – 2018. №4, – s.81-89.*

*2. Cəfərov, H.F. Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində (Qarabağın Qarqar çay və Tərtər çay hövzəsinin materialları əsasında) / H.F.Cəfərov. – Bakı: Elm, – 2000. – 187 s.*

*3. Göyüşov, R.B. SSRİ Arxeologiyası (dərs vəsaiti) / R.B.Göyüşov, A.N.Martınov. – Bakı: Maarif, – 1990. – 269 s.*

*4. Quliyev, F.E. Məntəştəpə qədim yaşayış yeri //F.E. Quliyev, B. Lionnet, – Bakı: Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014, – Afpoliqraf, – 2015. – 361-364.*

*5. Müseyibli, N.Ə. Həsənsu kurqanı /N.Ə. Müseyibli, A.M. Ağalarzadə. – Bakı: AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, – Nafta-Press, – 2013. – 92 s.*

**_Rus dilində_**

*6. Асланов, Г.М. Древний Мингечаур /Г.М. Асланов, Р.М. Ваидов, Г.И. Ионе. – Баку: Издательство АН Азербайджанской ССР, – 1959. – 191с.*

*7. Гуммель, Я.И. Археологические очерки /Я.И. Гуммель. – Баку: АН*

*СССР, Азербайджанский филиал Института истории, – Издательство Аз. ФАН СССР, – 1940. – 166 с.*

*8. Державин, В.Д. Курганы эпохи бронзы у с. Бутори в Молдавии // – Москва: СА, – Наука, – 1976. №2. – с. 118-124.*

*9. Кушнарева, К.Х. Некоторые памятники эпохи поздней бронзы в Нагорном Карабахе // – Москва: СА, т. XXVII. – Издательство Академия Наук СССР, – 1957– с.136-177.*

*10. Мартиросян, А.А. Армения в эпоху бронзы и раннего железа /А.А. Мартиросян. – Ереван: Издательство Академия Наук Армянской ССР, – 1964. – 312 с.*

*11. Мнацаканян, А.О. Лчашенские курганы (раскопки 1956 года) // – Москва: КСИА, №85 – 1961. – с.60-72.*

*12. Мнацаканян, А.О. Раскопки курганов на побережье оз. Севан в 1956 г. // – Москва: СА, вып.2. – Издательство Академия Наук СССР, – 1957 – с.146-153.*

*13. Петроглифы. https://www.ru.wikipedia.org/wiki/*

# CÜMHURİYYƏT DÖVRÜNDƏ MUZEY QURUCULUĞU

**Yasəmən Qasımlı**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Arxeologiya və etnoqrafiya kafedrası nəzdində muzeyin əməkdaşı*
*yasemen-qasimli@mail.ru*

***Açar sözlər:*** *AXC, İstiqlal, muzey, maarif, eksponat*

Azərbaycanda bir sıra ilklər məhz Cümhuriyyət dövrünə aid olduğu kimi, muzey quruculuğunun milli dövlətçilik tariximizdə formalaşması da məhz ilk müstəqil dövlətimizin tarixi ilə bağlıdır. Məlumdur ki, dövlət səviyyəsində ilk rəsmi muzey İstiqlal Muzeyidir. Azərbaycanın mədəni-maarif sahəsindəki uğurlarından biri Bakı Dövlət Univeristetinin nəzdində "Şərqin arxeologiyası və tarixin həvəskarları dərnəyi" yaradılması haqqında məsələnin reallaşdırılması üçün atılan adımlar olmuşdu. Həmin dövrdə əşya və materialların, bədii sənətkarlıq nümunələrinin qeydə alınması, mühafizəsi, tədqiqi, təbliği ilə əlaqədar hüquqi - normativ sənədlərin olmaması, qədim mədəni irs nümunələrinin xaricə daşınması böyük problem olaraq qalırdı və bu, Cumhuriyyət yaradıcılarını, Azərbaycan ziyalılarını narahat edirdi. Odur ki, 1919-cu ilin sentyabrında "Yaşıl qələm" Ədəbi Cəmiyyətinin üzvləri Hüseyn bəy Mirzə Camalov və Məhəmməd Ağaoğlu Azərbaycan parlamenti qarşısında Bakıda milli muzeyin yaradılması məsələsini qaldırdılar. Muzeyin təşkili ilə əlaqədar "Azərbaycan" qəzeti (1919, 23 sentyabr) yazırdı: "... sənələrdən bəri bəslədiyimiz bir arzu var ki, o da Vətənimiz Azərbaycanda bir milli muzey təsisidir... Sabiq Rusiya zamanında təsis edəcəyimiz muzeyin adını "Milli muzey" qoymaq fikrində idiksə də bu gün fərdimizin köksünü qabardan istiqlal şüarı olmasına görə, "İstiqlal Muzesi olmasını əhəmiyyətli görürüz". Muzey direktoru qeyd edir ki, parlamentinin sədrmüavini Həsən bəy Ağayev tərəfindən İnventar komissiyasına muzey üçün bir otaq ayrılması haqqında sərəncam verilib və komissiya belə bir qərar çıxarıb: "Muzeyin saxlanma xərclərini parlament öz üzərinə götürür, bu şərtlə ki, muzey eksponatları yalnız parlamentə məxsus olmalıdır".

Məlumdur ki, İstiqlal Muzeyi 1919-cu il dekabrın 7-də Azərbaycan parlamentinin yaradılmasının ildönümü münasibətilə, onun binasında açılıb və parlamentin nəzdində fəaliyyət göstərib.

Ekponatların toplanması üçün əsas qanunverici sənəd "Həmişəlik Azərbaycan Parleman İmarətində təsis edilən muzey İstiqlal adına müəssisələr tərəfindən toplanmış olan şeylərin birinci parlaman Divani-Riyasətinə təhvil verilməsi haqqında şərait" adlanır. Burada müasir muzey işində aparıcı sənədlər, muzey əsasnaməsi, uçot-mühafizə üzrə təlimat və fond-satınalma komissiya haqqında əsasnamədə müddəalar yığcam şəkildə öz əksini tapıb. Sənəddə göstərilir ki, "İstiqlal Muzeyinə verilən hər bir əşya milli sərvətdir, gələcəkdə əşya sahiblərinin ailə üzvləri onları tələb edə bilməz. Muzeyə hədiyyə olunmuş əş-

yalar geri qaytarılmır. Muzeyin genişlənməsinə birinci olaraq, Azərbaycan parlamenti divan rəyasəti səy edəcək və təşkilatına lazım olan bütün məxarici kəndi öhdəsinə götürəcək". Sənəddən görünür ki, gələcəkdə muzey üçün xüsusi bir binanın ayrılması, yaxud tikilməsi, muzeyin nəzdində zəngin kitabxananın yaradılması, muzey proqram və nizamnaməsinin yaradılması və s. nəzərdə tutulub. Muzeyə verilmiş əşyaların qiymətləndirilməsi və uçota alınması, əşya təqdim edən şəxslərə müvafiq sənədin verilməsi, muzeyin əldə etdiyi gəlirlərdən istifadə qaydaları sənəddə öz əksini tapıb.

Parlamentə təhvil verilmiş 31 adda 89 ədəd ilkin əşyalar içərisində əski qılınc, qəmə, barıt qabı, müxtəlif formalı muncuqlar, əski "Quran", dualar, tilsim mətnləri həkk olunmuş mis məmulatlar, gümüş üzük, rus pulları, yunan pulu, əlyazmalar və digər məmulatlar mövcud idi.

Beləliklə, 1919-cu ilin dekabrında İstiqlal Muzeyinin açılması Azərbaycan mədəniyyəti tarixində mühüm hadisə idi və 1920-ci ilin aprelində Azərbaycanda Sovet işğalından sonra İstiqlal Muzeyi ləğv edilsə də yeni muzeylərin təşkilində mühüm rol oynadı.

### *Ədəbiyyat siyahısı:*

*1. İstiqlal Muzeyi. Azərbaycan qəzeti 1919, 23 sentyabr*

*2.Bayramov A. Azərbaycanda muzey işinin tarixindən. - Bakı: "Mədəni-maarif işi" jurnalı, 2000, № 4/5, s.37-45*

*3.Miriyev A. Azərbaycanda ilk rəsmi dövlət muzeyi. Palitra. - 2013.- 3 dekabr.- s. 11.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN MODERNLƏŞMƏ İDEYALARI

**Əfşan Şəfiyeva**
*AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*"İran tarixi və iqtisadiyyatı" şöbəsi, aparıcı elm işçi, t.ü.f.d., dosent*
*afshanshafiyeva@yahoo.com*

***Açar sözlər:*** *Cümhuriyyətin ideoloqu, M.Ə.Rəsulzadə, milli modernləşmə, çağdaşlaşma, müasirləşmə konsepsiyası*

Müasirləşməyə doğru addımlayan istənilən cəmiyyət əsasən, ona zamanın şərtlərindən və mövcud ehtiyaclardan çıxış edərək yanaşır. Bu yanaşma və modernləşmə ideyalarını həmin cəmiyyətin qabaqcıl elitası, intellektualları sırasından olan liderlər irəli sürür. Azərbaycanda XX əsrin əvvəllərində belə bir missiyanı Cümhuriyyətin ideoloqu və qurucusu Məhəmməd Əmin Rəsulzadə (1884-1955) öz çiyinlərinə götürmüş, milli-mənəvi dəyərlərimizin böyük himayədarı və daşıyıcısı olaraq çıxış etmişdir. M.Ə.Rəsulzadənin müasirləşmə haqqında düşüncələri Əli bəy Hüseynzadə və Ziya Göyalp kimi böyük mütəfəkkirlərin "Türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyalarından qaynaqlanaraq formalaşmış və öz təqdimatında izahını belə açıqlamışdır : "Hər bir millət azadə yaşayıb da tərəqqi edə bilmək üçün üç əsasa istinad etmək məcburiyyətindədir: Dil, din və zaman. Dilcə biz türküz, türklük milliyyətimizdir. Binaənileyh müstəqil türk ədəbiyyatı, türk sənəti, türk tarixi və türk mədəniyyətinə malikiyyətimiz məqsədimizdir. Parlaq bir türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır.

Dincə müsəlmanız. Hər bir din öz mütədəyyinləri arasında məxsusi bir təməddün vücuda gətirmişdir ki, bu təməddün də bir beynəlmiləliyyət səbəbi təşkil edir. Müsəlman olduğumuz üçün biz türklər beynəlmiləliyyəti-islamiyyətə daxiliz. Bütün islam millətlərilə şərikli bir əxlaqa, dini bir tarixə, müştərək bir yazıya, xülasə ortaq bir təməddünə malikiz. ... Bu şəriklik islamiyyətə daxil olan zərərli təsirlərdən bizi mütəzərrər etdiyi kibi, bu yolda olacaq islahat feyzlərindən də bizi nəsibsiz qoymaz. Zamanca da biz texnikanın (alyatın), elm və fənnin möcüzələr yaradan br dövründəyiz. Türk və müsəlman olaraq müstəqilən yaşamaq istərsək, mütlaqa elmlər, fənlər, hikmət və fəlsəfələrlə silahlanmalı, sözün bütün mənasıyla zəmanə adamı olmalıyız" [1, 181-182].

M.Ə.Rəsulzadənin çağdaşlıq mövzusundakı fikirləri onun "Dirilik" jurnalındakı Milli dirilik" adlı silsilə məqalələrində, eləcə də "Açıq söz" qəzetindəki "Tutacağımız yol" və "Getdiyimiz yol" başlıqlı yazılarında yayınlanmışdır.

M.Ə. Rəsulzadənin milli modernləşmə konsepsiyası milli və bəşəri dəyər və təsisatların vəhdəti və onları əldə etmənin yollarını özündə ehtiva bir fəaliyyət proqramıdır. Milli ideoloq, cəmiyyəti çağdaşlaşma istiqamətindəki dəyişiklikləri qəbul etməyə, dil, din, adət və ənənələr, tarixi keçmiş, ailə, təhsil, milli

mətbuat və ədəbiyyat, milli məfkurə kimi hər bir millətin dəyər və təsisatlarını araşdırmaqla milli varlığımızı yaratmağa çalışırdı. O, modernləmənin Azərbaycan xalqının dünyanın sivil xalqları sırasında mövcudluğunun nə qədər əhəmiyyətli olduğunu və bunu həyata keçirtmək üçün ilk milli müstəqil Azərbaycan dövlətinin çağdaş demokratik, dünyəvi, hüquqi bir dövlət proqramını işləyib hazırlamışdır.

M.Ə.Rəsulzadə modernləşmənin, onun təbirincə müasirləşmənin, zamanla bağlı olduğuna, hər dövrün isə öz cağdaşlıq qavramına məxsusluğu məsələsinə "Açıq söz" qəzetinin 1 illiyi münasibətilə yazdığı "Getdiyimiz yol" adlı məqaləsində toxunaraq, “Türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarına qayıdır və onun tərkib hissələrini təhlil edərək, məhz bu sonuncunu – müasirləşməni önə çıxarır, onun mahiyyət və əhəmiyyətini qeyd edir. Rəsulzadəyə görə, müasirləşmək - cəmiyyətin zaman və əsrindəki maddi və mənəvi mədəniyyət vasitələrini mənimsəməsidir. O, müasirləşmədən cəmiyyətin gələcək inkişafını mümkünsüz hesab edir, zira bunsuz nə millətin istiqlalı, nə onu təmsil edəcək bir hakimiyyət, nə də insanların hüquq və azadlıqları mümkündür: "Müasirləşmək- iştə bütün millətləri səlah və nicat yoluna çıxaran böyük bir vasitə. Müasirləşməyən, yəni zaman və əsrindəki maddi və mənəvi vasiteyi-mədəniyyə ilə silahlanmayan bir cəmiyyət gərək qan, irq və dilcə birləşmiş milliyyət və ya din, ruh və vicdanca tanınmış beynəlmilliyyət olsun- mümkün deyil. Müdhiş və qanlı bir rəzmgah təşkil edən bu dünyada kəndi bənligi, öz mənəvi ruhu və təbii qəlbi ilə yaşayamaz. Dünyanın həyatından, bu həyatın ən böyük feyz və nemətini təşkil edən istiqlaldan, mədəni iqtidar və hüriyyətdən məhrum olub qalar” [2, 545].

Rəsulzadənin bəhs edilən məsələ ilə bağlı əsas xidməti modernləşmə nəzəriyyəsini yeni aspektdə işləyib təqdim etməsidir. O, müasirləşmənin milli mənliyi itirmədən və ya milli əsaslara söykənərək həyata keçirilməsini irəli sürürdü. M.Ə.Rəsulzadənin modernləşmə ideyaları tərəqqiyə maneçilik yaradan vasitələrdən, buxovlardan azad olub, müasirliyə, inkişafa doğru addımlayan cəmiyyət üçün nəzərdə tutulurdu. Bütün milli məsələlərin məhz müasirlik prizmasından həllinə çalışan ideoloq, ümumbəşəri bir hadisə kimi modernliyini özünə, onun mühüm dəyər və təsisatlarının konkret məkan və zaman hüdudlarında realizəsinin təməl əsaslarını müəyyən etmişdir.

Rəsulzadənin modernləşmə ideologiyasında modernləşmiş cəmiyyət müəyyən inkişaf səviyyəsinə yüksələn və bir sıra atributlara malik olan sistem kimi çıxış edir. Həmin cəmiyyətin siyasi sistemi partiya sisteminə əsaslanan, geniş kütlələrin siyasi proseslərdə iştirakını, dövlət orqanları və müəssisələrinin siyasi iradənin icraçısı funksiyasından kənarlaşdırılmasını, müxtəlif sosial qrupların maraqlarının uzlaşdırılmasını təmin edən parlament idarə forması kimi nəzərdə tutulur. Belə siyasi sistemdə tam şəkildə siyasi, sosial, iqtisadi, etnik, mədəni, dini və s. azadlıq bərqərar olur. Başqa sözlə, Rəsulzadənin çağdaşlaşma konsepsiyası milli və bəşəri dəyər və təsisatların vəhdətini və onlara çatmağın yollarını özündə ehtiva edən fəaliyyət proqramı idi.

Rəsulzadə dövrünün mövcud şərtləri və tələblərinə müvafiq, eləcə də yerli şəraitin xüsusiyyət və ehtiyaclarını nəzərə alaraq mühakimə yürütmüş və nəticədə əsas meyarı "tərəqqi etmək, bəşəriyyət gülüstanında gözəl ətirli bir türk çiçəyi yetişdirmək" olan müasirləşmə konsepsiyasını ərsəyə gətirmişdir.

Azərbaycan milli hərəkatının ideoloqu, Azərbaycan Cümhuriyyətinin ilk dövlət başçısı M.Ə.Rəsulzadə bütün çətinliklərə baxmayaraq, bütün həyatı boyunca Azərbaycançılıq ideyasına, milli dövlətçilik əqidəsinə sadiq qalmış, Azərbaycan milli dövlətçiliyinin bərpası, Azərbaycanın bütövləşməsi amalı ilə yaşamışdır.

***Ədəbiyyat siyahısı:***

*1. Rəsulzadə M.Ə. "Tutacağımız yol", Acıq söz, 2 oktyabr, №1.-Rəsulzadə M.Ə. Əsərləri, III c,s.181-182*
*2. Rəsulzadə M.Ə. "Getdiyimiz yol" Acıq söz, 9 oktyabr,№229.-Rəsulzadə M.Ə. Əsərləri, III c, s.545-549*
*3. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti –Bakı:1990*
*4. Rəsulzadə M.Ə. "Milli dirilik-VII", Dirilik, №8, 1 yanvar 1915, - Rəsulzadə M.Ə. Əsərləri, II c, s.483-487*
*5. Rəsulzadə M.Ə. "Cümhuriyyət", "Acıq söz" qəzeti, 17 mart 1917, № 426.-Rəsulzadə Əsərləri, IV c, 88-90*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ƏRAZİ VƏ ƏHALİ PROBLEMLƏRİNƏ DAİR

**Ulduz Paşayeva**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, "Dünya azərbaycanlıları: tarixi - demoqrafiya" ETL-i, böyük elmi işçi*
*star.miri@mail.ru;*
*ulduzpashayeva@bsu.edu.az*
*ORCİD İD:0000-0003-0106-1887*

***Açar sözlər:*** *Cümhuriyyət, ərazi, əhali, demoqrafiya, soyqırım, statistika*

Azərbaycan tarixinin müasir mərhələsi əhali və ərazi problemlərinin daha dərindən, obyektiv və hərtərəfli öyrənilməsini tarix elmi, tarixi demoqrafiya, tarixi coğrafiya, etnoqrafiya, arxeologiya və digər köməkçi fənlər qarşısında ən mühüm problemlərdən biri kimi müəyyənləşdirmişdir. Şübhəsiz ki, bu problemlərin araşdırılması zərurəti bilavasitə Ermənistanın Azərbaycana qarşı olan əsassız və qərəzli ərazi iddiaları ilə əlaqədardır.

Cənubi Qafqaz Respublikaları arasında ərazi münaqişələrinin meydana çıxması tarixi daha əvvəlki dövrlərə aiddir. Vaxtaşırı Gürcüstanla Azərbaycan, Ermənistanla Azərbaycan arasında yaranan ərazi problemləri bu gün də davam etməkdədir. Azərbaycanın əzəli tarixi torpaqlarına olan iddiaların əsası hələ erkən orta əsrlər dövründən başlamışdır. Tarixi mənbələrin verdiyi məlumata görə XIV əsrdə Azərbaycanın ümumi ərazisi 410 min kv.km-dən daha çox olmuşdur.

XIX- XX əsrin əvvəllərinədək baş vermiş müxtəlif hərbi və siyasi hadisələrin nəticəsi olaraq Azərbaycanın ərazisi bir neçə dəfə yadelli işğalçılar tərəfindən zəbt edilərək sahəsi azaldılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid olan statistik məlumatlara əsasən 1918-1920-ci illərdə respublikanın mübahisəsiz əraziləri 97.297,67 kv. km., mübahisəli torpaqlarla birlikdə isə bu ərazilərin ümumi sahəsi 113.895,97 kv. km.-ə (Onu da qeyd edək ki, məhz sovetləşmədən sonra Azərbaycanın əraziləri ciddi şəkildə qanunsuz olaraq rusların, ermənilərin və gürcülərin ərazilərinə qatılmışdır) bərabər idi [1, s.50].

1918-1920-ci illərdə Azərbaycan Respublikasının mübahisəsiz ərazisində (97,3 min kv.km.) yaşayan əhalinin ümumi sayı 2.861.862 nəfərə bərabər olmuşdur. Müsəlmanlar (əsasən Azərbaycan türkləri) əhalinin 68,2%-ni, ermənilər 21,4%-ni, gürcülər 0,6%-ni, ruslar 7,5%-ni, digər xalqların nümayəndələri isə 2,3%-ni təşkil edirdi. Yuxarıda göstərilən rəqəmlərə əsasən, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bütün 113,9 min kv.km-lik ərazisində əhalinin ümumi sayı xeyli azalmışdı. Azərbaycan xalqı 1918-ci ildən sonrakı dövr ərzində ermənilərin həyata keçirdiyi kütləvi soyqırımlar və etnik təmizləmələr nəticəsində ağır demoqrafik sarsıntılar keçirmiş və onun say tərkibində nəzərə çarpacaq dərəcədə dəyişikliklər baş vermişdir. Hesablamalar göstərir ki,

AXC dövründə əhalinin sayı 1920-ci ilin aprel işğalı ərəfəsində azalaraq təqribən 2,6 milyon nəfərə enmişdir [2].

Statistik mənbələrin məlumatlarından məlum olur ki, I Dünya müharibəsi illərində Azərbaycanda əhalinin sayı 87 min nəfər və ya hər il orta hesabla 12 min nəfər azalmış, əhali miqrasiyası 481 min nəfər təşkil etmişdir [3, s.11].

1920-ci ildə Azərbaycanın əhalisinin sayı 1917-ci ilə nisbətən 401,5 min nəfər və ya təqribən 17,0%, o cümlədən şəhər yerlərində 154,4 min nəfər və ya 28,6%, kənd yerlərində isə 247,1 min nəfər və ya 13,8% azalaraq müvafiq olaraq 2.353,7 min nəfərdən 1.952,2 min nəfərə, 560,2 min nəfərdən 405,8 min nəfərə və 1.743,5 min nəfərdən 1.546,4 min nəfərə enmişdir. Şəhər yerlərində əhalinin sayı kənd yerlərinə nisbətən daha surətlə azaldığından, bu dövrdə respublika əhalisi içərisində şəhər əhalisinin xüsusi çəkisi 23,8%-dən 20,8%-ə enmiş, əksinə kənd əhalisinin xüsusi çəkisi 76,2%-dən 79,2%-ə yüksəlmişdir [4, s.19].

Həmin dövrdə əhalinin sayının belə azalmasına bir sıra sosial-iqtisadi, demoqrafik amillərlə yanaşı, I Dünya müharibəsi və onun nəticələri, xarici hərbi müdaxilə və vətəndaş müharibəsi, erməni daşnak quldurları tərəfindən azərbaycanlıların kütləvi surətdə soyqırıma məruz qalması, bir qisminin isə İrana və Türkiyəyə köçüb getməsi, aclıq və ümidsizlik nəticəsində başqa regionlara getmələri və s. kimi amillər təsir göstərmişdir.

Xüsusi olaraq qeyd olunmalıdır ki, Azərbaycan xalqına qarşı soyqırımı cinayətləri 1918-ci ildə daha mütəşəkkil və böyük qəddarlıqla həyata keçirilmişdi. 1918-ci ilin təkcə mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Lənkəranda və digər bölgələrdə erməni-bolşevik silahlı dəstələri 50 min nəfərdən çox yerli azərbaycanlı əhalini amansızcasına qətlə yetirmiş, 10 minlərlə insanı yurd-yuvasından didərgin salmışdılar. Elə təkcə mart ayının üç günü ərzində Bakı şəhərində 30 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla qətlə yetirilmişdi. Bakıda törədilən qırğının ardınca Şamaxı qəzasının 53 kəndində ermənilər 8.027 nəfər azərbaycanlını qətlə yetirmişdilər - onlardan 4.190 nəfəri kişi, 2.560 nəfəri qadın və 1.277 nəfəri uşaqlar idi. Hesablamalara görə bu kəndlərə dəyən ümumi maddi zərər 339,5 milyon manat olmuşdur. Ermənilərin azərbaycanlı əhaliyə, onların evlərinə, mal-qara və əkin sahələrinə münasibətdə törətdikləri vəhşiliklər sözün əsl mənasında soyqırımı cinayəti idi [5, s.12].

1918-ci il aprel ayının 3-də Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyi Şamaxı qəza rəisinin Fövqəladə Təhqiqat Komissiyasına həmin qəzanın 3 polis sahəsi üzrə (Qəbristan, Mədrəsə və Kaşun) ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısı göndərilmişdir. Həmin siyahıya Qəbristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin (cəmi 86 kəndin) adı daxil edilmişdir [7, s.400].

1918-ci ilin ilk 5 ayında Quba qəzasında 16 mindən çox insan qətlə yetirilmişdi ki, onlardan 12 mini ləzgi, 4 mindən çoxu azəri türkü və tatlar idi. Quba qəzasında daşnak-bolşevik birləşmələri tərəfindən 162 kənd dağıdılmışdır ki, onlardan 35-i yerlə-yeksan edilmişdir. FTK-nın sənədlərinə görə 115 kənd üzrə

3.257 kişi, 2.276 qadın və 2.196 uşaq öldürülmüş, 1.060 kişi, 794 qadın və 485 uşaq xəsarət almışdır.

Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzündən silindiyi qeyd olunur. Zəngəzur qəzasında 115 kənd üzrə 3.257 kişi, 2.276 qadın və 2.196 uşaq öldürülmüş, 1.060 kişi, 794 qadın və 485 uşaq xəsarət almışdır. Nəticədə təkcə Zəngəzur qəzasında 10.068 nəfər azərbaycanlı öldürülmüş və ya şikəst edilmişdi. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşilikləri haqqında tam məlumat vermir. Belə ki, sayca daha çox müsəlman erməni vəhşiliklərinin qurbanı olmuşdur.

1918-ci ilin martına qədər İrəvan qəzasının 199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabrına qədər isə Eçmiədzin (Üçkilsə) qəzasına məxsus 62 azərbaycanlı kəndi tamamilə dağıdılmışdı. İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdi [6, s.23-26].

Quba qəzasının 122 kəndi yerlə-yeksan edilmiş, Şərur-Dərələyəz, Naxçıvan bölgəsində, Qarabağın dağlıq hissəsində yüzlərlə azərbaycanlı kəndi yandırılmış, əhaliyə cinsinə və yaşına fərq qoymadan qəddarcasına divan tutulmuşdur. Erməni terrorçu dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yeridilən "türksüz ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 5,3 dəfə azalaraq 1916-cı ildəki 375 min nəfərdən 1922-ci ildə 70 min nəfər azalmışdır [5, s. 72-73].

Ermənilərin törətdikləri bu soyqırımı cinayətinin araşdırılması məqsədilə AXC hökuməti tərəfindən Fövqəladə İstintaq Komissiyası yaradıldı. Lakin 1920-ci ildə AXC-nın süqutu ilə bu proses dayandırıldı və baş verən hadisələrin sonadək araşdırılması və hadisələrə siyasi-hüquqi qiymət verilməsinin qarşısı alındı. Lakin 80 il sonra - 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla həmin dəhşətli hadisələrə ilk dəfə olaraq hüquqi - siyasi qiymət verildi və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edildi [8].

Qeyd etmək lazımdır ki, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 yanvar 2018-ci il tarixində "1918-ci il Azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" imzaladığı sərəncamında deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir" [9].

### *Ədəbiyyat siyahısı:*

*1.Адрес-календарь Азербайджанской Республики. Под ред. А.М.Ставровского. - Баку: 1920, 309 с.*

*2.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. –Bakı: "Lider" nəşriyyatı, 2004, 440 səh.*
*3. Azərbaycanda əhalinin demoqrafik göstəricilərinin dəyişməsi dinamikası. "Azərbaycan" qəzeti, № 59, 13 dekabr 2008-ci il*
*4.Мамедов К.В. Демографическое развитие Азербайджанской ССР. –Баку: 1980, 244 стр.*
*5.Muradov Ş.M. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər (1897-2007-ci illər). –Bakı: "Elm", 2008, 240 səh.*
*6.İsgəndərov Anar. 1918-1920-ci illərdə Türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımı. 31 mart Azərbaycanlıların soyqırımı günüdür. Məqalələr toplusu. -Bakı: "Elm və təhsil", 2015, 232 səh.*
*7.Şamaxı Ensiklopediyası. –Bakı: 2015, Şərq-Qərb, 432 səh.*
*8.Əliyev Heydər. "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il fərman. - http://anl.az/soyqirim/pdf/ferman-26.03.1998.pdf*
*9.Əliyev İlham. 18 yanvar 2018-ci il. "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncam. - https://president.az/az/articles/view/26762*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ƏRAZİ TƏLƏBİNDƏ DƏRBƏND MƏSƏLƏSİ

**Asəf Hacıyev**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" ETL-i, aparıcı elmi işçi, t.ü.f.d.*
*asefhaciyev@bsu.edu.az*

***Açar sözlər***: *Azərbaycan, Xalq Cümhuriyyəti, Cənubi Qafqaz, Dərbənd, dövlət, ərazi*

1918-ci il mayın 28-də Türk-müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yaradıldı. AXC hökuməti 1918-ci ilin mayın 28-dən - iyunun 16-dək Tiflis şəhərində, iyunun 16-dan - sentyabrın 17-dək Gəncə şəhərində, sentyabrın 17-dən 1920-ci ilin aprelin 28-dək isə Bakı şəhərində fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il 11 yanvar Paris sülh konfransının qərarına əsasən müstəqil dövlət kimi tanındı və dünyanın bir çox dövlətləri ilə - Türkiyə, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İran, İsveç, İsveçrə, İtaliya, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Almaniya, Rumıniya, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, Krım və b. səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratdı. Cumhuriyyətin yaranması ərəfəsində Cənubi Qafqazda azərbaycanlıların elliklə yaşadıqları ərazilər təqribən 150 min kv. km-ə bərabər idi [1, səh.11].

1918-ci ildə Cənubi Qafqazda müstəqil dövlətlər meydana gəldikdə (bu zaman dövlətimizin ərazisi 113,895,97 kv.km idi), əzəli Azərbaycan torpaqlarının bir hissəsində Ermənistan Respublikası yaradıldı. Belə ki, AXC Hökuməti 1918-ci il mayın 29-da Türkiyənin razılığı əsasında tarixi Azərbaycan torpaqlarında qədim türk şəhəri və keçmiş İrəvan xanlığının paytaxtı olan İrəvanı ermənilərə güzəştə getməyə və onu yeni yaradılan Ermənistan Respublikasının "siyasi mərkəzi" kimi tanımağa məcbur oldu. Azərbaycan Milli Şurası səs çoxluğu ilə (siyahıda 28 nəfər, iştirak edən 20 nəfərdən 16-sı lehinə, 1 nəfər əleyhinə, 3 nəfər isə - bitərəf) İrəvan şəhərini Ermənistan (Ararat) Respublikasının mərkəzi kimi tanımağı mümkün saydı [3, səh.108]. Həmin razılıq qəbul olunarkən hər iki respublikanın gələcəkdə konfederasiya şəklində birləşəcəyi, Ermənistanın Qarabağın dağlıq hissəsinə olan əsassız iddiadan əl çəkəcəyi və bununlada bölgədə daimi sülh yaranacağına ümid bəslənilirdi. Lakin ermənilər həmin güzəştlərdən istifadə edərək, yeni-yeni ərazi iddiaları irəli sürdülər. Onların həmin dövrdə əsas hədəfində Zəngəzur, Naxçıvan və Qarabağ torpaqları dayanırdı. Beləliklə, Cənubi Qafqaz respublikaları arasında sərhəd məsələləri qismən nizama salındıqdan sonra AXC Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113,9 min kv. km-ni (113,895,97 kv.km) əhatə edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi haqqında ilk dəfə İs-

tiqlal bəyannaməsində bəhs edilmişdi. Həmin sənəddə göstərilirdi ki, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan tamhüquqlu müstəqil dövlətdir.

Azərbaycanla Gürcüstan arasında da sərhəd mübahisələri vardı. Gürcüstan hökuməti keçmiş Tiflis quberniyasına daxil edilmiş Azərbaycan torpaqlarını - Borçalı, Qarayazı və Sığnax mahallarını Azərbaycana qaytarmaqdan boyun qaçırdı. Gürcü silahlı qüvvələri alman hərbi dəstələri ilə birləşərək, 1918-ci il iyunun əvvəllərində Borçalıya daxil oldular. Ayın 14-də Azərbaycanın Xarici İşlər Nazirliyi azərbaycanlıların məskunlaşdığı Borçalıya və digər ərazilərə birləşmiş gürcü-alman hərbi qüvvələrinin yeridilməsinə qarşı nota verdi və sərhəd məsələsinin siyasi yolla həll olunmasını təklif etdi. Gürcüstan hökuməti buna razılıq vermədikdə Cənubi Qafqaz respublikaları arasındakı ərazi mübahisələri daha kəskin şəkil almağa başladı. Qeyd etmək yerinə düşərdi ki, Borçalı, Tiflis və Sığnaq qəzalarının başdan-başa müsəlmanlardan ibarət olan bölgələrinə Azərbaycanın haqlı ərazi iddiaları, Gürcüstanın isə Zaqatala dairəsinə haqsız torpaq iddiası ilk vaxtlar iki dövlət arasındakı münasibətləri kəskinləşdirmişdi [2, səh.263]. Buna görə də həmin problemin beynəlxalq İstanbul konfransında müzakirə edilməsi qərara alındı. 1918-ci ilin noyabrında Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə göndərdiyi xüsusi memorandumda Azərbaycanın ərazisi müəyyənləşdirilirdi. Bu məsələ daha geniş şəkildə Paris sülh konfransındakı Azərbaycan nümayəndəliyinin tələblərində də əks olunmuşdu. Həmin sənədə əsasən, Azərbaycan Xalq Cümhuriyyəti aşağıdakı əraziləri əhatə edirdi: 1. Bakı quberniyası (Bura daxil idi - Bakı dairəsi ilə birlikdə Bakı qəzası, Cavad qəzası, Göyçay qəzası, Şamaxı qəzası, Quba qəzası, Lənkəran qəzası); 2.Yelizavetpol (Gəncə) quberniyası (Bura daxil idi - Yelizavetpol yəni Gəncə qəzası, Cavanşir qəzası, Nuxa qəzası, Ərəş qəzası, Şuşa qəzası, Qaryagin yəni Cəbrayıl qəzası, Zəngəzur qəzası, Qazax qəzası (bu ərazinin üçdə birini təşkil edən dağlıq hissəsi Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi kimi qalırdı)); 3. İrəvan quberniyası (Bura daxil idi - Naxçıvan qəzası, Şərur-Dərələyəz qəzası, Sürməli qəzası, habelə Yeni Bəyazid qəzası, Eçmiədzin və Aleksandropol qəzalarının bir hissəsi); 4. Tiflis quberniyası (Bura daxil idi - Borçalı qəzası, Tiflis və Sığnax qəzalarının bir hissəsi); 5. Zaqatala mahalı; 6. Dağıstan vilayəti (Bura daxil idi - Kürə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə **Dərbənd şəhəri** və onun ətrafı, həmçinin Qaytaq Tabasaran qəzasının bir hissəsi) [1, səh.11]. Bundan başqa, Azərbaycan Cümhuriyyəti Tiflis quberniyasındakı Axalsıx qəzasının Batum, xüsusən Qars əyalətlərini də öz ərazisinə daxil etməyə xüsusi əhəmiyyət verirdi. Lakin ərazi məsələlərini dinc yolla həll etmək mümkün olmadı. Belə ki, birinci dünya müharibəsində məğlub olan Osmanlı imperiyası 30 oktyabr 1918-ci il Mudros sazişinə görə hərbi qüvvələrini 1918-ci ilin noyabrın 1-də Azərbaycandan, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvandan çıxarmalı oldu. Osmanlı ordusunun Cənubi Qafqazdan çıxması ilə ermənilər daha da fəallaşdılar. Ermənistan ərazi iddiası ilə 1918-ci ilin sonunda Gürcüstanla apardıqları müharibə

nəticəsində Borçalı mahalında Lorini və onun ətraflarını zəbt etdikdən sonra Azərbaycanın tarixi torpaqlarına olan iddialarını həyata keçirmək üçün Qarabağ, Zəngəzur, Naxçıvan və digər ərazilərdə soyqırımları daha da genişləndirdi. Ermənilərin Naxçıvanı işğal etmək istəklərinin qarşısını almaq üçün 1918-ci ilin noyabrında paytaxtı Naxçıvan olan Araz Türk Respublikası yaradıldı [2, səh. 256-257]. Onun ərazisinə - Sərdarabad, Vedibasar, Uluxanlı Qəmərli, Mehri, Şərur-Dərələyəz, Naxçıvan, Ordubad daxil idi. Cümhuriyyət Naxçıvanda öz suveren hüquqlarını və hakimiyyətini qəti şəkildə bərqərar etmək üçün 1919-cu ilin fevralın 28-də Naxçıvan general qubernatorluğu yaratdı. Bəhram xan Naxçıvanski general qubernator təyin edildi [2, səh.257].

Cənubi Qafqaz dövlətləri arasındakı ərazi mübahisələrini müzakirə etmək üçün, nəhayət, 1919-cu il aprelin 25-də Tiflisdə konfrans çağırıldı. Lakin konkret nəticə verməyən Tiflis konfransı da iyunda işini dayandırmağa məcbur oldu. Son dərəcə mürəkkəb beynəlxalq və daxili vəziyyətə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti ərazi və sərhəd məsələlərinə çox ciddi yanaşaraq Cənubi Qafqazdakı bütün tarixi Azərbaycan torpaqlarını öz nəzarəti altında saxlamağa çalışırdı. 1920-ci ilin ünvan - təqvimində Xarici İşlər Nazirliyinin təqdim etdiyi xəritə və məlumatlar əsasında Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi öz əksini belə tapmışdı: Bakı quberniyasının 39,075,15 kv.kilometri, Gəncə quberniyasının 44,371,29 kv.kilometri, Zaqatala mahalının 3,992,54 kv.kilometri, İrəvan quberniyasının 9,858,69 kv.kilometri (İrəvan quberniyasının mübahisəsiz ərazisinə daxildir: Şərur-Dərələyəz qəzasının I və II polis sahələri; Naxçıvan qəzasının I, II, III və IV polis sahələri; Yeni Bəyazid qəzasının I və II polis sahələri), cəmi 97,297,67 kv. kilometri mübahisəsiz əraziyə, İrəvan quberniyasının 7,913,17 kv.kilometri (İrəvan quberniyasının mübahisəli ərazisinə daxildir: İrəvan qəzasının I, II, III və IV poIis sahələri, Eçmiədzin qəzasının II və III polis sahələri; Sürməli qəzasının I, II və III polis sahələri; Yeni Bəyazid qəzasının III polis sahəsinin bir hissəsi), Tiflis quberniyasının 8,685,13 kv.kilometri (Tiflis quberniyasının mübahisəli ərazisinə daxildir: Tiflis qəzasının II və III polis sahələri; Sığnax qəzasının V polis sahəsi; Borçalı qəzasının I, II, III və IV polis sahələrinin bir hissəsi), - cəmi 16,598,30 kv.kilometri isə mübahisəli əraziyə daxil idi. Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 113,895,97 min kv. km-ə bərabər idi (o cümlədən, mübahisəsiz ərazi 97,297,67 min kv.km) [1, səh.12].

Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu qısa dövr ərzində ərazisini və sərhədlərini qorumaq sahəsində mühüm işlər gördü. Lakin 1920-ci ilin aprel işğalı və Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra Sovet Rusiyasının yeritdiyi ayrıseçkilik siyasəti nəticəsində Azərbaycan əraziləri daha da azaldıldı. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti ərazisinin 27,2 min kv. km-i Azərbaycan xalqının əlindən alındı. Yeni yaradılan Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi 86,6 min kv. km müəyyən edildi.

***Ədəbiyyat siyahısı:***

*1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki clddə. I cild. – Bakı: "Lider nəşriyyatı", 2004, 440 səh.*
*2. Azərbaycan tarixi (Ən qədim zamanlardan - XXI əsrin ilk onilliklərinədək). BDU, Tarix fakültəsi, "Azərbaycan tarixi" (təbiət fakültələri üzrə) kafedrasının müdiri, dos.M.Abdullayevin elmi redaktorluğu ilə. – Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2014, 380 səh.*
*3. Nəsib Nəsibli. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti. – Bakı: 2011, "Qanun nəşriyyatı", 328 səh.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ZƏNGƏZURDA SİYASİ PROSESLƏR

**Bircə Bayramova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, t.ü.f.d., doktorant*
*birja.bayramova@bsu.edu.az*

***Açar sözlər:*** *Zəngəzur qəzası, Andronikin quldur dəstəsi, ingilis qoşunları, Paris Sülh Konfransı, türk-müsəlman əhalisi.*

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə Zəngəzurda baş vermiş mühüm prinsipial əhəmiyyətli məsələlər, xalqın həyatına təsir edən mürəkkəb ictimai-siyasi proseslərin tədqiq edilməsi elmi aktuallıq kəsb edir.

1918-ci ildə Azərbaycanda milli dövlətçiliyin bərqərar olunması istiqamətində bir neçə addımlar atılmışdır ki, onlardan biri də ərazilərin idarə olunması məsələsi idi. Belə ki, 1918-ci ilin dekabrında "parlamentin təsdiq etdiyi hökumətə müttəfiqlər ordusu komandanlığının hərtərəfli yardım edəcəyi haqqında bəyanat" verilmişdir [1, 345-346]. Həmin qanunda ərazi bölgüsü məsələsi qoyulmuşdur. Parlamentdə türk-müsəlman əhalisindən 80 nəfər deputat müsəman əhalini təmsil edirdi ki, Zəngəzur qəzası üçün onlardan iki nəfər nəzərdə tutulurdu [1, 346].

Digər məsələ isə ordunun formalaşdırılması məsələsi idi. Lakin Azərbaycanın daxili vəziyyətinin gərginliyi ölkənin ictimai-siyasi həyatına mənfi təsir edirdi. Azərbaycan ərazisinin parçalayaraq Ermənistana birləşdirmək cəhdləri Azərbaycan xalqının başına gələcək hər cür fəlakətlərə səbəb olurdu. Mənfur ermənilər "Böyük Ermənistan" ideyasının reallaşdırılması üçün Naxçıvan, Qarabağ və Zəngəzur mahallarında etnik təmizləmə siyasəti həyata keçirməyə başladılar." [1, 406]. Musa Qasımlının yazdığı kimi, İrəvanı ələ keçirdikdən sonra Ermənistan ərazi iddialarından əl çəkmirdilər. Növbəti göz dikdikləri ərazi Naxçıvan, Qarabağ və Zəngəzur bölgələri idi [5, 415].

Ümumiyyətlə, 1918-ci ildə Azərbaycanın geosiyasi vəziyyətinin ağırlığı I Dünya müharibəsinin bitməsindən sonra Qafqazda baş verən siyasi proseslərdə, Türkiyənin həmin müharibədə məğlub olması, XI Qızıl Ordunun hücum təhlükəsi ilə yanaşı, cənubi Azərbaycandakı anti-Azərbaycan siyasətində özünü biruzə verirdi [9,147]. Mudros müqaviləsinə əsasən türk qoşunlarının Azərbaycan ərazisindən çıxarılması Azərbaycan əhalisinin taleyini təhlükə altına salmışdı [1, 408]. Daşnaklar azərbaycanlılara düşmən kəsilərək 1918-ci ilin noyabrında Baş Gərni, Böyük Vedi, Basarkeçər, Şərur, Qarabağ, Zəngəzur və başqa rayonları dəfələrlə bombardıman edirdilər [5, 425].

Həmin ilin noyabrında Zəngəzur qəzasında 52 kənd tamamilə məhv edilmiş, 32 kənddə 495 ev yandırılmış, 492 ev dağıdılmış, 2.254 nəfər azərbaycanlı öldürülmüş, 304 nəfər azərbaycanlı isə diri-diri yandırılmışdır. (5-ci cild 406)

Murad Urud isə yazır ki, "rəsmi sənədlərə görə 115 müsəlman kəndi dağıdılmış, 3.257 kişi, 2.276 qadın, 2.196 uşaq öldürülmüş, 794 qadın, 1.060 kişi, 426 uşaq yandırılmışdır. Bütün qəza üzrə isə 10.068 nəfər müsəlman öldürülmüş və şikəst edilmişdir" [10, 222]. Daşnaklar "1918-ci ilin sonlarında Zəngəzur qəzasında əhalisi 150 min nəfər olan 400 kəndi yer üzündən silmişdirlər" [5, 426].

Beləliklə, Andronik Zəngəzurun bir hissəsində "erməni qubernatoruluğu" yaradaraq möhkəmləndi və Gorusu onun mərkəzinə çevirdi [1, 408]. Andronikin quldur dəstəsinin törətdikləri vəhşiliklər 1918-ci ilin dekabrın 20-də parlamentin iclasında müzakirə edildi. Parlament əhaliyə hər cür maddi və mənəvi yardımın göstərilməsi haqqında qərar qəbul etdi [1, 412].

Abbas Piriyevin də qeyd etdiyi kimi, geosiyasətin əsas istiqamətlərindən biri də əhalinin təhlükəsizliyidir. Həmin dövrdə "Qafqazın ən çoxsaylı əhalisi Azərbaycan türkləri idi" [9, 148]. Azərbaycanın başına o qədər müsibətlər gəldiyi halda onlar dərd və fəlakətlərini ucadan dünyaya elan etməyə öyrənməmişdilər. Məhz buna görə də ermənilər bundan məharətlə istifadə edirdilər [9,148].

I Dünya müharibəsi başa çatdıqdan sonra ingilislər öz mənafelərinə uyğun olaraq, həmçinin qarşı tərəfin də maraqlarının üst-üstə düşdüyü bir vaxtda - 1919-cu ilin əvvəllərində Naxçıvana hərbi qüvvə gətirdilər. Eyni zamanda ermənilər öz qoşun hissələrini Zəngəzur, Naxçıvan və Qarabağa yerləşdirdilər [1, 409]. Zəngəzur mahalında azərbaycanlılar növbəti zorakılığa məruz qaldılar. Bununla əlaqədar 1919-cu il 15 yanvar tarixli iclasda Zəngəzur, Şuşa, Cavanşir, Cəbrayıl qəzaları üzrə müvəqqəti general-qubernatorluq yaradılması haqqında qərar qəbul edildi [8].

Qarabağ general-qubernatorluğunun yaradılması Andronikin quldur dəstəsinin daha da qırğınlar törətməsinə təkan versə də, 1919-cu ilin fevralında ingilis qoşunlarının Şuşaya gəlməsi ilə törətdikləri vəhşiliklər müvəqqəti olaraq dayandırıldı [1, 412].

Xarici işlər naziri əvəzi A.Ziyadxanovun göndərdiyi Ermənistan hökumətinə etiraz notalarında tarixi-etnik hüquqlar, əhalinin başına gələn müsibətlər, bütün münaqişələrin sülh yolu ilə həll edilməsi istiqaməti işıqlandırılmışdır [8].

Həmçinin, ingilislərin ikili siyasəti həm Zəngəzur qəzasının bir hissəsinin Ermənistana verilməsində, həm də Qarabağ general-qubernatorluğunun himayə edilməsində özünü biruzə verdi. Ermənilər isə sakit dayanmayaraq saxta dəlillər ilə "tarixi hüquqları naminə müxtəlif məsələləri irəli sürdülər [1, 413]. İlqar Niftəlyev vurğulayır ki, "1919-cu il aprelin 3-də Qarabağdakı ingilis hərbi hissələrinin komandanlığı polkovnik D.Şatlvortun sözləri ilə general-qubernator Xosrov bəy Sultanovun yeganə səlahiyyətini təsdiqlədi" [8]. Lakin bəzi məqamları diqqətə çatdırmaq olar: ingilislər onların quldur dəstələrinin mahallardan çıxarılmasını tələb etmişdilər. Eyni zamanda bölgədə hakimiyyətin Erməni Milli Şurasına verilməsinə çalışırdılar. Xosrov bəy Sultanovun vəzifəsindən kənarlaşmasına cəhd etmələri də ikili siyasətlərinin bir parçası idi [1, 414].

1919-cu il iyunun 4-də Qarabağ general-qubernatorunun Şuşa ətrafı və yol boyunca hərbi postlar yaratması ermənilərin məkrli siyasətini qabartmışdır. Be-

lə ki, erməni silahlı dəstələrinin hərbi postlar üzərinə hücumu 4 azərbaycanlı hərbçinin şəhid olması ilə nəticələnmişdi [1, 414].

Digər tərəfdən ABŞ da öz növbəsində ikili siyasət yürüdürdü. Andronik ABŞ-a teleqram göndərərək "erməni məsələsi"nin həllinə müdaxilə etməsini tələb edirdi [3, 317]. 1919-cu ildə Paris Sülh konfrası ərəfəsində ermənilərin Amerika siyasəti vasitəsilə Naxçıvana yiyələnmək cəhdləri baş tutmadı. Məsələ burasındadır ki, ABŞ-da fəaliyyət göstərən Müstəqil Ermənistan Amerika Komitəsi erməni lobbizmi, yalan təbliğatlar ilə məşğul idi [4, 76]. Musa Qasımlı qeyd edir ki, ABŞ-da həmin dövrdə 120 mindən çox erməni yaşayırdı [5, 365]. Lakin bu dövrdə bütün mürəkkəb şərtlərə baxmayaraq Paris sülh konfransında Azərbaycan nümayəndəliyi inzibati ərazi məsələsini təqdim etmişdir. Burada Zəngəzur qəzası Yelizavetpol quberniyasının tərkibində verilmişdir [9, 147].

Əli Həsənov qeyd edir ki, "Denikinin hücum fəaliyyəti Qafqaz respublikalarının müstəqilliyi üçün ciddi təhlükə yaratdığından Azərbaycan, Gürcüstan və Şimali Qafqaz respublikalarının nümayəndələri 1919-cu il iyunun 23-də 7 maddədən ibarət etiraz notaları təqdim etdilər" [4, 74]. Cəmil Həsənli isə yazır ki, "bu sənədin əvvəlki iki (5 və 7 iyun) sənəddən fərqi onda idi ki, burada Qafqaz respublikaları Rusiyada gedən proseslərə öz taleləri baxımından yanaşır,...ciddi təhlükəyə çevrilmiş Denikinə qarşı etiraz edilirdi." [3, 290]. 1919-cu ilin ortalarında yaranmış beynəlxalq vəziyyət Azərbaycan hökumətinin aparıcı dövlətlərlə əlaqələr yaratmasını şərtləndirdi. Bu ərəfədə "Ə.M.Topçubaşov 1919-cu il sentyabrın 26-da ABŞ prezidenti V.Vilsona yazdığı məktubda ABŞ-ın Azərbaycanın müstəqilliyini qoruyacağına ümidli olduğu bildirilirdi." [4, 76].

1919-cu ilin payızında Ermənistanın Zəngəzur qəzasında genişmiqyaslı döyüş əməliyyatları 60 mindən çox türk-müsəlman əhalisinin ata-baba yurdlarından kənarda qalmalarına, qaçqın düşməyinə səbəb oldu. Onlardan çoxu Qarabağa köç etdilər. Ermənilərin Zəngəzur qəzasında mənfur hərəkətlərinə qarşı 1-ci alay diviziyasının komandiri general-mayor C.Şıxlinski xüsusi qoşun göndərdi. Bu məsələyə ermənilər biganə qalmayaraq beynəlxalq diplomatiyaya əl atdılar. Beləliklə, ərazi mübahisələrinin həlli istiqamtində 1919-cu il oktyabrın 12-13-də N. Yusifbəyli və M.Y.Cəfərov ilə Ermənistanın diplomatik nümayəndəsi T.Bekzadyan ilə görüş təşkil edildi. İrəvan və Eçmiədzin qəzalarının qarşı tərəfə güzəştə getməsini xatırladan Azərbaycan rəhbərliyi Qarabağ, Naxçıvan və Zəngəzurun yalnız Azərbaycan sərhədi çərçivəsində qalacağını qətiyyətlə bildirdi [1, 416-417]. 1919-cu il noyabrın 23-29-u, həmçinin dekabrın 14-21-də keçirilən konfranslarda Zəngəzur probleminin həlli istiqamətində heç bir addım atılmadı [1, 418].

1920-ci ilin yanvarında genişlənən erməni təcavüzünün dayandırılması istiqamətində Azərbaycan Xarici İşlər Nazirliyi bir sıra etiraz notaları bildirsələr də, ermənilərin ikiüzlü, mənfur siyasəti davam edirdi [1, 419]. 1920-ci ilin martında ermənilər Qarabağ və Zəngəzura böyük qüvvə ilə cəmləşirdilər. Təkcə Dilincandan Zəngəzura 7000 erməni hərbçisi gətirilmişdir. Lakin Qarabağın müdafiəsi uğrunda Azərbaycan ordusu əzmlə vuruşmuşdur. Qarabağdakı hərbi

əməliyyatlardakı uğurlardan sonra ordunun qarşısında qoyduğu əsas vəzifə Zəngəzurun erməni hərbi dəstələrindən azad olunması idi [1, 421].

1920-ci ilin aprelində Azərbaycan ordusu "1919-cu il noyabrın 23-nə olan vəziyyəti bərpa etdi" [1, 422].

Beləliklə, Qarabağ və Zəngəzurda Azərbaycanın suveren hüquqları uğrunda mübarizədə Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun böyük əməyi olmuşdur [3, 323]. Qeyd etmək lazımdır ki, tariximiz nəsil və köklərimizi bir-birinə bağlayan təkamülün ictimai hafizəsidir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə "dövlətin möhkəmləndirilməsi, milli özünüdərketmənin yaranması, xarici siyasi strategiyanın düzgün istiqamətlənməsi" [9, 144] fonunda aparılan tədqiqatlar böyük əhəmiyyət kəsb edir. Çünki qısaömürlü dövlətin qoyduğu miras sonrakı nəsillərdə yenidən əzm hissi yaratmış, müstəqil dövlətçiyin bərpası üzrə aparılan addımlara işıq olmuşdur.

### *Ədəbiyyat siyahısı:*


1. *Azərbaycan tarixi 7 cillddə. [5-ci c.] (1900-1920-ci illər).- Bakı: Elm, 2001, 672 səh.*
2. *Gasımova Tukazban, Melis Erçin Yurcu. Zengezur koridoru'nun Azerbaycan'ın dış ticaret ve logistik faaliyetlerine olası etkilerinin swot analizi. /Dumlupınar üniversitesi. İİBF deyişi, 2023 sayı (issue):12 [elektron resurs]// https://dergipark.org.tr/tr/ download/article-file/3185148*
3. *Həsənli Cəmil. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). - Bakı: "GARİSMA" MMC, 2009, 576 səh.*
4. *Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. - Bakı: "Azərbaycan" nəşriyyatı, 2005, 752 səh.*
5. *Qasımlı Musa. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920).- Bakı: Mürtəcim, 2014, 464 səh.*
6. *Medetli Eynulla. Azərbaycan Halk Cümhuriyyəti"nin Türkiye ile İlişkileri İran Tarihçiliğinde (1918-1920 yılları). [elektron resurs]// https://www.ttk.gov.tr/wp-content/uploads/2022/03/06-EynullaMedetli.pdf*
7. *Necefoğlu Hacali. "Ermenistan'ın Azerbaycanı İşgali: Geçmişi ve Bugünü" [elektron resurs]// https://tasam.org/Files/Icerik/File /ermenistanin_ azerbaycani_isgali_gecmisi_ve_bugunu__d4fcae76-1b80-482e-9b67-906caec 3f6ca.pdf*
8. *Niftliyev İlqar. Azerbaycan Halk Cumhuriyyeti (1918-1920) döneminde Karabağ ve Zengezur'la ilgili mücadele. /İRS Karabağ [elektron resurs]14.03.2023// https://1905.az/tr/azerbaycan-halk-cumhuriyeti-1918-20-doneminde-karabag-ve-zengezurla-ilgili-mucadele/*
9. *Piriyev Abbas. Siyasi startegiya və milli təhlükəsizlik problemi. - Bakı: "Çaşıoğlu", 2002, 530 səh.*
10. *Urud Musa. Zəngəzur uzaq keçmişdən müasir dövrə qədər. - Bakı: Nurlar, 2016, 480 səh*

# CÜMHURİYYƏT QURUCULARININ ƏSƏRLƏRİNDƏ XANLIQLAR VƏ RUSİYA İMPERİYASININ MÜSTƏMLƏKƏ SİYASƏTİNƏ DAİR MÜLAHİZƏLƏR

**Salman İbişov**
*Qərbi Kaspi Universiteti, "Tarix və fəlsəfə" kafedrası, t.ü.f.d., müəllim*
*salman.ibisov@mail.ru*

***Açar sözlər:*** *Cümhuriyyət, xanlıqlar, mühacirət, Rusiya imperiyası, Şimali Azərbaycan, Dərbənd*

Xanlıqların süqutu haqqında sovet dövrü "elmi tarix" ədəbiyyatından oxuyuruq: XIX əsrin əvvəllərində Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsi (işğalı - S.İ.) sadəcə olaraq çarizm tərəfindən həyata keçirilmiş ilhaq aktı olmayıb, müəyyən dərəcədə Azərbaycanın tarixi inkişafının və Azərbaycan xalqının Rusiyaya meylinin məntiqi nəticəsi olmuşdur [7, s.4]. Fətəli xanın birləşdirmə siyasəti və Quba-Dərbənd xanlığı ilə bağlı olan digər "fundamental" tədqiqat əsərində qeyd olunur: Fətəli xan hökuməti Türkiyə orientasiyasını və İrana yaxınlaşmaq yolunu tutmayaraq Şimali-Şərqi Azərbaycanın Rusiya imperiyasının himayəsinə keçmək böyük siyasi əhəmiyyət kəsb edən məsələni irəli sürdü. XIX əsrin birinci rübündə Şimali Azərbaycan İrandan ayrılıb Rusiyaya birləşdirildi [12, s.47]. Xanlıqlar dövrünün ən görkəmli tədqiqatçısının saxta elmi nəticəsi ilə yanaşı, Cümhuriyyət qurucularının xanlıqlara dair elmi baxışlarının tənqidi də "maraqlıdır". Qeyd etmək lazımdır ki, siyasi mühacirətdə olan Cümhuriyyət Quruculları tariximizin ən müxtəlif problemlərinə, o cümlədən xanlıqlar və Rusiya işğalının mahiyyətinə dair qiymətli araşdırmalar aparmışlar. Onlar problemə dair xüsusi tədqiqatlat həsr etməsələr də bizim 70 il ərzində bilmədiyimiz həqiqətləri xanlıqlar, Rusiya işğalları, Azərbaycan Cümhuriyyəti və sovet işğalının fəlsəfəsini sistemli və müqayisəli olaraq öyrənmiş və təqdim etmişlər. Nə qədər qəribə olsa da "Sovet tarixçiləri" onları tariximizi saxtalaşdırmaqda və bilməməkdə günahlandırırdılar. Məsələn, H.Abdullayev yazır: Əhməd Cəfəroğlu və digər mühacir tarixçilər xanlıqların yaranma tarixi kimi XV-XVIII əsrləri qəbul edir, xanlıqlar dövrünü 1918-1920 illərdə mövcud olmuş musavat hökuməti arasında tarixi paralellər aparır və Azərbaycan Demokratik Respublikasını xanlıqların davamçısı və varisi hesab edirlər. Beləliklə, Cümhuriyyət quruculları öz əsərlərində XVIII əsr tarixini, xanlıqların yaranması və inkişafını Azərbaycan tarixinin qızıl əsri adlandırır və xanlıqları 1918-1920- ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edirdilər. M.Ə.Rəsulzadə 1923-cü ildə nəşr olunmuş "Azərbaycan Cümhuriyyəti" adlı fundamendal əsərində xanlıqların işğalı ilə bağlı yazır: Bundan yüz il əvvəl Rusiya çarizmi tərfindən istiqlal və mövcudiyyətlərinə xatimə (son) verilən Dərbənd, Quba, Lənkəran, Şəki, Şirvan, Bakı, Qarabağ, Gəncə, İrəvan və Naxçıvan xanları dəxi Azərbaycanlı türk hökmdarları idi. C.Zeynaloğlu Azərbaycan

tarixini istiqlaliyyət dönəmləri üzrə təsnifatlaşdırmış və Müstəqil xanlıqlar dövrü və Müstəqil Cümhuriyyət dövrünü ardıcıl qeyd etməklə yanaşı rus işğal dövrünə də münasibət bildirir: "Çar Rusiyası Azərbaycanı öz hakimiyyəti altına aldığı gündən süqutuna qədər türklərin milliyyətini söndürmək üçün nə lazım isə etməkdən durmamışdır. Azərbaycan türklərini "tatar" deyə adlandıraraq nə Türkiyəyə nə də İrana münasibəti olmayan üçüncü bir millət yaratmağa çalışmışdır" [10, s.104]. M.B.Məmmədzadə xanlıqların işğalı haqqında yazır: "Parça-parça vəziyyətdə olsa da Rusiyanı 30 il məşqul edən Azərbaycan, işğalçı Rusiyadan mədəni səviyyə etibarilə çox yüksək idi. Xüsusilə ictimai, iqtisadi və hüquqi münasibət, fərdin-insanın hüquqi vəziyyəti baxımından Azərbaycan Rusiyadan müqayisə edilməyəcək dərəcədə yüksəkdə dururdu. Rusiyada o zamandan ta 1861- ci islədək rəsmən, dövrümüzə qədər isə fe'lən bir köləlik rejimi mövcud olub hər bir haqq və hüquqdan məhrum kəndli bazarda bir əşya kimi satılırdı. XIX əsrin rus qəzetlərində və rəsmi jurnallarında tez-tez belə elanlar oxumaq mümkün idi. Köhnə biri araba və ikiqız satılır. Gənc və sağlam olan qızlar toxumaq da bacarırlar. Təcrübə üçün baxmaq mümkündür. Və bu, Fransa inqilabı ideyalarının, insan hüququ bəyannaməsinin prinsiplərinin bütün dünyaya yayıldığı dövrdə baş verirdi. Halbuki Azərbaycanda istər böyük Çingizin qanunundan qalan milli, istərsə də Quranın təsirilə dini ənənə hökmünə uyğun olaraq Türk kölə ola bilməzdi və kölə azad etmək savab sayılırdı. Rusiyanın hakim zümrəni məhv etməsinə diqqət çəkən M.B.Məmmədzadə yazırdı: Beləliklə, millətin həyatında az çox rol oynaya biləcək hakim zümrələr ortadan qaldırılmış, xanlar və orduları məhv edilmiş, heç bir ictimai və siyasi haqqa malik olmayan bəylər bir qapı-qulu vəziyyətinə gətirilmiş, kəndlilər kölə rejiminə tabe edilmiş, becərdiyi torpağı pulla almaq haqqından belə məhrum olmuşdu. Vaxtilə elm, ədəbiyyat, sənət ocağı olan xanların sarayları dağıldığı üçün, yeni mülkədar zümrəsi həm səviyyə və səciyyə, həm də səlahiyyət və imkan etibarilə çox aşağı dərəcədə olduğu üçün mədəniyyət və fikir həyatı tamamilə sönmüşdü. Millət yeni bir ictimai zümrənin yetişməsini gözləməli idi [5, s.17]. Bu da XIX əsrin sonu – XX əsrin əvvəllərində yaranan yeni sənaye burjuaziyası və Avropalı ziyalı zümrəsi oldu [5].

Digər görkəmli mühacir tarixçimiz H.Baykara xanlıqlar dövründə Azərbaycan cəmiyyətini rus cəmiyyəti ilə müqayisə edərək qeyd edir ki, Azərbaycanda xanlıq dövründə kəndli heç bir vaxt kölə olmamışdır. Rus alimi E.A.Paxomova istinadən yazır: Azərbaycanda kəndlilər müstəsna halda azaddırlar. Tarixdə heç bir zaman Azərbaycan kəndlisi rus kəndlisi kimi heyvan sürüsü halında qırmancla bazara satılmaq üçün aparılmamış, səbəbsiz yerə öldürülməmiş, ailəsinə və namusuna təcavüz edilməmişdir [2].

40 - cı illər "islahatlarından" sonra vəziyyət dəyişdi. Xanlıqlar və Rusiya istilası dövrünün müqayisəli təhlilini aparan H.Baykara digər bir əsərində yazır: Bu əsərdə məni ən çox düşündürən məsələ Çar Rusiyasının işğalından əvvəl xanlıqlar dövründə Azərbaycanın mədəni, siyasi və iqtisadi vəziyyətinin nə qədər inkişaf etməsi idi. Buna görə də kitabda ən çox bu mövzuya yer verdim.

Bəzi zümrələr belə hesab edirlər ki, Azərbaycanın hal-hazırkı mədəniyyəti, incəsənəti rusların əsəridir. Halbuki, ruslar Azərbaycanı işğal etdikləri dövrdə nəinki bugünkü Qərb düşüncəsində, hətta o dövrün Qərb düşüncəsinə görə də mədəni millət hesab edilmirdilər [3, s.18].

**_Ədəbiyyat siyahısı:_**

*1. Ağaoğlu Ə.B. Mən kiməm. - Bakı: 2019, 598 s.*
*2. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. - Bakı: 1992, 143 s.*
*3. Baykara H. Azərbaycanda yeniləşmə hərəkatı. - Bakı: 2018, 242 s.*
*4. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. - Bakı: 1990, 152 s.*
*5. Məmmədzdə M.B. Azərbaycan milli hərəkatı. - Bakı: 1992, 158 s.*
*6. Muradəliyeva E. Azərbaycan milli şüurunun qatlarında Rusiya işğalı (Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar) (Elmi məcmuə). - Bakı: Xəzər Universiteti, 2004, s.226-234*
*7. Mustafayev T.T. XVIII əsrin birinci yarısında Azərbaycanda Rusiyaya meylin güclənməsi. - Bakı: 1986*
*8. İbişov S.Ə. Muğan (Cavad bölgəsi) əhalisi, tarixi coğrafiyası və toponimləri. - Bakı: 2020*
*9. Vəliyev Ə. Azərbaycan siyasi düşüncə tarixi və Mirzəbala Məmmədzadə. - İstanbul: 2008*
*10. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. - Bakı.1992, 75 s.*
*11. Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir?. - Bakı:1997, 292 s.*
*12. Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и его взаимоотношения с Россией. - Баку:1965, 620 с.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MƏDƏNİ QURUCULUQ SAHƏSİNDƏ TƏDBİRLƏR

**Reyhan Abbasova**
*Azərbaycan Dillər Universiteti, Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrası, müəllim*
*aygun.qasimova.88@mail.ru*

***Açar sözlər*:** *Cümhuriyyət, mədəni quruculuq, milli, təhsil, mədəniyyət*

1918-ci il mayın 28-də "Mubəyyin Əqdnamə" ilə özünün yaranmasını dünayaya bəyan edən AXC-fəaliyyət göstərdiyi 23 ay ərzində ölkəmizin çiçəklənməsi üçün həyata keçirdiyi tədbirlər içərisində mədəni quruculuq tədbirləri böyük rol oynamışdır. Yeni yaranmış dövlətin savadlı, təhsilli kadrlara ehtiyacı var idi. Buna görə də mövcudluğunun elə ilk günlərindən 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının qərarı ilə I hökumət kabineti tərəfindən Xalq Maarif Nazirliyi təsis edildi. İlk xalq maarif naziri Nəsib bəy Yusifbəyli oldu. XMN xalq təhsilini sürətlə inkişaf etdirmək məqsədi ilə islahatlar keçirməyə başladı. Məktəb və təhsil işinin idarəsi XMN-nın təlimatçılarının sərəncamına verildi [1]. Ən vacib məsələrdən biri cəmiyyətdə ali təhsili təşkil etmək və ali təhsilli milli kadrları hazırlamaq idi. Qısa müddətdə 3 ali təhsil ocağının: Bakı Dövlət Universitetinin, Əkinçilik İnıstitutunun və Dövlət Konsevatoriyasının açılması nəzərdə tutulurdu [4, səh. 200-208]. Lakin aprel işğalı bunu həyata keçirməyə imkan vermədi. 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti Bakı Universitetinin açılması haqqında qanun qəbul etdi. 1919-cu il noyabrın 15-də Bakı Universitetinin auditoriyalarında ilk mühazirələr oxundu [1]. 1919-cu il 1 sentyabr parlamentin qərarı ilə 100 nəfər gənc dövlət hesabına ali təhsil almaq üçün Avropa və Türkiyəyə göndərildi. AXC-nin xalq maarifinin inkişafı sahəsində gördüyü tədbirlərdən biri də ibtidai təhsilin inkişafı sahəsində atdığı addımlar idi. 1918-ci il avqustun 28-də məktəblərin milliləşdirilməsi haqqında qərar qəbul edildi. Məktəblərdə tədris Azərbaycan (türk) dilində keçirilməyə başlandı. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü. Azərbaycan hökuməti 1918-ci il 22 iyul tarixli qərarı ilə Türkiyədən 50 nəfər müəllim dəvət olundu ki, müəllim hazırlayan kurslarda dərslər keçsinlər. İbtidai məktəblər şəbəkəsi genişləndi. Təkcə 1919-cu ildə Azərbaycanda 15 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Bakıda, Gəncədə, Şuşada, Nuxada, Zaqatalada axşam kursları təşkil olunmuşdu. Bakıda azərbaycanlı fəhlələr üçün texniki axşam kursları fəaliyyət göstərirdi ki, burada 200 fəhlə təhsil alırdı.

AXC dövründə milli mətbuatın inkişafı həm keyfiyyət, həm kəmiyyət cəhətdən inkişaf edirdi. 23 ay ərzində ölkədə 100-ə yaxın qəzet və jurnal nəşr olunurdu. Bu mətbu orqanları Bakı, Gəncə, Şuşa, Tiflis, İrəvanda demokratiya, azadlıq ideyalarını təbliğ etmiş, rus imperializminin müstəmləkə siyasətinə, cahilliyə, mövhumata, savadsızlığa qarşı müstəqqillik və tərəqqi naminə böyük

rol oynamışdır. H.Zərdabi, Ə.Topçubaşov İ.Qaspiralı milli mətbuatın inkişafını dəstəkləyirdilər. Hələ XIX əsrdə A.Bakıxanov və M.F.Axundov tərəqqinin başlıca yolunu dövrü mətbuatın nəşr edilməsində görürdülər.

Əsası 1875-ci ildə "Əkinçi" ilə qoyulmuş milli mətbuat, "Açıq söz"lə davam etmiş, "İqbal", "Dirilik", "Təkamül", "İstiqlal"la xalqın həyatını işıqlandırmışdı. Hökümətin rəsmi mətbuat orqanı "Azərbaycan" qəzeti idi. Sənətulla Eynullayev 1920-ci il 15 mart saylı "Açıq söz" qəzetində yazmışdı: "Dəhşətli saat gəlir, birlik gərək!". O, rus - bolşevik işğalını görür və xalqı birliyə çağırırdı. 1920-ci ilin martında Azərbaycan Teleqraf Agentliyi yarandı.

AXC- Şərqdə ilk demokratik dövlət idi. 1919-cu il parlamentin mətbuat haqqında qanun verməsi ilə söz mətbuat azadlığından istifadə edən qabaqcıl ziyalılar ədəbiyyat, publisistika, dramaturgiya, poeziyaya öz töhfələrini vermişlər. H.Cavid, Ə.Cavad, M.Hadi, S.Mümtaz, A.Şaiq, C.Cabbarlı, Ü. Hacıbəyov və C.Hacıbəyov qardaşları, N.Vəzirov, S.S.Axundov çarizmin əsarətindən qurtulmuş müstəqil dövlətin qorunması, Qarabağ və ətrafda erməni fitnəkarlığının dəf olunması, ölkə daxilində çaxnaşmalar, qarşıdurmalar, xarici imperialist dövlətlərinin Azərbaycana iştahları haqqında düşünür, xalqı AXC ətrafında sıx birləşməyə çağırırdılar.

Milli mətbuatın və publisistikanın əsasında duran ictimai-siyasi konsepsiya XX əsrin əvvəlində Azərbaycanda "türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyasında təcəssüm olunurdu [2].

AXC-nin yaranması ilə milli teatr da canlandı. Teatrın əsası 1873-cü ildəqoyulsa da Cümhuriyyət dövründə ilk "Hacıbəyli qardaşları" truppası fəaliyyətini bərpa etdi. 1918-ci il 9 oktyabr tarixli qərarla teatr işi XMN-nın ixtiyarına verildi. 1918-ci il 18 oktyabr tarixli qərarla Dövlət Teatrı təşkil olundu və Mayılov qardaşları teatrının binası (indiki Akademik Opera və Balet teatrı) alındı. İlk dəfə Dövlət Teatrında N.Nərimanov "Nadir şah" əsəri 1918-ci il noyabrın 4-də göstərildi. Teatrda qoyulmuş tamaşalarda cəmiyyətin sosial-iqtisadi və siyasi problemləri göstərilirdi. M.Rəsulzadə: "Azərbaycanın müstəqillik ideyaları mədəniyyət xadimlərinin fəaliyyəti hesabına gerçəkləşir". AXC Milli musiqimizin inkişafını dəstəkləyirdi. 1919-cu ildə Ü.Hacıbəyov "Dağıstan", "Azərbaycan" adlı xoreoqrafik əsərlər yaratamışdı. M.Maqomayev "Şah İsmayıl" operası 1919-cu ildə səhnələşdirildi. Milli rəssamlıq, memarlığın inkişafına diqqət və qayğı çox böyük idi. Zeynal Əlizadə dövlət gerbinin hazırlanmasında iştirak etmişdi. Rəssam Ə.Əzimzadə, B.Kəngərli, Ə.Hüseynzadənin əsərlərini xüsusi qeyd etmək lazımdır [2].

Memarlar Z.Əhmədbəyov, M.H.Hacınski, H.Axundov və s. ölkənin tarixi-mədəni abidələrinin qorunmasına maddi-mədəniyyət nümunələrinin gələcək nəsilə ötürülməsinə çalışmışlar.

AXC ölkəmizdə muzey və kitabxanaların açılmasına xüsusi diqqət yetirirdi. 1919-cu il dekabrın 7 də Azərbaycan parlamentinin açılmasının ildönümü münasibətilə "İstiqlal" muzeyi açıldı [4, səh. 2014]. Burada tariximizi, dinimizi əks etdirən eksponantlar saxlanılırdı. 1919 martında Azərbaycanda türk dilində

ilk böyük kitabxana açıldı. Azərbaycan haqqında kitab və əlyazmaları toplamaq üçün Beyrut, Qahirəyə, İstanbula elmi işçilər göndərilmişdir. 1920-ci ilin əvvəllərində XMN nəzdində Arxeologiya şöbəsi fəaliyyətə başladı. Azərbaycan tarixi və mədəniyyətinin öyrənilməsində BDU-nun nəzdində yaradılmış "Müsəlman şərqini öyrənən cəmiyyət" böyük rol oynamışdır.

Beləliklə, mövcud olduğu 23 ay ərzində AXC mədəni-maarif işinə, ədəbiyyat və incəsənətdə Azərbaycan dövlətçiliyi və milli mənafeləri ön plana çəkmiş, türkçülük və azərbaycançılıq ideyaları aşılamışdır. Bu dövrdə Azərbaycan mədəniyyəti yüksəliş dövrü keçirmişdir.

### *Ədəbiyyat siyahısı:*

*1. AXC-nin mədəniyyəti. AXC-nin ensiklopediyası. –Bakı: "Lider", 2004, səh 73-74, səh 84-104.*
*2. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. –Bakı: "Şərq-Qərb", 2007, 424 səh.*
*3. "Mədəniyyət" qəzeti 2010-28 may s.7*
*4. Azərbaycan Xalq Cümhuriyyəti – 100. –Bakı: 2018*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİNDƏ ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV FENOMENİ

**Sevinc Muxtarova**
*AMEA, Məhəmməd Fizuli adına Əlyazmalar İnstitutunun əməkdaşı*
*seva_mukhtarova@mail.ru*

***Açar sözlər:*** *Əlimərdan bəy Topçubaşov, AXC, xarici siyasət, Paris Sülh Konfransı, beynəlxalq məclis*

Əlimərdan bəy Topçubaşov (1865-1934) 20-ci əsrin birinci onilliyində Azərbaycanın aparıcı siyasətçilərindən və dövlət xadimlərindən biri olub. Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk günlərdə Əlimərdan bəy Topçubaşovun hazırladığı memorandum Azərbaycan Xalq Cümhuriyyətinin mühüm siyasi-hüquqi sənədi hesab olunmalıdır. Bu memorandum onun çoxtərəfli fəaliyyətinin ölkəmizdəki və beynəlxalq təşkilatlardakı prosesləri qiymətləndirməsi baxımından da əhəmiyyətlidir.

Gənc respublika ictimai həyatın müxtəlif sahələrində müvəffəqiyyət əldə etdikcə, özünün müstəqilliyini möhkəmləndirdikcə ona qarşı həm beynəlxalq irticanın, həm daxili əleyhdarların, həm də xüsusilə erməni separatçılarının hücumları da artırdı [2, s.37]. Ona görə də Əlimərdan bəy Topçubaşov Azərbaycanın səsini beynəlxalq məclislər vasitəsilə bütün dünyaya yaymağı dövlətçiliyimizin yaşaması və möhkəmlənməsi, ərazi bütövlüyümüzün qorunması üçün böyük əhəmiyyətini xüsusi qeyd edir və bu sahədə əzmlə çalışırdı.

1918-ci il dekabrın 16-da o, İstanbuldan Fətəli xan Xoyskiyə yazdığı məktubunda bir daha təklif edirdi ki, bütün Zaqafqaziya Cümhuriyyətlərinin nümayəndələri Paris Sülh Konfransında vahid nümayəndə heyəti ilə çıxış etməlidirlər. Əlimərdan bəy öz məktubunda Fətəli xan Xoyskiyə bu məsələ barədə sülh konfransı ölkələrinə xüsusi memorondumla müraciət etdiyini də bildirirdi. Əlimərdan bəy 1918-ci il dekabrın 28-də Azərbaycanın Paris sülh konfransına göndəriləcək nümayəndə heyətinin sədri təyin olunur [4, s.110]. Onun Paris konfransına təqdim etdiyi memorandumda xarici siyasəti müəyyən edən aşağıdakı mühüm istiqamətlər göstərilir:

1) Paris sülh konfransı Qafqaz Azərbaycanının rus imperiyasından ayrılmasını bəyənsin. Azərbaycan tamamilə müstəqil dövlət olmaqla, Azərbaycan Xalq Cümhuriyyəti adlansın və sənədləri əlavə edilən xəritədəki kimi müəyyənləşdirilsin. 2) Azərbaycan Respublikası nümayəndə heyətinin üzvləri sülh konfransının və onun komissiyalarının işinə cəlb olunsun. 3) Azərbaycan Respublikası yüksək himayəsi altında olmaq istədiyi Millətlər Cəmiyyətinə qəbul edilsin.

Əlimərdan bəy Topçubaşovun Paris sülh konfransında bütün bu məsələlər ətrafında ingilis və fransız dillərində dolğun və sərbəst çıxışı buraya toplaşmış nümayəndələrin marağına səbəb olmuşdur. Buna qulaq asan Fransanın Xarici

İşlər Naziri demişdir: "Belə nümayəndələri olan millət heç vaxt vəhşi ola bilməz". Deməli, Azərbaycan haqqında onların təsəvvürləri dəhşətli idi. Həmin çıxışdan sonra Paris sülh konfransına toplaşmış Ali Şuranın üzvləri və Birlik ölkələri Azərbaycanı de-fakto tanımış və bu barədə sülh konfransının qərarını nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşova təqdim etmişlər! [3, s.103-104]. Bu da Əlimərdan bəy Topçubaşovun xüsusi iradəsi nəticəsində əldə olunmuş böyük qələbə idi. Parisdə Azərbaycan məsələsinin gündəliyə salınması Əlimərdan bəy Topçubaşovun çox gərgin əməyi nəticəsində mümkün oldu. ABŞ prezidenti V.Vilsonun təşəbbüsü ilə İngiltərə, Fransa və İtaliya dövlət başçıları səviyyəsində Azərbaycan məsələsi gündəliyə salınaraq, müzakirə olunmuşdur. Yığıncaqda bilavasitə prezident V.Vilsonun Əlimərdan bəy Topçubaşovu Azərbaycan nümayəndə heyətinin başçısı olaraq rəsmi tanıdığını, ona böyük etimadını bildirərək Azərbaycanın sülh konfransına qatılması təklifini qəbul edir. Əlbəttə, bu nümayəndə heyəti üzvlərində böyük ruh yüksəkliyi yaratmışdır [1, s.117].

1919-cu ilin I yarısında İran nümayəndə heyəti Parisdə memorandum təqdim edərək, Bakı, Dərbənd, Şəki, Şamaxı, Gəncə, Qarabağ, Naxçıvan və İrəvanı öz tarixi torpaqları kimi tələb edirdilər. Məhz, bu ideyanın konfransda ciddi qarşılanmaması da Azərbaycan nümayəndə heyətinin xüsusi fəaliyyəti hesab edilməlidir [2, s.105]. 1919-cu il 9 avqustda isə ingilis-İran müqaviləsinin imzalanması İran nümayəndələrini həmin konfransın işindən uzaqlaşdırdı. Buna görə də sentyabr ayında İranın Xarici İşlər Naziri Firuz Mirzənin rəhbərlik etdiyi rəsmi nümayəndə heyəti Avropaya gələrək, Azərbaycan nümayəndə heyəti ilə görüş keçirdi. Burada iki ölkə arasında ittifaqın yaranması haqqında sənəd qəbul edildi. Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti tərəfindən həmin sənədə dövlətçilik baxımından vacib məsələlər salınmışdı. Nəhayət, 1920-ci il yanvar ayının11-də Paris Sülh Konfransı iştirakçı dövlətlərin Ali Şurası çox gərgin şəraitdə Qafqaz məsələsini müzakirə edir və Corc Kerzonun təklifi ilə Azərbaycan və Gürcüstan hökumətlərinin müstəqilliyini de-fakto tanıdıqlarını elan edirlər. Hazırlanan sənəd yanvarın 12-də Ali Şura Üzvləri tərəfindən imzalanır, yanvarın 15-də isə Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşov və onunla birlikdə M.Məhərrəmov Fransa Xarici İşlər Nazirliyinə dəvət olunaraq, onlara rəsmən təqdim olunmuşdur. Bu haqda məlumat Azərbaycan Cümhuriyyətinə çatdırılmış, yanvarın 14-15-də Azərbaycan xalqı bu hadisəni böyük bayram kimi təntənəli keçirmişdir.

Beləliklə də, bütün bu gərgin mübarizənin nəticəsi kimi Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə dünyanın 25-dən artıq dövlətləri ilə suverenlik və qarşılıqlı etimad prinsiplərinə əsaslanan müqavilələr imzaladı [2, s.124]. Həmin ölkələrdə Azərbaycan Xalq Cümhuriyyətinin ticarət və konsul nümayəndəlikləri yaradıldı. Qonşu dövlətlərlə iqtisadi, ticarət və mədəni əlaqələr genişləndi. Azərbaycan öz təbii sərvətlərini xaricə azad satmaq imkanı qazandı. Bütün

bunlar Əlimərdan bəy Topçubaşovun beynəlxalq aləmdə apardığı gərgin işin nəticəsi kimi mümkün olmuşdur.

***Ədəbiyyat siyahısı:***

*1. ADR: tarix, ictimai-siyasi və ədəbi-mədəni həyat. Məqalələr toplusu.- Bakı: Elm, 1992, 214 s.*
*2. Hacıyev F. Ə. Topçubaşovun siyasi görüşləri. -Bakı: Təknur, 2018, 263 s.*
*3. İbrahimli X. Azərbacyan siyasi mühacirəti (1920-1991). - Bakı: Elm, 1996, 304 s.*
*4. Paşayev A. Cümhuriyyətin görkəmli xadimi diplomat Əlimərdanbəy Topçu-başov. –Bakı: "Dirçəliş-XXI əsr", № 64, 2003*

# BAYRAĞIMIZIN 9 NOYABRDAN BAŞLAYAN BİR ƏSRLİK YOLU

**Mina Qarayeva**
*Azərbaycan Dillər Universiteti, Qafqazşünaslıq*
*və Azərbaycan tarixi kafedrası, müəllim*
*mina.sukurlu@gmail.com*

***Açar sözlər*: *Bayraq, dövlət rəmzləri, müasirlik***

Hər bir millətin dövlətçilik ənənələri ilə yanaşı onun zəngin mənəvi və irsi maddi mədəniyyət nümunələri vardır. Azərbaycan tarixində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə müstəqil dövlətçilik ənənələrimiz bərpa olunmuşdu. Bu zaman qarşıda duran əsas məsələ dövlət atributlarının yaradılması idi. Respublikamızın dövlətçilik atributlarından biri olan Dövlət bayrağı onun müstəqilliyini təcəssüm etdirən suverenliyinin rəmzidir. Azərbaycan Xalq Cümhuriyyəti 1918 - ci il iyunun 21-də Dövlət bayrağının qəbul edilməsi haqqında qərar qəbul etmişdi. Bu qərara əsasən üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı rəngli bayraq qəbul olunmuşdu. 1918 - ci il Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq, Osmanlı Türkiyəsi öz qoşunlarını Azərbaycandan çəkmək məcburiyyətində qalmış, ingilislərin ümumi nəzarətinə verilmiş Bakıya gələn general Tomsonun ”Mən Türkiyə intriqasi ilə yaradılan dövlət tanımıram” fikri Azərbaycanın istiqlalına sübhə yaratmışdı. Məhz buna görə 1918-ci il noyabr ayının 9-da qırmızı rəngli bayrağın üçrəngli bayraqla əvəz edilməsi haqqında qərar qəbul edilmişdi. Bu üçrəngli bayrağımız ilk dəfə 1918-ci il noyabr ayının 17-də Bakıda dəniz vağzalında ingilis generalı Tomsonun qarşılanma mərasimində göyə qaldırılmışdı. M.Ə.Rəsulzadə öz xatirələrində qeyd edirdi ki, “ingilislər yalnız iclas keçirilən zaman milli bayrağımızın parlament binası üzərində dalğalanmasına icazə verir, iclas bitən kimi bayrağımızın endirilməsini tələb edirlər” [1, səh.158-160].

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər şurası, 1918-ci il noyabr ayının 9-da hökumətin başçısı F.X.Xoyskinin məruzəsi əsasında, Azərbaycanın yeni üçrəngli mavi, qırmızı, yaşıl zolaqlardan ibarət, üzərində aypara və səkkizguşəli ulduz təsviri olan bayrağının təsdiq olunması haqqında qərar qəbul etmişdir. M.Ə.Rəsulzadənin müasirləşməyə verdiyi önəm müasir tipli Azərbaycan cəmiyyətinin qurulmasında öz təsirini göstərmişdir. Əsası Əli bəy Hüseynzadə tərəfindən qoyulmuş, Ziya Goyalp tərəfindən inkişaf etdirilən “türkləşmək, islamlaşmaq, avropalaşmaq” şüarı məhz bu bayraqda öz əksini tapmışdır.

Bayrağımızın təmtəraqlı təqdimatı 1918-ci il dekabr ayının 7-də Parlamentin açılışında olmuş, Milli Şuranın sədri M.Ə.Rəsulzadə dillər əzbəri olan ,”bir kərə yüksələn bayraq bir daha enməz” nitqini də burada söyləmişdir. Lakin çox təəssüf ki, 28 aprel 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etmiş və müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımız 1920-ci il may ayının-3 də Azərbaycan Parlamentinin binası üzərindən endirilmişdir. Daha sonra bir sıra

ziyalımız bu bayrağı Türkiyə və Avropa ölkələrində mühacirətdə qoruyub yaşatmışdır.

1988 – ci il noyabrın 17-də Azərbaycanın üçrəngli bayrağı yenidən meydanlara gətirilmişdi.

Bayrağımız 1990 - cı il noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. Ümummilli lider H.Əliyev bununla milli özünüdərkin ilkin mərhələsi olan milli rəmzlərimizin qorunmasını qeyd etmişdir. Həmçinin bu faktlara əsasən deyə bilərik ki, Ümummilli liderimiz Heydər Əliyev və Prezident İ. Əliyev "17 noyabr" tarixinə xüsusi əhəmiyyət vermişdir.

Sovet dövründə qadağan olunmuş Azərbaycan bayrağı 1991-ci il fevral ayının 5-də müstəqilliyini elan etmiş Azərbaycan Respublikası Ali Soveti tərəfindən təsdiq edilmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlət quruculuğu siyasəti ilə yanaşı milli dövlətçilik atributlarımızın formalaşdırılmasına xüsusi önəm verilmişdir. Məhz Heydər Əliyevin səyi nəticəsində Dövlət bayrağının bərpası müstəqil dövlətçilik ənənələrinin davam etdirilməsi yolunda uğurlu addım olmuşdur [2, s.145-150].

Milli dövlətçilik ənənələrinin qorunmasında Dövlət bayrağının xüsusi əhəmiyyətini nəzərə alan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev öz fəaliyyətində bunu aydın şəkildə göstərir.

Dövlət bayraq meydanının salınması haqqında Azərbaycan Respublikası Prezidenti 2007-ci il noyabr ayının 17-də sərəncam imzalamış, 2007 ci il dekabr ayının 30-da prezidentin iştirakı ilə Bayıl qəsəbəsində Dövlət bayrağı meydanının təməli qoyulmuşdur. 2008 ci il sentyabr ayının 15-də Prezidentimiz İ.Əliyev "Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı)" haqqında fərman imzalamış, bu fərmanla Azərbaycan Prezidentinin ştandartının onun rəsmi simvolu olduğu qeyd olunmuşdur [3, səh. 65-66].

Dövlət rəmzlərimizə hörmət əlaməti olaraq prezident İ. Əliyev 2009 - cu il noyabr ayının 17-də Dövlət bayrağı gününün təsis olunması haqqında sərəncam imzalamış və buna əsasən biz hər il noyabr ayının 9-nu Bayraq günü kimi qeyd edirik [4, s.10].

Paytaxtımızın mədəni mərkəzinə çevrilən Dövlət bayrağı meydanının təntənəli açılışı 2010-cu il sentyabrın 1-də keçirilmişdir. Dövlət bayrağı meydanının ərazisi 20 min kvadratmetr, meydanda olan dayağın hündürlüyü 162 metr, qurğunun ümumi çəkisi 220 tondur. Bayrağın eni 35 metr kütləsi təqribən 350 kiloqramdır.

"Ginnes dünya rekordları təşkilati" 2010-cu il may ayının 29 - da Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq etmişdir.

Bu gün vətənimizdə dalğalanan bayrağımız bizdə böyük iftixar hissi yaradır və müstəqil dövlətçiliyimizi qorumaq yaşatmaq əzmini göstərir.

### ***Ədəbiyyat siyahısı:***

*1.Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. – Bakı: I cild, 440 s.*
*2. Hüseynova İ. Müasir Azərbaycan dövlətinin qurucusu. –Bakı: 2004, 472 s.*
*3. Məmmədov V., Əhmədov S. Azərbaycan Respublikasının dövlət bayrağı. - Bakı: 2010, 156 s.*
*4. Əliyev İ., Məhərrəmov E. Azərbaycanın Respublikasının dövlət rəmzləri. - Bakı: 2000, 58 s.*
*5. Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) fərmanı. Bakı şəhəri, 15 sentyabr 2008-ci il - https://frameworks.e-qanun.az/15/c_f_ 15400.html*

# MÜSƏLMAN ŞƏRQİNDƏ İLK PARLAMENTLİ RESPUBLİKANIN QURULMASINA DAİR

**Aytən Əliyeva**
*AMEA, Məhəmməd Fizuli adına Əlyazmalar İnstitutunun əməkdaşı*
*dissertant1@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, parlament, Milli Şura, İstiqlaliyyət Bəyannaməsi*

Bolşeviklərin Rusiyada hakimiyyəti ələ almağa çalışdığı bir dövrdə öz müstəqillikləri üçün gürcü, erməni və azərbaycanlıların 1918-ci ilin fevralında yaratdıqları Cənubi Qafqaz Seymində olan mübahisələr və fikir ayrılığı nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması zəruriliyi bir daha xatırlandı. 1917-ci il fevral inqilabı zamanı bolşeviklərin hakimiyyəti ələ almaq cəhdləri Azərbaycan maarifçilərinin yaratdıqları partiyaların azad fəaliyyətini sıxışdırdı. Lakin buna baxmayaraq, o dövrdə yenə də açıq fəaliyyət göstərən partiyalar yaranmağa davam edirdi. Azərbaycan milli siyasi qüvvələrinin bu fəaliyyətləri bolşevikləri narahat edirdi. Bunun nəticəsində, Bakı Sovet rəhbərliyi S. Şaumyanın vasitəçiliyi ilə Azərbaycanda dinc əhaliyə qarşı martın 31-də soyqırım törətdi və erməni milli şurasından başqa bütün milli şuraların fəaliyyəti qadağan edildi. Cənubi Qafqaz Seymində gürcü-erməni çoxluğu Qafqazın şərqində türk-müsəlman əhalinin məruz qaldığı soyqırımın qarşısını almaq üçün hər hansı bir təsirli tədbir görmədi. Azərbaycan milli siyasi qüvvələri isə Seymdən çıxmaq qərarına gəldilər və beləliklə, Müsəlman Şərqində ilk parlamentli respublika yarandı.

1918-ci il mayın 27-də Seymin Azərbaycan fraksiyası özünü Azərbaycan Milli Şurası elan etdi və ölkəmizin idarə olunması vəzifəsini öz üzərinə götürdü. İlk Azərbaycan parlamenti yarandı və Azərbaycanda ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. 1918-ci il mayın 27də keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçildi. Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri oldu. Milli Şura mayın 28-də "İstiqlaliyyət Bəyannaməsi" adlanan çox mühüm sənəd qəbul etdi. Bəyannamədə bildirilirdi:

1. *Bu gündən etibarən Azərbaycanın xalqları suveren hüquqların daşıyıcılarıdır və Zaqafqaziyanın Şərqi və Cənubunu əhatə edən Azərbaycan tam hüquqlu müstəqil dövlətdir;*

*2. Müstəqil Azərbaycanın siyasi quruluşunun forması kimi demokratik respublika müəyyənləşdirilir;*

*3. Azərbaycan Demokratik Respublikası bütün dünya dövlətləri ilə, xüsusən də qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa can atır;*

*4. Azərbaycan Demokratik Respublikası hüdudları daxilində milliyyətindən, dini mənsubiyyətindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq özünün bütün vətəndaşlarının siyasi və vətəndaş hüquqlarına təminat verir;*

*5. Azərbaycan Demokratik Respublikası öz ərazisində məskunlaşmış bütün xalqların azad inkişafı üçün imkanlar yaradacaqdır;*

*6. Müəssisələr Məclisinin çağırılmasınadək bütün Azərbaycana səsvermə yolu ilə seçilmiş Milli Şura və Milli Şura qarşısında məsul olan Müvəqqəti Hökumət başçılıq edir* [1, 339].

Mayın 28-də Tiflisdə keçirilən Milli Şuranın iclasında Cümhuriyyətin başçısı görkəmli, siyasi xadim Fətəli xan Xoyski olan ilk hökumət təşkil olundu.

Gürcüstan hökumətinin tələbinə əsasən Azərbaycan Milli Şurası və hökuməti Tiflis şəhərini tərk etmək məcburiyyətində qaldı, iyunun 16-da Gəncəyə köçdü. Fətəli xan Xoyskinin başçılıq etdiyi II hökumət AXC-nin himni və bayrağını (üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan qırmızı parçadan hazırlanmış ilk bayraq) 1918-ci ilin iyunun sonunda dövlət rəmzi kimi qəbul etdi.

İyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Komissiya Birinci Dünya müharibəsi dövründə bütün Cənubi Qafqaz ərazisində türk-müsəlman əhaliyə qarşı törədilən soyqırım vəhşiliklərini və onların əmlakının talan olunması məsələlərini araşdırıb cinayətkarları məhkəmə məsuliyyətinə cəlb etməli idi. Avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Avqustun 23-də Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığı haqqında fərman verildi. Lakin Fətəli xan Xoyski hökumətinin başlıca vəzifəsi ölkənin bütün ərazisində Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini bərqərar etmək, Bakını və onun ətraflarını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi.

1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu Azərbaycan xalq könüllü dəstələrinin köməyi ilə Bakını azad etdi. Şəhər Stepan Şaumyanın bolşevik-daşnak rejimindən sonra hakimiyyəti ələ keçirmiş menşevik-daşnak tör-töküntülərindən Sentrokaspi diktaturası"ndan təmizləndi.

*1918-ci il sentyabrın 17-d Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Azərbaycan Xalq Cümhuriyyət hökuməti Bakıya köçdü. Bakı paytaxt elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət dairəsi genişləndi* [2].

Müsəlman Şərqində yaranan ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin mühüm və özünəməxsus xüsusiyyətləri aşağıdakılardır:

Türk-müsəlman dünyasında ilk dəfə kişilərlə qadınların hüquq bərabərliyi təmin olundu. Qadınlara seçib-seçilmək hüququ verildi. Tarixi yer adlarının bərpa edilməsi üçün mühüm addımlar atıldı: Yelizavetpol yenidən Gəncə, Qaryagin qəzası isə Cəbrayıl qəzası adlandırıldı. 1918-ci ilin sentyabrında Bakı bonu adlı milli pul vahidi dövriyyəyə buraxıldı. Bir il sonra – 1919-cu ildə Dövlət Bankı yaradıldı. Parlament 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin açılması haqqında qanun qəbul etdi. Bundan əlavə, 100 azərbaycanlı gənc xarici ölkələrin qabaqcıl ali məktəblərində təhsil almağa göndərildi.

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə, ümumiyyətlə 155 parlament iclası keçirilmişdi ki, bunun da 10-u Azərbaycan Milli Şurasının (27 may-19 noyabr 1918-ci il), 145-i isə Azərbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə (7 dekabr 1918-ci il - 27 aprel 1920-ci il) olmuşdur.

Sovet Rusiyasının hərbi müdaxiləsi və XI Qızıl Ordu hissələrinin qanlı hərbi əməliyyatları nəticəsində Şimali Azərbaycan yenidən Rusiyanın tərkibinə qatılsa da, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu. *Cəmi 23 ay yaşamasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə, Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir* [3].

AXC bütün bu xüsusiyyətləri ilə Azərbaycan xalqının illərlə Sovet Rusiyası əsarətində olarkən qurduğu arzularını həyata keçirdi. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin əbədiliyini və bunun üçün hər şeyə hazır olduğunu əməlində göstərdi. AXC-nın varisi sayılan Müstəqil Azərbaycan Respublikası 44 günlük II Qarabağ müharibəsində bir daha əzmkar və qətiyyətli olduğunu sübut etdi.

***Ədəbiyyat siyahısı:***

*1. Qəniyev H. Azərbaycan tarixi: ən qədim zamanlardan- XXI əsrin ilk onilliklərindək: [Ali məktəblər üçün dərslik] / Həsən Qəniyev. – Bakı: Elm və təhsil, 2019. - 499 s.*

*2. Azərbaycan Xalq Cümhuriyyəti - Şərqdə ilk parlamentli respublika (1918-ci il may - 1920-ci il aprel)-https://azerbaijan.az/related-information/143*

*3. Azərbaycan Xalq Cümhuriyyəti - Şərqdə ilk parlamentli respublikahttps: //axc.preslib.az/az/page/qHQJ2aWo4P*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ SİYASƏTİ

**Əzət Dadaşova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası, doktoran*
*ezet_000@mail.ru*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Türkiyə, iqtisadi əlaqələr, qonşu dövlətlər.*

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixə şanlı səhifə kimi daxil olmuşdur. 23 ay ərzində mövcud olan AXC xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, demokratik dövlət quruculuğu, təhsil, hərbi quruculuq, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə gördüyü işlərlə Azərbaycan xalqının tarixində özünə məxsus yer tutmuşdur. AXC bir çox sahələrdə islahatlar keçirmişdir, xüsusən sosial-iqtisadi sahədə aparılan islahatlar əhalinin maddi rifah halına müsbət təsir etmişdi. AXC hakimiyyətdə olduğu dövrdə sosial-iqtisadi sahədə bir sıra demokratik qərarlar qəbul etmişdir. Maliyyə sisteminin yenidən qurulması qarşıda duran əsas iqtisadi məsələlərdən idi. AXC bu məqsədlə Dövlət Bankını yaratdı. Milli valyuta "Bakı bonu"nun dövriyyəyə buraxılması haqqında qərar qəbul olundu [1, s.502]. Milli pul vahidinin buraxılması AXC-nın iqtisadi siyasətinin mühüm uğuru idi. Milli pul vahidinin möhkəmləndirilməsi, onun alıcılıq qabiliyyətinin qorunub saxlanması hökumətin iqtisadi siyasətinin əsasını təşkil edirdi. Çünki AXC-nin milli valyutası inflyasiya şəraitində dövriyyəyə buraxılmışdı. Hökumət həm əvvəlki dövrdən miras qalan, həm də respublikanın mövcudluğu dövründə baş verən inflyasiyaya qarşı mübarizə aparırdı. Azərbaycan Dövlət Bankının yaradılması da məhz bu məqsədi daşıyırdı. 1919-cu il sentyabrın 18-də Dövlət Bankının nizamnaməsi təsdiqləndi. Sentyabrın 30-da bankın açılışı oldu [5]. Azərbaycan Xalq Cümhuriyyətində büdcə quruculuğuna düzgün olaraq vergi işindən başlandı. Vergi işinin təşkili Maliyyə Nazirliyinin səlahiyyətində idi. Qısa müddətdə vergi orqanlarının həm mərkəzi, həm də yerli şəbəkəsi formalaşdırıldı. Cümhuriyyətin ilk tədbirlərindən biri aksiz idarələrinin təsdiqlənməsi oldu. Parlament tərəfindən torpaq vergisinin, sənət vergisinin, əmlak vergisinin, həmçinin neft və kənd təsərrüfatına qoyulan aksizlərin artırılması dövlət büdcəsinin yaranmasında böyük rol oynadı. AXC 200-dən çox ölkəyə gömrüksüz idxal olunan malları müəyyənləşdirmiş və xarici kaptalistləri ölkəyə çəkmək üçün onlara endirimli Bakı bonları təklif etmişdir. Cümhuriyyətin gömrük siyasətindəki qərarlardan biri də gömrük qadağalarının əsaslandırılması olmuşdur. Yəni, hər hansı bir məhsulun xaricə satılması və ya idxal edilməsinə qoyulmuş qadağalarda məhsulların əhali üçün nə qədər gərəkli olduğu diqqətə alınmışdır. AXC-nın aqrar proqramının əsasını aqrar islahatı qanun layihələri təşkil edirdi. Göstərilən qanun layihələrinin müəyyən fərqlərinə baxmayaraq, məqsəd torpaqsız və aztorpaqlı

əhalini torpaqla təmin etməkdən ibarət idi. Həm də xüsusi torpaq mülkiyyətini ləğv etmək deyil, torpağı xüsusi mülkiyyətə elə istehlak normaları üzrə vermək nəzərdə tutulurdu ki, bir tərəfdən kənd əhalisini gəlirlə təmin etmək mümkün olsun, digər tərəfdən istifadəsiz xüsusi sahibkar torpaqları qalmasın.

Azərbaycan Xalq Cümhuriyyəti neft sənayesini və nəqliyyat sistemini yenidən canlandırdı. Bakı-Batumi neft kəməri bərpa edildi, Bakı-Culfa dəmir yolu inşa olundu. AXCdövründə neft sənayesi iqtisadiyyatın əsas sahəsi sayılırdı, çünki neft dünyanın ən önəmli hərəkətverici qüvvəsi idi. Parlament və hökumət neft hasilatı və emalının vəziyyətini vaxtaşırı təhlil edir, dünya neft bazarını öyrənirdi. AXC-nın iqtisadi tədbirləri sırasında qonşu və xarici dövlətlərlə iqtisadi əlaqələr yaratmaq əhəmiyyətlidir. 1918-ci il iyunun 4-də Batum müqaviləsinin imzanlanması xarici siyasətdə ilk uğurlu addım idi [3]. AXC dünyanın bir sıra ölkələri, o cümlədən Türkiyə, İran, İngiltərə, ABŞ, Fransa, İtaliya, Gürcüstan. Dağıstan, Orta Asiya dövlətləri ilə iqtisadi əlaqə yaratmağa nail olmuşdu. Bəzi dövlətlərlə şifahi razılıq əldə edilmiş, bəziləri ilə ticarət müqaviləsi bağlanmışdır [1, s.512]. Xarici iqtisadi əlaqələri həyata keçirən Ticarət və Sənaye Nazirliyi nəzdində “Xarici dövlətlər və bir-birinə yaxın sahələrlə əmtəə mübadiləsi komitəsi” fəaliyyət göstərirdi. AXC qonşu dövlətlərlə iqtisadi əlaqələri genişləndirməsinə xüsusi əhəmiyyət verirdi. AXC qonşu dövlətlərdən ən çox Gücrüstanla əlaqə qurmuşdur. AXC və Gürcüstan arasında bir neçə müqavilə bağlanmışdır. 1919-cu il yanvarın 3-də Tiflisdə Azərbaycanla Gürcüstan arasında teleqraf, rabitəsi, yanvarın 4-də isə poçt xidməti haqqında sazişlər və poçt bağlamalarının dəmir yolu ilə daşınması haqqında konvensiya bağlanmışdı. Azərbaycan Respublikası dəmir yolunu öz qüvvələri ilə mühafizə etməli idi. Əgər müxtəlif səbəblərlə bağlı Azərbaycan hökuməti bunu edə bilmədikdə, türk ordusu bu vəzifəni öz üzərinə götürməli idi və nəhayət, ordunun daşınmasına zərurət olmadığı halda, Türkiyə hərbi komandanlığı Azərbaycan hökumətinin dəmir yollarının istismarını çətinləşdirməməli idi [4]. Azərbaycanla Gürcüstan arasında dəmir yolu rabitəsi, tranzit yüklər haqqında saziş imzalanmışdı. Azərbaycanla Gürcüstan arasında imzalanmış bu sənədlər hər iki ölkə arasında iqtisadi əlaqələrin dərinləşməsinə imkan yaratmışdır. Azərbaycan ilə Türkiyə arasında bağlanmış müqaviləyə görə Azərbaycan Türkiyəyə neft və neft məhsulları göndərməli idi. Türkiyəyə göndəriləcək neft Batumdan keçdiyi üçün Gürcüstan hökumətinin razılığı lazım idi. Gürcüstan hökuməti Bakıdan Türkiyəyə neft məhsullarının Batum vasitəsilə çatdırılmasına 1918-ci ilin oktyabr ayında icazə vermişdi [1, s.516]. AXC və Rusiya arasında 1920-ci il martın 30-da ticarət müqaviləsi imzalanmışdı. Lakin Rusiya müqavilənin şərtlərinə əməl etmədi [2, s.60]. Azərbaycandan Rusiyaya əsasən neft və neft məhsulları, həmçinin pambıq, balıq, düyü, şərab, meyvə, xam ipək, gön-dəri, xalça və s. göndərilir, oradan isə taxıl, kartof, çay, qənd, bitki yağları, manufaktura malları, dəmir, meşə tikinti materialları, sement, aptek, kimyəvi mallar gətirilirdi [6]. Cəmi 23 ay mövcud olmasına baxmayaraq AXC hökuməti mühüm iqtisadi əlaqələr qurmuş, sazişlər bağlamış, Türkiyə və Dağıstana humanitar iqtisadi kömək-

lik göstərmişdir. Cümhuriyyət hökuməti dövrün mürəkkəb problemləri ilə əhatə olunmasına baxmayaraq, ölkədə iqtisadi vəziyyətin yaxşılaşdırılması istiqamətində lazımi tədbirlərin həyata keçirmiş, unikal iqtisadi model yaratmışdır.

***Ədəbiyyat siyahısı:***

*1. Azərbaycan tarixi [7 cilddə]. -Bakı: Elm. - 2008, 696 s.*
*2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [İki cilddə]. - Bakı: Lider, 440 s., s.200*
*3. ARPİİ SPİHDA, f.277, s.2, i.9, v.24*
*4. ADRA, f.90, s.3, iş4, v.161.*
*5. Türkiyə ilə Azərbaycan Respublikası arasında dostluq haqqında müqaviləyə əlavə olaraq imzalanmış müqavilə. 04.06.1918. //ARDA, f.894, s.10, i.47, v.5-6*
*6. Azərbaycan Xalq Cümhuriyyəti/https://axc.preslib.az/az/page/K0ufhZjGs8 (04.05.2023)*

# QƏRBİ AZƏRBAYCAN: ƏHALİSİ, TOPONİMLƏR VƏ MADDİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİ

**Mirvari Qurbanova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, "Qafqaz xalqları tarixi" kafedrası, doktorant*
*mirvariqurbanova@mail.ru*

*Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı, mövcud olduğu və süqut edəndən sonrakı dövrlərdə Qərbi Azərbaycanda yaşayan əhalinin yaşadığı zorakılıqlar və tarixi yerlərimizin, maddi-mədəni irsimizin ermənilər tərəfindən məruz qaldığı "iz itirmə" siyasətinin qısa təsviri göstərilib. Bizim torpaqlarımız hesabına 1918-ci ildə yeni ərazi yaratmağa nail olan ermənilər dövlətin ərazisindəki bütün türk-müsəlman izlərinin silinməsinə çalışmışdılar.*

***Açar sözlər:*** *AXC, Ermənistan Respublikası, əhali, toponimlər, abidələr, erməni soyqırımı*

1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti həm müsəlman şərqində, həm də Azərbaycan xalqının tarixi taleyində böyük bir uğur idi. Ömrü qısa olan şərqdəki bu ilk demokratik müsəlman dövlətinə ərazi iddiası olan ermənilər ilk günlərdən bunu büruzə verdilər. Onlar da tarixdə ilk dövlətlərini 1918-ci ildə Cənubi Qafqazda Ararat Respublikası adı ilə yaratdılar. Lakin bu qondarma dövlətin nə ərazisi vardı, nə də paytaxtı. 1918-ci il mayın 29-da Azərbaycan Cümhuriyyəti Milli Şurasının qərarı ilə tarixi Azərbaycan şəhəri olan İrəvan onlara paytaxt, İrəvan xanlığının 9 min kv.km sahəsi isə onlara ərazi olaraq verildi. Hətta erməni-daşnak dövlətini ilk tanıyanlar da Osmanlı dövləti və Azərbaycan Xalq Cümhuriyyəti oldu [1, s.6].

Dövrün tarixi zərurəti adlandırılan bu məsələ günümüzə qədər tariximizin ağrılı yarası olaraq qalmaqdadır. Azərbaycanlıların fikri soruşulmadan, etiraz edənlərin - Mir Hidayət Seyidov, Bağır Rzayev və Nəriman bəy Nərimanbəyovun fikirlərinə əhəmiyyət vermədən tarixən ticarət yollarının üzərində yerləşən, Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin ermənilərə verilməsi ilə azərbaycanlıların Qərbi Azərbaycandan sıxışdırılması prosesi sürətləndi. 1918-1920-ci illərdə millətimizə qarşı soyqırımlar törədərək əhali yurd-yuvasından didərgin salındı. Yer adları dəfələrlə dəyişdirildi, tarixi abidələrimiz dağıdıldı, özününküləşdirildi. Bununla ermənilər iz itirməyə, bu torpaqlarda əzəldən türklərin yaşadığını sübut edən dəlilləri məhv etməklə özlərinə yurd salmağa başladılar. Məsələn: bizim ata-baba yurdumuzun adı əvvəl Vorontsovka olub, 1935-ci ildən Kalinino, 1991-ci ildə Taşir adlandırılıb, hal-hazırda isə həmin ərazi Loru mərzinin tərkibinə qatılıb. Yaşadığımız kənd 1935-ci ilə qədər Cücəkənd, daha sonra isə Qızılşəfəq adlandırılıb. Qərbi Azərbaycanda ən böyük göl olan Göyçə gölünün adını dəyişib Sevan, Basarkeçər dağ

silsiləsini – Vardenis, Dərələyəz dağ silsiləsini – Vayotsdzor adlandırıblar [1, s.78-88].

Ayrı-ayrı dövrlərdə səyyahların əsərlərində, tədqiqatçıların araşdırmalarında İrəvan qalasındakı Sərdar sarayının yaxınlığında yerləşən "Sərdar məscidi", yaxud "Abbas Mirzə məscidinin" adları çəkilir. Ermənistan hökuməti məscidin qalığını "qorunan tarixi abidələr" siyahısında 2007-ci ildə Avropa Şurasına təqdim etmişdir. Erməni vandalları Sərdar məscidinin "qorunan" divar qalığını da 2014-cü ilin noyabr ayının ortalarında yer üzündən silmişlər.

İrəvan şəhərini təsvir edən bütün səyyahların və tədqiqatçıların əsərlərində həm ölçülərinin miqyasına, həm də gözəlliyinə görə şəhərin ən möhtəşəm memarlıq abidəsi kimi Göy məscidin adı birinci çəkilir. Şərq memarlığının nadir nümunələrindən hesab edilən Göy məscidin inşasına 1760-cı ildə başlanılmış, 1765-ci ildə Hüseynəli xanın hakimiyyəti dövründə başa çatdırılmışdır. Həmin məscid 1616-cı ildə Şah Abbas dövründə Gəncədə inşa edilən Cümə məscidinə bənzəyir. Hazırda Ermənistan rəsmiləri Göy məscidi xaricdən gələn qonaqlara "Fars məscidi" kimi təqdim edirlər [2].

Öz dövlətlərini yaratdıqdan sonra əli-qolu açılmış düşmənlərimiz yerli əhaliyə qarşı soyqırımlar planlamağa başladılar. Bu vəziyyət bütün Qərbi Azərbaycan torpaqlarını bürüdü. İrəvan quberniyasının komissarı S. Torosyan Cənubi Qafqaz Komissarlığına göndərdiyi teleqramda yazırdı ki, fevralın 20-də günorta İrəvan şəhərində başlayan atışma çoxsaylı ölüm və yaralanma ilə nəticələnərək axşam saat 7-dək davam etmişdi. S.Torosyan qırğınların İrəvan şəhərində azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirilməsinin əsl səbəbini ört-basdır edərək yazırdı ki, guya qırğınlara səbəb üç versiya vardır: Birinci versiyaya görə, guya şəhərin türklər yaşayan hissəsində iki türk arasında dalaşma olmuş, bir türk digərini öldürmüş və bu da iğtişaşların başlaması üçün qığılcım olmuşdur. Digər versiyaya görə, atışma silahlı türklərlə dəmiryol vağzalında keşik çəkən erməni dəstəsi arasında baş verən toqquşmadan sonra başlamışdı. Üçüncü versiyaya görə isə guya iğtişaşlar bazarda türk satıcı ilə erməni alıcı arasında baş verən toqquşmadan sonra bütün şəhərə yayılmışdı. Göründüyü kimi, S.Torosyan hər üç halda İrəvan şəhərində qırğınların başlanmasında təqsiri türklərin üzərinə atmağa çalışmışdı [3, s.83-84].

"Azərbaycan" qəzeti (rusca) 9 iyul 1919-cu ildə "İrəvan və Qarabağ" məqaləsində isə yazırdı: Azərbaycandakı ermənilərin vəziyyəti ilə İrəvandakı müsəlmanların vəziyyətini müqayisə etmək maraqlı olardı. Ermənilər bizim respublikamızda tam hüquqlu vətəndaşdırlar. Onlar bütün vətəndaş azadlıqlarından istifadə edirlər, parlamentdə və hökumətdə təmsil olunublar, onların övladlarının təhsili üçün dövlət külli miqdarda vəsait xərcləyir, heç kim onlara toxunmur, onlar digər quberniyalarda özlərinə sığınacaq axtarmırlar. İrəvan müsəlmanlarının isə bir hissəsi məhv edilmiş, bir hissəsi səpələnmişlər və özlərinə heç yerdə sığınacaq tapa bilmirlər". Bu məqalə Azərbaycanda yaşayan ermənilərlə Ermənistan Respublikasında yaşayan azərbaycanlıların fərqini əyani şəkildə ifadə edirdi [3, s.89].

1920-ci ildə Ermənistanda sovet hakimiyyəti yaranandan sonra, bu torpaqlarda baş verən qırğınlara görə qonşu dövlətlərə sığınan azərbaycanlılar öz el-obalarına geri qayıtmağa başlamışdılar. Ermənistan idarəçiliyində olan rəhbərlər hər cür, hətta yoluxucu xəstəliklər bəhanələri ilə bunun qarşısını almağa çalışsalar da buna nail ola bilmədilər. 1922-ci ildə Ermənistan hökumətinin müqavimətinə və orada hökm sürən aclıq və səfalətə baxmayaraq, artıq 1922-ci ildə 100 min qaçqın doğma yurdlarına qayıtmışdı. Müsəlmanların yaşamış olduqları kəndlərin çoxunda Türkiyədən gəlmiş erməni ailələri yerləşdirilmiş, qayıdan qaçqınlar ya öz yurdlarını yenidən tərk etməyə məcbur olmuş, ya da ermənilərlə birgə yaşamağa məhkum olmuşlar. Sonralar 80-dən artıq ermənilərlə qarışıq yaşayış məskənləri beləcə yaranmışdı [4, s.83].

Çox təəssüflər olsun ki, millətimiz sonralar həyata keçirilən deportasiya siyasətinin qurbanı oldu və buna günümüzə qədər dünya dövlətləri baş verənlərə göz yumur, mənfur düşmənin hiyləgər siyasətini dəstəkləyirlər. Hal-hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə yaradılan Qərbi Azərbaycan icması bütün bu baş verənləri araşdırmaqla məşğuldur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğal altında olan torpaqlarımızla bağlı çıxışlarında tez-tez qeyd edirdi ki: "Bizim tarixi torpaqlarımız Dağlıq Qarabağ və ətraf bölgələrlə məhdudlaşmır. O qədər də uzaq olmayan tarixə, XIX əsrin statistikasına baxsaq görərik ki, azərbaycanlıların yaşadıqları ərazi çox böyük olmuşdur. İndiki Ermənistan, əslində, Azərbaycanın tarixi torpağıdır. Ona görə, gələcəkdə biz bütün tarixi torpaqlara qayıdacağıq. Bunu gənclər də, uşaqlar da bilsinlər. Biz bu amalla yaşamalıyıq, yaşayırıq, yaşayacağıq. Əminəm ki, biz o qədər də uzaq olmayan gələcəkdə bütün tarixi torpaqlara qayıdacağıq. O zaman tarixi ədalət tam şəkildə bərpa ediləcəkdir" [5]

## *Ədəbiyyat siyahısı:*

1. *Əziz Ələkbərli. Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz.*
*- Bakı: "Elm və təhsil", 2020, 95 s*
*2. Xalq qəzeti, Qərbi Azərbaycanda mədəni irs soyqırımı, https://science.gov.az/az/ news/open/23498 -03.01.2023*
*3. Mustafa N. Y. İrəvan şəhəri. – Bakı: «Red N Line» MMC - 2020, 292 s*
*4. Vaqif Arzumanlı, Nazim Mustafa, Tarixin qara səhifələri, deportasiya soyqırım, qaçqınlıq. – Bakı: "Qartal", 1998, 218 s*
*5. İlham Əliyev. Azərbaycanlılar bütün tarixi torpaqlara qayıtmalıdır" – Qafqazinfo. https://qafqazinfo.az/news/detail/azerbaycanlilar-butun-tarixi-torpaqlara-qayitmalidir-68040- 22.01.2014*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ NEFT SƏNAYESİ

**Aygün Həsənova**
*AMEA*-nın *A.A. Bakıxanov adına Tarix İnstitutu, dissertant*
*aygun.qasimova.88@mail.ru*

***Açar sözlər*: *neft, müqavilə, ticarət, sənaye, iqtisadiyyat***

Azərbaycan Xalq Cümhuriyyəti dövründə neft sənayesi iqtisadiyyatın əsas sahəsi idi. Çünki neft xəzinənin əsas gəlir mənbəyini təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadiyyatı bütünlüklə neftin ixracından asılı idi. Azərbaycan Milli Şurasının 1918-ci il noyabrın 20-də keçirilən ikinci iclasında (birinci iclas 16 noyabr) Azərbaycanın ali qanunverici orqanının yaradılması haqqında qanun qəbul edildi. Bu qanuna əsasən təkpalatalı parlament 120 nəfərdən ibarət olmalı idi. Parlamentdə Bakı neft sənayeçiləri şurası və Ticarət-sənaye ittifaqına 2 nəfər yer ayrılmışdı. Neft sənayesinin iqtisadiyyatda əsas yer tutduğunu anlayan parlament və hökümət vaxtaşırı neft hasilatı və emalının vəziyyətini təhlil edir, dünya neft bazarını öyrənirdi. Bu dövrdə xəzinənin əsas gəlir mənbəyi olan neft sənayesinin vəziyyəti qənaətbəxş deyildi. 1918-ci il oktyabrın 5-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti neft sənayesinin milliləşdirilməsinin ləğv edilməsi haqqında qərar qəbul etdi. Beş bənddən ibarət olan bu qərara əsasən, daşnak Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin neft sənayesinin və ticarət donanmasının milliləşdirilməsi haqqında verdiyi bütün dekret və sərəncamlar ləğv olundu. Həmin qərarın 4-cü maddəsində deyilirdi: bütün neft ehtiyatları hökümətin ayrıca qərarına qədər onun sərəncamında qalır və sahibkarların mühafizəsinə verilir. Bununlada mədənlər, zavodlar, gəmilər, onların idarə olunması əvvəlki sahiblərinə verilmişdi. Ticarət Nazirliyinin icazəsi olmadan neftin ölkədən çıxarılması qadağan olunmuşdur [6, səh.19]. Beləliklə, Cümhuriyyət hökuməti Azərbaycan xalqının sərvətini özünə qaytardı. Neft sənayesinin milliləşdirilməsinin Fətəli xan Xoyski höküməti tərəfindən ləğvi təqdir olunsa da, bu sahənin işinə sərt nəzarət qərarı razılıqla qarşılanmadı.

AXC 1918-1920-ci illərdə mövcud olduğu qısa zaman ərzində Azərbaycan iqtisadiyyatının bərpası yönümündə çox iş görüb. 1919-cu ilin yayında hökumət neft ixracı ilə əlaqədar xarici şirkətlərlə ticarət müqavilələri bağladı. Bakı-Culfa dəmiryolunun tikintisinin başa çatdırılması üçün parlament 250 mln manat pul ayırdı. Cümhuriyyət dövründə Azərbaycanda neft sənayesi ağır vəziyyətdən çıxarılmış, dağıdılmış Bakı-Batum neft kəməri bərpa olunmuşdur. Bakı-Batum neft kəmərinin bərpasından, Bakı-Culfa dəmiryol xəttinin tikintisinin sürətləndirilməsindən sonra neftin Avropaya göndərilməsi mümkün oldu. Neftin ixracının artması ölkəmizdə bütün istehsalat sahələrinin inkişafına təkan verdi. Neft ixracını artırmaq məqsədilə 1918-ci il dekabrın 10-da Neft Sənaye-

çiləri Qurultayı Şurası yanında neft və neft məhsullarının satışı üzrə büro yaradıldı [4, səh.125].

AXC dövründə neft sənayesinin öyrənilməsi baxımından "Neftyanoye delo" jurnalı xüsusi əhəmiyyətə malikdir. Jurnal Bakıda ayda iki dəfə rus dilində nəşr olunurdu. Həmçinin jurnal Cümhuriyyətin yaranmasını neft sənayeçiləri üçün yeni mərhələnin başlanğıcı kimi qiymətləndirmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən etibarən neft sənayesini böhrandan çıxarmaq məqsədilə müxtəlif addımlar atmışdır. Azərbaycan parlamenti neft istehsalı və satışını öz nəzarəti altına aldı. Buna misal olaraq 1919-cu ilin əvvəlində AXC-nin neft sənayesinin işinin tənzimlənməsi, inkişafının təmin edilməsi və bu sahə üzərində dövlət nəzarətinin möhkəmləndirilməsi məqsədilə qəbul etdiyi xüsusi qərarı vurğulamaq olar. Həmin qərara əsasən ölkə neftinin yalnız Batumi boru xətti ilə daşınmasına, satılmasına və mübadiləsinə icazə verilirdi. Bu da neftin dağıdılmasının, mənimsənilməsinin qarşısını almaq məqsədi güdürdü.

### *Ədəbiyyat siyahısı:*


1. *Azərbaycan Cümhuriyyəti (1918-1920). - Bakı: "Elm" nəşriyyatı, 1998, 336 səh.*
2. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. - Bakı: "Lider nəşriyyatı", 2004, 440 səh.*
3. *Azərbaycan Demokratik Respublikası (Azərbaycan Hökuməti 1918-1920). - Bakı: 1990, 92 səh.*
4. *Azərbaycan Xalq Cümhuriyyətinin neft siyasəti. Siyavuş Qarayev. Nəqliyyat hüququ. Bakı: 2008, №3, s.125-129*
5. *Əliyev İ. Muradverdiyev A. Azərbaycan nefti dünya siyasətində. - Bakı: "Azərbaycan" nəşriyyatı, 1997, 78 səh.*
6. *İsmayılov İ. Azərbaycan nefti XX əsrdə (hərbi-siyasi baxış). - Bakı: Azərbaycan DNA-nın nəşri, 2007, 66 səh.*
7. *Mirbabayev M. Azərbaycan neftinin qısa tarixi. - Bakı: 2007, 284.*
8. *Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol. - Bakı: "Azərnəşr", 1994, 60 səh.*
9. *Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). - Bakı: "GARİSMA" MMC, 2009, 576 səh.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ – OSMANLI MÜTTƏFİQLİYİ VƏ MÜASİR AZƏRBAYCAN – TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ YERİ

**Rauf Qurbanov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Slavyan ölkələri tarixi kafedrası, doktorant*
*raufqurbanov6@gmail.com*

***Acar sözlər:*** *Cümhuriyyət, müstəqillik, müasir Azərbaycan*

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il 28 mayda "İstiqlaliyyət Bəyanaməsini" qəbul etdikdən sonra 1828-ci il Türkmənçay müqaviləsindən sonra şimali Azərbaycanda ilk dəfə müstəqil bir dövlət yarandı. Bu hadisə dövlətçilik ənənələrimizin yenidən qurulması, formalaşması və inkişafı üçün çox vacib bir amil idi. AXC-nin qarşısında duran ən böyük hədəflərdən biri ordunun təşkil olunması, təlimi və silahla təchiz olunması olmuşdur. Bu dövlət müstəqilliyin qorunması üçün ən vacib şərtlərdən biri idi. Cənubi Qafqazda qurulan digər dövlətlərdən fərqli olaraq Azərbaycan türkləri rus imperiyası dövründə ordudan kənar saxlanırdı. Məhz bu səbəbdən hərbi cəhətdən təlim görmüş əsgər sayı çox az idi. Hələ AXC qurulmadan əvvəl Osmanlı kəşfiyyatının hazırladığı hesabata görə Nargin adasından qaçırılan Osmanlı zabitləri Bakıda təşkil edilən birliklərə təlim verilməsində müstəsna rol oynamışdır [11, səh.708]. Hesabata görə yüksək rütbəli Osmanlı əsgərləri: "Binbaşı Kemal bəy, yüzbaşı Həsən Basri bəy, yüzbaşı Qalib bəy hərbi məktəb təsis edərək iki yüzə yaxın Bakıdan olan gəncə bu məktəbdə təlim vermişdir. Edilən işlərin nəticəsi olaraq 1917-ci il 1 oktyabr tarixinə qədər Bakıda 4900 nəfərlik süvari qüvvələrinin təşkilinə müvəffəq olmuşdur [3, səh.708].

AXC dövründə paytaxt şəhər olan Gəncənin Bakını ələ keçirən daşnaq və bolşeviklərdən təşkil olunan silahlı dəstələrin təhdidində olması səbəbi ilə hakimiyyət Osmanlı imperiyasından yardım istəmək qərarına gəldi. Həmin iclasın başçısı Nəsib bəy Yusifbəyli ordu qüvvələrimizin sayı etibarı ilə yetərli olmadığını və Osmanlıdan yardım istəmək üçün heyət göndərilməyin vacibliyini qeyd etmişdir. İstanbula göndəriləcək bu heyətin başçısı Nağı bəy Şeyxzamanlı olmuşdur. İstanbulda Tələt paşa, Ənvər paşa və Xəlil bəy Menteşe ilə görüşən Nağı Bəy Şeyxzamanlı Osmanlıdan yardım istəmişdir [6, səh.58]. Bu görüşdən sonra Ənvər paşanın göstərişi ilə Nuru paşanın başçılığında olan Qafqaz İslam ordusunu Azərbaycana getməsi haqqında təlimat vermişdir. Aprelin əvvəlində yola çıxan Nuru paşa 25 may tarixində Gəncəyə çatmış və xalq tərəfində təntənə ilə qarşılanmışdır. Burada qərərgah qurmuş və könüllülərdən ibarət ordu təşkil etməyə başlamışdır. 4 iyun 1918-ci ildə AXC və Osmanlı arasında Batumidə müqavilə imzalandı. Azərbaycan tərəfindən M.Ə.Rəsulzadə və Xarici İşlər naziri M. Hacınski, Osmanlı tərəfdindən isə Şərq Orduları komandiri Vehip pa-

şa imzalamışdır. Bu müqavilənin 4-cü maddəsinə əsasən ölkədə sülah və təhlükəsizliyin təmin edilməsi üçün Osmanlıdan hərbi yardim tələb edə bilərdi. Bu müqavilədən sonra M.Ə. Rəsulzadə və M. Hacınski hərbi yardim üçün Osmanlıya müracət etdi [4, səh.33]. V Qafqaz tüməni 8-9 İyun tarixində iki qrup halında Gəncəyə göndərildi [10, səh.26]. Hazırlıqdan başa çatdıqdan sonra Qafqaz İslam ordusu sırası ilə 20 iyun Göyçayı, 6 iyulda Ağsunu, 16-17 iyulda Kürdəmiri, 20 iyulda Şamaxını azad etdilər. 15 sentyabrda Alminya və rusların bütün təzyiqlərinə baxmayaraq Bakı işğaldan azad edildi. Ancaq əfsuslar olsunki 1918-ci il 30 oktaybrda imzalanan Mundros müqaviləsinin X maddəsinə əsasən, Qafqaz və Azərbaycanda olan Osmanlı orduları hərbdən əvvəlki hüdudlarına geri qayıtması göstərilmişdir. Osmanlı ordusu 1918-ci il 16 noyabrda Bakını, 29 noyabrda Şimali Qafqazı, 18 Yanvarda Batumini təxliyyə etdi. 1919-cu il yanvar ayının sonları etibarı ilə Osmanlı ordusu tamamilə Şimali və Cənubi Qafqazı tərk etdi [7, səh.465]. Bütün bu dəstək və yardımlar Osmanlının 28 apreldə müstəqilliyinə son qoyulan AXC-nin fəaliyyətində nə qədər mühüm işlər gördüyünün sübutudur.

AXC-nin müstəqilliyi 1918-ci il 28 aprelde beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması nəticəsində idarəetmə RSFSR tərəfindən aradan qaldırıldı. 1922-ci ildən etibarən isə ZSFSR-in tərkibində SSRİ qurulmasında iştirak etdi [12]. Türkiyə ilə əlaqələrimiz bu zamandan etibarən bir çox hallarda SSRİ mərkəzi olan Moksva vasitəsi ilə qurulurdu.

1991-ci il 18 oktyabrda tarixi sənəd olan Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi [13]. Bu aktda Azərbaycannın 1918-ci il 28 mayda qurulan AXC-nin xələfi olduğu qeyd edildi. Məhz bu hadisə Türkiyənin Azərbaycanı beynəlxalq aləmdə tanımasına daha da böyük şərait yaratdı. Çünki, Türkiyə həmin dövrdə Baltik ölkələrinin müstəqilliyini tanıdıqdan sonra ölkədaxilində və hökümətdə olan milliyətçi kütlə Azərbaycanın hərkəsdən öncə tanınmasının vacibliyini əks etdirən sözlər deyirdi. Azərbaycan ilk dəfə rəsmi olaraq 1 noyabrda Türkiyəyə tanınma haqqında müraciət etdi. 1991-ci il 9 noyabrda Türkiyə Respublikas Nazirlər Şurası tərəfindən Azərbaycanın müstəqilliyini tanındı. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət oldu.

Xalq və hökümət üzvləri Heydər Əliyevi Bakıya dəvət etdikdən sonra 1993-cü ildə 15 iyunda Ali Sovetin Sədri seçildi,24 iyunda prezident səlahiyyətlərini yerinə yetirməyə başladı. 1993-cü ilin sentyabr ayında Heydər Əliyev Moskvaya ziyatəri zamanı Moksvada olan Türkiyə Baş Naziri Tansu Çiller ilə Türkiyə səfirliyində görüşmüşdür [2, səh.122]. Oktyabrın 3-də ümümxalq səsverməsi ilə Heydər Əliyev prezident seçildi. Heydər Əliyev prezident seçildikdən sonra xarici siyasətdə Tükiyə ilə əlaqələrə xüsusi önəm verməyə başladı. Bundan sonra Heydər Əliyev 8-10 fevral tarixlərində Türkiyəyə rəsmi səfərdə olmuşdur. Türkiyə ilə münasibətlərə böyük dəyər verən Heydər Əliyev görüşdən əvvəl jurnalistlərə verdiyi açıqlamada Türkiyəni “Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkə” olaraq adlandırmışdır [9, səh.36]. Ziyarət zamanı tərəflər arasında dostluq və iş birliyi, qarşılıqlı sərmayə, elmi və mədəni münasi-

bətlərə dair sazişdə daxil olmaqla 17 sənəd imzalanmışdır [1, səh.676]. Bundan əlavə Heydər Əliyev Türkiyədən ATƏT və Minsk qrupundakı roluna davam etməsi və hərbi dəstək yerinə Azərbaycan beynəlxalq ordusuna təlim verilməsini istəmişdir [5, səh.21]. Heydər Əliyev "Bir millət iki dövlət" ifadəsini də ilk dəfə bu görüşdə Ankarada işlətmişdir [8, səh.39].

Ümumilli lider Heydər Əliyevin prezindtliyi dövründə Türkiyə ilə olan münasibətlər yüksələn xətt üzrə inkişaf etmişdir. İlham Əliyevin prezidentliyi dövründə də Türkiyə ilə olan dostluq və qardaşlıq münasibətləri xüsusi ilə II Qarabağ müharibəsi dövründə zirvə həddinə çatmışdır.

***Ədəbiyyat siyahısı:***


*1. Şimşir B, Azerbaycan. – İstanbul: 2020, s.676*

*2. Vəliyev C., Azerbaycan-Türkiye strateji ortaklığı İstanbul: 2020, s.122*

*3. Kafkasya Ahvalina Dair Rapor s.708*

*4.. Rəsulzadə M.Ə., Azərbaycan Cümhuriyyəti. - Bakı: 1990, s.33*

*5. Milliyet Gazetesi 12.02.1994, s.21*

*6. Nağı bəy Şeyxzamanlının xatirələri və İstiqlaliyyət fədailəri. – Bakı: 2007, s. 58*

*7. Karakose Nejdet.Mondros Mutarekesinden sonra kafkasyadaki gelismeler ve Nuri paşanin (Killigil) Kafkasyadaki Faaliyetleri. Atatürk araştirma merkezi. – Ankara: 2015, s.465*

*8. Prezident kitabxanası, Ankarada "ÇANKAYA" Köşkündə Azərbaycan Prezidentinin şərəfinə ziyafətdənitqi, səh .39*

*9. Prezident kitabxanası, Türkiyə Cümhuriyyəti Prezidentinin İqamətgahında "ÇANKAYA" Köşkündə rəsmi qarşıkanma mərasinimində nitqi, 8 fevral 1994-cü il s.36*

*10. Rüştü Türker Birinci Dünya Harbinde Bakü yollarında V Kafkas Piyade Tümeni Genelkurmay Basımevi. – Ankara: 2006, 26-27*

*11. Selda Kılıç, Kafkasyaya dair (1916-1917) Osmanlı, Kafkasya Ahvaline Dair rapor, Karargahı- Üumumi İstihbarat Şubesi, Dersaadet Matbaayı Askeriye, 1916, s.18. istihbaratının yayımladığı rapor, TAD C. 34/ s.58, 2015 s.687-714, s.708*


***İnternet resursları:***


*12. https://az.wikipedia.org/wiki/Azərbaycan_Xalq_Cümhuriyyəti*

*13. https://e-qanun.az/framework/6693, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı Bakı şəhəri, 18 oktyabr 1991- ci il. № 222-XII.*

# MİRZƏ BALA MƏMMƏDZADƏNİN ƏSƏRLƏRİ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ ƏSAS MƏNBƏLƏRDƏN BİRİ KİMİ

**Səidə Mehrəliyeva**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası, doktorant*
*nabiyeva.22@mail.ru*

***Açar sözlər*: *soyqırım, istiqlaliyyət, türk- müsəlman, Bakı, milli-azadlıq***

Azərbaycan milli azadlıq hərəkatının görkəmli nümayəndəsi, istiqlal mücahidi Mirzə Bala Məmmədzadənin qələmə aldığı əsərlər, dövri mətbuatda dərc etdirdiyi məqalələr Azərbaycan Xalq Cümhuriyyətinin tarixini, dövrün ictimai-siyasi, mədəni və sosial həyatını öyrənmək üçün mühüm mənbələrdəndir. O, özünün "Milli Azərbaycan hərəkatı" əsərində qeyd edir ki, Azərbaycan Xalq Cümhuriyyətinin adı bolşeviklərin, ermənilərin və qeyri-etnik ünsürlərin bütün əngəllərinə baxmayaraq, müsəlman Şərqi və Türk dünyasının tarixinə qızıl hərflərlə yazılmışdır [1, s.12]. O, Azərbaycan Milli Demokratik Cümhuriyyətin elan olunması barəsində qeyd edir ki, milli dövlət mədəni yaradıcılığın ən yüksək şəklidir. Milli dövlət xaricində bir millət olaraq yaşamağımıza imkan yoxdur. Ona görə də, bugün xalqın tək qayəsi Milli Azərbaycan dövlətini yaratmaqdır. Mirzə Bala Məmmədzadə adı qeyd olunan əsərində yazır ki, əgər bir millət olaraq, azərbaycanlı olaraq azad və müstəqil yaşamaq istəyiriksə əlimizdən gələn səyləri əsirgəməməliyik [5, s.22]. M.B.Məmmədzadəyə görə, 28 may 1918-ci il milli ideal sahibi, fədakar bir millətin yorulmaq bilməyən mübarizəsinin parlaq nəticəsidir. O qeyd edir ki, müstəqillik elanı millətimizin ortaq iradə, milli düçüncə və milli anlayışının bir ifadəsidir.

Mirzə Bala Məmmədzadənin Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı obyektiv olaraq qələmə aldığı əsərlər bugün tarixçilərə Cumhuriyyət ilə bağlı tədqiqatlarında mühüm istiqamət vermişdir. O, həyatının bütün dönəmini Azərbaycanla bağlı araşdırmalara həsr etmişdir. Partiya anlayışından uzaq Azərbaycan türkü və Azərbaycan kimliyi ilə Azərbaycan siyasi və sosial düşüncə tarixinin inkişafına səbəb olmuşdur. Mirzə Bala Məmmədzadə "Milli mədəni inqilab" məqaləsində yazır: "Azərbaycan Cümhuriyyəti Müsəlman Şərqində və Türk aləmində ilk Cümhuriyyət olması ilə bərabər həm də, Qərbi Avropa tərzində demokratik əsaslar üzərində qurulmuşdur. Bu məqalədə qeyd olunur ki, Azərbaycan dili rəsmi dövlət dili olmuş, Azərbaycan məktəblərində dərslər ana dilində aparılmış, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan mədəniyyəti əsas dərslər halına gətirilmişdir. O, 1952-ci ildə Ankarada nəşr olunan "Azərbaycan Parlamenti" məqaləsində milli kadrlar yetişdirmək üçün kursların açıldığını, Türkiyədən müəllimlərin dəvət olunduğunu bildirir [2, s.65]. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919-cu ildə qəbul etdiyi qanun

ilə Bakıda Dövlət Universiteti qurulmuşdur. 100-ə yaxın tələbənin təhsil almaq üçün Avropa ölkələrinə göndərilməsinə qərar verildiyi bildirilir. M.B.Məmmədzadə Azərbaycan Parlamentinin açılışından sonra bir müddət orada stenoqraf olaraq fəaliyyətdə olduğunu qeyd edir.

M.B.Məmmədzadənin digər bir "Azərbaycanın istiqlal günü" adında məqaləsi Azərbaycan Xalq Cümhuriyyəti tarixini öyrənmək üçün əhəmiyyətlidir. O yazır ki, milli müstəqilliyinə, milli dövlətinə sahib olmayan bir millətin milli varlığı qoruması imkansızdır. O, 1929-cu ildə Odlar Yurdu jurnalında dərc olunmuş "İstiqlal mücadiləsi" məqaləsində Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal bəyannaməsinin müddəalarını ətraflı şəkildə şərh etmişdir [3, s.7]. Mirzə Bala Məmmədzadə yazır ki, Bakının bolşeviklərin işğalında olması səbəbilə Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Gəncə olmuşdur. Azərbaycan Cümhuriyyətinin ilk diplomatik təşəbbüsünün Osmanlı imperatorluğu ilə olduğunu qeyd edir.

Mirzə Bala Məmmədzadə "Azərbaycan və bolşeviklər" adlı məqaləsində Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğramasından sonra bolşeviklərin "Sovetləşdirmə" siyasətini tətbiq etdiklərini qeyd edir. Bu siyasətin ilk mərhələsinin Azərbaycan hökümətinin lider və bürokratlarını aradan qaldırmaq olduğunu bildirir. Sonrakı hədəf isə milli ziyalılar və milli mətbuat idi.

Mirzə Bala Məmmədzadənin bir çox əsərlərində eləcə də "Bakı uğrunda mübarizə" əsərində də 31 Mart qırğınına dəfələrlə toxunmuş, bu tarixi cinayətin əsl mahiyyətini açıb göstərmiş, bolşeviklərin fitvası ilə ermənilərin törətdiyi vəhşilikləri lənətləmişlər. Mirzə Bala Məmmədzadənin yazdığı kitablar, türk dilində nəşr olunmuş çoxsaylı məqalələr bügün tarixçilərə Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə əlaqədar bir çox məsələləri dərindən araşdırmağa imkan verir.

### *Ədəbiyyat siyahısı:*

*1.Məmmədzadə M.B. "Milli Azərbaycan hərəkatı". -Bakı: "Nicat", 1992, 246 s.*
*2.Məmmədzadə M.B. "Azərbaycan Parlamenti". İstanbul: "Odlar yurdu", 1930, 427 s.*
*3.Məmmədzadə M.B. "İstiqlal mücadiləsi". İstanbul, "Odlar yurdu", 1929, 122 s.*
*4.Məmmədzadə M.B. "28 maya doğru". Münih, Birləşmiş Qafqaz jurnalı, 1953, N5 (22)*
*5.Məmmədzadə M.B. "Azərbaycan çağırır". - Bakı: "Açıq söz" qəzeti, s.21-22.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İRSİNİN ÖYRƏNİLMƏSİNDƏ MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ƏSƏRLƏRİNİN ROLU

**Sürəyya Allahverdiyeva**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, doktorant*
*allahverdiyevasurayya@mail.ru*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, milli istiqlal, Qafqaz, sülh, ərazi bütövlüyü.*

Yüz il bundan əvvəl yaranmış AXC-nin xələfi məhz bu günün müasir Azərbaycan Respublikasıdır. Biz bu günkü istiqlaliyyətimizi, sərhədlərimizi, himnimizi, üç rəngli bayrağımızı, parlamentimizi və bir sıra bu və ya digər dövlətçilik ənənələrimizi yüz il bundan əvvəl qazanmışıq və bu gün də layiqincə yaşatmağa çalışırıq. Təəssüf hissi ilə qeyd etməliyik ki, bu günkü bir sıra problemlərimizin, xüsusən də ərazi problemlərimizin də başlanğıcı elə bu dövrdən qoyulmuşdur. Bu qədər qarışıq bir coğrafiyada, qarışıq siyasi dövrdə, qısa müddətə yüz il mövcudluğunu unutdurmayacaq siyasi ənənələr qoymaq heç də təsadüfi hal deyildir. Bu şərəfli yolu ışıqlandıracaq mənbə əhəmiyyətli əsərlər isə təbii ki, ilk növbədə məhz AXC-nin qurucularından olan M.Ə.Rəsulzadənin əvəzsiz əsərləri, məqalələri və müxtəlif dövrlərdə müxtəlif platformalarda etmiş olduğu çıxışlarıdır.

Görkəmli ictimai-siyasi xadimin milli istiqlal mübarizəsinə dair düşüncələrini daha yaxşı başa düşmək üçün 1907-ci ildə “Nagəhan bəla”, 1908-ci ildə isə “Qaranlıqda işıqlar”, kimi pyesləri mühüm əhəmiyyət kəsb edir. “Nagəhan bəla” əsəri [6] “Təkamül” qəzetinin 1907-ci il 3 fevral, 7-ci sayında çap edilmişdir. Bu əsərdə xalqın oyanışından, öz haqqını tələb etməsindən, tətil etmək istəyindən bəhs edilir. "Qaranlıqda işıqlar" əsərində isə M.Ə.Rəsulzadə Rusiyanın "parçala və hökm sür" siyasətini tənqid edirdi. 1908-ci il dekabrın 5-də bu pyes tamaşaya da qoyulmuşdur. Pyesin əsas xəttini milli oyanış və istiqlal hərəkatının təbliği təşkil edir [7, s.183].

Tariximizdə qurulmuş ilk cümhuriyyətə münasibətdə M.Ə.Rəsulzadənin Azərbaycanda nəşr edilən əsərlərində qeyd etdiyi fikirlərə diqqət edək. “Rəsulzadə cənablarilə müsahibə” adlı məqalədə M.Ə.Rəsulzadə Azərbaycanı Qafqazda qurulan müstəqil hökumətlərdən biri adlandırmaqla yanaşı Qafqazda yaranan müstəqil dövlətlər arasındakı problemlərin sülh yolu ilə həll edilməsindən tərəf olduğunu qeyd edirdi [1; 2, s.72]. Onun 1919-cu il 28 may tarixində “İstiqlal” qəzetində dərc etdirdiyi “Azərbaycan Cümhuriyyəti” əsəri kitab halında 1923-cü ildə İstanbulda çap edilsə də "Türk Ədəmi-Mərkəziyyət firqəsi” və "Müsavat”ın orqanı olan “İstiqlal” qəzetində də çap edilmişdir [2, s.321-345; 3]. Fərq ondadır ki, əsərin daha sonra İstanbulda dərc edilən variantında

hadisələr Cümhuriyyətin süqutuna qədər izlənilir və 11 bölmədən ibarətdir. M.Ə.Rəsulzadənin AXC-nin bir illiyi ilə əlaqədar nəşr olunmuş bu əsərinin ilk bölməsində əvvəlcə Azərbaycan adının yalnız Təbriz və ətrafına şamil edilməsinin yanlış olması qeyd edilir. Görkəmli mütəfəkkirin də izah verdiyi kimi Azərbaycan türklərinin yaşadığı ərazi yalnız Cənubi Azərbaycanla məhdudlaşmırdı və Şimali Azərbaycanı da əhatə edirdi. Arazın hər iki tərəfində sakin olan xalqın ortaq bir dili, yazısı, ədəbiyyatı, adət-ənənələri və tarixi vardır. Belə olan halda necə ola bilər ki, Azərbaycan adı yalnız Cənuba aid edilsin. M.Ə.Rəsulzadə fikirlərini əsaslandırmaq üçün tarixə ekskursiya edirdi. M.Ə.Rəsulzadə Azərbaycan ərazisini Xəzər yurdu, Turan köçərilərinin oturaq yeri, Səlcuqların qəti surətdə türk məmləkəti qıldıqları ərazi kimi təqdim edir və yazır ki, Azərbaycan ərazisini əsrlərdən bəri idarə edənlər əksərən türk idi. O, Azərbaycan Atabəylərini, Qaraqoyunlu və Ağqoyunlu türkmən bəylərindən Uzun Həsən və Qara Yusifi örnək gətirir. Hətta rus işğalına məruz qalan Dərbənd, Quba, Bakı, Şəki, Şirvan, Qarabağ, Gəncə, İrəvan və Naxçıvan xanlıqlarını da Azərbaycanlı türk xanları adlandırır [4, s. 84-85].

“Azərbaycan Cümhuriyyəti” əsərinin son – 7-ci hissəsi Azərbaycanın strateji əhəmiyyətinə dair M.Ə.Rəsulzadənin fikirlərini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Belə ki, o, Azərbaycan xalqını tərəqqipərvər bir xalq, Azərbaycan Cümhuriyyətini isə Qafqazın digər müstəqil respublikalarından daha “müstəid həyat bir məmləkət” adlandırır.

M.Ə.Rəsulzadənin əsərlərində istiqlalımızın ən mühüm şərti olan ərazi bütövlüyümüzün, Azərbaycan ərazisində vahid idarəçiliyin təmini də diqqət mərkəzində saxlanılır. Bu baxımdan “Ərazi məsələsindəki müvəffəqiyyətimiz” adlı məqaləsinə [2, s.399-401; 5] diqqət yetirə bilərik. Bu əsərdə Cümhuriyyətin elanından sonra Azərbaycanın mərhələli şəkildə düşməndən təmizlənməsi barədə məlumat verilir. Xüsusilə də Lənkəranın düşməndən təmizlənməsi, Qarabağ ermənilərinin Azərbaycan hakimiyyətinə təslim olmaları, Naxçıvan, Şərur və Dərələyəz qəzalarını haqsız olaraq özünə tabe etməyə çalışan erməni əsgərlərini dövlətin hüdudlarından qovub çıxartmaları məqalədə qeyd olunur [24, s.399; 51]. M.Ə.Rəsulzadə 1918-ci il 28 may tarixindən keçən 9 ay ərzində Qarabağ, Lənkəran, Borçalı, Naxçıvan, Şərur, Dərələyəz və Sürməli elləri kimi vətənimizin ayrılmaz parçaları üzərindən düşmən əllərinin kəsilməsi, qaranlıq vəziyyətlərinə aydınlıq gətirilməsi vurğulanır. Ümumiyyətlə, Zəngəzur və Borçalı məsələsinin dərhal həllini labüd hesab edən M.Ə.Rəsulzadə yazır ki, ərazi məsələsi ilə yanaşı Azərbaycanın hüdudlarının təyin və təmin edilməsi məsələsi də həll edilməlidir. Bu məsələnin həlli üçün ən böyük təhdid Şimaldakı qüvvə, yəni Rusiya idi. Bu təhdidə qarşı durmağın yolu daxili əngəllərin aradan qaldırılmasından, ərazi bütövlüyünün təmin edilməsindən keçirdi. Azərbaycanın istiqlalı uğrunda mübarizədə M.Ə.Rəsulzadə istiqlal mücahidlərinin başlıca hədəflərinin istər Borçalıda, istər Zəngəzurda, istərsə də Naxçıvan və Qarabağda Azərbaycanın ərazi bütövlüyünün təmin edilməli olduğunu əsərlərində təkrar-təkrar vurğulayır.

Beləliklə M.Ə.Rəsulzadə siyasi fəaliyyəti və kimliyi ilə bərabər yazdığı əsərlərdə hadisələri birbaşa verdiyi şərhlər ilə oxuculara təqdim etmişdir ki, sözü gedən əsərlər bu gün də tarixşünaslığımız baxımından çox vacib mənbələr hesab edilirlər.

***Ədəbiyyat siyahısı:***

*1. Rəsulzadə cənablarilə müsahibə. "Azərbaycan", 13 təşrini-sani (noyabr) 1918, №38*
*2. Rəsulzadə, M.Ə. Əsərləri: [5 clddə]. M.Ə.Rəsulzadə. – Bakı: Qanun Nəşriyyatı, – c. 5. – 2014, 564 s.*
*3. Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti. "İstiqlal", 28 may 1919, №1*
*4. Rəsulzadə, M.Ə. Bakı və Azərbaycan tarixinə dair əsərlər (1918-1919). M.Ə.Rəsulzadə. – Bakı: Qanun Nəşriyyatı, – 2013. – 160 s.*
*5. Rəsulzadə, M.Ə. Ərazi məsələsindəki müvəffəqiyyətimiz. "Azərbaycan", 28 ağustos (avqust) 1919, №262*
*6. Rəsulzadə, M.Ə. Nagəhan bəla Gizlədilmiş ədəbiyyatımızdan nümunələr //Ədəbiyyat qəzeti, 1992, 10 iyul, s. 3*
*7. Yaqublu, N.Q. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. N.Q.Yaqublu. – Bakı: Kitab klubu, – 2013. – 503 s.*

# CEYHUN HACIBƏYLİNİN TARİXİMİZDƏ YERİ VƏ ROLU

**Səbinə Alıyeva**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, doktorant*
*sabinalyeva@mail.ru*

***Açar sözlər:*** *AXC, mətbuat, mühacirət, Ceyhun Hacıbəyli*

Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli həm Azərbaycan, həm də Qərbi Avropada tanınmış ictimai-siyasi xadim, ədib, jurnalist olmuşdu. Onun həyat və yaradıcılığı 2 dövrə bölə bilərik. Birinci dövr mühacirətə qədər olan dövr, yəni 1919-cu ilə qədər, ikinci dövr isə mühacirətdən sonrakı dövr, yəni 1919-cu ildən ölümünə qədər olan dövrdür. O, 1891-ci il fevral ayının 3-də Qarabağın incisi Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini Şuşada tanınmış jurnalist və incəsənət xadimi olan Haşımbəy Vəzirovun müdir olduğu ikisinifli rus-tatar məktəbində, orta təhsilini isə Bakı məktəbində almışdı. Orta təhsilini bitirdikdən sonra doğma qardaşı, tanınmış bəstəkar Üzeyir Hacıbəyovun və Əli bəy Hüseynzadənin müdiri olduqları “Səadət” məktəbində müəllimlik fəaliyyətinə başlamışdı. İlk dəfə 1907-ci ildə “Proqress” qəzetində hekayələri dərc olunmuşdu. 1908-ci ildə ilk dəfə H.Z.Tağıyevin teatrında tamaşaya qoyulacaq olan “Leyli və Məcnun” operasında İbn-Səlam və Nofəl rolunu oynamışdı. Sonralar C.Hacıbəyli operanın yaranması və tamaşası ilə bağlı Fransa mətbuatında çıxış edərək, Qərbi Avropa xalqlarını “Leyli və Məcnun” operası ilə bağlı məlumatlandırmışdı [1, səh. 43].

1908-ci il xeyriyyəçi Murtaza Muxtarovun maddi vəsaiti ilə Peterburq Universitetinin hüquq fakültəsində ali təhsil almağa başlamışdı. 1909-cu ildə ali təhsilini Parisə gedərək Sorbonna Univeristetində davam etdirmişdi. Təhsil aldığı müddətdə bir neçə məqalələri Bakıda “Baku” və “Kaspi” qəzetlərində rus dilində çap olunmuşdu. Məqalələrində müsəlmanların həyat tərzi haqqında olan mövzular daha çox oxucu tərəfindən rəğbətlə qarşılanırdı. Belə məqalələrindən biri “Baku” qəzetində çap olunan “Müsəlmanlar və incəsənət” adlı məqaləsində həmin dövr üçün aktual olan məsələrə toxunmuşdu [1, səh.43]. C.Hacıbəyli 1916-cı ildə Parisdə təhsilini başa vurub vətənə geri qayıtdıqdan sonra, “İttihad” və “Müsəlmanlıq” qəzetlərində redaktor olmuşdu.

1918-ci il may ayının 28-də Müsəlman Şərqində ilk demokratik respublika Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. AXC-nin rəsmi mətbu orqanı olan “Azərbaycan” qəzetinin ilk nömrəsi 1918-ci il sentyabr ayının 15-də Gəncədə Yelizavetpol qubernatorunun mətbəəsində çap olunur. Qəzetin nəşr olunmasında, ərsəyə gəlməsində C.Hacıbəylinin rolu danılmazdır. Cümhuriyyət qurucularından olan C.Hacıbəyli AXC-nin rəsmi orqanı “Azərbaycan” qəzetinin Azərbaycan bölməsinə Paris sülh konfransına gedənədək baş

redaktoru olmuşdu. Rus dili bölməsinin isə baş redaktoru Şəfi bəy Rüstəmbəyli olmuşdu.

Hökümət Gəncədən Bakıya köçürüldükdən sonra oktyabr ayından qəzet artıq həftədə 2 dəfə deyil, siyasi, ictimai-ədəbi qəzet kimi hər gün həm Azərbaycan, həm də rus dilində nəşr olunmağa başlandı. Bakının azad olunması ilə əlaqədar C.Hacıbəyli "Azərbaycan" qəzetində C.Dağıtani imzası ilə "Tarixi gün" adlı məqaləsini dərc etdirir [6]. Sonuncu dəfə 1919-cu il yanvar ayının 15-də "Azərbaycan" qəzetinin 88-ci nömrəsi C.Hacıbəylinin baş redaktorluğu ilə çap olunur. Bu hadisə onun mühacirət həyatından əvvəl Azərbaycandakı sonuncu fəaliyyəti idi.

Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyini Avropada tanıtmaq üçün 1919-cu il yanvar ayında Məhəmmədhəsən Hacınski, Mir Yaqub Mir Mehdiyev, Əkbər Ağa Şeyxülislamov, Əhməd bəy Ağayev, Ceyhun Hacıbəyli, Məhəmməd Məhərrəmovdan ibarət nümayəndə heyəti Versal sülh konfransında iştirak etmək üçün Parisə getdilər.

Bunun üçün də C.Hacıbəyli qəzetin redaktorluğundan ayrılmağı ilə bağlı xəbəri oxucularına "Möhtərəm qarelərə" adlı yazısı ilə bildirmişdi. "Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetimizin müdiri sifəti ilə ifadə etməklə məşğul ikən, vətən övladının xahiş və əmrinə müti olaraq cahan sülh konfransına göndərməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü" [2, səh. 16].

Versal sülh konfransına gedən Azərbaycan nümayəndə heyəti Azərbaycan Xalq Cümhuriyyətini Avropaya tanıtmaq üçün qısa bir vaxt ərzində 3 kitab və 12 bülleten nəşr etdirmişdi. C.Hacıbəylin özünün "Birinci müsəlman Respulikası –Azərbaycan" adlı iri həcmli məqaləsini 1919-cu ilin sonunda fransızca nəşr edilən "Müsəlman aləmi" ("Revyü dyu Mond Myuzulman") jurnalında çap etdirdi [4]. Həmin ildə 1918-ci ildə Bakıda, Şamaxıda, Qubada və digər ərazilərdə baş vermiş qırğınlar haqqında kəskinifşaların olduğu məqaləsini çap etdirmişdi [1, səh. 44].

Parisə getmiş nümayəndə heyətimizin səyləri nəticəsində 1920-ci il yanvar ayının 11-də AXC de-fakto olaraq dünya dövlətləri tərəfindən tanındı. Lakin xalqımızın bu sevinci uzun sürmədi. 1920-ci il aprel ayının 27-də Azərbaycan Xalq Cümhuriyyəti Rusiya bolşevikləri tərəfindən işğal edildi. Bu hadisədən sonra digər Cümhuriyyət qurucuları kimi C.Hacıbəylinin də mühacirət həyatı başladı. O, heç Paris sülh konfransından sonra vətənə dönə bilməmişdi. C.Hacıbəyli bütün həyatı boyu hər zaman istər vətəndə, istərsə də mühacirətdəki illərində Azərbaycanın müstəqilliyi üçün əlindən gəlini etməyə davam etmişdi. O, 1962-ci il oktyabr ayının 22-də Parisdə dünyasını dəyişmiş, orada Sen – Klu qəbirstanlığında da dəfn edilmişdi.

**Ədəbiyyat siyahısı:**

*1. Azərbaycan Demokratik Respulikası: Azərbaycan höküməti (1918-1920). – Bakı: Gənclik – Gənclik mərkəzi, 1990, 96 səh*
*2. C.Hacıbəyli. İlk müsəlman Respublikası - Azərbaycan. Tərcümə edən: f.e.n. Ə.Əliyev. https://525.az/news/154719-ilk-muselman-respublikasi-azerbaycan*
*3. Q.Dünyaminqızı. Cümhuriyyət dövrü Azərbaycan mətbuatı (1918-1920). – Bakı: 2005, I hissə, 129 səh*
*4. N.Yaqublu. 130 illiyi yaddan çıxan Ceyhun Hacibəylinin əziz xatirəsinə. https://525.az/news/182159-ona-sonsuz-ehtiram-borcumuz-var-nesiman-yaqublu-yazir*
*5. N.Yaqublu. Bakının qurtuluşu. –Bakı: "Adioğlu" nəşriyyatı, 2008, 256 səh*
*6. R. Həsənli. Böyük vətənpərvərin tariximizdəki parlaq izləri - Ceyhun Hacıbəyli– 130. https://525.az/news/168416-boyuk-vetenperverin-tariximizdeki - parlaq-izleri-ceyhun-hacibeyli-130*

# MÜASİR AZƏRBAYCAN RESPUBLİKASI AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TARİXİ VARİSİDİR (HEYDƏR ƏLİYEV FONDUNUN SƏNƏDLƏRİ ƏSASINDA)

**Qənirə Mirzəxanlı**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası, doktorant*
*gannim3@mail.ru*

***Açar sözlər:*** *Heydər Əliyev, Ümummilli lider, xalq, hüquqi sistem, demokratiya*

Hər bir millətin öz müstəqillik tarixində qurucu-xilaskar missiyasını daşımış dahi insanlar var. Həmin liderlər öz dühaları ilə aid olduqları millətiarxasınca aparıb, ən çətin vəziyyətlərdən çıxarmağı bacarmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dövlətçilik tarixinə əbədiyaşar iz qoymuş dahi insan, müdrik şəxsiyyət kimi düşmüş, müasir Azərbaycan tarixinin bütöv bir epoxasını yaratmağı bacarmışdır. Məqalə ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının firəvanlığı, yüksək rifahı, hüquqi dövlətin yaradılması, ölkənin xaosdan çıxarılması istiqamətində yürütdüyü zəngin siyasəti, fədakar fəaliyyətinin müəyyən hissəsinin araşdırılmasına həsr olunub.

Dəyərli töhvələri ilə əbədiyaşar liderlik statusu qazanan Heydər Əliyevin anlamlı həyat yolu, dərin irsi əsl örnək, məktəb olmuşdur. Öncəki dönəmə diqqət edərkən millətimizin öz ümummilli liderinin başçılığıilə əldə etmiş olduğu əhəmiyyətli, zəngin tarixi uğurların bir daha şahidi oluruq. İntibah və milli özünüdərkin oyanışı ümummilli liderin hakimiyyətə ikinci dəfə qayıdışı ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində dayaqlarını möhkəmləndirmişdir. Azərbaycan qlobal məkanda layiq olduğu yerə Heydər Əliyevin uzaqgörənliyi, dahiliyi, cəsarəti, möhkəm iradəsi, dərin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Milləti, dövləti qarşısında yüksək xidmətlərin nəticəsinə görə bu gün dahi lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi Azərbaycanın hər yerində, nəindi ölkəmizdə, hətta sərhədlərimizdən kənarda böyük minnətdarlıq hissi ilə təntənəli şəkildə qeyd olunur.

Heydər Əliyev keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır. Ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik hələ gənc yaşlarından özünü göstərirdi. Naxçıvanda sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük insan hələ gəncliyindən yüksək vəzifələr tutmuş, çiyinlərində böyük bir ölkənin yükünü daşımışdır.

Heydər Əliyevin birinci hakimiyyəti dövründə ölkəmizin başçısı kimi icra etdiyi işlər xalqın yaddaşında daim qalacaqdır. Ümummilli liderin ölkə idarəçiliyinə gəlişi keçmiş Sovet ittifaqının inkişaf etməmiş respublikalarından biri

olan Azərbaycanda siyasi, iqtisadi, sosial vəziyyəti tamamilə dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı. Əbədiyaşar liderin əzmkarəməyi sayəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük nəaliyyətlər qazanıldı, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi.

Azərbaycanın öndəgələn şəxslərinə, yazıçı, alim, memar, bəstəkar və digər sahələrdə imzası olan görkəmli şəxsiyyətlərinə əzəmətli heykəllər ucaldıldı, şəhərin gözəlliyinə gözəllik qatan neçə-neçə yaraşıqlı binalar tikilmişdir [3, 65].

Heydər Əliyevin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də ölkəmizə rəhbərlik etdiyi dönəmdə milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi prioritet vəzifəyə çevrildi, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsi möhkəmləndi. Bu ideologiya bütün dünyada yaşayan 50 milyondan çox azərbaycanlının siyasi, tarixi, mədəni, mənəvi, hüquqi öhdəliklərini və vəzifələrini ehtiva edən konsepsiyadır, özünü azərbaycanlı hesab edən şəxslərin birliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideoloji xəttin nəticəsi idi ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı. Təsadüfi deyildi ki, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər.

Heydər Əliyev hər zaman «ədaləti ədalətsizliklə bərpa etmək olmaz» devizini əlində bayraq tutaraq dövlət qulluğunun bütün sahələrində qeyri-etik davranışların, xüsusən də rüşvət və korrupsiya hallarının aradan qaldırılmasına var gücü ilə çalışdı və yetkin nəticələrin əldə olunması istiqamətində ciddi addımlar atıldı.

1969-cu ildə Azərbaycan Respublikasının rəhbərliyinə gələn zamandan etibarən, Ulu Öndər Heydər Əliyev Sovetlər dönəmində milli maraqlara, müstəqillik dönəmində isə dövləti maraqlara yorulmadan xidmət etmidir. 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının qəbul edilməsi və orada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindəndir [8, 29-35]. Avtoritar sovetlər birliyi dövründə respublikamızın ali qanununda xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi zəmin yaradılması olduqca cəsarətli addım kimi dəyərləndirilir. Sovet birliyinin milli siyasətinin tələbləri ilə tam bir ziddiyyət təşkil edən bu çətin nüansın öhdəsindən məhz Heydər Əliyev gələ bilmişdir. Ulu Öndərin o dövrdə səsləndirdiyi - "Qoy ədalət zəfər çalsın!" ibarə, xalqın dilində şüara çevrildi.

Ardınca ümummilli lider Sovet imperiyası kimi böyük dövlətin ali vəzifəsinə təyin olunması xalqımızın xilas yolunun başlanğıcı oldu. Əlbəttə ki, dahi liderin Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini təyin

edilməsi mühüm hadisə idi və xalqımız üçün təqdirəlayiq təyinat idi. Heydər Əliyev vəzifə səlahiyyətlərindən istifadə edərək xalqımızın firavan yaşayışı üçün fundamental addımlar atdı, mövcud siyasətin dəyişməsinə töhvələr verdi.

Dahi şəxsiyyət Heydər Əliyevin əsrarəngiz fəaliyyəti sayəsində Azərbaycan keçmiş sovetlər birliyinin qabaqcıl respublikalarından birinə çevrildi. Sonralar baş verən məlum hadisələr, ermənipərəst Mixail Qorbaçovun siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə qarşı həsəd və qısqanclıq hisslərinin baş qaldırması, Azərbaycan əleyhinə çirkin niyyətlərin həyata keçirilməsi Ulu Öndərin vəzifədən uzaqlaşdırılması ilə nəticələndi. Bundan istifadə edən ermənilər ölkəmizə qarşı uydurma ərazi iddiaları irəli sürərək əzəli torpağımız olan Dağlıq Qarabağa, rus hərbi birliklərinin dəstəyi ilə təcavüzə başladı [4, 35]. Əgər o vaxt Heydər Əliyev Azərbaycanda və ya sovet rəhbərliyində olsaydı heç vaxt Dağlıq Qarabağ kimi münaqişə meydana çıxmazdı. Əvəzolunmaz Heydər Əliyev amili, onun gücü, qüdrəti erməni millətçilərini belə təxribatlardan çəkindirirdi.

Heydər Əliyevin dahiliyi, qətiyyəti özünü 20 Yanvar faciəsi yaşanan zaman da göstərdi. Məlumdur ki, Sovet ordusu Sovet İttifaqı rəhbərliyinin göstərişi ilə Bakıya daxil olaraq dəhşətli qətliam törətdi. SSRİ bu vandalizmin tərkib hissəsi olduğu üçün cinayətkarlar axtarılmadı, layiqli cəza verilmədi. Heydər Əliyev xalqının ağır günlərində onun yanında dayandı, etiraz aksiyalarında iştirak etdi. Onun məhz xalqına dəstək olmasına görə ölkəsinə girişinə manələr törədildi. Lakin buna baxmayaraq, ümummilli lider Heydər Əliyev Azərbaycana döndü. Daha sonra yekdilliklə Muxtar Respublikanın Ali Məclisinin sədri seçildi [1, 110].

Muxtar Respublikanın Ali Məclisinin sədri olduğu dövrdə Heydər Əliyev xalqı üçün fədakar fəaliyyətini davam etdirdi. Muxtar Respublikanın adından «sovet sosialist» sözləri çıxarıldı, üç rəngli milli bayrağımız ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olundu, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 yanvar faciəsinə siyasi qiymət verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı, ilk dəfə olaraq sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı. Fəqət bu ərəfədə ölkəmiz yeni qazandığı müstəqilliyini itirmək üzrə idi. Ölkədə vətəndaş müharibəsi tüğyan edirdi. Siyasi sistem çökmüşdü. İdarəsiz vəziyyət yaranmışdı.

Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı. Zavallı xalqımız inanırdı ki, Azərbaycanı bu acınacaqlı siyasi dalandan, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev qurtara bilər. Burada məşhur fransız mütəfəkkiri Volterin "dövlətin xilası üçün bir dahi insan kifayətdir" kəlamı yada düşür. Heydər Əliyev də Tanrının Azərbaycan xalqının taleyinə bəxş etdiyi bir qismət, zamanında millətimiz üçün, dövlətçiliyimiz üçün tarixi xilaskarlıq missiyasını yerinə yetirmək üçün yaratdığı bir fitri istetad, bir təkrarolunmaz şəxsiyyət idi.

Təsadüfi deyildi ki, 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladı-

ğı müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir" [7, 21].

Heydər Əliyev müxtəlif təxribatçı qüvvələrin təhdidlərinə baxmayaraq bütü gücünü ortaya qoyaraq sarsılmaz fəaliyyəti hesabına azad Azərbaycan dövlətini formalaşdırdı və gücləndirdi. Ümummilli lider çox yaxşı anlayırdı ki, bütün bu təxribatlardan, hərc-mərclikdən xilas olmağın tək yolu qanunçuluğun bərpası, hüquqi dövlətin qurulmasıdır. Bu istiqamətdə aparılan köklü işlər nəticəsində xaosa, siyasi təlatümə son qoyuldu. Adıçəkilən yöndə dahi liderin Cinayətkarlıqla mübarizə məqsədli qəbul etdiyi fərmanı islahatların tərkib hissəsi idi [5].

Demokratiyanın əsas göstəricisi olan siyasi partiyaların sərbəst fəaliyyətinin təmin edilməsə, mətbuatda senzuranın aradan qaldırılması, televiziya kanallarının müstəqil fəaliyyət göstərməsi, siyasi plüralizmin formalaşması vətəndaş cəmiyyətinin də inkişafına təkan verdi.

İnsan haqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edilərək respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşuldu, 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyuldu, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edildi, əfv və amnistiya institutları geniş tətbiq edilməyə başlandı. Ölkəmizdə insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olundu, bu sahədə xüsusi Dövlət Proqramı hazırlanaraq həyata keçirilməyə başlandı və İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradıldı [2].

Pentensiar xidmətin təkmilləşdirilməsi ilə bağlı mühüm işlər görüldü, müvafiq sahə DİN nəzdindən ayrılaraq, Ədliyyə Nazirliyinin tabeliyinə verildi. Əlbəttə ki, bu addımlarda məqsəd məhkəmə-hüquq sistemində şəffaflıq, ədalət, hüquq və azadlıqların maksimum səviyyədə qorunması və vətəndaşlara yüksək səviyyəli xidmət göstərilməsi idi [5].

Azərbaycan tarixinin Heydər Əliyev dönəmində ilk dəfə olaraq yerli özünüidarə orqanları formalaşdı və bələdiyyələrə metodoloji yardımın göstərilməsi, eləcə də inzibati nəzarətin həyata keçirilməsi Ədliyyə Nazirliyinə tapşırıldı. Demokratik hüquqi dövlətin təməl daşlarından biri hesab olunan müasir müstəqil məhkəmə hakimiyyətinin bərqərar olması da məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu istiqamətdə 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" qanunun qəbulu və innovativ məhkəmə islahatlarının uğurla implementasiyası bu sahədə də faydalı işlərin başlanğıcı oldu [6, 183]. Dahi öndərin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatı nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək 2000-ci ildən yeni, insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başladı.

Ölkəmiz suverenliyini elan etdiyi vaxtdan Müstəqilliyimizin on il ərzində dahi Heydər Əliyev siyasətin mümüküsüzü bacarmaq sənəti olduğu ilə bağlı məşhur kəlamında söylənildiyi kimi, dəqiq hesablanmış strateji siyasəti sayəsində ölkəmiz naminəmümkünsüz olan hər şeyi bacardı və etdi, suverenliyimizi möhkəmləndirdi, müstəqil dövlətimizdemokratik hüquqi sistem formalaşdırılaraq irəlilədi və gələcək inkişafın strateji hədəflərini səciyyələndirdi.

Ulu öndərin adını daşıyan Heydər Əliyev Fondunun da xidmətləri əvəzolunmazdır. Fond da adını daşıdığı şəxsiyyət kimi xeyirxahlıq, sülh, humanizm kimi ümumbəşəri dəyərlər naminə nəcib fəaliyyəti ilə ölkədə icra olunan çoxvektorlu islahatlara əhəmiyyətli töhfələr verir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməklə xalqımızın Heydər Əliyev dühasına olan sevgisini daha da möhkəmləndirir.

### *Ədəbiyyat siyahısı:*

*1. Ağamirzəyev F. Dönüşdən qurtuluşa. - Bakı: Adiloğlu, 2012,168 s.*
*2. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası: monoqrafiya. - Bakı: Şərq-Qərb, 2019*
*3. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. –Bakı: 2002,232 s.*
*4. Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası. - Bakı: Azərbaycan, 2006*
*5. Məmmədov F. Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir", https://justice.gov.az/articles/90*
*6. Parlament tariximizin Heydər Əliyev dövrü. –Bakı: 2013,327 s.*
*7. Xudiyev N.YAP dünənin, bu günün, sabahın partiyasıdır. - Bakı: Nurlar, 2007*
*8. Yusifov M. Heydər Əliyev və Azərbaycançılıq ideologiyası. - Bakı: Nurlan, 2003, 107 s.*

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ ƏLDƏ OLUNAN QƏLƏBƏNİN AZƏRBAYCANDA NƏQLİYYAT VƏ KOMMUNİKASİYANIN İNKİŞAFINA TƏSİRİ

**Pərviz Məhərrəmov**
*Gəncə Dövlət Universiteti, doktorant*
*parvizmaherr@gmail.com*

***Açar sözlər**: Qarabağ, Naxçıvan, Zəngəzur dəhlizi, beynəlxalq layihə, nəqliyyat*

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müharibədə atəşkəsin əldə olunması, siyasi sabitliyin yaranması şəraitində əsasən 1995-ci ildən ölkədə başlayan islahatlar dalğası, özəlləşdirmə tədbirləri, qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan işlər, azad sahibkarlığa dəstək, gəlirlərin sosial sahəyə xərclənməsi, regionların sosial iqtisadi inkişafı və digər tədbirlər Azərbaycan iqtisadiyyatında dayanıqlılığın və makroiqtisadi stabilliyin saxlanılması kimi ümdə məqsədlərin təmin olunmasına səbəb oldu. Demək olar ki, hər il özündən əvvəlki ilə nisbətdə iqtisadi göstəricilərdə müsbət dəyişikliklər qeydə alınırdı. İqtisadiyyatı hər bir dövlətin mövcud olma təməli olduğunu, müharibənin iqtisadiyyata və iqtisadiyyatın müharibəyə təsiri məsələsinin önəm kəsb etdiyini nəzərə alsaq, bu faktın müharibə şəraitində olan bir respublika üçün nə qədər vacib olduğu tam anlaşılır. İqtisadi sabitliyə nail ola bilməyən dövlətin, müharibə arenasında qələbəsi qeyri-mümkündır. Bu baxımdan 30 ilə yaxın davam edən Azərbaycan-Ermənistan münaqişəsinin ölkə iqtisadiyyatı vurduğu irimiqyaslı zərər göz qabağındadır. Digər tərəfdən iqtisadi sabitlik və dayanıqlılığın təmin ediməsi ilə müasir standartlara cavab verən ordu quruculuğunun həyata keçirilməsi, ölkənin hərbi gücünün və qüdrətinin artırılması birbaşa əlaqəli məsələlərdir. İqtisadiyyatın güclü olması, eyni zamanda post-müharibə dövründə də ölkələrin öz güclərinin bərpası istiqamətində apardıqları işlərin də daha asan başa gəlməsini təmin edir.

30 illik işğal dövründə Azərbaycanın 20% əzarizini qanunsuz istismar edən Ermənistan Qarabağ və Şərqi Zəngəzur ərazisindəki 36 SES-nı qanunsuz istismar etməklə öz enerji ehtiyatının 7 %-ni təmin etmişdi. Erməni işğalı Azərbaycanın iqtisadi inkişaf və istehsalda əhəmiyyətli rol oynayan ərazilərinin 20%-ni (90 min hektar əkinə yararlı torpaq sahəsini) itirməsinə səbəb olmuşdu. Sovet dövrü ilə müqayisədə Azərbaycan iqtisadiyyatı işğal nəticəsində taxıl gəlirlərinin təxminən 24%-i itirmiş, itirilən ərazilərdəki müəssisələrin bağlanması səbəbilə bir çox sektorda azalma müşahidə olunmuş, ÜDM məhsul 60% azalmışdı [5, s, 17].

Müharibənin nəticələri Ermənistan üçün də ağır oldu. Azərbaycana qarşı işğalçı siyasətilə özünün gələcək inkişafını müəyyənləşdirən, ağır sosial-iqtisadi fəlakətlə sürüklənən, T. D. Valın yazdığına görə 1992-ci ili güclə başa vuran

Ermənistan dövləti [3, s. 238] təcavüzkar siyasəti ucbatından iqtisadi blokadaya düşdü və xarici iqtisadi əlaqələri xeyli azaldı. 1993-cü ildən Türkiyə ilə sərhədiləri bağlanmış ölkə həmin illərdə dəmir yol əlaqəsindən, ərzaq idxalından və elektrik enerjisindən məhrum vəziyyətə düşdü. Yalnız İran ilə ticarət əlaqələri sayəsində Ermənistan iflasdan xilas ola bildi. Əsasən Qarabağın təbii sərvətlərinin və Su Elektrik Stansiyalarının istismarı və əkinə yararlı torpaqlardakı təsərrüfat işləri ilə ölkə iqtisadiyyatına xeyir verilməyə çalışılsa da, bununla böyük uğurlar əldə edə bilməyən təcavüzkar dövlətin işğal olunmuş ərazilər hesabına əldə edilən iqtisadi nailiyyətləri cüzi oldu. Azərbaycan 1994-ci ildən bir çox enerji və nəqliyyat layihələrini icra etdiyi bir vaxtda Ermənistan bütün bunlardan məhrum oldu.

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun Şanlı qələbəsindən sonra Azərbaycan nəinki işğal altındakı torpaqların azad olunmasına nail oldu, həmçinin regional və beynəlxalq əhəmiyyətli iqtisadi əlaqələrin qurulmasına da yol açmış oldu. Azərbaycan, Ermənistan, Rusiyadövlət rəhbərlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatda bildirilirdi ki, artıq regionda iqtisadi və nəqliyyat əlaqələri bərpa olunacaq. Qədim Zəngəzur ərazisindən Naxçıvan Muxtar Respublikasına nəqliyyat və kommunikasiya xətlərinin açılmasına xidmət edən Zəngəzur dəhlizinin açılması məqsədilə işə başlanıldı. 2021-ci ilyulun 15-də işğaldan azad olunmuş Şuşa şəhərində Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti prezidentləri "Şuşa bəyannaməsi"ni imzaladı. Bu barədə danışan İlham Əliyev Zəngəzur dəhlizinin büyövlükdə region və türk dünyası üçün əhəmiyyətinin belə ifadə etmişdir: "Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır" [3]. Bu baxımdan Zəngəzur dəhlizi əslində, təkcə Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın digər bölgələri arasında nəqliyyat-kommunikasiya körpüsü deyil, eyni zamanda Çin və Orta Asiya ölkələrini Azərbaycan – Türkiyə vasitəsilə Avropanın tranzit – nəqliyyat xəttinə bağlayan dünya əhəmiyyətli vacib tranzit layihədir. Zəngəzur dəhlizi vasitəsilə Şərq və Qərbin mühüm iqtisadi tərəfdaşına çevrilən Bütün iqtisadi əlaqələrin bərpası və Zəngəzur dəhlizinin qurulması region ölkələrinə iqtisadi problemləri və maneələri aradan qaldırmağa imkan verəcəkdi. Bu xüsusda yeni qurulan Zəngəzur dəhlizi Naxçıvan MR-ni iqtisadi blokadadan azad edəcək, Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında birbaşa əlaqənin bərpası həm Naxçıvan, həm də Azərbaycanın iqtisadi inkişaf üçün yeni imkanlar yaradaraq səyahət müddətini və nəqliyyat xərclərini azaldacaq. Həmçinin qısa nəqliyyat məsafəsi ilə Türkiyə ilə iqtisadi əlaqələrin daha da artması gözlənilir. Digər bir məsələ isə Türkiyədən Naxçıvana yeni dəmir yolu açılması ilə bağlıdır. Bərpa olunacaq iqtisadi və nəqliyyat əlaqələri region dövlətlərinin xarici ölkələr ilə ticarət əlaqələrinin inkişafına kömək edəcək. Digər bir müsbət nəticə isə, davamlı sülh şəraitində xarici

investorların bölgəyə marağının artması, azad olunmuş ərazilərdəki iş imkanları Azərbaycanda işsizliyin azalması, beləliklə də əhalinin sosial rifahının yaxşılaşması ilə bağlıdır.

Prezident İlham Əliyev 24 iyul 2023-cü il tarixində Çinin "China Media Group" korporasiyasının müxbirinə verdiyi müsahibəsində Zəngəzur dəhlizinin beynəlxalq əhəmiyyəti haqqında fikirlərini belə izah etmişdir: "Biz Azərbaycandan Türkiyə və Avropa istiqamətində gedən əlavə yol olacaq Zəngəzur dəhlizi üzərində çox fəal şəkildə çalışırıq. Azərbaycan ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq başa çatdırılıb. Beləliklə, Azərbaycan ərazisindən təkcə Bakı-Tbilisi-Qars kimi bir yol keçməyəcək, o cümlədən Zəngəzur dəhlizi işə salınacaq. Bir sözlə, bütün bunlar əlavə yüklər üçün digər imkanlar açacaq. Eyni zamanda Azərbaycan ərazisindən daşımalar, həmçinin Gürcüstanın dəniz limanından keçəcək. Biz bu sahədə müəyyən sərmayə imkanlarına böyük maraqla baxırıq. Həqiqətən, daşımalarda əməkdaşlıq bütün ölkələr üçün çox faydalı olacaq və eyni zamanda, o da vacibdir ki, bu işlər ölkələr arasında əlaqələri gücləndirəcək. Ölkələr bir-biri ilə daha sıx bağlı olacaq, inteqrasiya olacaq. Biz dəhliz boyunca bir çox istehsal sahələrini yaratmağı planlaşdırırıq və sadəcə, tranzit ölkə olmaq istəmirik. Geosiyasi baxımdan, bu, yaxşı haldır, yəni əlavə gəlir əldə etmək olar, biz Azərbaycanda böyük sənaye zonalarını yaratmaq istəyirik. Əslində, bu istiqamətdə irəliləyirik. Hesab edirəm ki, bu ay açılmış və artıq fəaliyyətə başlamış Ələt Azad İqtisadi Zonamızda istehsalatla məşğul olmaq, həmçinin Çin şirkətləri üçün cəlbedici ola bilər. Əslində, təsəvvür etdiyinizdən də geniş fürsətdir" [2].

Onu da qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyev hələ 1970-ci illərdə Sov.İKP MK-nin Siyasi Bürosunun üzvü olarkən, Naxçıvan - Bakı avtomobil yolunun Mehridən keçən hissəsinin istifadəyə verilməsinə nail olmaqla böyük Turan layihəsinin icrasına, Türk dünyasını birliyini şərtləndirən amillərdən biri olan beynəlxalq əhəmiyyətli kommunikasiya xəttinin qurulmasına zəmin hazırlamışdı. Bu müqəddəs missiyanı davam etdirərək Ümummilli Liderin davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev hədəfə çatdırdı.

### *Ədəbiyyat siyahısı:*

1. *Azərbaycan və Türkiyə Prezidentləri mətbuata birgə bəyanatla çıxış ediblər // https://president.az/az/articles/view/52116*
2. *Prezident İlham Əliyev Çinin "China Media Group" korporasiyasının müxbirinə verdiyi müsahibə verib // https://president.az/az/articles/view/60572*
3. *De Vaal, T. Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında. – Bakı: "İlay MMC", - 2008, - 344 s.*
4. *Musa, İ. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. - Bakı: "Bakı Universiteti". - 2011, - 776 s.*
5. *Cəfərova, E., Hüseynov, V., Bağırov, O., Hacıyev, Ş., Əsgərova, R. 44 günlük Qarabağ müharibəsi: Mülahizə və nəticələr. - Bakı: Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, - 2021, - 36 s.*

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏCBURİ KÖÇKÜNLƏRİN RASTLAŞDIĞI PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏRİN TƏHLİLİ

**Aytac Nəcəfli**
*Azərbaycan Universitetinin II kurs magistrantı*
*knajafova69@mail.ru*

***Açar sözlər:*** *məcburi köçkün, qaçqın, qanunvericilik, sosial problemlər, sosial təminat*

Azərbaycan Respublikasında məcburi köçkünlər və onların mənzil, məişət, sosial və d. problemləri Ulu Öndər Heydər Əliyevin dövlət siyasətində önəmli yer tutmuşdur. Məhz Ulu Öndərin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdışından sonra, 1990-cı illərin sonlarından etibarən 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində Ermənistandakı tarixi etnik torpaqlarından qovularaq Azərbaycana pənah gətirmiş 250 min azərbaycanlının, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş keçmiş Dağlıq Qarabağ və 7 rayondan didərgin salınaraq respublikamızın 67 rayonunun 1600 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmış məcburi köçkünlərin məişət, təhsil, məşğulluq və s. tipli problemlərinin həlli istiqamətində lazımi tədbirlər görülməyə və dövlət səviyyəsində öz həllini tapmağa başladı.

17 sentyabr 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzaladı. V bölmədən ibarət Proqramın "Qaçqınların və məcburi köçkünlərin hüquqlarının tənzimlənməsi" adlı I bölməsində 1998-ci ildə "Qaçqınların və məcburi köçkünlərin hüquqlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Qanununun (29 sentyabr 1992-ci il), qaçqınların statusuna aid 1951-ci il Konvensiyasının, 1967-ci il Protokolunun və digər beynəlxalq hüquqi normativ aktların tələblərinə uyğun şəkildə yenidən işlənib hazirlanması və Milli Məclisə təqdim olunması, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Beynəlxalq humanitar yardım üzrə Respublika Komissiyası, Maliyyə Nazirliyi, Əmək və əhalinin sosial müdafiəsi nazirliyi, Qaçqınların və məcburi köçkünlərin işləri üzrə Dövlət Komitəsi ilə birlikdə qaçqınların və məcburi köçkünlərin hüquqlarının müdafiəsi, onların iqtisadi və sosial problemlərinin daha səmərəli həll edilməsi ilə əlaqədar təkliflərin hazırlanıb müzakirə edilməsi və s. nəzərdə tutulurdu [1]. Proqramın "Miqrasiya, məskunlaşma, reabilitasiya, bərpa və repatriasiya" adlı II bölməsində qaçqınların və məcburi köçkünlərin dəqiq uçotunun aparılması və vahid informasiya bazasının yaradılması, müvəqqəti məskunlaşma və digər məsələlərin həlli öz əksini tapırdı. Proqramın "Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi" adlı III bölməsində əmək yarmarkaları keçirilərkən əmək qabiliyyətli qaçqınların və məcburi köçkünlərin işə cəlb olunmasına üstünlük ve-

rilməsi və yeni iş yerlərinin açılması istiqamətində görüləcək işlər, IV bölmədə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin təbliği və onlarla aparılan kütləvi – mədəni iş", V bölmədə isə, "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli ilə məşğul olan dövlət orqanlarının işinin təkmilləşdirilməsi" məsələləri ardıcıl olaraq sadalanır və onlarla məşğul olan dövlət orqanları, işə nəzarət mexanizmi dəqiq şəkildə öz əksini tapırdı. 1994-ci il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" əsasında respublika büdcəsinə daxil olan və ilbəil artan gəlirlər ilkin olaraq qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönləndirilirdi.

Ulu Öndər xarici ölkə rəhbərləri və rəsmi şəxslərlə görüşlərdə bu məsələni gündəmdə saxlamış, məhz bu fəaliyyətin nəticəsidir ki, 1993-2004-cü illər ərzində müxtəlif beynəlxalq təşkilatlar və qurumlar tərəfindən Azərbaycanda məskunlaşmış qaçqın, məcburi köçkün və aztəminatlı ailələrə müxtəlif layihələr üzrə 640 milyondan ABŞ dollarından çox vəsait həcmində maliyyə yardımı ayrılmışdır [5].

Qaçqınların və məcburi köçkünlərin problemlərinin operativ həllinin təşkili məqsədilə 1998-ci ilin noyabrında Azərbaycan Respublikası Nazirlər Kabinetinin strukturunda Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Sədri vəzifəsi təsis edildi. 1999-cu il dekabrın 9-da dünya təcrübəsində ilk dəfə olaraq Azərbaycanda Məcburi köçkünlərin Sosial İnkişaf Fondu yaradıldı.

Ulu Öndər Heydər Əliyev tərəfindən məcburi köçkünlərin ərzaq təminatında yaranmış problemləri həll etmək və Azərbaycan dövlətinin neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində əldə edilmiş vəsaitdən məcburi köçkünlərin sosial təminatının yaxşılaşdırılması üçün istifadə olunmasını daim nəzarətdə saxlayırdı. Təsadüfi deyil ki, 13 may 2002-ci ildə Beynəlxalq humanitar təşkilatların xəttilə ərzaq yardımı dayandırılmış 157 min 258 nəfər məcburi köçkünün ərzaq təminatını ödəmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən 2002-ci ilin may ayından etibarən cari ilin sonunadək hər ay Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin xüsusi hesabına 2 milyard 516 milyon manat vəsait köçürülməsi ilə bağlı qanun qəbul olunmuşdur [2]. Nəticədə 1330 qaçqın, 5081 məcburi köçkün ailəsinin (32 min nəfər) mənzil şəraiti yaxşılaşdırıldı və respublikamızda mövcud olan 12 çadır düşərgəsindən Biləsuvar rayonu ərazisindəki 5-i 2003-cü ildə ləğv olundu [5].

1993-2003-cü illərdə qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəldilən vəsaitin həcmi 90 dəfə, yemək xərcləri üçün müavinət 60 dəfə, kommunal xidməti xərcləri 120 dəfə artırıldı. Məcburi köçkünlərin kommunal xərcləri barədə "Məskunlaşmamış qaçqın və məcburi köçkünlərə güzəştlərin müavinətlə əvəz olunması ilə əlaqədar onların ödənilməsi Qaydasının təsdiq edilməsi barədə" qərar 2002-ci il 22 yanvar tarixində Nazirlər kabineti tərəfindən təsdiq edilmiş, dövlət ali və orta ixtisas təhsisi müəssisələrində

ödənişli formada təhsil alan məcburi köçkünlər təhsil haqqından, kommunal və digər ödənişlərdən azad olunmuşlar [5].

2003-cü ildən Ulu Öndərin siyasi kursunu ən layiqli şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti dövründə bütün sahələrdə olduğu kimi bu istiqamətdə də aparılan ardıcıl və məqsədyönlü işlərin nəticəsində ölkə ərazisində 12 çadır düşərgəsindən 5-i 2003-cü ildə, sonuncusu isə 24 dekabr 2007-ci ildə ləğv edildi və 105 müasir tipli qəsəbə məcburi köçkünlərin  ixtiyarına verildi. 2004-cü ildə "Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artıtılması üzrə Dövlət proqramı"nı təsdiq etdi. İşlərin daha sürətli və məqsədəuyğun aparılması üçün 2007 və 2011-ci illərdə həmin proqrama əlavələr edildi .

Həyata keçirilən düzgün sosial siyasətin nəticəsi olaraq məcburi köçkünlərin mənzillə təmini uğurla başa çatmışdır. Mənzillə yanaşı məcburi köçkünlər üçün təyin edilən müavinətin miqdarı da ildən-ilə artırılmış, məcburi köçkünlərin sosial durumunun yaxşılaşdırılması ilə bağlı ən vacib məsələ - onların məşğulluğunun təmin edilməsi istiqamətində bir çox uğurlu addımlar atılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il yanvarın 24-də imzaladığı "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcqnlı kəndinin bərpası haqqında" fərman və onun uğurlu icrası ilə başlayan Böyük Qayıdış bu gün 44 günlük Vətən müharibəsi və 19 sentyabr 2023-cü il lokal antiterror əməliyyatından sonra tamamilə azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda uğurla davam etdirilir. Bütün dünyanın gözü önündə erməni vandalizminin məhv etdiyi şəhər və kəndlərimiz ən yüksək texnologiyaların tətbiqi ilə yenidən qurularaq artıq məcburi köçkün adını üstündən atmış soydaşlarımıza təhvil verilir. Abadlaşan Qarabağ və Şərqi Zəngəzurda tarixi ədalət bərpa olunur.

### *Ədəbiyyat siyahısı:*

*1. Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı // https://e-qanun.az/framework/3441*

*2. 17 sentyabr 1998-ci il tarixli 895 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı //https://e-qanun.az /framework/3441*

*3. 13 may 2002-ci il tarixli 921 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı //https://e-qanun.az /framework/1710*

*4. Məcburi köçkünlərin ailələrinin mənzil – məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı //https://e-qanun.az /framework/18338*

*5. Rəcəbli H. Prezident İlham Əliyev: Qaçqınların və məcburi köçkünlərin problemləri dövləti bir nömrəli problemidir //Xalq qəzeti, 17.06.2017, №131, s.3*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ TOLERANTLIQ

**Səma Camalova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi (TEC üzvü)*
*samajamal1919@gmail.com*

***Açar sözlər:*** *tolerantlıq, bərabərlik, demokratiya, humanizm, azlıqlar, dünyəvilik*

Bu gün müstəqil Azərbaycanın bütün dünyaya örnək olan tolerantlıq, multikulturalizm mədəniyyətinin ilk nümunələri hələ AXC dövründə özünü büruzə vermişdir. Bu bir siyasət kimi Ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılmış, günümüzdə prezident İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilir.Bu təsadüfi deyil,çünki tolerantlıq ölkəmizin milli sərvəti,Azərbaycan isə tolerantlığın beşiyidir. AXC doğma vətənimiz üzərində bir günəş kimi parlamış və özüylə birlikdə irq, din, millət, cins fərqi qoymadan hər kəs üçün bərabərlik gətirmişdir. Bunun ən mükəmməl örnəyi isə 28 may 1918-ci ildə təsdiq edilmiş "İstiqlal Bəyannaməsi"nin 4-cü və 5-ci maddələridir.

Belə ki, 4-cü maddədə "Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təminedər", 5-ci maddədə isə "Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bil cümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır" sözləri yer alır [5]. Həmin il 11 avqustda qəbul edilən "Azərbaycan vətəndaşlığı haqqında" qanunda özü və ya valideynləri Azərbaycan ərazisində anadan olmuş keçmiş Rusiya imperiyasının bütün təbəələri, milli və dini mənsubiyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşı hesab olunur" qeyd olunub. Şərqin ilk hüquqi-demokratik türk dövləti olan AXC türk dünyası və müsəlman aləmində qadına ilk dəfə seçmək vəseçilmək hüququ verdi və bu 10 dekabr 1918-ci ildə AXC Parlamentinin II iclasında dövlət səviyyəsində təsdiqləndi [4]. Təsadüfi deyildir ki, parlamentdə keçirilmiş seçkilərdə qadınlar da iştirak etmişdir. Bunu 1919-cu il 21 iyulda qəbul edilmiş "Müəssislər Məclisinə seçkilər haqqında"qanun və 4 fəsil, 116 maddədən ibarət əsasnamədə 20 yaşı tamam olmuş hər iki cinsdən olan respublika vətəndaşlarının seçki hüququna malik olmasının qeyd olunması bir daha sübut edir [3, s.102]. Hələ 17 iyun 1918-ci ildə Gəncədə 2-ci hökümətkabineti təşkil olunarkən N.B.Yusifbəylinin başçılığı ilə Xalq Maarifi və Etiqad Nazirliyi yaradıldı (19 iyun) [1, s.308]. Bu illərdə orta təhsil müəssisələrində azərbaycanlı qızların sayı artdı. Əgər 1918-1919-cu illərdə Gəncə gimnaziyasında cəmi 4 azərbaycanlı qız təhsil alırdısa, 1919-1920-ci illərdə bu 296 nəfərə çatdırılmışdı [4]. Həmçinin orta məktəblər arasında 4 qadın gimnaziyası və 3 müqəddədəs Nina qız tədris müəssisəsi vardı [1, s.73]. BDU-da təhsil alanların 8,3 faizini qızlar təşkil edirdi [4]. Yaşlı qadınların da təhsil alması üçün 24 oktyabr 1919-cu ildə XMN Azərbaycan milli gimnaziyasınınnəzdində yetkin türk qadınları

üçün kursların təntənəli açılışı oldu. Kurslara Şəfiqə xanım Yusifbəyli rəhbərlik edirdi. Hətta 1920-ci ildə Qazax seminariyasının yanında qızlar üçün şöbə açıldı [4]. XMDEN-nin yaradılması ilə həm də ölkənin milli vədini tərkibi nəzərə alınmaqla ona uyğun siyasət yeridildi. 1918-ci il 1 sentyabrda Gəncədə şiə və sünnilərin "Məşixət" adı altında vahid idarədə birləşdirilməsi,1920-ci il mart ayında milli hökümət tərəfindən hər iki məzhəbin sədrlərinə nazir köməkçiləri ilə eyni status verilməsi buna bariz nümunədir [5]. Dövlət tədbirlərində din xadimləri iştirak etmiş, parlament müzakirələrinə dəvət edilmişlər. AXC hököməti Təzəpir məscidi, Gəncə, Şəki, Şamaxı və Kürdəmirdə dağıdılmış məscidlərin qeydinə qalmışdır [5]. Bu illərdə Bakı Rus Provoslav Kilsəsi, Baptist və Molokan dini cəmiyyətləri, yəhudi ravvinliyi, erməni yeparxiyası da dövlət tərəfindən yardımlar almış və onların sərbəst inkişafı üçün şərait yaradılmışdır [5]. Bu illərdə dini bayramların keçirilməsinə xüsusi önəm verilmiş, hətta 1918-ci ilin sentyabrında Bakıya köçəndən sonra hökümətin ilk tədbirlərindən biri Qurban bayramının qeyd edilməsi olmuşdur [5]. Cümə günləri isə istirahət günü kimi qeyd edilmişdir. Əlbəttə ki, digər dinlərin nümayəndələri üçün də hər cür şəarit yaradılmışdır. Dekabrın 25-26-sı milad bayramı günlərində xristian dövlət qulluqçuları və şagirdlər iş və dərslərdən azad olunmuşlar. Hətta AXC-nin 1920-ci il aprel sərəncamı ilə xristian etiqadlı dövlət məmurları üçün Pasxabayramı vaxtı 5 gün qeyri-iş günü elan olunmuşdur [5].

Ümumiyyətlə cümə günü müsəlmanlar, bazar günü isə qeyri-müsəlmanlar üçün istirahət günü idi. Hökümət Novruz bayramının keçirilməsinə xüsusi önəm vermiş və 1919-cu il 18 fevralda bayram münasibətilə müavinət verilməsi barədə qanun layihəsi təqdim edilmiş və məvaciblərin 40-70% həcmində müavinət verilməsi 1919-cu il 19 mart qərarı ilə rəsmiləşdirilmişdir [1, s.269].

Qeyd etdiklərimdən görünür ki, AXC-də din əqidə məsələsi idi vədinin hakimiyyətə müdaxiləsi yox idi. Amma bütün dinlər dövlət tərəfindən himayə edilirdi və onların dini qurumları maliyyələşdirilirdi. Bununla bağlı hələ 6 oktyabr 1918-ci ildə Himayədarlıq və Dini Etiqad Nazirliyi yaradılmışdır və Musa bəy Rəfiyev nazir təyin edilmişdir [1, s.308]. 1919-cu il aprelin 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi dördüncü Hökumət kabinetində Himayədarlıq naziri Slavyan-Rus cəmiyyətindən olan V.Klenevski olmuşdur [5].

1918-ci il 7 sentyabr "Milli azlıqlardan olan xalqların öz ana dilində təhsil alması haqqında" qanun ilə respublikanın ibtidai məktəblərində qeyri-müsəlman (qeyri millətdən olan şagirdlərin sayı 10 nəfərdən az olmadıqda) tələbələr üçün onların ana dili və din dərsləri tədrisinə başlanmış və xərcləri dövlət qarşılamışdır [1, s.73]. Bu fərmanla yəhudi məktəblərinin rəhbəri Y.Baysband və E.Şapiroyanın təşkil etdikləri yəhudi dili, tarixi və ədəbiyyatı kurslarına dinləyici yazdırmağa Xalq Maarifi naziri icazə vermiş və dövlət onlar üçün hər ay 10 min rubl maliyyə dəstəyi ayırmışdır [3]. Həmin məktəblərdə 1918-ci il oktyabr ayı üçün 700 nəfər təhsil alır və 24 müəllim çalışırdı. Həmçininalman koloniyalarındakı məktəblərə maliyyə ayrılmış, müəllimlər üçün hər ay 90 rubl verilmişdir. BDU-da 6 alman müəllim işlə təmin olunmuşdur [5].

AXC-də multikultural mühitin formalaşmasını göstərən ünsürlərdən bir digəri isə 1919-cu ildə iyunun 9-da Yelenendorf koloniyasında alman koloniyalarının salınmasının 100 illik yubileyi təntənəli surətdə keçirilməsidir [5]. Bunun üçün hökümət lazimi şəraiti yaratmışdır. 1919-cu il 1 oktyabrda Dağlıq Qarabağda erməni məktəbləri üzrə xüsusi müfəttişlik yaradılmış və ermənilərin maarifi sahəsində 13 maddəlik əsasnamə təsdiq olunmuş və maliyyə dəstəyi ayrılmışdır [3, s.179]. Həmçinin ayrı-ayrı şəxslərə öz hesabına məktəb açmaq üçün imkan yaradılmışdır.

1918-1919-cu tədris illərində 76 rus məktəbi vardı ki, 51-i dövlət, 25-i neft sənayeçilərinə məxsus idi [5]. Həm də 13 noyabr 1918-ci il dəyişikliyi ilə yuxarı siniflərdə də paralel olaraq rus bölməsinin açılmasına icazə verilir və Rus Milli Şurasına 500 min manat məktəblər açmaq və dərsliklər almaq üçün pul ayrılır [1, s.73]. Bu illərdə vicdan azadlığı sahəsində ayrıca qanun qəbul edilmədi, amma AXC-nin gördüyü konkret tədbirlər bunun əyani sübutu idi. Hələ mart soyqırımından yarım il keçməsinə baxmayaraq parlamentdə ermənilər 21 yerlə təmsil olunmuşdu [3, s.53]. Ümumiyyətlə, müsəlmanlar 80, ruslar 10, alman, yəhudi, gürcü və polyaklar üçün ayrılıqda 1 millət vəkili üçün yer ayrılmışdır [3, s.182]. Bundan əlavə Bakı həmkarlar ittifaqları 3, Bakı Neft Sənayeçiləri İttifaqı 2 yerlə təmsil olunmuşdular [1]. Yeni hökümətdə isə 3 yer ruslara, 2nazir vəzifəsi ermənilərə verilmişdi, amma imtina etmişdilər [3, s.56]. Paris sülh konfransına təqdim olunmuş sənədlərdən məlum olur ki, Azərbaycan əhalisinin 75,4%-ni azərbaycanlılar, 17,2-%-ni ermənilər, 0,6 %-ni gürcülər, 6,7%-ni başqa xalqların nümayəndələri təşkil edirdi [1, s.15]. Azlıqdaolan gürcü və polyakların da parlamentdə təmsil edilməsi AXC parlamentinin bütün müsəlman Şərqində o dövrün ən demokratik prinsiplərilə formalaşdırılmış ilk parlament olduğunu bir daha sübut edirdi. Hələ 1918-ci il 27 iyunda Azərbaycan (türk) dilinin dövlət dili elan olunması haqqında qanun imzalanmış, bununla belə parlament də daxil olmaqla bir sıra dövlət qurumlarında müvəqqəti olaraq rus dilindən də istifadə imkanı verilmişdir [3, s.179].

Bununla yanaşı qeyri millətlərdən olan vətəndaşların da dövlət dilini öyrənməsi üçün 1919-cu ilin sentaybrında kurslar təşkil edilmişdi və dövlət bunun üçün 351 min vəsait ayırmışdı [1, s.66]. Həmçinin bu dövrdə bir sıra azlıqların cəmiyyət və təşkilatlarının sərbəst inkişafına şərait yaradılırdı. Slavyan-Rus Cəmiyyətinin Bakıda şöbəsi fəaliyyət göstərirdi və 3 dekabr 1918-ci ildə parlamentə daxil olmaq üçün müraciətilə 3 nümayəndəsi burada təmsil olunmuşdu [2, s.344]. Həmçinin cəmiyyətin üzvlərindən İ.Protasov, Y.Gindes, K.Lizqar, V.Klenevski AXC hökümətində nazir vəzifələrində çalışmışlar [2, s.344]. Bundan əlavə Sxakaya Qriqori İvanoviç də parlamentin üzvü idi vəAzərbaycan Milli Şurasının “Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun”una əsasən (1918, 19 noyabr) gürcü əhalisindən olanlar da parlamentin tərkibinə daxil edilmişdi [2, s.337].

Bu illərdə elə tolerant mühit var idi ki, hökümətə müxalif olan Bolşevik mətbuatıyla yanaşı, eser-menşevik, erməni-daşnak mətbuatı və bitərəf informatik qəzetlər sərbəst fəliyyət göstərirdi. Həmçinin mətbuat nümunələri dövlət dili ilə yanaşı rus, gürcü, erməni, polyak, fars, alman və digər dillərdə də nəşr

edilirdi. Həmçinin AXC-də multikultural mühitin yüksək səviyyədə olduğunu qaçqınlarla bağlı fəaliyyət də bir daha sübut edirdi [1, s.67]. Bu dövrdə Müsəlman Xeyriyyə Cəmiyyəti ilə yanaşı, Erməni, Latış Qaçqınlarına Yardım Komitələri, Polyak Əhalisinə Kömək Komitəsi və QaçqınlarınYerləşdirilməsi üzrə Baş Müvəkkilliyin Bakı şöbəsi fəaliyyət göstərirdi [3, s.167].

1917-ci il 31 dekabrda Petroqrada göndərilən məktubda 1763 erməni, 276 latış, 169 rus, 157 yəhudi, 95 yunan, 84 polyak, 13 aysor, 7 macar, 3 çex, 1 bolqar qaçqının olduğu qeyd olunur [3, s.168]. Əvvəlcə qeyd etdiyim kimi 1919-cu il aprel ayından Himayədarlıq naziri təyin olunmuş V.Klenevski və digər nazirlər dövründə də bu işlə yaxından məşğul olunmuşdur. Artıq 1919-cu ildə qaçqın, kimsəsiz və qocalar üçün yeməkxanaların sayı 17-yə çatmışdır. Beləliklə bir il ərzində milliyətindən asılı olmayaraq Bakı şəhərində 10.069.253 manatlıq qida yardımı edilmişdir [3, s.169]. Parlamentin 1919-cu il 19 iyul iclasında qaçqınlara kömək etmək üçün idarələrarası komissiya yaradılmışdır [3, s.171]. 1919-cu il Gəncə dairə müfəttişliyinin məlumatlarına əsasən müsəlman qaçqınlarla yanaşı 3928 erməni, 427 rus qaçqını məskunlaşmış [3, s.171] və həmin ilin iyulunda Ermənistandakı müsəlman qaçqınlara 3 milyon manatlıq vəsait ayrılmış və 15 vaqon taxıl, arpa göndərilmişdir [3, s.173]. Həmçinin milliyətindən asılı olmayaraq Himayədarlıq Nazirliyi kimsəsiz uşağa əvvəlcə 60, sonralar 200 manat yardım ayırmışdır [3, s.169].

Beləliklə də AXC mövcud olduğu 23 ay ərzində bütün xalqların hüquq bərabərliyini təmin etmiş və istər hökümətdə, istərsə də parlamentdə həmin xalqların bərabərlik və demokratik qaydalar əsasında təmsil olunmasını layiqincə yerinə yetirmişdir. Bütün bunlar sübut edir ki, AXC son dərəcə multikultural mühit formalaşdırmışdır. Həmçinin 9 noyabr 1918-ci ildə qəbul edilmiş üçrəngli bayrağımızın rəngləri də AXC-nin yenilikçi, dünyəvi, tolerant dövlət qayəsini simvolizə etmişdir [5]. Müsəlman Şərqində ilk respublika, ilk parlament, ilk demokratik idarəçilik kimi neçə-neçə ilklərireallaşdırmış AXC irqindən, cinsindən, milliyətindən, dinindən və məzhəbindən asılı olmayaraq bütün hər kəsə bərabərlik gətirmişdir. Bu gün Azərbaycan Respublikası AXC-nin varisi kimi bu multikultural mühiti bir az da zənginləşdirmiş və bütün dünyada multikulturalizmin ən görkəmli nümayəndələrindən birinə çevrilmişdir.

### *Ədəbiyyat siyahısı:*

*1.AXC Ensiklopediaysı I cild. - Bakı: 2004,440 s.*
*2.AXC Ensiklopediyası II cild. - Bakı: 2005, 472s.*
*3.Azərbaycan Xalq Cümhuriyyətinin milli siyasəti. -Bakı: Qartal 1998, 200 s.*
*4.Azərbaycan Xalq Cümhuriyyətinin qadın siyasəti - Turan Nəsirova. https://www.elibrary.az/docs/JURNAL/jrn2019_84.pdf. s.90-98.2019*
*5.Dövlət-din münasibətləri Xaq Cümhuriyyəti dövründə mükəmməl tənzimlənirdi. - https://scwra.gov.az/az/view/news/4808/dovlet-din-munasibetleri-xalq-cumhuriyyeti-dovrunde-de-mukemmel-tenzimlenirdi.04.04.2018*

# RUSİYA İMPERİYASININ SÜQUTU VƏ "QAFQAZ BİRLİYİ" MƏSƏLƏSİ

**Fuad Xəlilov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi (TEC üzvü)*
*fuadxelilovtarix@gmail.com*

***Açar sözlər*: *Rusiya İmperiyası, Qafqaz konfransları, Cənubi Qafqaz, Azərbaycan Xalq Cümhuriyyəti, Məhəmməd Əmin Rəsulzadə.***

Qafqazda yaşayan müxtəlif xalqlar yeri gəldikcə, müxtəlif xarici təhlükələrə qarşı birgə mübarizə aparmağı bacarmış, ümumi mənafelər güdə bilmişdilər. Bunun üçün zaman-zaman, xüsusən XX əsrin əvvəllərindən başlayaraq Qafqaz xalqlarının vahid bir dövlət şəkildə birləşdirilməsi ideyası ortaya atılmışdır. Bununla bağlı, Məhəmməd Əmin Rəsulzadə yazırdı: "Azərbaycanın, eləcə də Qafqaz xalqlarının azadlıq uğrunda mübarizədə əsas ilhamverici stimullarından biri də Qafqazın birliyi ideyasıdır. Ümumi düşmənə qarşı mübarizədə uğur qazanmaq üçün Qafqaz sıra dağlarının hər iki tərəfində, habelə Qara dəniz və Xəzər dənizi arasında yaşayan insanların ümdə vəzifəsi vahid cəbhə halında birləşməkdir. Günümüzdə belə birliyin parlaq nümunəsi İsveçrə konfederasiyasıdır. "Qafqazın birliyi" anlayışında da başlıca amil artıq region xalqlarının qəbil etdikləri Qafqaz konfederasiyası ideyasıdır" [6]. 1917-ci il fevral inqilabının ardınca Rusiya imperiyasının özündə və müstəmləkələrində azadlıq ideyaları geniş şəkildə yayılmağa başlayır. Oktyabr inqilabı ilə isə Çar imperiyası parçalanmış və Cənubi Qafqazda da müstəqil bir dövlət quruluşunun yaradılması yolunda ilkin addımlar atılmışdır. 1917-ci ildə noyabr ayının 11-də Cənubi Qafqazda fəaliyyət göstərən siyasi təşkilatların yığıncağında gürcü menşeviklərinin lideri Noy Jordaniya çıxış edərək bildirdi ki, Rusiya ilə əlaqə kəsildiyi və Cənubi Qafqaz tək qaldığı üçün biz (Cənubi Qafqazda yaşayan xalqları nəzərdə tutur F.X.) ayağa qalxaraq ya özümüzü xilas etməli, ya da anarxiya burulğanında məhv olmalıyıq. Cənubi Qafqaz Komissarlığı I Dünya Müharibəsi və daxili ziddiyyətlərlə əlaqədar Cənubi Qafqazın ərazi bütövlüyünü saxlamağı xarici siyasətin başlıca vəzifəsi kimi qarşıya qoymuşdu [5, s.24-25]. Lakin həm Komissarlıqda, həm də sonra yaradılan Seymdə prinsipial məsələlərdə ortaq mövqeyə gəlinə bilmir, hətta təmsil olunan xalqlar arasında ara-sıra silahlı münaqişələr belə baş verirdi. Sonralar 1918-ci ilin martında keçirilən Trabzon konfransı zamanı A.Çxenkeli doğru olaraq qeyd edirdi ki, bizim vəziyyətimizin ağırlığı onunla bağlıdır ki, Cənubi Qafqazın formalaşdırılması hələ başa çatdırılmamışdır və "nümayəndə heyətimiz öz tələbləri üzərində möhkəm durmur. Biz buraya hazırlıqsız gəldik. Seymin özündə də o qədər birlik yoxdur ki, biz burada öz mövqelərimizi möhkəm müdafiə edə bilək" [5, s.50]. Ümumiyyətlə isə, "Qafqaz birliyi" ideyası təkcə Cənubi Qafqaz xalqları tərəfindən deyil, eləcə də Şimali Qafqazın siyasi xadimləri tərəfindən də alqışlanırdı. Belə ki, 1918-ci mar-

tın 25-də Seymin iclaslarının birində Nəsib bəy Yusifbəyli Qafqaz dağlıların və Zaqazqaziya türklərinin vahid müsəlman ailəsinin üzvləri kimi yaxınlaşmasını və Cənubi Qafqaz dövlətində birləşmək arzularını yüksək qiymətləndirirdi [5, s.54]. Bütün bunlarla bərabər, Osmanlı dövləti Zaqafqaziyanın müstəqil bir dövlət olmasını arzulayırdı və yalnız bu halda onlara öz köməkliyini edəcəyini söyləyirdi. Buna görə də, uzun müzakirələrdən sonra 1918-ci ilin 22 aprelində Tiflisdə Cənubi Qafqaz Federativ Respublikası yaradıldı və bu münasibətlə iclasda çıxış edən Məhəmməd Əmin Rəsulzadə qeyd etmişdi ki, müstəqilliyi vicdanın hökmü ilə qəbul etdiyimiz zaman Cənubi Qafqaz xalqları daha sıx şəkildə bir-birinə bağlanacaqdır. Düzdür bu respublika uzunömürlü olmasa da, Zaqafqaziya xalqlarının Rusiyanın tərkibindən ayrılma prosesini başa çatdırdı və gələcəkdə müstəqilliyin elan olunmasında əhəmiyyətli rol oynadı.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra qonşu dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa, mübahisəli məsələləri sülh yolu ilə həll etməyə səy göstərirdi. Birinci Dünya Müharibəsinin bitməsi ərəfəsində Qafqaza həm Sovet Rusiyasının, həm Antantanın, həm də Dördlər İttifaqının marağının artması Qafqaz dövlətlərini vahid şəkildə birləşməyə təhrik edirdi. Təsadüfi deyil ki, Osmanlı dövlətinin baş naziri Tələt paşa gürcü və erməni nümayəndələri ilə görüşündə xüsusən bolşevik təhlükəsinə qarşı Cənubi Qafqazın həmrəyliyinin yaradılmasının vurğulayırdı. Gərgin siyasi hadisələr fonunda Gürcüstan dövlətinin təklifi ilə problemli məsələləri həll etmək və yarana biləcək təhlükəyə qarşı ümumi bir mənafedən çıxış etmək məqsədilə 1918-ci ilin noyabrın 14-də Tiflisdə Birinci Qafqaz konfransı çağırıldı [2, s.115]. Lakin Ermənistanın Azərbaycan və Gürcüstana ərazi iddiaları irəli sürməsindən ötrü Y.Gegeçkorinin təklifi iləkonfrans 3 dəfə təxirə salındı və bu konfransı keçirmək demək olar ki, mümkün olmadı. Onu da qeyd edək ki, Azərabaycan nümayəndə heyətindən Məmməd Yusif Cəfərov və Mustafa Vəkilov, Dağlılar Respublikası nümayəndə heyətində isə V.Cabagiyev və P.Kotsev təmsil olunurdular [3, s.77].

Tezliklə, Ermənistan Gürcüstanın Borçalı qəzasına ərazi iddiası irəli sürərək 1918-ci il 15 dekabrda hücuma başladı və yalnız dekabrın sonunda bu müharibə sonlandı. Bu hadisə bir daha göstərdi ki, Qafqaz dövlətləri öz aralarında sülhə nail olmadan ümumi düşmənə qarşı mübarizə göstərə bilməzlər. Ona görə də, 3 Zaqafqaziya Respublikası 1919-cu ilin yanvarından etibarən yeni bir konfransın çağırılması məqsədilə danışıqlara başladı və növbəti konfransda müzakirə olunacaq əsas məsələlər müəyyənləşdi: beynəlxalq sülh konfransında birgə iştirak və Qafqaz respublikalarının müstəqilliyinin müdafiəsi sahəsində əməkdaşlıq; sərhəd-ərazi mübahisələrinin sazişlər yolu ilə həlli; bu mümkün olmadıqda, arbitraj vasitəsilə nizama salınması məsələlərinin müzakirəsi [2, s.115]. Azərbaycan Xalq Cümhuriyyəti bu konfransın çağırılmasını ilk vaxtlardan alqışlamış, hətta buna görə Ermənistanla olan silahlı toqquşmaları dayandırmışdı. Azərbaycan nümayəndə heyəti adından Fətəli xan Xoyski, Məmməd Yusif Cəfərov və Məhəmməd Əmin Rəsulzadə konfransda təmsil olunurdular.

Qafqaz konfransı 1919 il aprelin 27-də Tiflisdə öz işinə başladı. Həmin vaxt Dağlılar Respublikası Denikin ordusunun hücumuna məruz qaldığı və ərazisinin əsas hissəsini itirdiyi üçün bu konfransa nümayəndəlik göndərə bilməmişdi. Konfransı Gürcüstanın Respublikasının xarici işlər naziri Y.Gegeçkori açaraq bildirdi ki, Qafqaz xalqlarının həyati mənafeyi müstəqillikləri üçün gələcəkdə yarana biləcək bütün təhlükələrə qarşı onların birləşməsini tələb edir. Bu istiqamətdə ilk addım siyasi və iqtisadi ittifaq yaramaq, vahid cəbhə təşkil etməkdir. Azərbaycan nümayəndə heyətinin başçısı Fətəli xan Xoyski və Ermənistan nümayəndə heyətinin başçısı, xarici işlər naziri S.Tiqranyan öz hökumətləri adından bildirdilər ki, Qafqaz xalqları birləşməlidirlər və yalnız bu halda birgə, razılıq əsasında yaşamaq mümkündür [2, s.115-116]. Konfransın gəldiyi ən əsas nəticələr o oldu ki, ərazi-sərhəd məsələlərinin həlli prinsipi müəyyən edildi, iqtisadi məsələlər də müəyyən razılığa gəlindi, köçəri əhalinin gedəcəyi hərəkət istiqamətləri müəyyən edildi [5, s.214].

1919-cu ilin yazından etibarən Ağqvardiyaçıların rəhbəri A.Denikin Şimali Qafqazda fəal hərbi əməliyyatlar keçirərək bu əraziləri işğal etmişdi və bu, son nəticədə Cənubi Qafqazda da "Denikin təhlükəsi" qorxusu yaratmışdı. Ona görə də, Azərbaycan və Gürcüstan rəhbərliyi Şimali Qafqazın işğalını qəti şəkildə pislədi və 1919-cu ilin iyunun 16-da Qafqaz dövlətlərinin müstəqiliyyini qorumaq məqsədilə iki dövlət arasında hərbi-müdafiə sazişi bağlandı. Sazişin 10-cu maddəsinə əsasən 2 həftə ərzində Ermənistanın da bu sazişə qoşulmağının mümkünlüyü qeyd olunsa da, Ermənistan rəhbərliyi vacib məqamda birliyə deyil, pozucu fəaliyyətinə əl atdı.

1919-cu ilin noyabr-dekabr aylarında Bakıda keçirilən Azərbaycan-Ermənistan konfransında, 1920-ci ilin aprelində keçirilən növbəti Qafqaz konfrasında Qafqaz xalqlarının birliyini təmin etmək üçün Qafqaz konfederasiyasının yaradılması fikri dəfələrlə səsləndirilsə də, hətta bu məqsədlə Qafqaz Respublikaları Şurasının yaradılması haqqında razılıq əldə olunsa da [2, s.113], təəssüf ki, AXC-nın bolşeviklər tərəfindən işğalı bu ideyanın gerçəkləşməsinə imkan vermədi. Gələcəkdə M.Ə.Rəsulzadə yazacaqdı: "Keçmişin acı səhvlərindən dərs götürən və gələcəklə bağlı ibrətamiz dərs alan Qafqaz xalqlarında birlik hissi get-gedə daha da qüvvətlənir. Aydın məsələdir ki, bu təbii prosesdən istifadə etmək və onun bütün mümkün yollarla xalqlarımız arasında hakim ideyaya çevrilməsinə nail olmaq lazımdır. Həm də bu zaman belə bir fikrə əsaslanmaq lazımdır ki, gələcəkdə Qafqazın siyasi birliyini nəzərə almadan atılmış hər bir addım yalnız Rusiyaya fayda gətirəcəkdir. Biz inanırıq ki, Qafqaz xalqları birlik naminə hər cür güzəşt və qurbanlara hazırdır. Rusiya ilə ümumi sərhədi olmasını istəməyən ölkələr bu ideyanı xüsusi rəğbətlə qarşılamalıdır" [6]. Birliyin yaradılmasına həm xarici amillər, həm də ərazi-sərhəd məsələsi ciddi şəkildə maneə olurdu. Birliyə xalqların və ictimai rəyin münasibəti siyasi xadimlərin fikirindən fərqli olaraq elə də müsbət deyildi.

***Ədəbiyyat siyahısı:***

*1. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. II clddə. I cild. –Bakı: "Lider nəşriyyat", 2004, 440 səh.*

*2. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. II cilddə. II cild. –Bakı: "Lider nəşriyyat", 2005, 472 səh.*

*3. Азербайджанская Демократическая Республика. Внешняя политика. (Документы и материалы). –Баку: издательство "Азербайджан", 1998, 632 с.*

*4. Əliyeva S. Azərbaycan Xalq Cümhuriyyəti və Şimali Qafqaz dövlətləri: müstəqillik illərində (1918-1920). –Bakı: "Avropa", 2020, 322 səh.*

*5. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). –Bakı: "GARİSMA" MMC, 2009, 576 səh.*

*6. Rəsulzadənin Qafqazin birliyi ideyası. Tərcümə: ədəbiyyatşünas, tənqidçi Vilayət Quliyev //https://modern.az/edebiyyat/275960/ resulzadenin-qafqazin-birliyi-ideyasi/. Müraciət tarixi: 19.05.2023*

# PARİS SÜLH KONFRANSINDA AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

**Cavidan Cəfərli**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi*
*ceferlicavidan0@gmail.com*

***Açar sözlər***: *Paris sülh konfransı, Azərbaycan Xalq Cümhuriyyəti, diplomatik əlaqələr.*

Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini 1918-ci ilin may ayında elan etmişdir. Lakin onun müstəqilliyi dünya dövlətlərinin əksəriyyəti tərəfindən ilk başlarda tanınmamışdı. AXC müstəqilliyini böyük güclərə tanıtmaq fürsətini 1919-ci ilin yanvar ayında əldə etdi. 1919-cu il yanvar ayının 18-dən 1920-ci ilin 21 yanvarına qədər Fransada "Paris Sülh Konfransı" keçirildi. Bu sülh konfransı əsasən Antanta dövlətləri ilə məğlub olmuş dövlətlər arasında müqavilələr imzalanmaq üçün çağırılmışdı. Lakin bu konfransda "rus məsələsi"nin də müzakirə olunacağı bəlli idi. AXC kimi çar imperiyasının ərazisində yaranmış yeni dövlətlər bu konfransa böyük ümidlər bəsləyirdilər. Azərbaycan hökümətinin nümayəndələri 1918-ci ildə Ənzəlidə General V.Tomsonla görüş zamanı konfransda iştirak edəcəkləri barədə böyük vəd almışdılar. Ə.M.Topçubaşov da İstanbulda bu istiqamətdə faydalı işlər görmüşdür. Ə.M.Topçubaşov F.X.Xoyskiyə yazdığı məktublarda konfransa göndəriləcək nümayəndə heyətinin diqqətlə seçilməsini və onların bu istiqamətdə hazırlaşdırılmasını vurğulayırdı. Parlament müzakirələrində də Paris sülh konfransı əsas müzakirə mövzusu idi. Azərbaycan XİN-in hazırladığı proqrama görə göndərilən nümayəndə heyətinin dörd mühüm vəzifəsi var idi.

Birincisi, ABŞ, Böyük Britaniya, Fransa və İtaliya müttəfiq dövlətlərinə, həmçinin digər neytral dövlətlərə Azərbaycanın müstəqilliyinin tanıdılması yolunda işlər aparılmalı idi.

İkincisi, müttəfiq dövlətlərdə tanınmış ictimai xadimlərlə, sosialist hərəkatı liderləri görüşərək onlarda Azərbaycan haqqında təsəvvür formalaşdırmaq idi.

Üçüncüsü, ictimai fikri Azərbaycan haqqında məlumatlandırmaq, onun xalqların həyatında oynaya biləcək rolunu aydın şəkildə izah etmək. Dördüncü vəzifə isə Azərbaycanın iqtisadiyyatını dirçəltmək üçün ticari dairələrlə əlaqə qurmaq idi. Xarici İşlər Nazirliyi tərəfindən nümayəndə heyətini Parisə göndərmək üçün 2,5 milyon manat vəsait ayrılmışdı. 1918-ci il dekabr ayının 28-də hökümət nümayəndə heyətinin tərkibini təsdiq etdi. Nümayəndə heyətinə Ə.M.Topçubaşov başçılıq edəcəkdi. Onun müavini Məmməd Həsən Hacınski idi. Əhməd bəy Ağayev və Əkbərağa Şeyxülislamov nümayəndə heyətinə daxil edildilər. Məsləhətçi kimi parlament üzvləri Mir Yaqub Mehdiyev, Məmməd Məhərrəmov və "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəyli heyətdə idi. Hökümət başçısının imzaladığı etimadnaməyə görə bu heyətə xarici

səfər zamanı istənilən ölkə ilə istənilən siyasi, iqtisadi müzakirələr aparmaq və müqavilələr imzalamaq hüququ verilirdi. Azərbaycan nümayəndə heyətinin Parisə səfərini asanlaşdırmaq üçün General V.Tomson öz imzası ilə rəy məktubu vermişdi.

M.Hacınski səfər zamanı hökümət başçısına və xarici işlər nazirinə bir neçə teleqram vurmuşdur. O bu teleqramlarda nümayəndə heyətinin qüvvətləndirilməsini və maliyyə məsələlərini vurğulamışdır. M.Hacınski Azərbaycan nümayəndə heyətinin digərlərindən zəif olduğunu bu teleqramda bildirmişdir. Azərbaycan nümayəndə heyəti Paris sülh konfransına gec qoşulmağa məcbur qalmışdır. Onlar İstanbulda Fransa tərəfindən viza verilməsini gözləyirdilər. Nümayəndə heyəti 1919-cu il aprelin 22-də İstanbuldan Parisə doğru yola çıxdılar. Onlar may ayı ərzində Polşa, Gürcüstan, İran, Ermənistan və Dağlılar Respublikası nümayəndələri ilə görüşlər keçirdilər. May ayının 23-də nümayəndələr ingilis nümayəndə heyəti ilə görüş keçirdi. Əsas məsələ kimi Bakıda general-qubernatorluğun ləğvi müzakirə olunurdu. May ayının 28-i Azərbaycan nümayəndələri Amerika Birləşmiş Ştatlarının prezidenti V.Vilson tərəfindən qəbul edildi. V.Vilsona AXC-in 1 illik inkişaf planı təqdim edildi və ondan müstəqilliyin tanınması istəndi. Lakin V.Vilson ermənilərin təzyiqi ilə Azərbaycana tərəddüdlə yanaşırdı. Bundan sonra da bir çox ölkə nümayəndəlikləri ilə siyasi və iqtisadi görüşlər keçirildi.

Nəhayət 1920-ci il 11 yanvar tarixində Paris Sülh Konfransı Ali şurasının qəbul etdiyi qərara əsasən Azərbaycanın müstəqilliyi de-yure olaraq tanınmışdı. Nümayəndə heyətimiz böyük uğur qazanmışdı. 1920-ci il aprelin 28-də isə rusların işğalı nəticəsində bu uğurun müəllifləri ömürlük mühacirət yaşamağa məcbur oldular.

### *Ədəbiyyat siyahısı:*

*1.Həsənli C.Azərbaycan Xarici Siyasəti (1918-1920).V fəsil. – Bakı:2009,576 s.*
*2.Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). – Bakı: Azərnəşr, 1993, 362 s.*
*3. Azərbaycan Xalq Cumhuriyyətin xarici siyasəti - /https://modern.az/az/news/ 161620*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QONŞU ÖLKƏLƏR İLƏ SƏRHƏDLƏRİNİ QORUMA CƏHDİ VƏ QAFQAZ KONFRANSLARI

**Fərid Əsədov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi (TEC üzvü)*
*sdovfrid41@gmail.com*

***Açar sözlər:*** *Qafqaz konfransları, 1919-cu il 23 Noyabr sazişi, AXC-nin xarici siyasəti*

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra əsas müzakirə mövzularından biriqonşu ölkələr ilə sərhədlərin müəyyən edilməsi idi. Məhz buna görə də 1918-ci ilin noyabrında Tiflisdə Birinci Qafqaz konfransı keçirildi. Konfransın əsas vəzifəsi münaqişələri nizamlamaq və əməkdaşlığı möhkəmləndirmək idi. Burada Dağlılar Respublikası da iştirak edirdi. Problemlərin həlli üçün Gürcüstan tərəfi 1918-ci il oktyabrın 27-də Azərbaycan, Ermənistan və Dağlılar respublikalarına müraciət edərək Zaqafqaziya Konfransında iştirak etmək məqsədilə Tiflisə səlahiyyətli nümayəndələr göndərməyi təklif etdi. Azərbaycan Xalq Cümhuriyyəti hökümətı bu təklifi razılıqla qarşılayaraq, noyabrın 11-də konfransda iştirak üçün Mustafa Vəkilov və Məmməd Yusif Cəfərovdan ibarət nümayəndə heyəti yaratdı. Lakin, 1918-ci ildən etibarən başlayan Ermənistan-Gürcüstan hərbi münaqişələri konfransın 2 dəfə təxirə salınmasına gətirib çıxardı. Ermənistan isə bu konfransda iştirak etməkdən imtina etdi. Səbəb olaraq isə ilk öncə Gürcüstanla olan ərazi münaqişələrini ikili danışıqlar yolu ilə həll etmək istədiyini bildirdi. Lakin bu konfrans uğursuzluqla nəticələndi.

**İkinci Qafqaz konfransı** isə 1919-cu ilin aprel-iyun aylarında Tiflisdə keçirildi. Burada Dağlılar Respublikası iştirak edə bilmədi. Buna səbəb isə ağqvardiyaçıların onları mühasirəyə alması idi. Fətəli xan Xoyskinin başçılıq etdiyi heyət və Gürcüstan xarici işlər naziri Y. Gegeçkori Qafqazda yaşayan xalqların ittifaqının yaradılmasını təklif etdilər. Bunun nəticəsi kimi Azərbaycan və Gürcüstan arasında hərbi müdafiə sazişi imzalandı [1, səh. 261-262]. Sazişə əsasən Gürcüstan Azərbaycana texnika və hərbi sursat göndərməli və əvəzində isə Azərbaycan Gürcüstanı neft ilə təmin etməli idi. Həmçinin, Fətəli xan Xoyskinin təklifi əsasında Qafqaz dövlətləri arasında münasibətlərin düzəldilməsi üçün konfransda ərazi-sərhəd mübahisələrinin həlli prinsipləri və yollarının müəyyən edilməsi, dəmir yolu, poçt və teleqraf əlaqələrinin təşkil edilməsi, ticarət, gömrük və maliyyə məsələləri, siyasi məsələlər (müstəqilliklərin qarşılıqlı tanınması, xarici təcavüzün qarşısının alınması, vətəndaşlıq məsələləri), məhkəmə-hüquq məsələləri,qaçqınlar və köçəri əhali üzrə komissiyaların yaradılması kimi mövzular müzakirə olundu. May ayı boyunca konfransdakı danışıqlar bu istiqamət üzrə aparılırdı [2].

**Üçüncü Qafqaz konfransı** 1919-cu ilin 14-21 dekabrda Bakıda baş tutmuşdur. Bu konfrans Azərbaycan-Ermənistan konfransı kimi də tanınır. Konf-

ransda verilən təkliflərdən biri Qafqaz Konfederasiyasının yaradılması idi. Konfransdan əvvəl 1919-cu ilin 23 noyabrında Azərbaycan və Ermənistan Respublikaları arasında saziş imzalandı. Bu görüşdə Müttəfiqlərin Ali komissarı vəzifəsini icra edən polkovnik Ceyms Rey, Ermənistan Hökumətinin başçısı Aleksandr Xatisyan, Azərbaycan Hökumətinin başçısı Nəsib bəy Yusifbəyli, Gürcüstanın Xarici İşlər naziri Yevgeni Gegeçkori iştirak edirdilər. Sazişin 4-cü bəndinə əsasən hər iki dövlət qarşıdan gələn konfransa eyni sayda nümayəndə göndərməli idi. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən konfransın sədri Fətəli Xan Xoyski, nümayəndələri Məmməd Həsən Hacinski və Rəhim bəy Vəkilov, Ermənistan tərəfindən isə nümayəndə heyəti Arutyunyan, knyaz Arqutinski-Dolqorukov və Bekzadyandan ibarət idi [2].

Həmin dövrdə İngiltərə höküməti də Cənubi Qafqazda regiondakı qonşu ölkələrin sülh içindəfəaliyyət göstərməsinə nəzarət üçün ingilis qoşunlarını Azərbaycana göndərmişdi. Əsas vəzifəsi Britaniyanın regiondakı siyasi və ticari maraqlarını sığortalamaq, regiondakı vəziyyəti stabilləşdirmək üçün göndərilmiş Britaniya nümayəndələrindən biri və Cənubi Qafqazdakı ingilis missiyasının rəhbəri, Britaniya hökümtənin keçmiş baş konsulu Oliver Uordropun məruzələrində rast gəlinir ki, ingilis qoşunlarının Azərbaycandan çıxarılmasından sonra 23 Noyabr 1919-cu il sazişi Ermənistan silahlı qüvvələri tərəfindən pozulmuşdur [3]. Dekabrın 15-də keçirilən növbəti bir iclasda 23 Noyabr sazişinə əsasən ərazi problemlərinin həlli yolunun müzakirə edilməsi ermənilər tərəfindən etiraza səbəb olmuşdu və səbəb olaraq münaqişələrin qəti həlli üçün uyğun şəraitin yetişmədiyi bildirilmişdi. Bu konfrans da qarşısına qoyduğu məqsədlərə nail ola bilmədən işini yarımçıq dayandırdı və baş tutan danışıqlar da öz bəhrəsini vermədi [2, səh. 152-153].

**Dördüncü Qafqaz konfransı** 1920-ci il aprelin əvvəllərində Tiflisdə keçirilmiçdir. Konfransın əsas müzakirə mövzularından biri Cənubi Qafqazda konfederasiyanın yaradılması idi. 1920-ci il aprelin 9-da Tiflisdə işinə başlayan sülh konfransı aprelin 11-də Qazax, Naxçıvan, Ordubad və Qarabağda baş verən qanlı toqquşmaların dərhal dayandırılması və ən sərt tədbirlərin görülməsi barədə qərar qəbul etdi ki, müvafiq respublikalar daxilində erməni və azərbaycanlı əhali arasında toqquşmanın mümkünlüyü istisna edilsin. Əlavə olaraq Uordrop məruzələrindəAzərbaycan Xarici İşlər naziri Fətəli Xan Xoyski 1920-ci il aprelin 9-da Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi Martiros Arutyunyan ilə görüşü zamanı Azərbaycanın ermənilərlə müharibə etmək niyyətinin olmadığnı, olsaydı Əsgərana olan hücumlar zamanı müdafiə üçün orada 50 əsgər saxlamazdı deyə bildirmişdi. Bu da öz növbəsində Qafqaz Konfranslarının nə qədər önəmli olduğunun və hətta Azərbaycanın o dövrdə belə qonşu ölkələr ilə münasibətlərini normallaşdırmağa çalışdığının göstəricisidir [3].

Erməni tərəfi isə konfransları, xüsusi ilə də dördüncü konfransı Azərbaycana qarşı hərbi hücumların davam etmədən əvvəl yenidən qruplaşmaq üçün bir şans kimi istifadə etdi. Ölkələr arasında razılaşma olmasına baxmayaraq Azərbaycan kəndlərinə hücumlar davam etdi və bu da Azərbaycanın qərbi sər-

hədlərində böyük bir hərbi dəstənin hücum təhdinin var olamsına səbəb oldu. Bunun nəticəsi idi ki, həmin ildə ermənilərin Qarabağa, eləcə də Zəngəzur regionuna olan iddiaları və hücumları kəskinləşdi. Ümumilikdə isə 1918-1920-cu illərdə keçirilmiş konfranslar qonşu ölkələr arasındakı ərazi iddilarının qarşısının alınmasında, öz qayə və məqsədlərinə çata bilməkdə uğursuz nəticə göstərdi.

***Ədəbiyyat siyahısı:***

*1.Abdullayev M., History of Azerbaijan (From the Antiquity to The First Decades of the 21st Century). - Bakı: "Bakı Universiteti", 2017, 398 s.*
*2.MahmudovY., Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild. - Bakı: "Lider nəşriyyat", 2004, 471 s.*
*3. Azərbaycan Xalq Cümhuriyəti dövründə Qarabağ və Zəngəzur ətrafında hərbi diplomatik mübarizə. /https://story.karabakh.center/az/qarabag-ve-zengezur-etrafinda-herbi-diplomatik-mubarize*

# ÜZEYİR HACIBƏYOVUN İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ

**Murad Böyükxanov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi (TEC üzvü)*
*muradboyukkhan03@gmail.com*

***Açar sözlər:*** *Cümhuriyyət, Azərbaycan qəzeti, məqalə, parlament*

Qısa zaman kəsiyində mövcud olmasına baxmayaraq bizə zəngin miras buraxmış Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında bir çox tarixi şəxsiyyətlərin mühüm xidmətləri olmuşdur. Belə şəxsiyyətlər sırasında Üzeyir Hacıbəylinin özünəməxsus yeri vardır. XX əsr Azərbaycan elmi-estetik fikrinə yön verən simalardan olmuş Üzeyir bəy müxtəlif illərdə Azərbaycan xalqının milli şüurunun oyanmasına xidmət etmiş feyletonların, məqalələrin müəllifidir.

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli 1885-ci ilin sentyabrın 18-də Ağcabədidə anadan olmuşdur. Təhsilini Qori Müəllimlər Seminariyasında aldıqdan sonra Kaspi, Həyat, Tərəqqi qəzetlərində müxtəlif yazılar çap etdirmişdir. 25 dekabr 1909-cu ildə ‘Həqiqət’ qəzetinin 1-ci nömrəsində ‘Bəyani məslək’ adlı baş məqalə ilə çıxış etmiş, jurnalist estetikası, mətbu işçinin vəzifələri kimi məsələlərə toxunmuşdur [3]. Bundan başqa Üzeyir bəyin publisistikasında bir çox məqalələr, feyletonlar daxildir. O, bu yazıları “Çi”, “Bəhmənkəs”, “Bisavad”, “Musiqiçi” imzaları ilə yazırdı [2, s.438].

Üzeyir bəyin ən misilsiz xidmətlərindən biri şərqdə ilk operanın banisi olmasıdır. Belə ki, 1908-ci il yanvarın 25-də Tağıyev teatrında onun ilk operası olan “Leyli və Məcnun” tamaşaya qoyulmuş, bununla da Azərbaycan şərqdə ilk opera məkanına çevrilmişdir.

Üzeyir Hacıbəylinin Cümhuriyyət yarandıqdan sonra da geniş fəaliyyəti olmuşdur. O, cümhuriyyət dövrü ərzində “Azərbaycan” qəzetində müstəqil dövlətçiliyimiz barədə geniş yazılar yazmışdır. Bu yazılar Cümhuriyyətimiz üçün həyati əhəmiyyət daşıyan məsələlər-Azərbaycan parlamenti, Qarbağ məsələsi, Paris sülh konfransı və s. haqdadır. Üzeyir bəy Hacıbəylinin publisistikasının əsas amalı - milli istiqlala sədaqət, mübarizlik, cəsarət və tərəqqi inancları üzərində köklənirdi. "Mühüm məsələlər", "Partiyalarımıza", "Təəssürat", "İstiqlal və istiqbal ümidi", "Tarixi günümüz", "Vəzifəmiz nədir", "Lənkəran faciəsi", "Fitnələr qarşısında", "Naxçıvan və Qarabağ", "Qarabağ haqqında", “İçimizdəki Denikinlər”, “Ermənistan və Azərbaycan münasibəti” və s. yazılar Üzeyir bəy Hacıbəylinin uzaqgörən siyasətçi, əqidəli publisist olduğunu bariz şəkildə göstərir [4]. Üzeyir bəy 1918-ci il dekabrın 7-də Parlamentin açılış mərasimində iştirak etmişdir. O bütün bunları “Tarixi günümüz” və “Təəssürat” məqalələrində qeyd etmişdir. Sonra Ü.Hacıbəyli təsirli bənzətmələrlə fikrini gücləndirərək yazırdı: "Parlaman imarətinin içində ziynət cümləsindən diqqəti cəlb edən şey qiymətli xalılar deyil idi, bəlkə qiyməti ucuz, lakin mahiyyəti-milliyyə və siyasiyəsi dedikcə baha olan üçrəngli milli bayrağımız idi" [2, s.440].

İstənilən dövlət və millət üçün milli marş ən vacib məsələlərdən biridir və Azərbaycan Xalq Cümhuriyyətində bu məsuliyyəti Üzeyir bəy öz üzərinə götürmüşdü. Hələ Cümhuriyyətdən də xeyli əvvəl sözlərinin də özünün yazdığı milli marşın müəllifidir. O deyirdi: "Bax, sus bu zamanda bizim dəxi buna böyük ehtiyacımız vardır. Milli bir qəsidə yazmaq haqqında bən bir müddətdir ki, çalışıram. Hələlik bir milli marş yazmışam ki, sözlərini burada dərc etmək lüzumsuz bilmədim" [1, s.21].

Cümhuriyyət dövrünün ən böyük musiqi hadisəsi Üzeyir bəy Hacıbəylinin bəstələdiyi və sonralar dövlət himni kimi qəbul edilən "Azərbaycan" marşıdır. Tədqiqat işində dövlət atributları sırasından milli himn müsabiqəsi üçün yazılan bu marşın yaranma tarixi araşdırılmış, qeyd edilmişdir ki, "Azərbaycan" marşı 1919-cu ilin aprel ayında hazır idi. Üzeyir bəyin cümhuriyyət dövründə yaratdığı "Milli marş", "Çırpınırdın Qara dəniz" mahnı- marşları, "Azərbaycan", "Dağıstan" balet rəqsləri müasir çağımızadək müasirliyini, populyarlığını qoruyub saxlayır.

Ü.Hacıbəyli Cümhuriyyətimizin 1 yaşında Azərbaycan istiqlalının mövcud durumunu belə təqdim edirdi: "Biryaşlı dövlətimiz gələcəkdə və yaxın gələcəkdə türklüyün ümidgahı, islamlığın pənahı və aləmi-mədəniyyətin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda hər kəsə bildirməkdədir" [2, s.441].

Üzeyir bəy o zaman Qarabağda baş verən hadisələrə də biganə qalmamış, Azərbaycan qəzetində bu barədə yazılar çap etdirmişdir. O, ermənilərin törətdikləri vəhşiliklərdən yazırdı.

Ü.Hacıbəylinin "İstiqlal və istiqlal ümidi" məqaləsi Versalda keçiriləcək Sülh Konfransına həsr edilib. O, yazırdı ki, həmin toplantıda istiqlalımıza "hə" və "yox" nəticəli qərar veriləcəkdir və oraya göndərilən nümayəndələrimiz çalışıb Azərbaycanı dünyaya tanıtmalıdır. O, narahatlıq içərisində yazırdı: "Lakin Allah eləməsin ki, "yox" xəbəri ilə qayıtsınlar! O halda bütün ümidlərimiz, bütün amal və arzumuz məhv və nabud olub da, əvəzində qeyri-qabil təsəlli, bir hüzn və olduqca dərin bir yas və əməl əmələ gəlib, artıq dünya üzündə yaşamaq həvəsindən düşərək və ya yaşasaq da ölü olduğumuzun və ya diri qaldığımızın heç bir fərqi olmaz, çünki hüquqi-siyasi və milliyyəsindən məhrum edilmiş olan bir millətin diriliyi ölülüyünə bərabərdir" [2, s.440]. Üzeyir bəy 1918-ci ilin mart soyqırımı günlərində erməni terrorundan yaxa qurtararaq truppa ilə birlikdə bir neçə aylığa İrana səfər edib, burada tamaşalar hazırlayıb. Təəssüf ki, Sovet dövründə bu məcburi mühacirət "qastrol" kimi qələmə verilib [4].

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə ölkə daxilində mane olanları Ü.Hacıbəyli "İçimizdəki Denikinlər" adlandırıb yazırdı: "Bir Denikin var ki, bizi xaricdən təhdid edir. Bir çox denikinlər də var ki, içimizə dolub, ən xətərli yerlərimizdə gizlənib də bizi daxildən qorxudurlar" [5]. Ü.Hacıbəylinin "Azərbaycan" qəzetindəki son yazısı "Zurna" adlanırdı. Yazı 1920-ci ilin aprelin 25-də qəzetin 82-ci sayında "Çı" imzası ilə çap olundu.

Sovet hakimiyyətinin ilk illərində Üzeyir Hacıbəyli represiya təhlükəsi ilə

üzləşmişdir. Hökmü çıxarılan 59 nəfər içərisində onun da adı mövcud idi, amma xoşbəxtlikdən bu baş tutmur. Nərimanovun səyləri nəticəsində Üzeyir bəyin adı bu siyahıdan çıxarılır. Bundan sonra ömrünün sonuna kimi yaradıcı fəaliyyətinə davam etmişdir.

Üzeyir bəy vəfat edəndə vaxtilə əqidə dostu olmuş Məhəmməd Əmin Rəsulzadə bu hadisəyə dair məqalə yazıb. Rəsulzadə məqalədə qeyd edirdi ki, "bu gün Üzeyir bəyin tabutunun başında Sovet komissarları növbə tutsalar da, onu heç vaxt sovetləşdirə bilmədilər. Üzeyir bəy hər zaman milli qaynaqlarımıza söykənən insan olaraq qaldı və həmişə də bizim üçün bu cür insan olaraq xatırlanacaq".

Bir sözlə, Üzeyir Hacıbəyli müasir Azərbaycan musiqisinin banisi olmaqla yanaşı, ömrünü Azbaycan dövlətçiliyi yolunda siyasi-ictimai fəaliyyətə həsr etmişdir. Onun bu fəaliyyəti Cümhuriyyətimizdə böyük rola sahib olmuş və Üzeyir bəy öz adını Cümhuriyyətimizin şanlı səhifələrinə həkk edə bilmişdir.

### *Ədəbiyyat siyahısı:*

*1. XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixinin qaynaqları (1918-1920). /toplayanı və tər. ed., giriş məqaləsi, lüğət və adlar göstəricisinin müəl. F. Ş. Əliyeva. - Bakı: "Nurlan", 2005, 452 səh. illüstr. 28 səh.*
*2.Yaqublu N. Cümhuriyyət qurucuları. – Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018, 504 səh.*
*3.Hafizova Sabina. Üzeyir Hacıbəyovun Azərbaycan mətbuatında rolu. /http://www.anl.az/down /meqale/kaspi_az/kaspi_az_fevral2009 /70223.htm Müraciət tarixi: 19.05.2023*
*4. Rüstəmli Asif. Professor Fərəh Əliyevanın "Üzeyir Hacıbəyli Cümhuriyyət dönəmində" kitabı haqqında düşüncələr. // https:// www.azerbaijan-news.az/posts/detail/milli-meneviyyat-etalonu-uzeyir-bey-hacibeyli-1631132343 Müraciət tarixi: 18.05.2023*
*5. Üzeyir Hacıbəyli. İçimizdəki Denikinlər. // https://ihlam. Word.press.com /2012/02/17 / uzeyir-hacib%C9%99yli-icimizd%C9%99ki-denikinl%C9%99r/.*

# POLŞA TATARLARININ AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN TARİXİNDƏ OYNADIĞI ROL – OLQRED KRİÇİNSKİ

**Tural Qaffarov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi (TEC üzvü)*
*qaffarovtural75@gmail.com*

***Açar sözlər:*** *Ədliyyə nazirliyi, prokuror, beynəlxalq münasibətlər, Zaqafqaziya Respublika Şurası*

Bu il yaranmasının 105 illiyi tamam olan Azərbaycan Cümhuriyyətinin qısa, lakin şərəfli tarixində Şərqi Avropa türklərinin-Polşa tatarlarının özünəməxsus rolu və xidməti olmuşdur. Milli ordumuzun ilk Ümumi Qərargah rəisi, general-leytenant Masey Sulkeviçin timsalında (1865-1920) tatar əsilli polyak hərbçilərinin Azərbaycana sədaqətli xidmətini unutmaq olmaz.

XX əsrdə Polşa tatarlarının yetirdiyi digər görkəmli şəxsiyyətlərindən biri olan Olqerd Kriçinski Azərbaycan Cümhuriyyətinin qısa ömürlü tarixində, istər ədəbi dairələrdə, istər dövri mətbuat səhifələrində, istərsə də gənc milli dövlətin idarəçilik sistemində müəyyən izlər qoydu.

Polşanın ictimai-siyasi xadimi Olqred Nayman Mirzə Kriçinski 22 oktyabr 1884-cü ildə Vilnüsdə anadan olub. Qeyd etmək lazımdır ki, soyadına əlavə olunmuş Nayman Mirzə ünvanı Olqred Kriçinskinin tatarların Nayman boyuna və zadəgan-knyaz ailəsinə mənsub olduqlarını göstərirdi [1, s.1250]. O, 1908-ci ildə Peterburq Universitetinin hüquq fakültəsini bitirib. Olqred Kriçinski 1910-1913-cü illərdə Türküstanın məhkəmə idarələrində, 1914-1918-ci illərdə Ukrayna Vinnis dairə məhkəməsində prokuror müavini, daha sonra isə Simferopol dairə prokuroru vəzifələrində işləmişdir.

1919-cu ilin baharında Səməd bəy Mehmandarov və general Əliağa Şıxlinski tərəfindən Bakıya dəvət alan Matvey Aleksandroviç Sulkeviç Azərbaycan silahlı qüvvələrinin Baş Ştabına rəis təyin olunmuşdu. Müstəqil Azərbaycan quruculuğuna kömək etmək arzusunda olan və eyni zamanda bu sahədə ixtisaslı kadrların çatışmadığını görən Sulkeviç Olqred Kriçinskini Bakıya dəvət edir. 1919-cu il iyunun 9-da O. Kriçinski Bakı şəhər məhkəmə palatasına prokuror təyin olunur. O.Kriçinskinin təklifi və iştirakı ilə 1919-cu ilin iyun ayında altı aylıq hüquq kursları açıldı. Kurslarda O.Kriçinski özü də dərs deyirdi. Azərbaycan Cümhuriyyəti hökumətinin fərmanı ilə 1919-cu il 7 iyul tarixində Bakı şəhər məhkəmə palatasının prokuroru O.Kriçinski ədliyyə nazirinin müavini təyin edilir [3, s.36-39].

Ədliyyə naziri Aslan bəy Səfikürdskinin rəhbərliyi altında çalışan O.Kriçinski nazirliyin nəzdində fəaliyyət göstərən ’’Məhkəmə sahəsinə dair qanun müddəalarına yenidən baxılması üzrə komissiya’’nın zəif işinə xüsusi diqqət yetirir. Qeyd etmək lazımdır ki, həmin komissiyanın tərkibinə 4 alt komissiya daxil idi: 1)’’Mülki hüquq və prosesə dair bəzi qanun müddəalarına yenidən

baxılması üzrə'' 2) ''Yerli məhkəmələr üzrə'' 3) ''Ədalət mühakiməsinin həyata keçirilməsinə ictimaiyyət nümayəndələrinin cəlb edilməsi üzrə'' 4) ''Ali Məhkəmənin təsis edilməsi üzrə''. Onlardan yalnız birincisi bir neçə dəfə toplaşmışdı, lakin onun da fəaliyyəti çox ləng gedirdi. İlk növbədə, bu komissiyanın tərkibinə O.Kriçinski də daxil edilmişdir. Onun fəaliyyəti nəticəsində komissiyaya 5-ci alt komissiya-''Cinayət hüququ və prosesinə dair bəzi qanun müddəalarına yenidən baxılması üzrə'' adlı komissiya əlavə olunur və komissiyaya rəhbərlik O.Kriçinskiyə tapşırılır. O.Kriçinski ədliyyə nazirinin müavini vəzifəsində işlədiyi ilk günlərdən yetərli hüquqi ədəbiyyatın olmamasının fərqinə varmış, bununla əlaqədar Ədliyyə Nazirliyində kitabxana yaradılması haqda göstəriş vermişdi [3, s. 36-39].

O.Kriçinskinin Cümhuriyyət hökümətindəki fəaliyyəti tək ədliyyə deyil, beynəlxalq münasibətlər sahəsini də əhatə edirdi.Azərbaycanın işğalına uğradığı 1920-ci ilin aprelində o, Tiflisdə idi. Burada aprelin 7-də Azərbaycan hökumətinin təşəbbüsü ilə mübahisəli sərhəd məsələlərini və üç Cənubi Qafqaz respublikasının vahid konfederasiyada birləşmə ideyasını müzakirə məqsədi ilə konfrans çağırılmışdı [2, s. 52].

Azərbaycan nümayəndə heyətinin təkidi ilə Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları arasında əlaqələrin inkşaf etdirilməsi ilə bağlı ''Zaqafqaziya Respublikaları Şurası'' adlı qurumun yaradılması qərara alınmışdı. Həmin şuranın layihəsini hazırlayan isə O.Kriçinski idi. 24 maddəlik həmin layihə konfransın 1920-ci ilin 22 aprelində keçirilən iclasında təsdiqlənmişdi [4, s. 41].

28 aprel 1920-ci ildə bolşevik Rusiyasının XI Qırmızı Ordusunun Bakını işğal etməsini və Cümhuriyyət tərəfdarlarının həbs edildiyini öyrənən O.Kriçinski Xəlil bəy Xasməmmədovla birgə İstanbula, oradan isə Rumıniyadan keçərək Vilno şəhərinə-ailəsinin yanına gəldi. 1928-ci ilədək Litvanın müxtəlif - şəhərlərində barışdırıcı hakim işləmiş, daha sonra Vilen dairə məhkəmə palatasında müavin vəzifəsinə təyin edilmişdir. 1932-ci ilin 1 avqustundan 1938-ci ilədək Varşava Kassasiya məhkəmə orqanında çalışmış, daha sonra Vilno şəhər məhkəmə palatası sədrinin müavini vəzifəsinə keçirilmişdir. 21 iyul 1940-cı ildə Xalq Seymi Litva SSR-nin yaradılması haqda qərar qəbul editdikdən sonra 3 avqust tarixində yeni respublika SSRİ-nin tərkibinə daxil oldu. O,1942-ci il mayın 2-də SSRİ Daxili İşlər Xalq Komissarlığında keçirilmiş xüsusi yığıncağın qərarına əsasən, güllələnmə cəzasına məhkum olunmuşdu. Hökm 2 iyun 1942-ci ildə yerinə yetirilmişdi [3, s. 36-39].

Polşa tatarlarının sağlam milli düşüncəyə, zəngin bilik və idarəçilik təcrübəsinə malik təmsilçisi kimi tanınan Olqerd Kriçinski Türk dünyasında ilk Cümhuriyyətin çətin və məsuliyyətli dövründə Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət etmişdi. Azərbaycandan uzaqda olduqları illərdə isə xalqımıza həqiqi məhəbbəti, onun qədim tarixinə, yüksək mədəniyyətinə və böyük gələcəyinə bəslədiyi inam və etimad hissini bütün həyatı boyu ürəyində yaşatmışdır. 26 may 2013-cü ildə isə Azərbaycanın Polşadakı səfirliyinin xətti ilə Qdansk şəhər Tatar Mədəniyyət Mərkəzində Olqerd Kriçinskinin xatirə lövhəsinin açılışı olmuşdur.

**Ədəbiyyat siyahısı:**

*1. Quliyev V. Azerbaycan Cümhuriyyetinin (1918-1920) devlet yönetimindeki polonya tatarları: Leon Kriçinski.''Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi", 8 (2), 2019, s.1249-1262*
*2. Quliyev V. Polşa tatarları Azərbaycan Cümhuriyyətinin (1918-1920) dövlət idarəçiliyində-Olqred Kriçinski.''Azərbaycan MEA-nın xəbərləri". İctimai elmlər seriyası, 2018, №3, s.51-58*
*3. Rzayev R. ADR dövründə ədliyyə nazirinin müavini işləmiş Olqred Konstantinoviç Kriçinski.''Qanunçuluq'', 2014, № 3, s 36-39*
*4. Nəsiman Y. Polyakların Azərbaycanda fəaliyyəti. - Bakı: "Mütərcim", 2021, s. 144*

# ƏHMƏD BƏY AĞAOĞLUNUN İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ (1894-1921-Cİ İLLƏR)

**Mərziyə Xudiyeva**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi (TEC üzv)*
*xudiyeva.marziye@mail.ru*

***Açar sözlər:*** *Əhməd bəy Ağaoğlu, "Difai" partiyası, Nuri paşa, Məhəmməd Əmin Rəsulzadə, Azərbaycan Xalq Cümhuriyyəti.*

> ***"****O zamankı qızğın illərdə Ağaoğlu Əhməd qədər heç bir kəs milli hərəkat və milli dava cəbhəsinin atəş xəttində bulunmamışdır...****"***
>
> ***Məhəmməd Əmin Rəsulzadə***

Əhməd bəy Ağaoğlu 1894-cü ildə Fransadakı təhsilini bitirən kimi Tiflisə gəlir və buradakı 2 illik fəaliyyətindən sonra Şuşaya qayıdır. Burada real məktəbdə fransız dilindən dərs deyir, xalqı maarifləndirmək üçün kitabxana açdırır, ilk teatr tamaşalarını təşkil edir. Beləliklə xalqın gözündə "Firəng Əhməd" doğulur. 1897-ci ildə H.Z.Tağıyev, 57 min rubla aldığı "Kaspi" qəzetinin mətbəəsinə milli ziyalılarımızı da cəlb etmişdi və Əhməd bəyə Bakıya gəlməsi üçün təklif göndərmişdi [4, s.84]. Əhməd bəy burada qəzetin əsas müəlliflərindən olur. Bakıdakı fəaliyyəti yalnız bununla bitmirdi, həmçinin buradakı real məktəbində də fransız dilindən dərs deyirdi. Əhməd bəy Ağaoğlu "Kaspi"də dərc etdirdiyi "Müsəlman söhbətləri", "Müsəlman xalqlarının vəziyyəti" adlı silsilə məqalələrində müsəlman xalqlarının düşdüyü acınacaqlı vəziyyəti təhlil edirdi. Xalq arasında artan nüfuzu onun 1902-ci ildə Bakı Şəhər Dumasında *qlasnı* (deputat) olaraq fəaliyyət göstərməsinə səbəb olmuşdur və burada Bakıdakı müsəlman əhalisinin başqa xalqların əhatəsindən azad olması üçün fəaliyyət göstərirdi. Əhməd bəy 1904cü ildə Bakı dumasının iclaslarında bir neçə dəfə müsəlmanların problemləri ilə yanaşı, Bakı şəhər əsasnaməsinə yenidən baxılması və onun yeni dövr şəraitinə uyğunlaşdırılması məsələsini qaldırmışdı [2, s.17]. Bu məqsədlə, hətta dumada komissiya yaradılmış, lakin I Rus inqilabı bu ideyanın gerşəkləşməsinə imkan verməmişdir.

1905-ci ilin yanvarında başlayan I Rus inqilabı Azərbaycanda milli mübarizənin yeni inkişaf etmiş formasının yaranmasına gətirib çıxardı. Bu inqilabın dönüş nöqtələrindənbiri ziyalıların, Cənubi Qafqaz müsəlman icmasının rəhbərliyini öz üzərinə götürməsi olmuşdu. Həmin ziyalılardan biri olan Ağaoğlu XX əsrdə Əli bəy Hüseynzadə ilə birlikdə "Həyat" qəzetini, ardınca isə "İrşad" qəzetinin baş redaktoru olmuşdur. Bu qəzetlərdə Əhməd bəy dövrün ictimai-siyasi hadisələrindən xəbər vermiş, erməni-azərbaycanlı münaqişəsinə toxunmuşdu. 1905-ci ildəki qırğınlardan sonra xalqların ziyalı nümayəndələri, nüfuzlu din xadimləri küçə-küçə gəzərək hər iki tərəfi sakitləşdirməyə, qan tökülmə-

sinəson qoymağa çağırırdı. Bu qırğınlara son qoymaq üçün 1906-cı ilin fevralında Tiflisdə sülh konfransı çağırıldı, lakin tarixçilərin indiyə qədər Vorontsov - Daşkovun fikri kimi tanıdığı bu təşəbbüsü Fərhad Cabbarovun tədqiqatı sübut edir ki, ilk dəfə Əhməd bəy Ağaoğlu irəli sürmüşdür. O, 8 sentyabr 1905-ci il "Həyat" qəzetinin 60 nömrəli sayında dərc olunan "Bir əlac" adlı məqaləsində canişin Vorontsov - Daşkov tərəfindən Tiflisdə, hər iki millətin öz iddia və xahişlərini səsləndirən seçilmiş nümayəndə və vəkillərdən ibarət olan "məclisi-ümumi"nin təşkil olunmasını qeyd edirdi. Əhməd bəyin bu istəyi 1906-cı ilin fevralında nəzərə alınmışdı [2, s.86]. Konfransda müzakirə olunan iki əsas məsələdən biri Azərbaycan əhalisinin yaylaqlara köçürülməsi, digəri isə erməni qatil dəstələrinin fəaliyyətinə son qoyulması idi və Əhməd bəy buna kəskin şəkildə etiraz etmişdi. O, bu çıxışı zamanı qəflətən özünü itirir və digər otaqda həkim müayinə etdikdən sonra yenidən iclas otağına qayıdır. M.S.Ordubadi bu haqda yazır ki, "Cənab Əhməd bəy Ağayev milləti uğrunda bu qədər cidd-cəhdlə çalışdığını görüncə onun nə dərəcədə millətsevər olduğu hamıya məlum olur". 1906-cı ilin payızında ermənilərin terroruna cavab olaraq yaradılmış "Difai" partiyası Əhməd bəyin Tiflis sülh konfransından əldə edə bilmədiyi nəticənin "məhsulu" idi. Bu partiyanın quruluş səbəblərindən biri də xalqı maarifləndirərək, onu düşməninə qarşı gücləndirmək idi [3, s.197]. Əhməd bəy ağıllı siyasət yürüdərək İrşad qəzetinin Azərbaycan türkcəsində olan proqramında rus məmurlarına qarşı ittiham irəli sürmədiyi halda, rus dilindəki proqramında nəinki ittiham, hətta kəskin tənqid etmişdir [2, s.107]. "Difai" partiyası erməni silahlı birləşmələrinə və əsasən də ermənilərin "Daşnaksütyun" və "Hnçak" kimi terorist partiyalarına qarşı mübarizə məqsədi güdürdü, elə bu məqsədlə ermənilərə köməklik edən  Naxçıvan qəza rəisi - A. Enkeli öldürmüş, Şuşa generalqubernatoru isə V.N.Qoloşapovu yaralamışdır [2, s.111]. Bu səbəbdən ***"Difai-daşnak münaqişəsi"*** (M.X.) şəklində adlandırdığımız bu məsələdə Əhməd bəy və silahdaşları çoxlu təzyiqlərə məruz qalmışdır. Əhməd bəyin xatirələrinə əsasən bizə məlum olur ki, ailəsi ilə birgə 1908-ci ildə Osmanlı imperiyasına mühacirət səbəbi də məhz bu cür siyasi fəaliyyəti olub [1, s.7]. Türkiyədə fəaliyyətini davam etdirən Ağaoğlu artıq ümmətçilikdən millətçiliyə doğru addım atmışdı və bu özünü soyadındakı dəyişiklikdə də büruzə verirdi [7].

1918-ci ildə Cənubi Qafqazda hərbi-siyasi vəziyyət çox qarışıq idi və Azərbaycan torpaqlarında gərgin vəziyyət hökm sürürdü. (Əsas şəhər Bakı bolşevik və daşnakların əlində idi.) Osmanlı hökuməti Azərbaycan türklərinə yardım etmək üçün Nuri paşanın başçılığı ilə Qafqaz İslam ordusunu köməyə göndərdi [3, s.326-327]. Qafqaz İslam ordusu tərkibində Azərbaycanı yaxşı şəkildə tanıya biləcək peşəkar mütəxəssislər lazım idi, ona görə Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə də bu ordunun tərkibinə qatılmışdı. Hərbi komandanlığın siyasi müşaviri olmuş Əhməd bəy AXC liderləri ilə birbaşa vasitəçi rolunu oynayırdı. O, gərgin iş şəraitinə baxmayaraq Gəncədə yaşadığı dövrdə "Türk sözü" adlı qəzet buraxmış, amma Bakının azad edilməsinə qədər qəzetin 2 nömrəsi işıq üzü görmüşdü. 1918-ci ilin iyunun 16-da Tiflisdən Gəncəyə köçən

AXC hökümətinə qarşı Nuri paşa və onun ətrafındakılar soyuq münasibət bəsləyirdi. Azərbaycanın müstəqilliyinə şübhə ilə yanaşan Nuri paşa ilə hökümət üzvləri arasında ziddiyyətlər yaranmışdı. Həmin ziddiyyətli məsələləri həll etmək üçün M.Ə.Rəsulzadə, Fətəli xan Xoyski və M.H.Hacınskidən ibarət nümayəndə heyəti Nuri paşa ilə görüşə getmişdi. Nuri paşa isə, siyasi məsələlər üçün, onları Əhməd bəyə yönəldərək özünün hərbçi olduğunu dilə gətirmişdi. Ağaoğlu nümayəndə heyətini sərt etirazı ilə qarşıladı, onun fikrincə AXC hakimiyyəti xalq arasında öz nüfuzunu itirmiş və əhali arasında üsyan təhlükəsi yaranmışdı. Sətiraltı şəkildə Nuri paşanın hökümətin demokratik islahatlarından narazı olduğunu və beləliklə, Milli Şura ilə hökümətin buraxılaraq, Nuri paşanın istədiyi adamlardan bir hökümət qurulmasını tələb etmişdi. M.Ə.Rəsulzadə başda olmaqla, Azərbaycan nümayəndə heyəti bu tələbə sərt şəkildə etiraz edərək, Azərbaycanın Osmanlı dövləti tərkibinə heç bir halda qatılmayacağını bəyan etmişdi [6, s.82-89].

Sonda gəlinən razılığa əsasən, Ə.Ağaoğlu öz fikirlərindən daşınmış, əvəzində Milli Şuranın bütün səlahiyyətlərinin F.X.Xoyskinin rəhbərlik etdiyi II hökümətkabinetinə verilməsinə razılaşmışdı. 17 iyun böhranı dövründə onun mövqeyi ilə bağlı onu da qeyd edə bilərik ki, o zaman aparılan müzakirələr yeni deyildi və AXC-nin təşəkkülü ərəfəsində də Ənvər paşa ilə aparılmışdı. 1918-ci ildə Nuru paşa ilə AXC hökuməti arasında yaranmış soyuq münasibətlər daha çox onun cümhuriyyətçiliyi, Avropanın dəyəri kimi qiymətləndirməsi və Bakı uğrunda iri dövlətlər arasında gedən gərgin mübarizədə proseslərə tam nəzarət etmək istəyi ilə bağlı idi [Rövşən Hətəmov; daha ətraflı bax: 6, s. 82-89]. Əhməd bəy AXC parlamentindəki çıxışında Cümhuriyyətin xarici dövlətlər tərəfindən tanınması məsələsini dilə gətirərək, 1918-ci ilin dekabrın 28-də Paris sülh konfransına gedəcək nümayəndə heyətinin tərkibində yer alırdı. 9 yanvar 1919-cu ildə əvvəlcə Tiflisə yola düşən Əhməd bəy və nümayəndə heyəti 20 yanvarda artıq İstanbula çatmışdı və gəlinən razılığa əsasən Əhməd bəy nümayəndə heyyətinin siyasi publisistika məsələləri ilə məşğul olacaqdı [5, s.227]. Lakin onun adı "İttihad və tərəqqi" partiyasının rəhbərləri ilə birlikdə çəkildiyinə görə həbs edilərək, Malta adasına sürgün olunmuşdu. 1921-ci ildə Atatürkün təşəbbüsü ilə ingilis hərbi əsirləri ilə dəyişdirilən sürgün olunanlar arasında Ə.Ağaoğlu da yer alırdı. Atatürklə Əhməd bəy arasındakı ***"Dalğalı dostluğun"*** təməli də bu cür atılmış oldu. Təbii ki, bu cür dahi şəxsiyyət haqqında bir tezis ətrafında danışmaq çox çətin məsələdir. Özünə və məqaləsinə verdiyi "Mən kiməm?" sualına gördüyü işlərlə cavab verən Əhməd bəy Ağaoğlunun fəaliyyətindən də aydın olur ki, böyük işlər görmək üçün yalnız ideya kifayət etmir, bunun üçün cəsarət də önəmli rol oynayır.

### *Ədəbiyyat siyahısı:*

*1. Ağaoğlu Ə. Xatirələr – Tərtib, türkcədən uyğunlaşdırma, müqəddimə, izah və şərhlər Vilayət Quliyevə məxsusdur. –Bakı: TEAS Press Nəşriyyat evi, 2019, 216 s.*

*2. Ağaoğlu Ə. Qafqazda milli məsələ. Məqalələr və sənədlər toplusu (tərtib edən, ön söz, qeyd və şərhlərin müəllifi F.R.Cabbarov). - Bakı: Mütərcim, 2019, 278 səh.*
*3. Balayev A. Əhməd bəy Ağaoğlu: dahi mütəfəkkir, qorxmaz fədai və yorulmaz millət qurucusu (1869-1939). –Bakı: JekoPrint Çap Evi, 2021, 508 səh.*
*4. Əliqızı S. Türk dünyasının mübariz mütəfəkkiri. - Bakı: "Elm və Təhsil", 2019, 296 səh.*
*5. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). – Bakı: "GARİSMA" MMC, 2009, 576 səh.*
*6. Hətəmov R. - "17 iyun böhranını doğuran səbəblər haqqında". - Bakı: "Tarix və onun problemləri" jurnalı, № 2, 2002*
*7. Əhməd bəy Ağaoğlu: İran patriotu, pantürkçü, müsəlman islahatçı, türk millətçisivə nəhayət liberal – Britaniya Akademiyasının müxbir üzvü və Queen Mary Universitetinin üzvü Dr. Harun Yilmaz //https://www.bbc.com/azeri/-articles/cev4p99r95no - Müraciət tarixi: 19.05.2023*

# XOSROV BƏY SULTANOV AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN KEŞİYİNDƏ

**Rəmzi Səfərli**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi (TEC üzvü)*
*ramzisafarli0@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan, Xosrov bəy Sultanov, AXC, ərazi*

Xosrov bəy Sultanov indiki Laçın rayonu Kürdhacılı kəndində anadan olub. Müəyyən yaşdan sonra atası onu Şuşaya təhsil almağa göndərmiş və buradakı məktəbi bitirdikdən sonra Gəncə şəhərindəki gimnaziyada təhsilini davam etdirmişdir. O, daha sonra Odessaya ali təhsil almağa getmiş və Odessa Hərbi Məktəbində tibb üzrə təhsil almışdır.

I Dünya müharibəsi illərində Bakı Müsəlman Yardım Cəmiyyətinin Qafqaz cəbhəsindən gələn qaçqınların yerləşdirilməsi şurasında rəhbər olmuşdur. Bu şöbə Qafqaz cəbhəsindəki hərbi əməliyyatlardan qaçqın düşənləri yerləşdirmək üçün Tiflisdə açılmışdı. 1917-ci ildə Müsavat partiyasına qatılmış və Transqafqaziya Seyminə seçilmişdir. Nəriman Nərimanov və Xosrov bəy Sultanov tələbə yoldaşı olmuşdular.

Xosrov bəyin həyatında qəribə hadisələrdən biri də həyat yoldaşı ilə bağlıdır. Belə ki, tələbəlik dövründə küçədən keçərkən bir rus zabitin yoldan keçən qıza nalayiq hərəkətini görən Xosrov bəy qızı müdafiə edir və bu duellə nəticələnir [1]. Birinci gülləni zabit atır və güllə Xosrov bəyin gözünü zədələyir, amma yaralı Xosrov bəy də zabiti öldürür [1]. Sonra məlum olur ki, həmin qız Odessa Universitetinin rektorunun qızıdır [1]. Həmin qızla evlənən Xosrov bəyin ondan Murad adlı bir oğlu olsa da, uşaq yaşlarında dünyasını dəyişib [1].

Xosrov bəy Sultanov 1918-ci ildə İttihad Partiyasının Qarabağ Komitəsinin yaradılmasında rol almışdır. 1918-ci ilin 28 mayında Tiflisdə Azərbaycan Milli Şurası adından AXC-nin "İstiqlaliyyət Bəyannaməsi"nə imza atan 26 nəfərdən biri də Xosrov bəy Sultanov idi [3, s.156]. Məhz buna görə də Xosrov bəyi biz AXC qurucularından biri kimi saya bilərik. AXC-nin həmin gün təşkil edilmiş birinci hökumət kabinetində Xosrov bəy hərbi nazir postunu tutmuşdur. Xosrov bəybu vəzifəni 11 iyun 1918-ci ilədək icra etmişdir. Nazirliyi dövründə Xosrov bəy Azərbaycan ordusunun yaradılmasını prosesini həyata keçirmişdir. Biraz sonra nazirlik ləğv edildi və 23 oktyabr 1918-ci ildə yenidən bərpa edildi. 7 noyabr 1918-ci ildə bu vəzifəyə Fətəli xan Xoyski təyin edilmişdir.

Xosrov bəy AXC parlamentinin də üzvü idi.

1919-cu ilin yanvarında Britaniya qüvvələrinin komandanı General Uilyam Tomson Xosrov bəyin Qarabağ və Zəngəzurun general-qubernatoru olmasını qəbul etmişdir. Bu vaxt Zəngəzur erməni terrorçularının hücumları var idi və burada yaşayan azərbaycanlılar bölgəni tərk etməyə məcbur edilirdi. 1919-cu ilin aprel ayının ortalarında Zəngəzura hücumlar daha da artdı. Erməni ter-

roru nəticəsində azərbaycanlılar başqa yerlərə köçə və ya Qacar imperiyasına sığınmağa məcbur edildilər. Buna qarşı Xosrov bəy qərarlar aldı və əhalinin təhlükəsizliyini təmin etməyə çalışdı. Bu qərarlardan sonra onun Qarabağ general-qubernatorluğu və bölgə üzərindəki Azərbaycan hakimiyyəti Antanta dövlətləri tərəfindən de-fakto səviyyədə tanındı.

Xosrov bəy Sultanov 1919-cu ilin 15 yanvarında Qarabağın general-qubernatoru təyin olunmuşdur. Həmin ilin 21 martında erməni terrorçuları Əsgəran keçidini zəbt etmişlər, amma daşnak generalı Dronun terror qrupları Azərbaycan əsgərləri tərəfindən darmadağın edilmiş, Xankəndi və Şuşa geri alınmışdır. Bölgədəki separatçıları Azərbaycan hakimiyyətinə tabe etmək tədbirlərinə görə Xosrov bəyə ermənilər nifrət edirdilər, həm də Xosrov bəydən çox qorxurdular. Gərginlik iyunda zirvəyə çatdı və Xosrov bəy ordusuna Şuşada yaşayan ermənilərin məhəlləsini mühasirəyə almağı, oradakı erməni şurasını və terrorçuları təslim olmağa məcbur etməyi əmr etdi. Növbəti gün Xosrov bəy qardaşı Sultan bəy Sultanovun süvari dəstələrini çağırdıqdan sonra hücum daha da genişləndirildi və separatçıların gizləndiyi ətraf kəndlərə də hücum edildi. Nəticədə bir sıra kəndlər terrorçulardan təmizləndi. Xosrov bəyin gördüyü tədbirlər ilə Qarabağdakı erməni separatçıların rəhbərləri təslim oldular.

1920-ci ilin əvvəllərində Xosrov bəy bölgədəki Azərbaycan hakimiyyətini daha da möhkəmləndirmək üçün fəaliyyətini daha da artırdı və Erməni Milli Şurasına ultimatum təqdim etdi. Təxminən bu ərəfələrdə Parisdə toplanan Versal konfransı Azərbaycanın Qarabağdakı hakimiyyətini de-fakto səviyyədə tanıdı.

1920-ci ildə Qızıl Ordunun Azərbaycana daxil olduğunu eşidən Xosrov bəy özünü Qarabağ İnqilabi Komitəsinin sədri elan edir və Nəriman Nərimanova Qızıl Ordunun gəlişini gözlədiyini deyir. Nəriman Nərimanov ona inanmır və 14 mayda onun yerinə Qarabağa hakim olaraq Dadaş Bünyadzadəni təyin edir. Həmçinin Dadaş Bünyadzadəyə Sultanovun idarəçiliyini ləğv etmək əmr edilir.

1923-cü ildən Xosrov bəyin həyatında mühacirət dövrü başlanır. O, Türkiyədə, İranda, Fransa və Almaniyada yaşamış, Almaniyada Tibb Universitetində professor vəzifəsində çalışmışdır. Sonra o, 1936-cı ildə Türkiyəyə qayıdır və Trabzonda məskunlaşır. İkinci Dünya Müharibəsi zamanı da o, xeyli fəaliyyət göstərmişdir. Xosrov bəy 7 yanvar 1943-cü ildə vəfat etmişdir. Məzarı İstanbulun Feriköy qəbiristanlığındadır.

Xosrov bəy Sultanovun qardaşı Sultan bəy Sultanov ilə birgə erməni-daşnak qüvvələrinə qarşı çox uğurlu fəaliyyəti olmuşdur. 1918-ci ildə başlayan erməni terrorları zamanı Sultan bəyin başçılıq etdiyi silahlı dəstələrin də bölgədəki müsəlman kəndlərinin qorunmasında müstəsna xidmətləri olmuş, Zabux dərəsində Andranikin dəstəsinin əsas hissəsi məhv edilmiş, çoxsaylı erməni dəstələri məğlub edilmiş vəonlardan xeyli əsir alınmış, İrana keçmək istəyən yüzlərlə erməni silahlısı Araz çayı yaxınlığında Sahil əməliyyatı ilə məhv edilmiş, Zəngəzurda onlarla kənd erməni silahlılarından təmizlənmişdir [2].

Xosrov bəy və Sultan bəy Türkiyədə də böyük hörmət sahibi idi. 1923-cü ildə hər iki qardaş – Sultan bəy və Xosrov bəy rəsmi keçidlə qarşılanıb Qars vilayətinin Köçqoy kəndində mülk verilərək təhlükəsiz həyat şəraiti ilə təmin edilir [2].

### ***Ədəbiyyat siyahısı:***

*1. Ənvər Çingizoğlu. Xosrov bəy Sultanov. "Soy" dərgisi, 1 (9) 2008.*
*2. "Qarabağın görkəmli şəxsiyyətləri: Xosrov bəy Sultanov (1879-1947)" "Virtual Qarabağ" İKT Mərkəzinin rəsmi portalı (az.). virtualkarabakh.az. 2013.*
*3. Yaqublu N.– "Cümhuriyyətin Qurucuları". –Bakı: Nurlar, 2018, 504 səh.*

# XUDADAT BƏY MƏLİKASLANOVUN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜ FƏALİYYƏTİ

**Eynulla Eynullayev**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi (TEC üzvü)*
*eynulla2003@mail.ru*

***Açar sözlər:*** *Xudadat bəy Məlikaslanov, Azərbaycan Cümhuriyyəti, Poçt və Teleqraf Nazirliyi*

Azərbaycanın tarixində müstəsna xidmətlər göstərmiş bir çox görkəmli şəxsiyyətlər olmuşdur. Həmin şəxsiyyətlərin adları, tarixdə qoyduqları izləri üstündən illər, əsrlər keçsə də, unudulmur, daim xatırlanır və həmin şəxslərin ömür yoluna müraciət olunur. Belə maarifçi və ictimai-siyasi dövlət xadimlərimizdən biri də Xudadat bəy Məlikaslanovdur. Xudadat bəy Məlikaslanov şərqdə ilk demokratik respublika – Azərbyacan Cümhuriyyətinin yaradılmasında əvəzsiz rola malik olmuşdur. Hansı ki, Xudadat bəy Məlikaslanov Azərbaycan Xalq Cümhuriyyətinin 5 hökumət kabinetinin hər birində təmsil olunmuş nazirlərimizdən biri idi. Xudadat bəy Məlikaslanov 1879-cu ilin aprel ayında Şuşa qəzasının Taynaq kəndində anadan olmuşdur. Bəy ailəsində dünyaya göz açdığı üçün Xudadat bəyin təhsil almaq imkanları geniş olub. 1899-cu ildə Şuşa realnı məktəbini bitirir. O, ali təhsilini Peterburqda Yol Mühəndisliyi ixtisası üzrə davam etmişdir. 5 il təhsil aldıqdan sonra Xudadat bəy buranı birinci dərəcəli diplomla başa vurmuşdu. Xudadat bəy Sankt-Peterburqda təhsil alarkən Mehmandarov, Vəzirov, Lənbəranski, Terequlov, Əzizbəyov, Mahaç Dahadayı ilə yaxın münasibətdə olub [4, s.256]. Həmin vaxt Voloqda-Petrozavodsk dəmiryolu çəkilirdi. Xudadat bəy 6 ay burada işləyir. İşdə özünü ən yaxşı tərəfdən göstərir və diqqəti cəlb edir. Xaricdə təhsil alması onun gələcək həyatına müsbət təsir göstərir. 1901-1904-cü illərdə Rusiya Sosial Demokrat Fəhlə Partiyasının üzvü olan Xudadat bəy partiyanın Peterburq komitəsində fəaliyyət göstərir. Bir müddət sonra partiyadan ayrılır və bundan sonra heç bir partiyaya üzv olmur. Ömrünün sonuna kimi bitərəf qalır. 1905-ci ilin əvvəlində müəyyən səbəblərdən Tiflisə köçür. Tiflisdə o, Zaqafqaziya stansiya rəisinin köməkçisi, daha sonra isə Zaqafqaziya dəmir yolunun relyefinə görə ağır və dağlıq ərazisi olan Suram aşırımı keçidində yol xidməti rəisinin köməkçisi, bir müddət sonra isə rəis təyin olunmuşdur. Xudadat bəyin rəhbərliyi ilə mülki işlər davam etdirilmiş, Çiatura maqnas mədəninə dəmiryolu çəkilmişdir. Həmin dövrdə Cümhuriyyətin gələcək qurucularından biri olan Xudadat bəy paralel olaraq elmi fəaliyyətlə də məşğul olmuşdur. Bu dövrdə onun 10-dan çox məqaləsindən 4-ü Peterburq jurnallarında nəşr olunmuşdur. Nəşr edilmiş məqalələrindən ikisi belə adlanır. 1) "Yüksəklikdə aparılan dəmir yolu tikintisinin hesablanması"; 2) "Dəmir-beton şpallarilk ixtira və onun tətbiqi" [4, s.256]. Xudadat bəyin iş fəaliyyəti və onun ixtiraları bir çox yerlərdə tanınmasına səbəb olmuşdur. Birinci

dünya müharibəsinin gedişində Rusiyada fevral burjua inqilabı baş verdi. Həmin bu inqilab nəticəsində çar Rusiyasında Romanovlar sülaləsi devrildi.

1917-ci ilin mart ayının 9-da Xüsusi Cənubi Qafqaz Komitəsinin qərarı ilə Xudadat bəy Məlikaslanov Zaqafqaziya dəmir yolu üzrə müvəkkil təyin olunmuşdur. 1917-ci ilin noyabr ayında yaradılmış olan Cənubi Qafqaz Komissarlığının Dəmiryolu Nəqliyyatı üzrə komissar və 1918-ci ilin aprel ayının 26-da yaranmış Zaqafqaziya Federativ Respublikası hökumətində dəmir yolu nəqliyyatı naziri olmuşdur. 1918-ci ildə onun Tiflis dəmir yolu nəqliyyatına həsr olunmuş kitabı rus dilində nəşr edilmişdir [1, s.72]. 1918-c ilin may ayının 26-da Zaqafqaziya Seymi süqut etdi. 1918-ci ilin may ayının 28-də Tiflisdə Qafqaz Canişinliyinin iqamətgahında Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən Müsəlman Milli Şurasının iclasında Azərbaycan Cümhuriyyətinin yaradıldığı elan olundu. Azərbaycan istiqlalı elan edilməsi qərarına imza atan 22 nəfərdən (24 nəfərdən 2-si bitərəf qalmışdı E.E.) biri də Xudadat bəy Məlikasıanov olmuşdur [4, s.258]. Fətəli xan Xoyskinin başçılığı ilə yaradılan ilk hökumət kabinetində Xudadat bəy Yollar və Poçt-Teleqraf naziri olmuşdur. Lakin bu hökumət kabinetinin ömrü uzun olmadı. Azərbaycan Cümhuriyyəti dövründə formalaşan bütün hökumət kabinələrində X.Məlikaslanov yeganə nazir olaraq eyni vəzifəni yerinə yetirmişdir [4, s.258]. Azərbaycan Cümhuriyyətində ərzaq işini qaydaya salmaq və yenidən təşkil etmək etmək üçün 29 iyul 1918-ci ildə nazirlər Ağa Aşurov, Əbdüləli bəy Əmircanov, Xudadat bəy Məlikaslanov və Nəsib bəy Yusifbəylidən ibarət nüfuzlu bir komissiya yaradıldı [3, s.134]. Əhalinin ərzaqla təminatın və ərzağln bərabər şəkildə bölüşdürülməsində bu komissiyanın rolu əvəzsiz oldu. X.Məlikaslanov öz ixtisası ilə yanaşı yüksək idarəçilik vəzifəsinə da malik idi. Nəsib bəy Yusifbəyli nazirlər şurasının sədri olarkən Məlikaslanovu müavin təyin etmişdi. Onun təşəbüssü ilə 1919-ci ildə Bakıda ana dilində dərs keçirilən ilk Dəmiryol Nəqliyyat məktəbi açılmış, Azərbaycan dəmiryolunda təmir işləri görülmüş, nəqliyyatın nizamlı çalışılması qaydaya salınmışıdır. Nazirlər Şurasının göstərişi ilə 1919-cu ilin aprelində latın əlifbasına keçmək üçün X.Məlikaslanovun başçılığı ilə xüsusi komissiya yaradılmışdır. Həmin komissiyanın hazırladığı layihə Parlamentə təqdim edilmişdir. Amma Azərbaycan Cümhuriyyətinin süqutu səbəbindən qanun layihəsinin müzarikəsi baş tutmadı. Xudadat bəy Məlikaslanovun Gürcüstanla nəqliyyat və dəmiryolu sisteminin möhkəmləndirilməsində xüsusi rolu olmuşdur. 1919-cu ilin aprel ayının 17-də Azərbyacan Dəmiryol İdarəsi Batum şəhərində öz ticarət agentliyini yaratdı [2].

Xudadat bəy Məlikaslanovun Yollar naziri olduğu dövrdə 1919-cu ilin iyul ayından başlayaraq Bakı-Batum istiqamətində 4-cü qatar, Bakı Port Petrovsk (Mahaçqala) istiqamətində isə hər gün 4-cü qatar hərəkət edirdi [2]. Xudadat bəy 1919-cu ilin dekabr ayından 1920-ci ilin fevralınadək həmçinin Ticarət, sənaye və ərzaq üzrə müvəqqəti nazir kimi də parlamentdə fəaliyyət göstərmişdir. Lakin təssüflə qeyd etməliyik ki, 1920-ci ilin aprel ayının 28-də XI Qızıl Ordu tərəfindən Azərbaycan Cümhuriyyətinin varlığına son qoyuldu. Xudadat

bəy və digər Cümhuriyyət qurucularının mübarizəsi yarıda qaldı. Xudadat bəy özü 1930-cu illərin Sovet repressiya maşınından xilas ola bilmədi.

***Ədəbiyyat siyahısı:***

*1.Azərbaycan Demokratik Respublikası. Azərbaycan Hökuməti:1918-1920. –Bakı:1990 ,256 s.*
*2. Əliyeva İ. Xudadat bəyin acı taleyi. "Azərbaycan qəzeti", 29 avqust, 2013*
*3. Tahirzadə Ə., Əhməd D. Azərbaycan Cümhuriyyəti. –Bakı: Çapar, 2020, 196s.*
*4. Yaqublu N. "Cümhuriyyət Qurucuları". –Bakı: Nurlar, 2018, 504 s.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ

**İsmayıl Səmədli**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi (TEC üzvü)*
*smdliyev07@gmail.com*

***Açar sözlər:*** *AXC-nin müstəqilliyi, AXC-nin xarici siyasəti, AXC-nin İranla münasibətləri*

1918-il mayın 28-də müsəlman şərqində ilk dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi elan olundu. Cümhuriyyət elan olunarkən elə həmin gün qəbul edilmiş **İstiqlal Bəyannaməsi** müstəqilliyimizi rəsmiləşdirən ilk sənəd idi, hansı ki, bütün türk-müsəlman dünyasında, ümumən bütün Şərqdə, ilk dəfə olaraq Azərbaycanda demokratik respublika idarə üsulunun, yəni parlamentli respublikanın yaradılacağı bildirilirdi. İstiqlaliyyətin qorunub saxlanılması daxili amildən çox xarici amillərlə əlaqəli olduğundan Cümhuriyyət hökuməti xarici siyasət məsələlərinə xüsusi diqqət yetirirdi. Azərbaycan diplomatiyasının buçətin vəzifənin öhdəsindən gəlməsi üçün 1918-1920-ci illərdə təşkil olunmuş hökumət kabinetlərində Xarici İşlər Nazirliyinin möhkəmləndirilməsi və onun təşkilati strukturunun təkmilləşdirilməsinə xüsusi diqqət yetirilirdi. -AXC-nin xarici siyasət idarəsinə müxtəlif vaxtlarda o dövrün dünya siyasətinə bələd olan,çevik diplomatik bacarığa malik Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Məmməd Həsən Hacınski və digər şəxslər başçılıq etmişdilər. Milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq qonşu dövlətlərlə mehriban münasibətlər Azərbaycan diplomatiyasının aparıcı istiqaməti olmuş və onun başlıca çıxış nöqtəsini təşkil edirdi. Ölkə müstəqilliyinin tanıdılması (İstiqlal bəyannaməsində bu öz əksini tapmışdır); Ölkənin ərazi bütövluyunun qorunması və tanıdılması; Rusların və ermənilərin müstəqilliyimizə qarşı yönəlmiş təhdidlərinin aradan qaldırılması xarici siyasətin prioritet məsələləri idi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini üçdövrə: Osmanlı (Türkiyə) oriyentasiyası dövrü, Qərb oriyentasiyası dövrü, geniş və hərtərəfli qlobal əməkdaşlıq uğrunda mübarizə dövrlərinə bölmək olar.

Azərbaycanla Osmanlı arasında ilk diplomatik təmaslar 1918ci ilin yazında Trabzon və Batum sülh konfranslarından başlandı. 1918ci il iyunun 18-də isə Azərbaycan Hökuməti İstanbula ilk nümayəndə heyəti göndərdi. Osmanlı hökuməti və rəsmi dairələrində yaxşı tanınan M.Ə.Rəsulzadənin başçılıq etdiyi nümayəndə heyətinə Xəlil bəy Xasməmmədov və Aslan bəy Səfikürdski daxil idi. AXC Hökuməti nümayəndə heyətinə, həmçinin, Osmanlı dövləti ilə hərbi, iqtisadi, nəqliyyat və maliyyə sahələri üzrə müqavilələr bağlamaq üçün etimadnamə vermişdi. Osmanlı imperiyası ilə tam həcmdə diplomatik əlaqələrin yaradılması üçün 1918-ci il avqustun 20-də Hökumət üzvü Əlimərdan bəyTopçubaşov fövqəladə səlahiyyətli nazir kimi İstanbula ezam edildi və ona bütün məsələlər üzrə Azərbaycan Cümhuriyyətinin maraqlarını təmsil etmək tapşırığı ve-

rilmişdir. Ə.Topçubaşov, eyni zamanda, İstanbulda beynəlxalq konfrans baş tutacağı halda Azərbaycan nümayəndə heyətinin tam hüquqlu üzvü kimi onun işində iştirak etmək səlahiyyətinə də malik idi.

AXC mövcudluğunun ilk vaxtlarında Osmanlıyönümlü xarici siyasət yeritsə də,1918-ci ilin noyabrından bu siyasət Qərb dövlətlərinə, xüsusilə Böyük Britaniyaya doğru yönəlmişdi. Mudros sülhünə əsasən 1918-ci il noyabrin 17-də general Tomsonun başçılığı ilə ingilis qoşunun Bakıya daxil olması AXC hökumətini Qərb meyilli siyasət yeritməyə məcbur etmişdi. Britaniya qoşunları 1918-ci ildə 2 dəfə AXC ərazisinə daxil olmuşdurlar. Birinci dəfə avqust ayında Densterveiln rəhbərliyi ilə Bakıya gələn ingilis qoşunları AXC hakimiyyətini tanımadı. İkinci dəfə isə noyabr ayında Tomsonun başçılığı ilə Bakıya gələn ingilislər əvvəl hökuməti tanımasa da parlament və lll hökumətin demokratik prinsiplər əsasında təşkilini gördükdən sonra onu ölkədə yeganə səlahiyyətli hakimiyyət orqanı kimi qəbul etdilər.

Azərbaycanın xarici siyasətinin əsas məsələlərindən biri də İranla münasibətlər idi. Belə ki, Azərbaycan müstəqillikqazandıqdan sonra,İranla normal qonşuluq və dostluq münasibətləri yaratmaq üçün addımlar atdı. Azərbaycan hökuməti 1918-ci il sentyabrın 12-də İrana nümayəndə göndərməyi qərara almış lakin İran tərəfi ilk vaxtlar AXC-ni tanımaqdan və onunla diplomatik əlaqələr qurmaqdan imtina etmişdir. 1918-ci il sentyabrın 6-da Azərbaycanın - İstanbuldakı nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadə Azərbaycan XİN nazirinə məlumatında bildirirdi ki, buradakı İran konsulluğuna Şimali Azərbaycanda müstəqil dövlət yaradılması barədə İstiqlal bəyannaməsinin surətini təqdim etmiş, lakin İran konsulu bu sənədi zərfə qoyub geri qaytarmışdır vəcavabında isə Azərbaycan adında müstəqil dövlətitanımadığını bildirmişdir. Çünki, İran Azərbaycanın Arazdan cənubdakı əraziləri öz ərazisi kimi görəcəyindən və burada müstəqillik meyillərinin artacağından ehtiyatlanırdı. Cənubi və Şimali Azərbaycanın birləşmə perspektivliyi İranı ciddi narahat edirdi.1918-ci ilin yazında Osmanlı qoşunlarının Cənubi Azərbaycana daxil olmasından sonra Şimali Azərbaycanhökuməti vətəndaşlarının hüquqlarını qorumaq məqsədi ilə Təbrizdə Azərbaycan konsulluğunu təsis etdi. Konsulluğa ilk dövrdə Teymur bəy Məlik-Aslanov, sonra Yusif Ziya və Rauf bəy Səfərəlibəyli başçılıq etmişdir. Türk qoşunlarının 1918-ci ilin noyabrında Cənubi Azərbaycanı tərk etməsindən sonra İran hökuməti bu konsulluğu bağladı.

İranla ilk diplomatik münasibətlər 1919-cu ilin martında AXC-nin Tehrana fövqəladə missiya göndərməsi ilə qurulmuşdur. Missiya şah hökuməti ilə - İranın Bakıda və Gəncədə, Azərbaycanın isə Tehran, Təbriz, Rəşt və Məşhəddə diplomatik nümayəndəliklər açmaq təklifini müzakirə etdi. 1919-cu ilin iyulun 16-da İranda diplomatik nümayəndəliyin açılması barədə qərar qəbul edildi. AXC hökumətinin qəbul etdiyi avqust 1919-cu il tarixli qərarına əsasən Azərbaycanın Tehranda diplomatik nümayəndəliyi təsis edilmiş və xarici işlər nazirinin müavini Adil xan Ziyadxanov AXC-nin İrandakı diplomatik nümayəndəsi vəzifəsinə təyinedildi. Şah AXC-nin Təbrizdə və digər şəhərlərdə daimi rəsmi

nümayəndəliklərinin açılmasına razılıq verdi. 1920-ci il fevralın 4-də Ənzəlidə Azərbaycanın vitse-konsulluğu yaradıldı. 1920-ci ilin aprelin 1-dən isə Azərbaycan dövlətitərəfindən Təbrizdə Baş konsulluq, Rəştdə konsulluq, Məşhəddə vitse-konsulluq, Əhər və Xoy şəhərlərində isə konsul agentlikləri təsis edildi. - Adil xan Ziyadxanov öz "*Qələmin uçuşu*" əsərində bu hadisəni belə qeyd edir: *İran Şahənşahlığı yanında ilk Səfarətin iftixarı bu sətirlərin müəllifinə nəsib oldu. 15 yanvar 1920-ci il tarixində Tehrana daxil oldum. Ali dövlət rəhbərləri tərəfindən rəsmən qəbul edilərək öz etimadnaməmi təqdim edib, Azərbaycan Xalq Cümhuriyyətinin Kiyan paytaxtında ilk səfarətxanəsini təsis etdim və bununla da Tehranda yerləşən bütün səfirliklər, nazirliklər və siyasi nümayəndəliklərin sırasına daxil oldum.*

Beləliklə, AXC-nin öz müstəqilliyi uğrunda mübarizə apardığı bir dövrdə İranla münasibətlər gərgin olaraq qalmışdır.

### *Ədəbiyyat siyahısı:*

*1. Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). – Bakı: 2009, 576 səh.*

*2. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illlər). - Bakı: Azərnəşr, 1993, 362 səh.*

*3. Азербайджанская Демократическая Республика: 1918–1920: законодательные акты. - Bakı: Azərbaycan Nəşriyyatı. 1998, 560 s*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QARABAĞ GENERAL-QUBERNATORLUĞU

**Kamal Allahverdiyev**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin IV kurs tələbəsi*
*allahverdiyevkamal5@gamil.com*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Qarabağ general-qubernatorluğu, Xosrov bəy Sultanov*

1918-1920-ci illərdə ermənilərin ən çox vəhşiliklər törətdiyi Azərbaycan ərazilərindən biri də Qarabağ bölgəsi olmuşdur. Andranikin rəhbərlik etdiyi silahlı dəstələr xarici qüvvələrə arxalanaraq, Cavanşir, Cəbrayıl, Zəngəzur və Şuşa qəzalarında qırğınlar törətməklə Qarabağı Azərbaycandan ayırmaq üçün hərəkətə keçdilər.

AXC hökuməti Qarabağdakı erməni təxribatlarının qarşısını almaq üçün parlamentdə bu məsələni müzakirəyə qoydu. 1919-cu ilin yanvarın 15-də parlamentdə Daxili İşlər Naziri Xəlil bəy Xasməmmədovun Qarabağla bağlı çıxışı dinlənilmişdi. Öz məruzəsində X.Xasməmmədov əvvəlki iki ildə Qarabağ və Zəngəzur qəzalarında yaranmış siyasi və hərbi vəziyyətin qısa, lakin aydın təsvirini verdi. Ən əsası, o, bu iki rayonu idarə etmək üçün general-qubernatorluğunun yaradılmasının vacibliyini göstərən güclü arqumentlər təqdim etdi. Daha sonra parlamentdə qərar qəbul edilmişdi ki, Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzaları hüdudlarında müvəqqəti qubernatorluq təsis olunsun [1, v.9].

Xasməmmədov məruzəsində general-qubernatorun vəzifələrini açıqlayıb. Onlara daxildir: erməni hərəkatına qarşı mübarizə aparmaq və onu darmadağın etmək; dörd rayonda asayişi təmin etmək; yerli idarəetməni təşkil etmək; qaçqınları ərzaq və yardımla təmin etmək, və onların əvvəlki yaşayış yerlərinə qayıtmasını təmin etmək. Bu vəzifələri yerinə yetirmək və general-qubernatora kömək etmək üçün general-qubernator yanında xüsusi şura yaradılmalı idi. Şuraya general-qubernator rəhbərlik etməli idi və ona müdafiə, qida və səhiyyə nazirliklərinin məsləhətçiləri daxil olmalı idi [6, s.249].

Azərbaycan hökuməti müəyyən müzakirələrdən sonra 1919-cu il yanvarın 29-da keçirilən parlament iclasında general-qubernatorluq barəsində qərara alındı ki, Xosrov bəy Sultanov general-qubernator təyin edilsin, nazirliyin 20 milyon manatlıq büdcəsinin 5 milyon manatı qubernatorluq üçün ayrılsın, 5 milyon manatın 1 milyon manatı dərhal general-qubernatorluğun büdcəsinə köçürülsün və sonda qubernatorluğun silahlı qüvvələrinin sayı 3000 nəfərə çatdırılsın [2, c.449].

Xosrov bəy Sultanov 1919-cu il fevralın 12-də Şuşaya gələrək öz vəzifələrini yerinə yetirməyə başladı. General-qubernatorluq bölgənin bəzi problemlərinə böyük təsir göstərmişdir. Bu, AXC hökumətinin Qarabağ erməniləri tərəfindən tanınmasına səbəb olan əsas amil idi.

Qarabağ general-qubernatorluğunun yaradılmasından ciddi narahat olan Ermənistan diplomatik və hərbi fəaliyyətini gücləndirdi. 1919-cu ilin yanvarında AXC hökumətinə göndərdiyi teleqramda Ermənistanın xarici işlər naziri C.Tiqranyan yeni general-qubernatorluğun yaradılmasına etiraz edərək, bunu "Ermənistanın ərazi hüquqlarına" qarşı qəsd kimi qiymətləndirirdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Ermənistanın əsassız ərazi iddialarına və Azərbaycanın daxili işlərinə qarışmasına cavab verməli oldu. Xarici işlər naziri vəzifəsini icra edən Ə.Ziyadxan Zəngəzurda və Azərbaycanın digər bölgələrində müvəqqəti general-qubernatorluğun yaradılması ilə bağlı hər hansı etirazı əsassız sayaraq, həmin rayonların Azərbaycanın ayrılmaz hissələri olduğunu bildirdi.

Ermənistan hökumətinin bütün etirazlarına baxmayaraq Müttəfiqlər Qarabağda müvəqqəti general-qubernatorluğun yaradılmasını dəstəklədilər. Bunu Tomsonun 1919-cu ilin fevralında Şuşaya göndərilmiş mayor Monk-Masona və xüsusi komissiyaya verdiyi göstərişlərdən də görmək olar. Təlimatlardakı bəzi məqamlar Azərbaycan üçün vacib idi. Azərbaycan üçün ən vacib göstərişdə (sənədin 4-cü maddəsi) deyilirdi ki, Monk-Mason və komissiya onun qoşunlarının buraxılması əmrini Andranikə çatdırmalıdır. Orada deyilirdi ki, Andranikin qoşunları Yevlaxa gətirilməli, orada ləğv edilərək dəmir yolu ilə Ermənistana aparılmalıdır [4, s.291].

Xosrov bəy Sultanov 1919-cu ilin aprelin 14-də Daxili İşlər Nazirliyinə göndərdiyi məktubunda Qarabağla bağlı məsələlərin həll olunması üçün hərbi sursatlı 2000 əsgərin kifayət etdiyini vurğulayır. Bu məqsədinin reallaşması üçün bölgədəki hərbi qüvvələri onun tabeliyinə verilməsini tələb edir, əks halda isə istefa edəcəyini söyləyir. Bu məktubundan sonra Nazirlər Şurasının sədri N.Yusifbəyli sadalanan hüquqların X.Sultanova verilməsi barəsində parlamentdən razılıq əldə edə bilir [5, s.76 ].

Xosrov bəy Sultanov Qarabağ general-qubernatorluğunda iyun ayında baş verən hadisələri təhrif edilmədən olduğu kimi həm beynəlxalq ictimaiyyətə, həm də öz xalqımıza çatdırmaq üçün "Azərbaycan" qəzetinə müsahibə vermişdi. Bununla da ermənilərin beynəlxalq ictimaiyyəti saxta faktlarla məlumatlandırmasının qarşısını almışdı.

Xosrov bəy həmçinin ingilislərin Qarabağ məsələsində üzərinə götürdükləri öhdəlikləri yerinə yetirmədiklərini vurğulayaraq, Zəngəzurda hakimiyyəti AXC hökumətinə deyil, Erməni Milli Şurasına verdiklərini bildirir [3, s.48].

Xosrov bəy Qarabağla bağlı problemin əsaslı həlli üçün aşağıdakı bir sıra tədbirlərin görülməsini vacib hesab edirdi: 1) Azərbaycan Qarabağ-Zəngəzur probleminin həllində Britaniyanın köməyindən tamamilə imtina etməlidir, çünki ingilislər bu məsələdə Azərbaycanın yoluna ancaq maneələr qoyurlar. 2) təcili olaraq Zəngəzura hərbi qüvvələr yerləşdirmək və ermənilərin İrəvandan Azərbaycana doğru irəliləməsini dayandırmaq lazımdır. 3) Qarabağ ermənilərinə 6 gün içində Azərbaycanı tanımaq üçün ultimatum verilməli, əgər altı gün

ərzində ermənilər Azərbaycan hökumətini tanımazsa, hərbi əməliyyatlara başlamaq.

Bu tədbirlərdən sonra 1919-cu ilin avqust ayında Qarabağ erməniləri 7-ci fövqəladə qurultayı çağıraraq qurultayda Qarabağ general qubernatorluğunun və AXC hökumətinin bölgədə olan hakimiyyətini tanıdıqlarını və bütün problemləri sülh yolu ilə ilə həll etməyi Xosrov bəy Sultanova bildirdilər. Azərbaycan hökumətinin təmsilçisi Xosrov bəy Sultanovla erməni icması arasında 26 maddədən ibarət müqavilə 1919-cu ilin avqust ayının 15-də rəsmən bağlanmışdı [2, s.449].

Erməni icması bu müqaviləni 1919-cu ilin avqust ayının 19-da ratifikasiya etdi. Bu Şuşa şəhərinin həm azərbaycanlı, həm də erməni əhalisi tərəfindən təntənəli şəkildə qeyd edilmişdi.

1920-ci ilin aprel ayının 28-də Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) hərbi qüvvələri AXC hökumətinin müstəqiliyinə son qoydu. Bu zaman Qarabağ general-qubernatorluğu da süqut etmiş oldu. Həm AXC hökuməti, həm də Qarabağ general-qubernatorluğu bu qısa müddətli mövcudluğu dövründə dövlətçiliyimiz və ərazi bütövlüyümüzün qorunması üçün misilsiz rol oynamışdı.

### *Ədəbiyyat siyahısı:*

*1. Azərbaycan qəzeti, 1918, 1919, 1920*

*2. Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг. –Баку: Элм, 1998, 616 с. N164, 1919*

*3. Eloğlu S. Zəngəzur hadisələri. Bakı, Azərnəşr, 1992, 58 s.*

*4.. Həsənli, C. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). –Bakı: 2009, 469 s.*

*5. Məmmədova H. "Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət". – Bakı: Nağıl Evi nəşriyyatı, 2006, 151 s.*

*6. Musayev İ. Azərbaycanın Naxçıvan- Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1922). –Bakı: Bakı Universitetinin nəşriyyatı, 1998, 385 s.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ORDU QURUCULUĞU

**Nigar Əliyeva**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi (TEC üzvü)*
*nigaraliyeva04.2003@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyəti, ordu quruculuğu, Hərbi Nazirlik, Milli Ordu*

Müstəqil Azərbaycan1918-ci ilin 28 may tarixində müsəlman Şərqində və Türk-İslam dünyasında ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyətinin yaradılması ilə milli dövlətçilik tariximizdə yeni bir qızıl səhifə açılmış oldu. Ulu Öndər Heydər Əliyevin 27 may 2003-cü ildə AXC-in yaranmasının 85 illiyi ilə əlaqədar xalqa müraciətində də dediyi kimi «AXC ölkəmizin çoxəsirlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi prosesinin məntiqi nəticəsi kimi meydana çıxmışdır».

AXC mövcu olduğu 23 ay ərzində ölkənin müdafiəsinin təşkili, ordunun formalaşdırılması istiqamətində çox mühüm addımlar atmışdır ki, bu daAXC-in siyasi varisi olan müstəqil Azərbaycan ordusunun yaradılmasıbaxımından çox mühüm elmi və praktiki əhəmiyyətə malikdir.

AXC müstəqilliyini elan etdikdən sonra ölkədə yaranmış gərgin vəziyyətlə əlaqədar Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseyin xan Naxçvanski, Süleyman bəy Əfəndiyev və digər bacarıqlı hərbçilərin rəhbərliyi ilə güclü ordu hissələri yaradıldı.

Ordu quruculuğu sahəsində atılan ilk adımlardan biri 26 iyun 1918-ci ildə Azərbaycan Milli Ordusunun yaradılması haqqında fərmanın verilməsi oldu. Daha səmərəli ordu quruculuğunun aparılması üçün isə 1918-ci il oktyabr ayının 23-də keçirilən iclasda Hərbi Nazirliyin yaradılması qərara alındı. Qərara uyğun olaraq Hərbi Nazirliyin təşkilatlandırılması Səməd bəy Mehmandarova həvalə edildi. Və noyabrın 1-də Hərbi Nazirlik təsis edildi. Bu qərarla ordu quruculuğu tamamilə hökumətin nəzarəti altına keçdi. İlk vaxtlar Hərbi Nazirliyin sədri vəzifəsi hökumətin də sədri olnan Fətəli xan Xoyskiyə təqdim edildi. Səməd bəy Mehmandarov isə onun müavini oldu. S.Mehmandarov ilk növbədə Hərbi Nazirliyin özünün aparatının yaradılmasına çalışdı. Və buna uyğun olaraq 1918-ci noyabrın 15-də Ümimi qərargah təsis edildi ki, bu qərargah da Mühəndis, Topçu, Növbətçi general, Tibb, Hərbi təhsil və Nəzarət şöbəsindən ibarət idi.

Mudros müqaviləsindən sonra Bakıda yerləşmiş müttəfiq qüvvələrin komandanlığının tələbi ilə 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçürüldü. Nazirlər Şurasının 1918-ci il 25-dekabr tarixli qərarı ilə Səməd bəy Mehmandarova hərbi nazir, 29 dekabr tarixli qərarla isə Əliağa Şıxlinski hərbi nazirin müavini oldu.S. Mehmandarovun dekabrın 27-də verdiyi 34 saylı əmri

ilə Azərbaycan türkcəsinin orduda dövlət dili kimi tətbiqinə başlanıldı. 1919-cu il yanvarın 11-dən hərbi qulluqçular yeni hərbi geyimlə təsis edildilər. Türk qoşunlarının Gəncədə olduğu vaxtda fəaliyyət göstərən praporşiklər məktəbinin işi yenidən quruldu. Onun əsasında hərbi məktəb təşkil edildi. Ordunu milli-hərbi kadrlarla təmin edəcək hərbi dəmiryolçular, istehkamçılar və hərbi feldşerlər məktəbləri açıldı. Bundan başqa hərbi büdcənin ayrılması ilə bağlı qərara uyğun olaraq parlament 1919-cu ildə ordunun formalaşdırılmasına 399,4 milyon rubl vəsait ayrılması haqqında qərar qəbul etmişdi. Həmin vəsait dövlət büdcəsinin 27,7 faizini təşkil edirdi. Müttəfiq dövlətlərin hərbi komandanlığı 1919-cu il aprelin əvvəllərində milli qoşun hissələrinin Bakıda yerləşdirilməsinə razılıq verdi. Və aprelin 15-də hərbi qüvvələr Bakıya daxil oldu. 1919-cu ilin avqistunda ingilis hərbi qüvvələri Azərbaycanı tərk etdikdən sonra şəxsi heyəti 1170 nəfərdən ibarət olan Xəzər Hərbi Donanması yaradıldı. Bu donanmanın tərkibində 75,3 və 120 millimetrlik kalibrli toplarla silahlanmış iki gəmi vardı.

Azərbaycan parlamentinin 1919-cu il avqustun 18-də keçirilmiş iclasında "Gömrüyə münasibətdə Azərbaycan Respublikasının Sərhəd Mühafizəsinin təsis edilməsi haqqında Qanun" qəbul edildi. 8 maddədən ibarət olan həmin qanunun 1-ci maddəsində göstərilirdi: "Azərbaycan Respublikasının sərhədlərini qeyri-leqal ticarətdən qorumaq və qaçaqmalçılıqla mübarizə aparmaq məqsədilə Azərbaycanın sərhədləri boyu, əlavə edilən dislokasiya məntəqələrinə uyğun olaraq, sayı 99-a çatan, 992 mühafizəçidən ibarət tərkibdə sərhəd postları təsis edilsin". Azərbaycan ordusunu silah sursatla təmin etmək məqsədi ilə hökümət 1920-ci ilin yanvar ayında hərbi sənaye kompleksinin yaradılması haqqında qanun layihəsini, Gəncədə tikiləcək hərbi zavodunun smetasını və ştatını hazırlamışdı. 1920-ci ilin fevral ayının 23-də parlament hərbi zavodun tikilməsi və onun üçün 670 milyon vəsaitin ayrılması haqqında qanun qəbul etdi.

Təsüflər olsun ki, 1920-ci il aprel ayının 28-də çevriliş nəticəsində AXC süqut etdi. Və müstəqilliyimizin ən mühüm atributu olan ordu hissələri ləğv edildi. Azərbaycan Demokratik Respublikasının ordu quruculuğunun proqramı, onun acı tarixi dərsləri bu gün müasir Azərbaycanın müdafiə strategiyasının əsas istiqamətlərindən birini təşkil edir. 70 il sonra qurulan müstəqil Azərbaycan Resbulikası AXC-in təcrübələrinə əsaslanaraq ordu quruculuğu sahəsində mühüm addımlar atmışdır. Və bunun nəticəsidir ki, müasir Azərbaycan ordusu hazırda regionun ən güclü hərbi qüvvəsi, dünyanın isə 50 qüdrətli ordusu sırasındadır.

***Ədəbiyyat siyahısı:***

1.*Süleymanov M. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi. II cild. -Tehran: Firuzan, 2014, 694 s.*
2.*Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. I cild. -Bakı: Lider, 2004, 440 s.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ İNKİŞAF YOLU

**Ayişə Aslanova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin II kurs tələbəsi*
*ayseaslanova712@gmail.com*

***Açar sözlər:*** *AXC, iqtisadi siyasət, maliyyə, aqrar siyasət, xarici-iqisadi siyasət*

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə xalqımızın tarixində ən parlaq səhifələrin başlanğıcı qoyuldu. Cəmi 23 ay yaşamasına baxmayaraq, müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət kimi tarixə düşən AXC xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarını yarada bildi. Gərgin ictimai-siyasi şəraitdə fəailiyyət göstərən AXC demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və s. sahələrdə gördüyü işlərlə Azərbaycan xalqının tarixində silinməz izlər buraxmışdır [2, səh.9].

AXC-nin apardığı uğurlu iqtisadi fəaliyyəti nəticəsində Ölkə parlamenti tərəfindən 270-dən çox qanun qəbul edilmişdir ki, onun da 70-i milli iqtisadiyyatın tənzimlənməsinə həsr edilmişdir. Qəbul olunan qərarlar, əsasən, idxal ixrac prosesinin tənzimlənməsi, aqrar işçilərin iş şəraitinin yaxşılaşdırılması, məskunlaşma və digər sosial məsələlərin həlli, bank-kredit, vergi-gömrük işinin təşkili, kadr hazırlığı və s. məsələlərə həsr olunmuşdur.

AXC-nin maliyyə siyasətinin mühüm tərkib hissələrindən biri də milli pul vahidinin dövriyyəyə buraxılması hesab olunur. Artıq 1918-ci ildən ölkədə "Bakı bondları " - yeni kağız pullar buraxılmağa başlanmışdır. Həmin dövrdə ölkədə bir çox pul vahidlərinin dövriyyədə olması bu sahədə bir sıra çətinliklərər səbəb olmuşdur ki, məhz bu səbəbdən hökumətin bu sahədəki fəaliyyəti ilk növbədə əhalinin həyat səviyyəsinin aşağı düşməsinin qarşısının alınmasına yönəldilmiş və dövriyyəyə müstəqil dövlətin pul vahidi buraxılmışdır. Beləliklə, aparılmış tarazlaşdırılmış pul - kredit siyasəti nəticəsində dövriyyədə olan pulun emissiyası məhdudlaşdırılmış və əhalinin müflisləşməsinin qarşısı alınmışdır. Ölkədə idxal-ixrac proseslərinin tənzimlənməsi sahəsində də bir sıra tədbirlər görülmüşdür. Belə ki, xarici ticarət sahəsində əsasən üstünlük neft və neft məhsullarının ixracına verilmişdir. AXC-nin mövcudluğu dövründə xarici ticarət əlaqələrinin tənzimlənməsi ilə bağlı bir sıra zəruri tədbirlər həyata keçirilmişdir:ölkədə inflyasiya şəraitinin mövcudluğunu nəzərə alaraq ərzaq-qida məhsullarının bahalanmasının qarşısının alınması üçün gömrük tariflərinin azaldılması; ölkədə yerli əmtəə istehsalı ilə məşğul olan sahibkarların daxili bazarda mövqeyinin gücləndirlməsinə nail olmaq;Rusiya, İran, Qərbi Avropa, Orta Asiya, Ş.Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin artırılmasının təmin edilməsi və s. [1, səh.102].

AXC-də aqrar sahənin inkişafına da xüsusi diqqət yetrilmişdir. İlkin olaraq, parlamentdə aqrar məsələlər ilə bağlı komissiya yaradılmış, xüsusi mülkiyyətdə olan xəzinə torpaqları geri qaytarılmışdır. Torpaq məsələləri ilə bağlı Torpaq komitəsi yaradılmışdır. Bundan əlavə bu sahədə fəaliyyəti tənzimləmək məqsədilə 29 maddədən ibarət qanun layihəsi hazırlanmışdır. Hazırlanan qanun "Azərbaycan" qəzeti vasitəsilə nəşr olunaraq əhalinin ümumi müzakirəsinə təqdim olunmuşdur. Bu qanuna görə kəndlilərə torpaq almaq üçün güzəştli kreditlər verilməsi, torpağın pulla alınıb torpaqsız kəndlilərə verilməsi, torpağa mülkiyyət hüququnun saxlanılması təmin olunmalı idi. AXC-də bütün regionlar üzrə kənd təsərrüfatının inkişafının təmini məqsədilə Aqrar Bank yaradılmışdır.

Həmçinin AXC dövründə Əkinçilik Nazirliyində aqrar islahat şöbəsi, ölkə Parlamentində aqrar islahat komissiyasının yaradılması məhz aqrar sahənin mütəmadi inkişafını təmin etmək məqsədi daşıyırdı. Aqrar islahat komissiyası 1919-cu il fevralın 4 - də yaradılmış, 1920-ci il aprelin 21-dək fəaliyyət göstərmişdir. Mövcud olduğu dövr ərzində bu komissiyanın 25 iclası olmuşdur ki, burada da əsasən aqrar problemlərin həlli yolları nəzərdən keçirilmişdir. Ümumiyyətlə, hökumətin iqtisadi platformasının həyata keçirdiyi tədbirlər əsasən mülkiyyət azadlığı, dövlət, xüsusi, səhmdar və bələdiyyə mülkiyyətinin inkişafının təmini ilə bağlı idi. Bundan başqa AXC-nin Parlamenti 1918-ci ilin oktyabr ayında neft sənayesi müəssisələrinin yenidən öz sahiblərinə qaytarılması barədə qərar, yük gəmi nəqliyyat vasitələrinin öz sahiblərinə qaytarılması haqqında isə dekret qəbul etmişdir [3, səh.8].

AXC yalnız xarici-iqtisadi siyasət sahəsində həm qanunların hazırlanması, eləcə də, bu qanunların reallaşdırıması istiqamətində də ciddi işlər görmüşdür. Xarici ölkələrlə ticarət dövriyyəsini yüksəltmək məqsədilə 20 milyon manatlıq fond yaratmışdır. Belə ki, hökumətin 12 fevral 1919-cu il tarixli qərarı ilə bu fonddan ilkin ehtiyatlar üçün 10 milyon manat həcmində kredit ayrılmışdır.

AXC hökuməti gömrük sahəsinə də diqqət yetirmişdir. 1918 ci il 22 iyunda “Poylu stansiyasında sərhəd postunun yaradılması haqqında” qərar qəbul etmişdir. Qısa müddətdə gömrük sistemi yaradılmış, müvafiq gömrük rüsumlarının miqdarı və siyahısı təsdiq edilmişdir. 21 oktyabr 1918-ci ildə qüvvəyə minən “Müvəqqəti Tarifə görə, 57 ixrac malına gömrük rüsumu tətbiq edilmişdir. 1919-cu ilin birinci yarısında AXCnin gömrük müəssisələrindən yığılan vergi və rüsumlarla (12,8 mln. manat) 1920-ci ilin son aylarını nəzərdən keçirsək (96,9 mln. manat), görülmüş işlər nəticəsində gömrük rüsumları və vergi daxilolmalarında 6,6 faiz artım olduğunu görərik [1, səh.102].

Ümumiyyətlə, cəmi 23 ay ərzində fəailyyət göstərməsinə baxmayaraq, AXC müstəqil bir dövlətin həyata keçirməyə çalışdığı əksər uğurlara imza atmış, özünü dünya miqyasında tanıtmışdır və bizə ən gözəl yadigarı-dövlətçilik ənənələrini miras qoymuşdur. Bugünki Azərbaycan məhz dünənki AXC-nin mirasıdır.

***Ədəbiyyat siyahısı:***

1.*Abdullayev K. "Azərbaycan Xalq cümhuriyyəti dövründə həyata keçirilən iqtisadi siyasətin əsas xüsusiyyətləri" məqaləsi ("Elm və İnnovativ Texnologiyalar" Beynəlxalq Elmi Araşdırmalar Jurnalı,15 noyabr, 2018 ,101 s.*
*2.Atakişiyev R. "Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi inkişaf yolu" məqaləsi ("Xalq" qəzeti, 27 may, 2018 səh.9)*
*3.Musayev A. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platforması. "İqtisadiyyat" qəzeti, 7-13 iyun, 2018, səh. 8*

# ƏSRİN QƏLƏBƏSİ – "QARABAĞ ZƏFƏRİ"NƏ HAZIRLIQ

**Nurəli Məmmədov**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin III kurs tələbəsi*
*(TEC-in sədri)*
*mammadovn2003@gmail.com*

***Açar sözlər:*** *dəmir yumruq, 44 gün, Qarabağ, zəfər günü, anım günü, dirçəliş*

Müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafını bir-birindən fərqlənən iki dövrə bölmək olar:

I dövr. 1991-1993-cü illər. Siyasi-iqtisadi vəziyyət kəskin pisləşir, iqtisadi tənəzzül güclənirdi.

II dövr. 1993-cü ildən sonrakı mərhələ. Bu dövrdə iqtisadi tənəzzülün qarşısı alınmış, ümumi daxili məhsul, investisiya qoyuluşu artmış, respublika iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya prosesləri başlamış və ölkə yeni inkişaf mərhələsinə daxil olmuşdur.

1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft strategiyasının əsas mahiyyəti Xəzər dənizinin Azərbaycan sektorundakı neft ehtiyatlarının qabaqcıl Qərb texnologiyası və investisiya imkanlarından istifadə etməklə dövriyyəyə buraxılması, təhlükəsiz yollarla dünya bazarına çıxarılması, satışından əldə edilən vəsaitlə ölkənin digər sahələrinin, qeyri-neft sektorunun inkişafına nail olmaq idi.

Prezidenti Heydər Əliyevin 1994-2003-cü illər iqtisadi strategiyasının əsas tezisləri ölkə büdcəsinə 20 il ərzində 200mld. dollar vəsait cəlb etmək, Xəzərin hüquqi statusunun müəyyənləşməsi prosesinə müsbət təsir göstərən fəaliyyət, iqtisadi və siyasi stabilliyin yaradılması, xammal ehtiyatlarındanmüstəqil istifadə etmək üçün şərait yaradılması, qeyri-neft sektorunun inkişafına təkan verilməsi, ölkənin xammal istehsal edən ölkədən tədricən sənaye məhsulları istehsal edən ölkəyə çevrilməsi məsələlərindən ibarət idi. 1993-2003 və ondan sonrakı illərdə həyata keçirilən tədbirlər maliyyə-kredit böhranını da aradan qaldırdı, inflyasiyanı sabitləşdirdi, büdcə, xəzinə, xarici investisiya qoyuluşu və maliyyə-kredit problemlərini həll etdi. 2005-ci ildə manatın denominasiyası haqqında fərman imzalandı, xəzinəyə iki milyard ABŞ dollarından artıq pul toplandı, neft gəlirlərinin vahid fonda yığılması və istifadəsi strategiyası müəyyən edildi [3]. Azərbaycan Respublikası müasir dövrdə özünün mövcud resurslarından xalqın rifahı naminə səmərəli istifadə etmək üçünqərb ölkələrinin təmsil olunduğu Avropa birliyi sisteminə iqtisadi, mədəni, sosial sahədə inteqrasiyasına mühüm əhəmiyyət verir. Azərbaycanın iqtisadi və xarici siyasətinin əsas istiqamətlərindən biri də Avropa İttifaqı və bütün digər beynəlxalq maliyyə strukturları, Dünya bankı, Beynəlxalq Valyuta Fondu, Dünya Ticarət Təşkilatı, Avropa Yenidənqurma və inkişaf Bankı kimi qurumlarla əməkdaşlıqdır.

Azərbaycan dövlətinin xarici siyasətdəki əsas vəzifələrini ölkənin müstəqilliyini, suverenliyini beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü qorumaq, onun təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirmək, Azərbaycanın bütün beynəlxalq və regional təşkilatlarda təmsil olunması, böyük dünya siyasətinə qatılması, dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əməkdaşlıq əlaqələri yaratmaq, bu əlaqələrdən respublika iqtisadiyyatının, elminin və mədəniyyətinin inkişafında istifadə etmək, ölkənin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, müstəqil daxili və xarici siyasət yeridilməsi üçün əlverişli beynəlxalq şəraitin yaradılmasına nail olmaq, regionda gərginliyin aradan qaldırılması və mehriban qonşuluq münasibətlərinə çalışmaq, Azərbaycana xarici təzyiqlərin qarşısını alan beynəlxalq himayə mexanizminin yaradılması, dövlətin bütün beynəlxalq, regional, iqtisadi, elmi-texniki, mədəni və s. təşkilatlarda fəal iştirakına səy göstərmək, xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr və informasiya mübadiləsi mexanizmlərini yaratmaq və s. təşkil edir. Bu gün Azərbaycan BMT, ATƏT, Avropa Birliyi, NATO, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropa Şurası ilə sıx əməkdaşlıq edir [2]. Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti Dağlıq Qarabağda erməni separatizmi və Ermənistanın hərbi təcavüzü şəraitində həyata keçirilirdi. Bu baxımdan təcavüzün və millətçi separatizmin qarşısını almaq, onların ağır nəticələrini aradan qaldırmaq, dövlətin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünya birliyi ilə iqtisadi və siyasi inteqrasiyaya girmək zərurəti fəal xarici siyasət həyata keçirilməsini tələb edirdi. Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizama salınması Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü ildən başlayaraq xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Heydər Əliyev münaqişənin aradan qaldırılması üçün ən yüksək səviyyədə dövlət başçıları ilə görüşlərdə, ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, beynəlxalq forumlarda, həmçinin Ermənistan prezidenti ilə birbaşa danışıqlarda Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaqla öz mövqeyini nümayiş etdirmişdir [1]. Ulu öndərin varisi ali baş komandan, Cənab İlham Əliyev də bu siyasətə, bu ənənələrə sadiq qalaraq münaqişənin dinc yolla həll olunmasında qətiyyətlə mübarizə aparmışdır. Ermənistanın Azərbaycan ərazilərinin işğalı ilə bağlı olaraq BMT Təhlükəsizlik Şurası 7 bəyanat və 4 qətnamə qəbul etmişdir ki, bütün bunların bir əhəmiyyəti qalmamış və 44 gün ərzində rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçmişlər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edilmişdir.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da, Ermənistan öz məğlubiyyətini etiraf etmişdir. 2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı ilə

müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 02.12.2020-ci il tarixli Sərəncamları ilə sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü, noyabrın 8-i Zəfər Günü kimi təsis edilmişdir.

***Ədəbiyyat siyahısı:***

1. *44 gün sürən Vətən müharibəsi (II Qarabağ müharibəsi) / https://genprosecutor.gov.az/az/page /azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi*
*2. Beynəlxalq əməkdaşlıq /https://supremecourt.gov.az/static/view/7*
*3.Regionların inkişafına dair dövlət proqramları /https:// azerbaijan.az/related-information/276*

# QARABAĞIN MADDİ İRSİNİN BƏRPASI

**Çimnaz Abdullayeva**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin IV kurs tələbəsi (TEC)*
*cimnazabdullayeva98@gmail.com*

***Açar sözlər:*** *Ağıllı kənd, Böyük Qayıdış, Şuşa şəhəri, müasir texnologiya, Realnı məktəb, müasir infrastrukur.*

Qarabağın xüsusəndə Şuşanın yüksək səviyyədə bərpa və hərtərəfli inkişafı Azərbaycanın turizm sektorunun ən gözəl məkanına çevrilmək imkanları daha böyükdür. Dağlıq Qarabağ müharibəsi dövründə Şuşanın o cümlədən Ağdamın ümumiyyətlə Qarabağın infrastrukturunun erməni vandalları tərəfindən dağıdılması nəticəsində Şuşadakı maddi mədəniyyət nümunələrini o cümlədən "Yuxarı Gövhər ağa", "Aşağı Gövhər ağa", və Bülbülün ev muzeyi və digər onlarca tarixi əhəmiyyətli abidələrimizə ziyan dəymişdir. Qarabağda, Ağdamda infrastrukturun tamamilə məhv edilmiş və Ağdam "Ruhlar şəhəri" adlandırılır [4, s.3].

Bir vaxtlar erməni tapdağında olan "Azərbaycan musiqisinin beşiyi", "Şərqin konservatoriyası" adlandırılan Şuşamız artıq azaddır. Şuşanın Azərbaycan xalqı üçün mənəvi dəyərinin necə böyük olduğunu cənab Prezident öz çıxışında dəfələrlə vurğulamışdır. Şuşa xalqımız üçün tarixi, mədəni, mənəvi əhəmiyyəti olduqca böyükdür. Şuşanın işğalı zamanı 25 məktəbi, 31 kitabxanası, 20 səhiyyə müəssiəsi, 17 klub, 8 mədəniyyət evi 4 texnikom, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatr, Zaqafqaziya məkanında "Mədəniyyət beşiyi" hesab edilən Şuşa bu adı əbəs yerə qazanmayıb. Zaqafqaziya məktəblərinin 1829 – cu il nizamnaməsinə əsasən 1830 – cu ildə Şuşada Cənubi Qafqazın dünyəvi təhsil verən ilk qəza məktəbi fəaliyyətə başlayıb .Gövhəriyyəmədrəsəsi isə Şuşa şəhərində Gövhər ağa məscidinin nəzdində fəaliyyət göstərən 1864 - cü ildə Gövhər ağanın vəqf gəliri hesabına 175 min manat qızıl pul xərcləyərək Böyük Cümə məscidini əsaslı surətdə bərpa etdirdikdən sonra hücrələrdən birini mədrəsə üçün ayırıb. Burada oxuyan yoxsul uşaqların hamısı onun hesabına təhsil aldığı üçün el arasında "Gövhəriyyə" məktəbi də adlandırılırdı [3, s.3].

Şuşa realnı məktəbi də ermənilər tərəfindən məhv edilmişdir. Bu təhsil ocağının müasir standartlara cavab verəcək şəkildə bərpası haqqında cənab Prezidentin 20 May 2022- ci il tarixli Sərəncamı olduqca qürurvericidir. Çünki Şuşanın gələcək təhsil sisteminin inkişafında bu təhsil ocağının əhəmiyyəti olduqca böyükdür.

Günümüzdə erməni vandalizminə məruz qalan tarixi memarlıq abidələrinin bərpa edilməsi mərhələli şəkildə davam edir. İşğal zamanı məscidlərin çoxu Bunların sırasına "Yuxarı Gövhər ağa" (1874- 1875), "Aşağı Gövhər ağa" (1883- 1884), "Saatlı" məscidi ermənilər tərəfindən məhv edilmişdir [4, s.3].

Şuşadakı evlərin çoxu ”Arran“ memarlıq məktəbinin izlərini daşıdığı üçün unikal sənət nümunələri hesab edilir. Şəhərin cənub tərəfində Cıdır düzü yerləşir [1, s.23]. Şuşa azad edildikdən sonra 2021-ci ilin may ayında uzun illərdən sonra yenidən “Xarı bülbül“ festivalı keçirilmişdir.

Şuşa şəhərinin memarlıq siması üçün şəhərin yerləşdiyi ərazinin relyefi xüsusi rol oynayır. Bu baxımdan Şuşa şəhəri tamamilə fərqli xüsusiyyətlərə malikdir. Öz coğrafi mövqeyinə, təbii və tarixi xüsusiyyətlərinə görə Şuşa yalnız Azərbaycanda deyil dünyada az təsadüf oluna bilən şəhərdir. Buna görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşanı Azərbaycan mədəniyyətinin paytaxtı elan edib. Həmçinin 2023-cü il də Türk dünyasının mədəniyyət paytaxtı elan edilib.

Ermənilər tərəfindən güllələnmiş Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri geri gətirildi və mərkəzi meydana qoyuldu. Üzeyir Hacıbəylinin abidəsi yenidən hazırlandı. Bülbülün ev muzeyi təmir edildi. Üç məsciddə təmir bərpa işləri görüldü. Yuxarı Gövhərağa məscidinin təmiri sona çatdırıldı. Şəhərin baş planına əsasən birinci mərhələdə üç, dörd, beşmərtəbəli 25 yaşayış binasının  inşası nəzərdə tutulub. Bütün bunlar cənab Prezidentin mədəniyyətimizə göstərdiyi qayğının bariz nümunəsidir. Şuşada görülən abadlıq işlərinin güzgüsüdür. “Xarıbülbül” festivalı” və “Vaqif Poeziya Günləri” mədəni həyatın bərpasında uğurlu bir bünövrə gözəl başlanğıc kimi çıxış edir və Şuşada gələcəkdə dünya əhəmiyyətli tədbirlərin keçirilməsi üçün  əlverişli şərait yaradır.

Qarabağ hər zaman istər keçmişdə, istərsə də bu gün və gələcəkdə də hər zaman Azərbaycanın şah damarı hesab ediləcək. Azərbaycan xalqı öz ata - baba torpaqlarında əbədi yaşayacaq - yaradacaq.

### *Ədəbiyyat siyahısı:*

1. *Azərbaycan memarlıq abidələri bərpası məsələləri. Az SSR EA Memarlıq və İncəsənət İnstitutu red. M.Hüseynov, L.Bretaniskiy, Aftoreferat, Bakı. Az SSR EA 1960, 32 s.*
2. *Avalov E. Şuşa şəhərinin memarlığı və onun tarixi simasının mühafizəsi problemləri /ElturanAvalov – Bakı: Elm, 1977*
3. *Azərbaycan məktəbi jurnalı. 2022, N2, s.8*
4. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. Şuşa- https://files.preslib.az/projects/shusha/az/b8.pdf*

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASININ 105-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ**

# MÜSƏLMAN ŞƏRQİNİN İLK CÜMHURİYYƏTİ

**RESPUBLİKA ELMİ KONFRANSININ (25-26 may 2023-cü il)**

**MATERİALLARI**

**Redaktorlar:** Asəf Hacıyev
Ulduz Paşayeva
Nigarxanım Qasımova
Bircə Bayramova
Murad Əsədov


Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Operatorlar: Həmidə Bağırova, Nurdan Məmmədova

---

Yığılmağa verilmişdir: 25.10.2023
Çapa imzalanmışdır: 12.12.2023
Format: 70×100 1/8; şərti çap vərəqi 26
Sifariş № 959; tiraj 100 nüsxə
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69
e-mail: fuyuzat2020@gmail.com